İLHAM

ƏLİYEV

# İNKİŞAF–
# MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## OTUZ BİRİNCİ KİTAB

## İYUN 2008 - AVQUST 2008

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR ✵ NİTQLƏR

BƏYANATLAR ✵ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✵ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının xarici ölkələrə rəsmi səfərləri, Azərbaycana gələn dövlət və hökumət başçıları ilə görüşəri, çıxış və nitqləri öz əksini tapmışdır.

Bakıya rəsmi səfərə gəlmiş Rusiya prezidenti Dmitri Medvedev, Ukrayna prezidenti Viktor Yuşşenko ilə keçirdiyi görüşlərə, danışıqlara, həmçinin MDB ölkələri dövlət başçılarının Sankt-Peterburqda, GUAM ölkələri dövlət başçılarının Batumidə keçirilən zirvə görüşləri və Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlqoyma mərasimində iştirakına dair material toplanmışdır.

Bu clddə, eyni zamanda ölkəmizə gəlmiş mədəniyyət xadimləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri dərc olunmuşdur.

**ISBN 978-9952-8100-7-3**

Ə **0801000000** / **M – 651(07) – 2016**

**BBK - 32**

© Azərnəşr, 2016

## BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İNVESTİSİYALAR NAZİRİ DİQBİ CONS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Böyük Britaniyanın Ticarət və İnvestisiyalar naziri Diqbi Consu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, Britaniya şirkətlərinin uzun illərdir Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində səmərəli fəaliyyət göstərdiyi vurğulandı. Söhbət zamanı Bakıda keçirilən XV Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətinə toxunuldu və bildirildi ki, bu tədbir regional və beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyətə malikdir.*

# İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ƏLİRZA ŞEYX ƏTTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də İran İslam Respublikası Xarici İşlər nazirinin müavini Əlirza Şeyx Əttarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla İran arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# «STATOYL HYDRO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU HELGE LİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Norveçin «Statoyl Hydro» şirkətinin Baş icraçı direktoru Helge Linqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Norveçin Statoyl şirkəti arasında uzun illər davam edən səmərəli əməkdaşlıqdan danışıldı. Bakıda keçirilən XV neft-qaz sərgisinin əhəmiyyəti, onun enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsinə xidmət etdiyi vurğulandı. Söhbət zamanı Statoyl şirkəti ilə əməkdaşlığın perspektivləri barədə də fikir mübadiləsi aparıldı.*

# İNTEL ŞİRKƏTİNİN PREZİDENTİ KREYQ BARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında İntel şirkətinin prezidenti Kreyq Baretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Kreyq Baret rəhbərlik etdiyi şirkətlə Azərbaycanın müvafiq qurumları arasında rabitə və informasiya texnologiyalarının sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu söylədi. Qonaq səfərinin Azərbaycanda informasiya texnologiyalarının inkişafı istiqamətində görülən işlərlə və bu sahənin perspektivləri ilə yaxından tanış olmaq üçün yaxşı imkanlar yaratdığını bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə informasiya texnologiyaları sahəsinin inkişaf etdirilməsinin Azərbaycanın ümumi iqtisadi inkişafının prioritet sahələrindən biri olduğunu vurğuladı. Bu baxımdan Azərbaycanın İntel şirkəti ilə əməkdaşlığının gələcək perspektivlərinin müzakirə olunmasının əhəmiyyətli olduğunu bildirdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Rusiyanın dövlət bayramı – Rusiya günü münasibətilə Sizi və bütün Rusiya xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Çox şadam ki, müasir Rusiya demokratik dəyişikliklərin həyata keçirilməsi, qanunçuluq normalarının və hüquqi qaydanın bərqərar olması, iqtisadi və sosial tərəqqi, ölkənin beynəlxalq birlikdə rolunun və nüfuzunun daha da möhkəmlənməsi yolunda uğurla irəliləyir.

Əminəm ki, birgə səylərimiz ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərinin genişlənməsinə və dərinləşməsinə, hərtərəfli əməkdaşlığın sürətli inkişafının təmin edilməsinə, xalqlarımızın və dövlətlərimizin mənafeyi naminə, Qafqazda sülh və təhlükəsizlik naminə Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə yönələcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Rusiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyun 2008-ci il*

**RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiyanın dövlət bayramı – Rusiya günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan ilə Rusiya arasında tarixən yaranmış dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri bu gün keyfiyyətcə yeni xarakter kəsb etmiş, strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Əminəm ki, bizim aramızda yaranmış konstruktiv dialoq, qarşılıqlı anlaşma və etimad şəraiti bundan sonra da ölkələrimizin və xalqlarımızın tərəqqisi naminə, regionda sülhün və sabitliyin təmin edilməsi məqsədilə çoxşaxəli Azərbaycan–Rusiya qarşılıqlı əlaqələrinin hərtərəfli inkişafına kömək edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı və uğurlar, dost Rusiya xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyun 2008-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Portuqaliya günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Portuqaliya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyun 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*5 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan dövlətinin başçısını və onun xanımını hava limanında Sankt-Peterburqun vitse-qubernatoru Aleksandr Vaxmistrov və digər rəsmi şəxslər qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından «Konstantinov» sarayı kompleksində onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ GÖRÜŞÜ

*Sankt-Peterburq, «Konstantinov» sarayı*

*6 iyun 2008-ci il*

**D m i t r i  M e d v e d e v**: Hörmətli İlham Heydər oğlu, Peterburqda yenidən görüşməyimizə şadam. Bizim görüşlərimiz üçün kifayət qədər əsas, çoxlu maraqlı layihələr var, hətta əmtəə dövriyyəsinin özündə də bir sıra göstəricilər yaxşılaşır. Bunlar bəlkə də formal şeylərdir, lakin Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər baxımından onlar da vacibdir. İndi Sizinlə görüşümüz qısa olacaq, lakin ümid edirəm ki, tezliklə biz görüşəcəyik. İyulun əvvəllərində mən sizin ölkəyə, Bakıya qonaq gələ bilərəm və orada biz öz əlaqələrimizlə bağlı bütün məsələlər barədə ətraflı söhbət edərik.

*Azərbaycan prezidenti İlham Əliyev rusiyalı həmkarına təşəkkür edərək dedi:*

– Hörmətli Dmitri Anatolyeviç, görüşümüzə çox şadam. Sizin prezidentliyinizin ilk ilində Azərbaycana rəsmi səfərə gəlmək barədə bizim dəvətimizi qəbul etdiyinizə görə də şadam. Bu bizim ikitərəfli münasibətlərimizin çox mühüm göstəricisidir. Ümid edirəm ki, münasibətlərimiz əvvəllərdə olduğu kimi, bundan sonra da səmərəli olacaqdır. Biz bu istiqamətdə fəal işləyəcəyik. Ölkələrimiz arasında münasibətlər tərəfdaşlıq münasibətləri kimi səciyyələnir, dinamik və müsbət şəkildə inkişaf edir. Bizim əlaqələrimizin formatı çox geniş, gündəlikdəki məsələlər əhatəlidir. Çox şadam ki, biz yüksək sürətlə irəliyə doğru gedirik, regionda fəal qarşılıqlı əlaqə saxlayırıq, ikitərəfli münasibətlərimizdə böyük tərəqqi müşahidə olunur. Bu bizi çox sevindirir.

## MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜ

*Sankt-Peterburq, «Konstantinov» sarayı*

*6 iyun 2008-ci il*

*İyunun 6-da Sankt-Peterburq yaxınlığında – Strelnadakı «Konstantinov» sarayında XII Peterburq Beynəlxalq İqtisadi forumu çərçivəsində MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.*

*Dövlət başçılarının qeyri-rəsmi görüşlərinin keçirilməsi Birliyin təcrübəsində bir ənənəyə çevrilmişdir. İlk belə görüş 2000-ci il avqustun 18-də Yaltada olmuşdu. O vaxtdan bəri 9 qeyri-rəsmi görüş keçirilmişdir. Belə görüşlərin formal gündəliyi olmur və onlarda hər hansı məsələlərə dair qərarlar qəbul edilməsi nəzərdə tutulmur. Yalnız təxirə salınması mümkün olmayan məsələlər istisna təşkil edir.*

*Budəfəki qeyri-rəsmi görüş 2008-ci ildə sayca ikincidir. Fevralın 22-də Moskvada keçirilmiş görüşdə olduğu kimi, indiki görüşdə də MDB-nin üzvü olan bütün ölkələrin prezidentləri iştirak etmişlər.*

*Sankt-Peterburq görüşünün təşəbbüsçüsü Rusiya Federasiyasıdır.*

*Görüş başlanmazdan əvvəl dövlət başçıları xatirə şəkli çəkdirmişlər.*

*Açılışda çıxış edən Birliyin sədri, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev Rusiya və Ermənistanın dövlət başçılarını prezident vəzifəsinə seçilmələri münasibətilə təbrik etmişdir.*

*Rusiya dövlətinin başçısı Dmitri Medvedev görüşdə çıxış edərək, MDB çərçivəsində təhlükəsizliyin təmin edilməsini, humanitar sahədə əməkdaşlığı yüksək qiymətləndirmiş və iqtisadi əlaqələrin genişləndirilməsinin perspektivləri barədə fikirlərini bölüşmüşdür.*

*MDB İcraiyyə Komitəsinin sədri, Birliyin icraçı katibi Sergey Lebedev sammitdə Birliyin iqtisadi inkişaf strategiyasının formalaşdırılması, nəqliyyat sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə iş haqqında məruzə ilə çıxış etmişdir.*

*Görüşdə iqtisadi və humanitar sahələrdə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Sankt-Peterburq*

*6 iyun 2008-ci il*

*İyunun 6-da Sankt-Peterburqda Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Görüşdə ATƏT-in Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk qrupunun həmsədrləri də iştirak etmişlər.*

*Görüşün yekunlarına əsasən iki ölkənin Xarici işlər nazirləri – Elmar Məmmədyarov və Edvard Nalbandyan mətbuat konfransı keçirmişlər. Xarici işlər nazirləri Azərbaycan və Ermənistan prezidentlərinin ilk görüşünü müsbət və konstruktiv hadisə kimi qiymətləndirmişlər.*

*Bildirildi ki, prezidentlər tərəflərin mövqeləri ilə tanış olmuş, Xarici işlər nazirlərinə danışıqlar prosesinin davam etdirilməsi üçün Minsk qrupu ilə əməkdaşlıq etmək barədə təlimat vermişlər.*

*Elmar Məmmədyarov onu da vurğulamışdır ki, Minsk qrupunun vasitəçilik fəaliyyətinin davam etdirilməsi arzusu ifadə olunmuşdur. O bildirmişdir ki, hazırda prezidentlərin və Xarici işlər nazirlərinin iş cədvəli nəzərə alınmaqla, həmsədrlərin regiona növbəti səfərinin vaxtı razılaşdırılır. Gözlənildiyinə görə, bu səfər iyunun axırlarında baş tuta bilər.*

*Elmar Məmmədyarov sonda demişdir ki, qarşılıqlı yanaşmalarla tanış olandan sonra biz tərəflərin mövqelərinin yaxınlaşdırılması üzrə işi davam etdirməliyik.*

*Amerikalı həmsədr Mətyu Brayzə də Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü uğurlu görüş adlandırmışdır.*

*Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakov konkret nəticələr əldə etmək üçün əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildirmişdir.*

## Səfər başa çatdı

*MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sankt-Peterburqa səfəri iyunun 7-də başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Pulkovo hava limanında Rusiyanın yüksək vəzifəli rəsmi şəxsləri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ MÜLKİ MÜDAFİƏ, FÖVQƏLADƏ HALLAR VƏ FƏLAKƏTLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI ÜZRƏ NAZİRİ SERGEY ŞOYQU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Rusiya Federasiyasının Mülki müdafiə, fövqəladə hallar və fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri Sergey Şoyqunu qəbul etmişdir.*

*Sergey Şoyqu Azərbaycan prezidenti ilə ötən görüşündən keçən dövr ərzində Rusiya ilə Azərbaycanın Fövqəladə hallar nazirlikləri arasında əməkdaşlığa dair konkret layihələrin həyata keçirildiyini qeyd etdi və bu istiqamətdə aparılan işlərin əməkdaşlığın daha da genişlənəcəyinə xidmət etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan və Rusiya Fövqəladə hallar nazirliklərinin əməkdaşlığının genişlənməsindən məmnunluğunu vurğuladı, nazirliklər arasında müxtəlif istiqamətlərdə işlərin həyata keçirilməsinin, təcrübə mübadiləsinin aparılmasının qarşılıqlı surətdə faydalı olduğunu bildirdi və bu səfərin də bu sahədə əməkdaşlığın daha da genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB QORDON BRAUNA**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf etməkdədir. Dost ölkələrimizin bir çox sahələrdə müvəffəqiyyətlə həyata keçirdiyi əməkdaşlıq, Britaniya şirkətlərinin Azərbaycanda səmərəli fəaliyyəti, gündən-günə artan əlaqələrimiz bizi sevindirir.

Fürsətdən istifadə edərək, bu günlər Bakıda keçirilən XV Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransı ilə əlaqədar mənə ünvanladığınız səmimi təbrik məktubuna və xoş arzularınıza görə Sizə öz dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı tərəfdaşlıq münasibətlərinin hazırkı yüksək səviyyəsini qoruyub saxlamaq və inkişaf etdirmək üçün bundan sonra da səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2008-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafı bizim üçün böyük əhəmiyyət kəsb edir. Ümidvaram ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq telləri bundan sonra da əlaqələrimizin hərtərəfli genişlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2008-ci il*

## İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLAFUR RAQNAR QRİMSSONA

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–İslandiya münasibətlərinin inkişafı bundan sonra da xalqlarımız arasında dostluq və əməkdaşlığa xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İslandiya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2008-ci il*

## «MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ» MÖVZUSUNDA BEYNƏLXALQ BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi Beynəlxalq Bakı Forumunun öz işinə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza uzun ömür, cansağlığı və uğurlar arzulayıram.

Sizin forumun Şərqlə Qərbin mədəni dəyərlərini özündə cəmləşdirən və əsrlərdən bəri bu sivilizasiyaları tarixi İpək Yolu boyunca körpü kimi birləşdirən Azərbaycanın paytaxtında keçirilməsi rəmzi məna daşıyır. Mədəniyyətlərarası dialoq sahəsində zəngin təcrübəyə malik olan və yüksək tolerantlığı ilə seçilən ölkəmizdə qadınlar daim cəmiyyəti düşündürən problemlərin həlli istiqamətində nəzərəçarpacaq xidmətlər göstərmişlər.

Qadınlar dünya tarixinin hər bir dövründə sülhün, əmin-amanlığın və dinc yanaşı yaşamağın ən böyük təminatçısı olmuşlar. Onlar gələcək nəsillərin maraqlarının müdafiəsi naminə səylərini bu gün də əsirgəmir, beynəlmiləl zəmində ölkələrin və mədəniyyətlərin bir-birini daha yaxşı tanımaları üçün qüvvələrini səfərbər edirlər. Daim əməkdaşlığın tərəfdarı olan qadınlar, sözsüz ki, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinə bundan sonra da öz layiqli töhfələrini verəcəklər.

Sürətlə qloballaşan müasir dünyada sivilizasiyaların dialoqunun intensivləşdirilməsi yolunda siyasətçilərin, alimlərin, din və mədəniyyət xadimlərinin, həmçinin kütləvi informasiya vasitələri nümayəndələrinin qarşısında geniş perspektivlər mövcuddur. Məhz onların məqsədyönlü və rasional

fəaliyyəti nəticəsində bəşəriyyət mədəniyyətlərin qarşıdurması təhlükəsini dəf edərək dialoqun uğurlu nəticələrinə nail ola bilər.

İnanıram ki, Bakı forumu qadınların mədəniyyətlər arasında dialoqda rolunun genişləndirilməsi işinə təkan verəcək və hər birinizin həyatında yaddaqalan hadisəyə çevriləcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyun 2008-ci il*

## XALQ YAZIÇISI İSA HÜSEYNOVA

Hörmətli İsa müəllim!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz bədii söz sənətimizin dəyərli nümunələri olan əsərlərinizlə respublikamızda ədəbi-mədəni mühitin inkişafına sanballı töhfələr vermisiniz. 60 ilə yaxın bir dövrü əhatə edən səmərəli yazıçılıq fəaliyyətiniz ədəbiyyatımızın zəngin ənənələrinin qorunub saxlanması və yaşadılması naminə xidmətin parlaq nümunəsidir. Xalqımızın yaxın-uzaq keçmişinin mənzərələrini dəqiq, inandırıcı boyalarla dolğun əks etdirən povest və romanlarınız ədəbiyyatımızın yeniləşməsində mühüm rol oynamışdır.

Dərin ictimai, tarixi-fəlsəfi məzmunu və əsl vətəndaşlıq mövqeyi ilə səciyyələnən yaradıcılığınız Azərbaycan oxucusunun bədii zövqünün formalaşmasına mühüm təsir göstərmişdir. Sizin yazı üslubunuzda doğma dilimizin poetik imkanları bütün canlılığı və təbiiliyi ilə özünü büruzə verir.

Ssenarileriniz əsasında çəkilən, xalqımızın yetirdiyi Nizami Gəncəvi, İmadəddin Nəsimi və digər qüdrətli şəxsiyyətlərin ömür yolunu canlandıran bədii filmlər tamaşaçılar tərəfindən həmişə böyük rəğbətlə qarşılanmış, mütəxəssislərin yüksək qiymətinə layiq görülmüş və milli kino xəzinəsinə daxil olmuşdur.

Siz əzmlə yazıb-yaradaraq ədəbiyyatımızın zənginləşməsi yolunda xidmətlərinizi əsirgəmirsiniz. İnanıram ki, gənc nəsil bədii fikir tariximizdə özünəməxsus yer tutan yaradıcılığınızdan milli-mənəvi dəyərlərə bağlılıq və əxlaqi saflıq mənbəyi kimi, bundan sonra da çox faydalanacaqdır.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyun 2008-ci il*

## QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

Hörmətli Kurmanbek Saliyeviç!

Dünya şöhrətli yazıçı, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim, Azərbaycan xalqının böyük dostu Çingiz Torekuloviç Aytmatovun vəfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Çingiz Aytmatovun bütün həyat və fəaliyyəti, onun bənzərsiz yaradıcılığı yüksək vətəndaşlıq, mənəviyyat və əxlaqi keyfiyyətlərlə seçilir.

Öz əsərlərində zəmanəsinin ruhunu, reallıqlarını və adətlərini, insanın daxili aləminin bütün gözəlliyini və zənginliyini, onun ətraf aləm və təbiət ilə üzvi əlaqəsini dərindən, inandırıcı və yüksək istedadla əks etdirmiş böyük söz ustadı Çingiz Aytmatovun adı dünya ədəbiyyatının, dünya mədəniyyətinin xəzinəsinə həmişəlik daxil olmuşdur.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, Çingiz Aytmatovun qohumlarına və yaxınlarına, bütün Qırğızıstan xalqına səmimi-qəlbdən başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyun 2008-ci il*

## ÇİNGİZ AYTMATOVUN AİLƏSİNƏ

Əziz Çingiz Torekuloviçin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Dünya şöhrətli yazıçı, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Çingiz Aytmatov bizim xatirəmizdə həmişə Azərbaycanın böyük dostu, qeyri-adi parlaq şəxsiyyət, dərin məzmunlu həyat yolu keçmiş, yüksək vətəndaşlıq, mənəviyyat, tükənməz əməksevərlik və seçdiyi işə sədaqət keyfiyyətləri ilə fərqlənən gözəl insan kimi qalacaqdır.

Bu ağır və əvəzsiz itki ilə əlaqədar sizə səmimi-qəlbdən başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyun 2008-ci il*

# İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*«Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» mövzusunda beynəlxalq forumun əhəmiyyətindən danışan Ekmələddin İhsanoğlu tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına və YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə etdi. O qeyd etdi ki, bu cür tədbirlərin keçirilməsi mədəniyyətlərarası dialoqda və ölkələrin ictimai həyatında qadınların rolunun daha da artırılması işinə xidmət edəcəkdir.*

*Dövlətimizin başçısı «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» mövzusunda beynəlxalq forumun ölkəmizdə keçirilməsini YUNESKO və İSESKO kimi nüfuzlu təşkilatların Azərbaycana olan hörmətinin və bu istiqamətdə ölkəmizdə həyata keçirilən işlərə verilən qiymətin əlaməti kimi dəyərləndirdi. Prezident İlham Əliyev bildirdi ki, bu cür mötəbər tədbirlərin keçirilməsi beynəlxalq əməkdaşlığın daha da genişlənməsi işinə öz töhfəsini verəcəkdir.*

## «SİVİLİZASİYALARIN DİALOQU» DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ, AVROPA ŞURASININ KEÇMİŞ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də «Sivilizasiyaların dialoqu» Dünya İctimai Forumunun Beynəlxalq Əlaqələndirmə Komitəsinin sədri, Avropa Şurasının keçmiş Baş katibi Valter Şvimmeri qəbul etmişdir.*

*Valter Şvimmer Avropa Şurasının Baş katibi vəzifəsində çalışdığı zaman prezident İlham Əliyevlə səmərəli görüşlər keçirdiyini vurğulayaraq Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi, onun həmin dövrdəki fəaliyyətini yüksək qiymətləndirdi. O, «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» mövzusunda beynəlxalq forumun Azərbaycanda keçirilməsinin mühüm əhəmiyyət daşıdığını vurğuladı. Valter Şvimmer həmçinin səfəri zamanı ölkəmizin böyük inkişafına şahid olduğunu da qeyd etdi.*

*Dövlətimizin başçısı ölkəmizdə bütün sahələr üzrə sürətli inkişafa nail olunduğunu, genişmiqyaslı iqtisadi layihələrin uğurla həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq forumun əhəmiyyətindən danışaraq əminliklə qeyd etdi ki, bu cür tədbirlərin keçirilməsi sivilizasiyalararası dialoqa və ölkələrarası əməkdaşlığın inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.*

## SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

Hörmətli cənab Prezident!

Xartum şəhərinin hava limanında sərnişin təyyarəsində baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 iyun 2008-ci il*

## TÜRKİYƏNİN İNŞAAT VƏ ŞƏHƏRSALMA NAZİRİ FARUK NAFİZ ÖZAK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyənin İnşaat və Şəhərsalma naziri Faruk Nafiz Özakı qəbul etmişdir.*

*Faruk Nafiz Özak Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan prezidenti İlham Əliyev ilə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda keçirilən görüşünü xatırladaraq dedi ki, bu görüş Türkiyədə böyük maraqla qarşılanıb və ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələrinin çox yaxşı nümunəsi hesab oluna bilər.*

*Dövlətimizin başçısı Baş nazir Rəcəb Tayyib Ərdoğanla Naxçıvanda keçirdiyi görüşün əhəmiyyətindən danışaraq bildirdi ki, həmin görüş Azərbaycan–Türkiyə əlaqələrinin perspektivlərini və müxtəlif sahələr üzrə birgə layihələri müzakirə etmək baxımından olduqca dəyərli idi. Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev əminliklə bildirdi ki, qonağın Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığa öz töhfəsini verəcəkdir.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İSLAM İNKİŞAF BANKININ PREZİDENTİ, ÖZƏL SEKTORUN İNKİŞAFI ÜZRƏ İSLAM KORPORASİYASI DİREKTORLAR ŞURASININ SƏDRİ ƏHMƏD MƏHƏMMƏD ƏLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də İslam İnkişaf Bankının prezidenti, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının sədri Əhməd Məhəmməd Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İslam İnkişaf Bankının prezidenti, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının sədri Əhməd Məhəmməd Əli nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə təşəkkür etdi. O, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının iclasının təşkilatın mənzil-qərargahının yerləşdiyi Ciddə şəhərində deyil, ilk dəfə olaraq xarici ölkədə, məhz Azərbaycanda keçirilməsini yüksək dəyərləndirdi.*

*Dövlətimizin başçısı Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının növbəti iclasının Bakıda keçirilməsini beynəlxalq iqtisadi qurumlar tərəfindən Azərbaycana göstərilən böyük marağın təzahürü kimi qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycanda qeyri-neft sektorunda, özəl sektorda həyata keçirilən genişmiqyaslı işlərdən danışdı və ölkəmizin Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası ilə əməkdaşlığının Azərbaycanda özəl sektorun daha da inkişaf etdirilməsi işinə xidmət etdiyini bildirdi.*

## BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Böyük Britaniyanın York hersoqu, şahzadə Endryunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

# BELÇİKANIN DÖVLƏT NAZİRİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ, SABİQ BAŞ NAZİR JAN-LUK DEHANE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Belçikanın Dövlət naziri, Avropa Parlamentinin üzvü, sabiq Baş nazir Jan-Luk Dehaneni qəbul etmişdir.*

*Jan-Luk Dehanen Azərbaycana 1998-ci ildə səfər etdiyini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük məmnunluqla xatırlatdı. Qonaq ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün bu səfərin yaxşı imkan yaratdığını qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Belçika arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının genişlənməsi baxımından əhəmiyyətini vurğuladı, ölkəmizin Avropa ailəsinə inteqrasiyası ilə bağlı görülən işlərdən danışdı.*

## ABŞ-ın CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN RƏHBƏRİ FREDERİK STARR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Amerika Birləşmiş Ştatlarının Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun rəhbəri Frederik Starrı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda gedən inkişaf prosesləri, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ JAN-LUİ DÜMONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Fransa–Azərbaycan dostluq qrupunun sədri Jan-Lui Dümonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Fransa–Azərbaycan dostluq qrupunun nümayəndə heyətinin Azərbaycana səfərinin qonaqların ölkəmizlə daha yaxından tanış olmaları üçün yaxşı imkan yaradacağını bildirdi. Nümayəndə heyətinin iştirak edəcəyi Azərbaycan parlamentinin 90 illik yubiley tədbirinə toxunan prezident İlham Əliyev ölkəmizin müstəqillik tarixindən danışdı və hazırda Azərbaycanın bütün sahələrdə böyük inkişafa nail olduğunu vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi və Fransa–Azərbaycan dostluq qrupunun əməkdaşlığımızın daha da genişlənməsi işində öz səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.*

*Nümayəndə heyətinin başçısı Jan-Lui Dümon dostluq qrupunun bu tərkibdə Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O, ölkəmizin siyasi, iqtisadi və enerji sahələrini əhatə edən bir sıra qurumları ilə səmərəli görüşlər keçirdiyini dedi, Azərbaycanın hərtərəfli inkişafı, o cümlədən demokratiyanın təmin olunması istiqamətində böyük işlərin görüldüyünü vurğuladı. Jan-Lui Dümon nümayəndə heyətinin ölkəmizə bu səfərinin əməkdaşlığımızın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ KÖKSAL TOPTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı dost və qardaş ölkə olan Azərbaycanla Türkiyə arasında əlaqələrin bütün sahələrdə uğurla və sürətlə inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dedi ki, ölkələrimiz arasında elə bir sahə yoxdur ki, orada işbirliyi olmasın. İkitərəfli münasibətlərimizdə parlamentlərarası əlaqələrin böyük əhəmiyyət daşıdığını vurğulayan dövlət başçısı qeyd etdi ki, hər iki ölkə parlamentləri istər beynəlxalq təşkilatlar çərçivəsində, istərsə də ikitərəfli formatda çox sıx əməkdaşlıq edir, parlament nümayəndələrinin qarşılıqlı səfərləri və keçirilən vaxtaşırı görüşlər isə bu əlaqələri daha da möhkəmləndirir. Türkiyə Böyük Millət Məclisi nümayəndələrinin Azərbaycan parlamentinin 90 illik yubiley tədbirlərində iştirak etməsinin önəmini qeyd edən prezident İlham Əliyev bu səfərin həm də qonaqlara ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını dedi. Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.*

*Qardaş və dost Azərbaycana ilk dəfə səfər etməsindən böyük məmnunluq hissi keçirdiyini deyən Türkiyə Böyük*

*Millət Məclisinin sədri Köksal Toptan bildirdi ki, biz həqiqətən, xalqınızın ümummilli lideri, böyük öndər Heydər Əliyevin dediyi kimi, «bir millət, iki dövlətik» və Azərbaycanda özümüzü vətəndəki kimi hiss edirik. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində də uğurla inkişaf etdiyini dedi. Ölkəmizə səfəri zamanı Azərbaycan parlamentinin 90 illik yubiley tədbirlərində iştirak edəcəklərini qeyd edən Köksal Toptan səfər zamanı keçirilən görüşlərin ikitərəfli münasibətlərin daha da genişlənməsi baxımından önəmli olduğunu vurğuladı.*

## İRAN İSLAM RESPUBLİKASININ ENERGETİKA NAZİRİ SEYİD PƏRVİZ FƏTTAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də İran İslam Respublikasının Energetika naziri Seyid Pərviz Fəttahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İran İslam Respublikasına sonuncu səfərini məmnunluqla xatırlatdı və bu səfər zamanı keçirilən görüşlərdən ötən dövr ərzində ölkələrimiz arasında iqtisadi sahədə, o cümlədən energetika sahəsində əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev İranın Energetika nazirinin ölkəmizə bu səfərinin də energetika sahəsində əməkdaşlığımızın daha da genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Seyid Pərviz Fəttah İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində aparılan müzakirələrə toxunaraq, bu baxımdan Azərbaycana səfərinin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev İran prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Səudiyyə Ərəbistanının Mədəniyyət və İnformasiya naziri İyad ibn Əmin əl-Mədənini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Mədəniyyət sahəsində əməkdaşlığın vacibliyinə toxunan prezident İlham Əliyev Azərbaycanda «Səudiyyə Ərəbistanı mədəniyyəti günləri»nin keçirilməsinin bu sahədə əlaqələrimizin daha da genişlənməsi işində əhəmiyyətli rol oynayacağını vurğuladı və bu tədbirin xalqımızda Səudiyyə Ərəbistanının tarixi, mədəniyyəti barədə geniş məlumat yaradacağını qeyd etdi. Dövlətimizin başçısı qonağın ölkəmizə bu səfərinin ümumi əlaqələrimizin genişlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*İyad ibn Əmin əl-Mədəni Azərbaycana səfərinin ilk dəqiqələrindən ölkəmizdə, Bakı şəhərində çox böyük inkişafın şahidi olduğunu vurğuladı. O, bu səfərin əhəmiyyətindən danışaraq, ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın genişlənməsi üçün böyük perspektivlərin olduğunu bildirdi.*

## OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Azərbaycanda İnsan hüquqları gününə həsr edilmiş «Qloballaşan dünyada insan hüquqları» mövzusunda Ombudsmanların VI Bakı Beynəlxalq Konfransının keçirilməsi münasibəti ilə Sizi təbrik edirəm, konfransın işinə müvəffəqiyyətlər arzulayıram.

Bu gün dünyamız sürətli dəyişikliklər dövrü yaşayır. Dəyişikliklər həm mədəniyyətdə, həm həyat tərzində və həm də sosial davranışda özünü büruzə verir. Bu isə öz növbəsində cəmiyyətdə mövcud olan hüquq sisteminə və mədəniyyətinə təsir göstərir, hüquq institutlarının təkmilləşməsinə və yenilərinin formalaşdırılmasına təkan verir, bütövlükdə cəmiyyətin inkişafını sürətləndirir.

Minilliyin məqsədlərinə uyğun olaraq insan hüquqlarının müdafiəsi, sosial-iqtisadi problemlərin həlli, qanunun aliliyinin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi demokratik, hüquqi dövlətin başlıca vəzifələridir.

Müasir dünyada özünəməxsus yer tutan, demokratik bəşəri dəyərləri bölüşən və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan dövləti insanların rifah səviyyəsinin, onların cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərir.

Hələ 10 il öncə ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin tərəqqisini məhz «insan meyarı»nın inkişaf etdirilməsində görərək insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənəd olan Milli Dövlət Proqramını təsdiq etmişdir.

Bəşəriyyətin üzləşdiyi yeni çağırışlara cavab olaraq insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni

müstəviyə keçməsi, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulması, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasını ehtiva edən yeni Milli Fəaliyyət Planı 2006-cı ildə qəbul olunmuş və uğurla həyata keçirilir.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün mənfi təsirlərinə baxmayaraq ölkəmiz regionda və dünyada dinamik inkişaf edən dövlət olaraq demokratik islahatları davam etdirir. Bununla yanaşı, Azərbaycan dövləti soyqırımı və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkünün kütləvi şəkildə pozulmuş hüquqlarının bərpa edilməsi, işğal olunmuş torpaqların azad edilməsi üçün sarsılmaz iradəsini və gücünü nümayiş etdirəcəkdir. Ümidvaram ki, ombudsmanlar və beynəlxalq təşkilatların nümayəndələri bu məsələlərə xüsusi diqqət yetirəcəklər və biz birlikdə insanların pozulmuş hüquqlarının bərpasına nail olacağıq.

Azərbaycan insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sistemin fəal üzvüdür və demokratiya sahəsində etibarlı tərəfdaşlıq münasibətlərini inkişaf etdirir.

Əminəm ki, Ombudsmanların VI Bakı Beynəlxalq Konfransı insan hüquqlarının səmərəli təmin olunmasına öz töhfəsini verəcək, bu sahədə beynəlxalq əməkdaşlığı daha da gücləndirəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2008-ci il*

# OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Ombudsmanların VI Bakı Beynəlxalq Konfransının iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli qonaqlar, mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bildiyiniz kimi, bu gün Azərbaycanda insan hüquqları günü qeyd edilir. Mən bir il bundan əvvəl insan hüquqları gününün təsis edilməsi haqqında müvafiq sərəncam imzalamışam. Çox şadam ki, bu gün də Bakıda ombudsmanların, insan hüquqları üzrə müvəkkillərin iştirakı ilə çox vacib beynəlxalq konfrans keçirilir. Mən əminəm ki, müzakirələr çox maraqlı keçir və qəbul edilmiş qərarlar sizin aranızda əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir. Konfransda iştirak edən nümayəndələr bu sahədə böyük təcrübəyə malik olan ölkələri təmsil edirlər. Eyni zamanda, o qədər də böyük ənənələrə malik olmayan ölkələr də bu konfransda iştirak edirlər.

Azərbaycanda ombudsman təsisatı 6 il bundan əvvəl yaradılmışdır. Biz bu baxımdan inkişafın hələ ki, ilkin mərhələsindəyik. Amma deyə bilərəm ki, bu qısa müddət ərzində Azərbaycanda bu sahədə çox böyük işlər görülübdür. Azərbaycan insan hüquqlarını təmin edən müxtəlif beynəlxalq sazişlərə, konvensiyalara qoşulmuşdur. Biz beynəlxalq təşkilatlarla bu sahədə çox uğurlu əməkdaşlıq edirik. Ombudsman təsisatının yaradılması və insanların bu quruma inamının artması, əlbəttə, Azərbaycanda insan hüquqlarının müdafiə olunmasında çox mühüm rol oynayır. Mən hesab

edirəm ki, konfransda səslənən fikirlər və bütövlükdə gedən təcrübə mübadiləsi hər bir iştirakçı üçün çox faydalı olacaqdır.

Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk. Azərbaycanda gənc, müstəqil dövlət kimi, son 17 il ərzində bu sahədə çox böyük işlər görülübdür və gələcəkdə də hələ çox işlər görülməlidir. Əlbəttə, çox vacibdir ki, bu sahədə həm beynəlxalq təşkilatlar tərəfindən, həm də bu sahə ilə bilavasitə məşğul olan qurumlar tərəfindən vahid meyarlar tətbiq olunsun.

Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda siyasi, iqtisadi, sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik. Amma onu da qeyd etmək istəyirəm ki, Azərbaycan əhalisinin kifayət qədər böyük hissəsi bütün insan hüquqlarından məhrum edilibdir. Onların insan hüquqları kobudcasına tapdalanıbdır. Mən Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində öz doğma yerlərindən didərgin düşmüş bizim soydaşlarımız haqqında söhbət açıram.

Bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü etnik təmizləmə siyasəti ilə tamamlanmışdır və bir milyon soydaşımız qaçqın-köçkün vəziyyətində yaşayır. Onların əsas və elementar insan hüquqları pozulubdur. Onların yaşadıqları bölgələrdə hər şey dağıdılıb və bütün infrastruktur, binalar yerlə yeksan edilibdir. İşğal olunmuş ərazilərdə bizim bütün tarixi abidələrimiz dağıdılmışdır. Əfsuslar olsun, baxmayaraq ki, uzun illər danışıqlar gedir, amma heç bir nəticə yoxdur. Biz məsələnin ədalətli şəkildə və beynəlxalq hüquq normaları əsasında həll olunmasının tərəfdarıyıq, bunu tələb edirik. Ümid edirik ki, beynəlxalq ictimaiyyət bu məsələyə daha da diqqətlə yanaşacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və etnik təmizləmə siyasətindən əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Əminəm ki, biz buna nail

olsaq, bu bölgədə sülh, əmin-amanlıq tam şəkildə bərqərar olunacaqdır.

Əziz qonaqlar, mən sizi bir daha salamlayıram. Mən əminəm ki, konfrans və onun nəticələri çox müsbət və uğurlu olacaqdır. Sizin aranızdakı münasibətlər daha da güclənəcək və əməkdaşlıq daha da inkişaf edəcəkdir.

*YUNESKO-nun İnsan hüquqları və ayrı-seçkiliyə qarşı mübarizə şöbəsinin rəhbəri* ***Sergey Lazarev*** *Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması sahəsində görülən işləri yüksək qiymətləndirərək dedi:*

– İş gününüzün gərgin cədvəlinə baxmayaraq, bizimlə görüşməyə vaxt tapdığınıza və həyata keçirəcəyiniz planlar barədə söhbət etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Mən belə hesab edirəm ki, indi iqtidarın hüquq müdafiəçilərini qəbul etməsi faktı çox müsbət haldır. Mən burada YUNESKO-nu təmsil edirəm və bu sahədə bizim də iş təcrübəmiz var. İqtidar hüquq müdafiəçilərindən uzaq olmağa çalışır, çünki onlar iqtidarı bezdirir, ona mane olur, onu narahat edirlər, amma onlarsız da ötüşmək mümkün deyil, çünki insanları daha xoşbəxt, daha səmimi edən, hər kəsin inkişaf etməsinə imkan verən vətəndaş cəmiyyətinin yaradılmasına yalnız hüquq müdafiəçiləri kömək edə bilər. Mənə belə gəlir ki, bu baxımdan Azərbaycan fərqli bir ölkədir.

Mənim fikrimcə, burada çox əlverişli şərait yaradılmışdır. Bilirsinizmi nə üçün? Mən bunu izah edərəm. Əgər prezident hüquq müdafiəçilərini qəbul edirsə, ombudsman Elmira xanımdırsa, məncə bu faktlar cəmiyyətin həqiqətən inkişaf etməsi, vətəndaşların daha xoşbəxt olması üçün əsasdır.

Bir daha çox sağ olun. Zənnimcə, əgər biz – insan hüquqlarının müdafiəsi üzrə ofis, YUNESKO və Azərbaycan arasında mövcud əməkdaşlığı qoruyub saxlasaq, bu həmin istiqamətdə işin uğur qazanmasının rəhni olacaq.

**İlham Əliyev:** Sağ olun. Mən qeyd etmək istəyirəm ki, siz – hüquq müdafiəçiləri çox nəcib bir missiyanı yerinə

yetirirsiniz. Siz insanların hüquqlarını müdafiə edirsiniz. Bu, müdafiə edilməli olan ən vacib dəyərdir. Dünyada, dünyanın müxtəlif yerlərində, demək olar ki, hər bir ölkədə insan hüquqları pozulur, sadəcə olaraq, bu, müxtəlif formalarda baş verir. Bəzi yerlərdə bu pozuntular insanların sıxışdırılmasına aiddir, bəzi yerlərdə separatizm siyasətinə əsaslanır, haradasa qan axıdılması, müharibələr, işğal ilə başa çatır, haradasa daha yüngül formada baş verir. Amma hər halda, bu bizim hamımız üçün ümumi problemdir.

Təbii ki, hər bir ölkədə bu problem diqqət mərkəzində olmalıdır. Əvvəllər bizdə, ümumiyyətlə siyasi sistem olmadığı kimi, bu sahədə də təcrübə yox idi. Keçmiş SSRİ ölkələri yalnız 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra siyasi təsisatlar, siyasi sistem, çoxpartiyalı sistem, azad kütləvi informasiya vasitələri yaratmağa başladılar. Bu proses hər bir ölkədə müxtəlif formada gedir. Haradasa nəticələr çox, haradasa azdır, lakin bütövlükdə bu proses labüddür. Biz Azərbaycanda beynəlxalq birliyə fəal inteqrasiya siyasətini həyata keçiririk. Təbii ki, inkişaf etmiş demokratik dövlətləri səciyyələndirən bütün ən mühüm baza meyarları Azərbaycanda da tətbiq edilməlidir. Biz bu istiqamətdə də böyük iş aparırıq, beynəlxalq təşkilatlarla fəal işləyirik, bəzən tənqidə məruz qalırıq. Bu tənqid bəzən ədalətli, bəzən qərəzli olur. Tənqid ədalətli olanda biz buna yalnız sevinirik. Çünki bu, nöqsanları düzəltməyə, vəziyyəti yaxşılaşdırmağa imkan verir. Tənqid qərəzli olanda isə, əlbəttə, bizə mənfi təsir göstərir. Ona görə ki, əvvəldə dediyim kimi, meyarlar vahid olmalıdır, ikili standartlara yol verilməməli, hüquq müdafiə fəaliyyətinin, bu və ya digər ölkədə insan hüquqlarının qiymətləndirilməsi məsələsində ögey-doğmalıq olmamalıdır. Əgər bütün bunlara nail olunsa, onda mən əminəm ki, hər bir iqtidar Azərbaycanda bizim etdiyimiz kimi, hüquq müdafiəçiləri ilə görüşməyə şad olacaqdır.

Bizim ölkədə müxtəlif hüquq müdafiə təşkilatları vardır, onlar çox fəaldır, iqtidarı, rəhbərliyi fəal tənqid edirlər. Hesab edirəm ki, hətta onların bəziləri siyasi qüvvələrin təsiri altında

olsalar belə, hərçənd bunu mən, ümumiyyətlə, yolverilməz hesab edirəm, bu, normal haldır. Lakin mən düşünürəm ki, bu, inkişafımızın müvəqqəti mərhələsidir, biz buna da dözərik. Hüquq müdafiə təşkilatları insanların siyasi mənsubiyyətindən asılı olmayaraq, onların hüquqlarının müdafiəsi işi ilə məşğul olmalıdırlar. Əgər biz Azərbaycanda bütün hüquq müdafiə təşkilatlarının yalnız öz vəzifələrini əsas tutmalarına nail ola bilsək, onda heç bir mübahisəli məsələ qalmayacaq. Təəssüf ki, biz hələlik buna tam nail olmamışıq. Lakin güman edirəm ki, biz buna nail olacağıq. Əminəm ki, hər bir normal cəmiyyət üçün, onun inkişafı üçün daimi dialoq – iqtidarla cəmiyyət arasında, iqtidarla hüquq müdafiə fəaliyyəti ilə məşğul olan strukturlar arasında dialoq zəruridir. Biz vətəndaş cəmiyyətinin yaradılmasına və ictimai nəzarətə doğru kifayət qədər sürətlə irəliləyirik. Buna görə də mən istənilən vaxt sizi yenidən burada görməyə şad olaram.

*Polşanın ombudsmanı **Yanuş Koxonovski** sürətlə inkişaf edən Azərbaycanın dünya dövlətlərinin hüquq müvəkkilləri arasında da yaxşı tanındığını bildirərək dedi:*

– Cənab Prezident, çox məşğul olduğunuz bir gündə bizi qəbul etdiyinizə görə, öz həmkarlarım adından Sizə minnətdarlığımı bildirirəm. Biz nəinki belə bir vacib konfransda iştirak etməyimizdən, o cümlədən gözəl ölkənizi görməyimizdən çox məmnunuq. Bu gün biz mərhum atanız, məşhur siyasi xadim Heydər Əliyevin xatirəsini yad etdik. Ombudsman Elmira xanım Süleymanova ilə aparılan əməkdaşlıq sayəsində ölkənizi insan hüquqları müvəkkilləri arasında yaxşı tanıyırlar. Polşanın ombudsmanı kimi, mən ölkələrimiz arasında nəinki tarixdə, o cümlədən hazırkı dövrdə yaxşı və sıx münasibətlərin olduğunu məmnunluqla qeyd etmək istəyirəm. Bir daha sağ olun. Mən Sizə və ölkənizə ən böyük uğurlar arzulayıram.

**İ l h a m Ə l i y e v**: Azərbaycan çox sürətlə inkişaf edir. Ölkədə siyasi-iqtisadi islahatlar aparılır. Biz sosial problemlərə xüsusi diqqət yetiririk. Bu isə insan hüquqlarının qorunması işi üçün də çox vacibdir. Biz yoxsulluğun aradan

qaldırılması üçün beynəlxalq maliyyə qurumları ilə işləyirik. Mən tamamilə əminəm ki, əgər biz bu məsələnin öhdəsindən gəlsək, bu, insan hüquqlarının qorunması sahəsinə ən böyük töhfə ola bilər. Sizə deyə bilərəm ki, burada yaşayan yoxsul insanların sayı son dörd il ərzində 49 faizdən 16 faizə düşmüşdür. Bu rəqəm cari ilin əvvəlində müşahidə olunmuşdur. Sürətli yaxşılaşma onu göstərir ki, bizim islahatlarımız insanların gündəlik həyatında öz əksini tapır.

Bəzən iqtisadi islahatlar ağrılı olur. Bəzi hallarda zəruri hesab edilən islahatlar ölkə daxilində gərginlik və müəyyən çətinlik, eləcə də maliyyə problemləri yaradır. Lakin biz dəyişikliklərdə israrlıyıq və eyni zamanda, çox güclü, sosial siyasət həyata keçiririk. Bir sözlə, Azərbaycanda insanlar ildən-ilə daha yaxşı yaşayırlar. Bu, xüsusən də aşağı gəlirli insanlara aiddir. Hazırda biz yoxsul ailələrə yardım üzrə böyük sosial proqramı həyata keçiririk. Təxminən 100 min ailə bu proqramla əhatə olunur və dövlət onlara aylıq maliyyə yardımı göstərir. Bu yardım onlara yoxsulluqdan daha təkmil mövqeyə doğru addım atmaq imkanlarını açır. Əlbəttə, vaxt keçdikcə Azərbaycanın iqtisadi imkanları və potensialı artacaq, problemləri həll etmək bizim üçün daha asan olacaqdır.

Mən öncə qaçqınların problemlərinə toxundum. Bu bizim üçün böyük sosial və humanitar problemdir. Lakin proqramın uğurla həyata keçirilməsi nəticəsində hazırda biz 10 ildən çox çadır düşərgələrində yaşamış 80 minə yaxın insanı normal evlərə köçürdük. Biz bir çox evlər, məktəb və xəstəxanalar tikirik. Bu məqsədlə xüsusi infrastruktur yaradılıbdır. Lakin bu müvəqqətidir. Çünki bunlar müvəqqəti məskunlaşma yerləri hesab edilir. Torpaqlarımız azad olunarsa, biz həmin şəxslər üçün onların doğma yerlərində normal yaşayış şəraitlərinin təmin edilməsi üçün çoxlu sərmayə qoyacağıq.

Bir daha xoş gəlmisiniz. Çox sağ olun.

## BELARUS NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ VADİM POPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Belarus Nümayəndələr Palatasının sədri Vadim Popovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Belarus Nümayəndələr Palatasının sədri Vadim Popov Belarus prezidenti Aleksandr Lukaşenkonun və Belarusun Baş naziri Sergey Sidorskinin salamlarını dövlətimizin başçısına çatdırdı. Vadim Popov ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, dövlət başçılarının yüksək səviyyəli qarşılıqlı səfərlərinin əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını qeyd etdi. O, ikitərəfli münasibətlərin hüquqi-normativ bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışdı, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev dövlət başçılarının qarşılıqlı səfərlərinə toxunaraq, bu səfərlərin əlaqələrimizin möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı. Dövlətimizin başçısı Belarusa səfərini xatırladaraq, ötən dövr ərzində əlaqələrin daha da inkişaf etdiyini, ikitərəfli münasibətlərin müxtəlif sahələr üzrə daha da genişləndiyini qeyd etdi. Prezident İlham Əliyev Belarus prezidenti Aleksandr Lukaşenkonun və Belarusun Baş naziri Sergey Sidorskinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## QAZAXISTAN SENATININ SƏDRİ QASIM COMƏRD TOKAYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Qazaxıstan Senatının sədri Qasım Comərd Tokayevi qəbul etmişdir.*

*Qasım Comərd Tokayev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə dinamik surətdə inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin daha da genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Həmçinin Ali qanunverici orqanların nümayəndələrinin görüşlərinin vacibliyi qeyd olundu və bildirildi ki, Qazaxıstan Senatının sədrinin bu səfəri Azərbaycan–Qazaxıstan münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.*

*Prezident İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Qazaxıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

# POLŞA SENATININ SƏDRİ BOQDAN BORUSEVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Polşa Senatının sədri Boqdan Boruseviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Polşaya sonuncu səfərini xatırlatdı və bu səfərin münasibətlərimizin daha da genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışan dövlətimizin başçısı belə geniş tərkibdə parlament nümayəndə heyətinin ölkəmizə səfərinin Polşa tərəfinin Azərbaycan–Polşa əlaqələrinə verdiyi önəmin yaxşı nümunəsi olduğunu qeyd etdi.*

*Boqdan Boruseviç ölkələrimiz arasında münasibətlərin durmadan inkişaf etdiyini vurğuladı, Azərbaycan prezidentinin Polşaya uğurlu səfərinin ikitərəfli əlaqələrimizin gələcəkdə daha da genişlənməsi üçün yaxşı əsas yaratdığını dedi.*

# RUMINİYA SENATININ SƏDRİ NİKOLAE VEKEROYUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Rumıniya Senatının sədri Nikolae Vekeroyunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı əlaqələrin mövcud olduğunu bildirdi və bu əlaqələrin daim genişləndiyindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Rumıniya Senatının nümayəndə heyətinin Azərbaycana səfərini ölkələrimiz arasında yüksək səviyyədə münasibətlərin göstəricisi kimi dəyərləndirdi və bu səfərin həm parlamentlərarası əməkdaşlıq, həm də ümumilikdə ikitərəfli əlaqələrin genişlənməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Rumıniyaya sonuncu səfərini məmnunluqla xatırladaraq əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.*

*Nikolae Vekeroyu ilk dəfə Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə etdi və ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin daim genişləndiyini dedi. Rumıniya Senatının sədri hər iki ölkə parlamentarilərinin Rumıniya–Azərbaycan dostluq əlaqələrinin daha da möhkəmlənməsi istiqamətində səylərinin artırılmasının vacibliyini qeyd etdi.*

# GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD BAKRADZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Gürcüstan parlamentinin sədri David Bakradzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı və parlamentlərarası əməkdaşlığın bu işdəki rolu xüsusi qeyd olundu. Azərbaycanla Gürcüstan arasında dövlət başçıları səviyyəsində keçirilən görüşlərin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və eləcə də birgə iqtisadi layihələrin həyata keçirilməsinin iki ölkə arasında münasibətlərin daha da genişlənməsi işinə töhfə verdiyi qeyd olundu.*

## MOLDOVA PARLAMENTİNİN SƏDRİ MARİAN LUPUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Moldova parlamentinin sədri Marian Lupunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Marian Lupu Moldova prezidenti Vladimir Voroninin salamlarını prezident İlham Əliyevə çatdırdı. Qonaq Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Moldova parlamentinin sədri ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini və parlamentlərarası əməkdaşlığın genişləndiyini bildirdi, Moldova ilə Azərbaycan parlamentariləri arasında sıx əməkdaşlığın həyata keçirildiyini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan–Moldova ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın mövcud olduğunu bildirdi və ölkələrimizin bir-birinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın bundan sonra da genişlənəcəyinə və münasibətlərimizin daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Moldova prezidenti Vladimir Voroninin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Moldovanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## FRANSANIN «TOTAL» ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Fransanın «Total» şirkətinin kontinental Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Arno Breyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə son illər Azərbaycanda enerji sahəsində qlobal layihələrin uğurla həyata keçirilməsi məmnunluqla vurğulandı. «Total» şirkəti ilə Azərbaycan arasında səmərəli əməkdaşlığın aparıldığı qeyd olundu və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ**

Hörmətli cənab Prezident!

Cibutinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Cibuti münasibətlərinin inkişafı bundan sonra da ikitərəfli əlaqələrimizin genişlənməsində, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın dərinləşməsində öz ifadəsini tapacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Cibuti xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2008-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEPAN MESİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətin elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Xorvatiya münasibətlərinin hərtərəfli inkişafı, dostluq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi məqsədilə atdığımız addımlar bundan sonra da davamlı xarakter daşıyacaqdır.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2008-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DANİLO TYURKA**

Hörmətli cənab Prezident!

Sloveniyanın milli bayramı – Dövlətçilik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Sloveniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sloveniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2008-ci il*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Lüksemburqun milli bayramı – Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Lüksemburq arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2008-ci il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ARMANDU EMİLİU GEBUZAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mozambik arasındakı münasibətlərin inkişafı daim dostluq əlaqələrimizin və əməkdaşlığımızın genişlənməsinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2008-ci il*

## AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*18 iyun 2008-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli deputatlar, əziz qonaqlar!

Mən sizin hamınızı bu gün bu gözəl gündə ürəkdən salamlayıram. Bütün qonaqlara «Xoş gəlmisiniz!» deyirəm.

Bu gün Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Biz Azərbaycan parlamentinin 90 illik yubileyini təntənəli şəkildə qeyd edirik. Bu, həqiqətən də çox əlamətdar və tarixi hadisə olmuşdur. Biz keçən ay Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyini geniş şəkildə qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında tarixi bir hadisə idi. Çünki ilk dəfə müsəlman aləmində, bütövlükdə Şərqdə demokratik respublika yaranmışdı. Müxtəlif səbəblər nəticəsində respublikanın ömrü uzun olmamış, iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etmiş və Azərbaycan xalqı yenidən müstəqillikdən məhrum edilmişdir.

Biz öz tariximizi yaxşı bilirik və onu da bilirik ki, bu acı tarix keçən əsrin 90-cı illərinin əvvəllərində də təkrarlana bilərdi, daha doğrusu, təkrarlanırdı. Azərbaycan xalqı yenidən müstəqilliyə qovuşanda, Sovet İttifaqının dağılması nəticəsində müstəqil respublika fəaliyyətə başlayanda ölkədə gedən ictimai-siyasi proseslər çox mürəkkəb idi, çox gərgin idi və demək olar ki, gənc dövlətin gələcəyi o qədər də müəyyən deyildi. Çünki həm ölkə daxilində, həm də hüdudlarımızdan kənarda gedən proseslər Azərbaycanı çox ağır vəziyyətə qoymuşdu. Bir tərəfdən, Ermənistanın Azərbay-

cana qarşı elan olunmamış müharibəsi, digər tərəfdən, daxildə yaşanan siyasi və iqtisadi böhran vəziyyəti son dərəcə gərginləşdirmişdi. Bu çətin, ağır şəraitdə Azərbaycan xalqı düzgün seçim etmişdir.

1993-cü ildə Azərbaycan xalqı milli lideri Heydər Əliyevə müraciət edərək, onu yenidən siyasi hakimiyyətə gətirməklə öz müstəqilliyini qoruya bilmişdir. Biz müstəqilliyi qoruduq, möhkəmləndirdik və bu gün Azərbaycan müstəqillik yolu ilə uğurla inkişaf edir. Bütün bu işlərdə Azərbaycan parlamentinin böyük rolu olmuşdur. Çünki yeni Azərbaycanın qurulmasının, müstəqil güclü dövlətin qurulmasının əsası məhz bu binada qoyulmuşdur.

Biz bir neçə gün bundan əvvəl Milli Qurtuluş gününü geniş şəkildə qeyd etdik. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan parlamentinin sədri vəzifəsinə seçiləndən sonra ölkəmizdə vəziyyət müsbətə doğru dəyişilməyə başlamışdır. Xoşagəlməz bütün hadisələrin qarşısı alınmışdır. Qeyri-qanuni silahlı birləşmələr tərk-silah edilmişdir. Azərbaycanda asayiş bərpa olunmuş, beləliklə, hərtərəfli inkişaf üçün çox gözəl şərait yaradılmışdır.

Ondan əvvəl, hələ Azərbaycan müstəqil olmayan dövrdə Naxçıvan Muxtar Respublikasının parlamenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Dövlət bayrağı elan etmişdir. O vaxt Azərbaycan hələ müstəqil deyildi, Sovet İttifaqının tərkibində idi. Ancaq Naxçıvanda tarixi qərarın qəbul olunması bizim müstəqilliyimizi yaxınlaşdırırdı. Bütün başqa həlledici məqamlarda xalqla Heydər Əliyev arasında olan birlik Azərbaycanı bu çətin, ağır şəraitdən şərəflə çıxara bilmişdir.

Bu gün ölkəmiz uğurla inkişaf edir. Azərbaycanda parlamentarizm ənənələri də yaranır. Azərbaycan parlamenti öz beynəlxalq əlaqələrini genişləndirir və bu gün biz bu tədbirdə müxtəlif ölkələrdən gələn qonaqların timsalında bunu görürük. Biz görürük ki, Azərbaycan dünya birliyinə çox sürətlə inteqrasiya edir, Azərbaycanda hakimiyyətin bütün qolları vahid

komanda kimi fəaliyyət göstərir və vahid amal uğrunda birləşibdir. Bu amal ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin, ölkə daha da inkişaf etsin və inkişaf etmiş ölkələrin sıralarına daxil olsun.

Biz bu vəzifəni qarşımıza qoymuşuq və bu çox böyük, məsuliyyətli vəzifədir. Ancaq 10 il, 15 il bundan əvvəl qarşımızda başqa vəzifələr dayanmışdı. O vaxt biz fikirləşirdik ki, Azərbaycanı ağır, çətin vəziyyətdən necə çıxaraq? İqtisadi tənəzzülün qarşısı necə alınmalıdır? Siyasi və iqtisadi islahatlar necə aparılmalıdır? Bütün bunlar bizim üçün yenilik idi. Azərbaycanın qarşısında müxtəlif inkişaf istiqamətləri mövcud idi. Ulu öndər Heydər Əliyevin seçdiyi yol yeganə düzgün yoldur. Bu da ondan ibarətdir ki, Azərbaycan dünya birliyinə sürətlə inteqrasiya etməlidir, Azərbaycanın inkişafı daxili resurslar əsasında təmin olunmalıdır, Azərbaycan öz təbii sərvətlərindən məharətlə istifadə etməlidir və öz milli maraqlarını maksimum dərəcədə möhkəmləndirməlidir. Azərbaycanda çox güclü iqtisadi potensial yaradılmalıdır. Bu gün biz keçmişə nəzər salarkən görürük ki, ölkə qarşısında ən çətin və həlledici məqamlarda duran bütün əsas vəzifələr uğurla icra edilmişdir.

Bu gün Azərbaycan inkişaf dövrünü yaşayır. Bizdə siyasi və iqtisadi islahatlar uğurla həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, Milli Məclisin bu işdəki fəaliyyətini mən çox yüksək qiymətləndirirəm. Azərbaycan bir neçə çox vacib beynəlxalq sazişlərə, konvensiyalara qoşulmuşdur. Mütərəqqi qanunlar qəbul edilir və bu qanunlar Azərbaycanda siyasi sistemin möhkəmlənməsinə və iqtisadi islahatların dərinləşməsinə xidmət göstərir. O da həqiqətdir ki, baxmayaraq, Azərbaycan xalqının çox qədim və zəngin tarixi, mədəniyyəti vardır, Azərbaycanda bundan əvvəl heç vaxt siyasi sistem olmayıb. Biz yalnız müstəqilliyi bərpa edəndən sonra siyasi islahatlara başlamışıq və tarix baxımından çox qısa müddət ərzində bütün lazımi tədbirləri görmüşük. Azərbaycanda siyasi sistem yaradılıb, siyasi təsisatlar yaradılıb və

möhkəmlənib, Azərbaycan beynəlxalq təşkilatlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında əməkdaşlıq edir. Bir daha demək istəyirəm ki, həm iqtisadi sahədə, həm sosial məsələlərin həlli işində, həm də siyasi islahatların dərinləşməsində Milli Məclis tərəfindən qəbul edilmiş qərarlar xüsusi rol oynayır. Mən çox şadam ki, bizim ölkəmizin inkişafı üçün hakimiyyətin bütün qolları öz töhfələrini verir.

Bu gün bizim qarşımızda yeni vəzifələr, yeni çağırışlar dayanır və biz bunlara hazır olmalıyıq. Azərbaycan öz müstəqil siyasətini davam etdirəcəkdir. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına xidmət göstərir, milli maraqlarımızı qoruyur və Azərbaycan əhalisinin rifah halının yaxşılaşmasına xidmət edir. Siyasi proseslərin müsbət istiqamətdə inkişaf etməsi, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, xalqla iqtidar arasında birliyin möhkəmlənməsi – bütün bu amillər ölkəmizin hərtərəfli inkişafı üçün gözəl şərait yaradır.

Sabitlik olmayan yerdə inkişaf mümkün deyil. Eyni zamanda, inkişaf etmiş ölkələrin tarixinə, yaxud da indiki vəziyyətinə nəzər salsaq görərik ki, o ölkələrdə sabitlik mövcuddur. Yəni bu iki amil bir-birini tamamlayır. Mən çox şadam ki, Azərbaycanda biz həm inkişafa nail ola bilmişik, həm də sabitlik çox yüksək səviyyədədir. Əminəm ki, gələcək illərdə biz qarşımıza qoyduğumuz bütün vəzifələrə, hədəflərə çatacağıq.

Biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru uğurla irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir. Biz son dörd il ərzində iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkəyik. Dörd il ərzində Azərbaycanda ümumi daxili məhsul 96 faiz artmışdır ki, bu da analoqu olmayan bir göstəricidir.

Bununla bərabər, Azərbaycanda uğurla həyata keçirilən sosial islahatlar öz müsbət nəticələrini verir. İldən-ilə Azərbaycan xalqı daha da yaxşı yaşayır. Azərbaycan xalqının

rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Son dörd il ərzində 49 faizdən 16 faizə düşən yoxsulluğun səviyyəsi onu göstərir ki, qəbul etdiyimiz bütün qərarlar, apardığımız siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir.

Regionlarda gedən abadlıq-quruculuq işləri, yeni iş yerlərinin açılması və regionların sosial-iqtisadi inkişafına dair beşillik Dövlət Proqramının uğurla icra edilməsi bizim böyük nailiyyətimizdir. Bu gün artıq bölgələrdən mərkəzə miqrasiya meyilləri, demək olar ki, son dərəcə azalıbdır. Bu gün bölgələrdə insanların yaşaması üçün ən müasir infrastruktur yaradılır – istər səhiyyə, istər təhsil, istər nəqliyyat və sair sahələrdə. Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək, təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır. Milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir.

Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, biz öz ana dilimizi saxlaya bilmişik, öz mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edibdir, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər.

Azərbaycan cəmiyyətində bütövlükdə ölkədə aparılan bütün islahatlara böyük rəğbət var. Əgər belə olmasaydı, heç bir islahatın əhəmiyyəti olmazdı. Bəzi hallarda iqtisadi islahatlar, xüsusilə keçid dövründə yaşayan cəmiyyətlərdə iqtisadi islahatlar insanların həyat səviyyəsinin pisləşməsinə gətirib çıxarır. Ancaq Azərbaycanın timsalında biz bunu görmürük. Əgər belə olsaydı, o zaman yoxsulların sayı azalmazdı, artardı. Bizim güclü sosial siyasətimiz uğurlu iqtisadi islahatlara əsaslanır. Çünki biz iqtisadi potensialı yaratmasaq, sosial proqramların həlli üçün imkanımız olmayacaq. Bir də demək istəyirəm ki, biz ancaq öz imkanlarımıza güvənirik. Biz müstəqilliyi bərpa edəndən sonra bu günə qədər ancaq öz hesabımıza, Azərbaycan xalqının zəhməti hesabına bütün bu gözəl nəticələrə çata bilmişik.

Bu gün qürur hissi ilə deyə bilərik ki, son dörd il ərzində Azərbaycanda büdcə xərcləri 10 dəfədən çox artıbdır. Bizim valyuta ehtiyatlarımız artır və ilin sonuna qədər 20 milyard dollara yaxın olmalıdır. Bu bizim üçün böyük üstünlükdür, böyük bir imkandır. Biz bu imkanlardan çox səmərəli şəkildə istifadə etməliyik. Azərbaycanın bütün sahələrini inkişaf etdirməliyik. İqtisadiyyatımızı şaxələndirməliyik ki, uzun illər bundan sonra, onilliklər bundan sonra Azərbaycan xalqı və gələcək nəsillər rahat yaşasın. Gələcək nəsil də vətənpərvərlik ruhunda tərbiyə almalıdır və mən çox şadam ki, bu gün biz bunu görürük.

Gələcək nəsillərin xoşbəxt yaşaması üçün biz indidən lazımi tədbirləri görürük. Mən bir daha parlamentin bu sahədəki rolunu qeyd etmək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan Dövlət Neft Fondu gələcək nəsillərin rahat yaşaması üçün böyük dərəcədə valyuta ehtiyatlarını yığmağa başlamışdır və bu, bir neçə ildən sonra yüz milyardlarla ölçüləcəkdir. Belə olan halda bu imkanlardan, bu resurslardan səmərəli istifadə etmək üçün ən şəffaf mexanizm yaradılmalıdır. Azərbaycan bu şəffaf mexanizmi yarada bilibdir. Neft Fondundan xərclənən hər bir manat, hər bir dollar ancaq

parlamentin razılığı ilə mümkündür. Parlamentin üzvləri büdcəni təsdiq edərkən bu məsələni də həll edirlər. Yəni burada ictimai iştirak və ictimai nəzarət çox güclüdür. Mən bir neçə dəfə bu barədə öz fikirlərimi bildirmişəm, bir də demək istəyirəm ki, çox sürətlə inkişaf edən ölkələrdə, çox böyük dövlət investisiyaları qoyulan bir ölkədə ictimai nəzarət çox güclü olmalıdır.

Biz gələcək haqqında da fikirləşirik və mən əminəm ki, Azərbaycanın gələcəyi çox parlaq olacaqdır. Bizim beynəlxalq əlaqələrimiz möhkəmlənir, yeni müttəfiqlər qazanırıq, bizim xarici siyasətimiz də çox açıqdır, birmənalıdır, çox çevikdir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında öz siyasətimizi qururuq və bu siyasət öz bəhrəsini verməkdədir. Azərbaycan dünyada daha da çox tanınır, Azərbaycana hörmət artır. Azərbaycanın müstəqil siyasəti bilirəm ki, çox böyük rəğbətlə qarşılanır və biz bu müstəqil xəttimizi qoruyub saxlayacağıq. Müstəqilliyimizi daha da möhkəmləndirəcəyik və bunu etmək üçün, əlbəttə ki, bizim imkanlarımız daha da artmalıdır. Görülən bütün işlər bir məqsədə yönəldilibdir – Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirsin, Azərbaycanda siyasi islahatlar daha da sürətlə getsin, Azərbaycanda bütün kriteriyalar – istər siyasi həyatda, istərsə də iqtisadi, sosial həyatda bütün kriteriyalar dünyanın aparıcı ölkələrinin kriteriyalarına yaxınlaşsın. Bunu etmək üçün bizim həm niyyətimiz var, həm də proqramlarımız var. Beynəlxalq təşkilatlarla müxtəlif proqramlar var və biz bunları uğurla icra edirik.

Mən hesab edirəm ki, biz həm siyasi islahatlar sahəsində, həm ölkədə gedən demokratikləşmə prosesinin inkişafında, həm də iqtisadi və sosial məsələlərin həllində nə mümkünsə maksimum dərəcədə etmişik. Bunun nəticəsində bu gün ölkə qarşısında elə problem yoxdur ki, biz onu asanlıqla həll edə bilməyək. Ölkə daxilində sabitlik, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, siyasi sistemin möhkəmlənməsi, iqtisadi islahatlar, çevik xarici siyasət və bölgədə bizim təşəbbüsü-

müzlə həll olunan irimiqyaslı layihələrin icrası–bu istiqamətlərdə bütün vəzifələr öz həllini tapıbdır.

Bu gün bölgədə gedən uğurlu regional əməkdaşlıq bir çox hallarda məhz Azərbaycanın təşəbbüskarlığı ilə bağlıdır. Biz enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi ilə həm öz iqtisadi imkanlarımızı gücləndiririk, həm də böyük mənada regional əməkdaşlığa da öz töhfəmizi veririk.

Bildiyiniz kimi, bu gün dünyanın siyasi gündəliyində enerji təhlükəsizliyi məsələləri xüsusi yer tutur. Azərbaycan bu sahəyə öz töhfəsini verir və gələcəkdə də öz töhfəsini verməyə hazırdır. Biz irimiqyaslı enerji layihələrinin təşəbbüskarı və iştirakçısıyıq. Bu layihələrin nəticəsində Azərbaycan xalqı həm böyük mənfəət götürür, həm ölkənin beynəlxalq mövqeləri möhkəmlənir, həm də regional əməkdaşlıq üçün çox gözəl şərait yaranır. Bu gün bizim həm Xəzəryanı ölkələrlə, qonşu dövlətlərlə, həm də Qara dəniz, Baltik dənizi ölkələri ilə üzərində işlədiyimiz konkret layihələr var. Bizim siyasi əlaqələr güclənir və əlbəttə ki, nəqliyyat, enerji və humanitar sahələrdə regional əməkdaşlıq bu bölgəyə daha da çox imkanlar gətirir, bizim qarşımızda daha da çox imkanlar açır və biz bundan sonra da regional işlərdə öz fəallığımızı davam etdirəcəyik.

Bu gün burada müxtəlif ölkələrdən gələn qonaqlar bizimlə bərabər bu günü qeyd edirlər. Dünən mən nümayəndə heyətlərinin, demək olar ki, əksəriyyəti ilə görüşmüşəm. Görüşlər bu gün də davam edəcəkdir. Mən bir də demək istəyirəm, Azərbaycan parlamentinin dəvətini almış, bu gün bizimlə bərabər olan bütün qonaqlara xüsusi minnətdarlıq bildirmək istəyirəm ki, onlar vaxt tapıb bu tədbirdə bizimlə birlikdə iştirak edirlər. Onların diqqətini bizi narahat edən məsələyə də cəlb etmək istəyirəm. O da bölgədə gərginlik yaradan, çox böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır.

Biz uzun illər ərzində çalışırıq ki, məsələ öz həllini sülh yolu ilə, danışıqlar yolu ilə, beynəlxalq hüquq əsasında tapsın. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın torpaqlarından çıxarılmasını tələb edir. Ancaq Ermənistan tərəfi buna məhəl qoymur.

Bu yaxınlarda BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş qətnamə böyük səs çoxluğu ilə qəbul edilmişdir. Mən bu fürsətdən istifadə edib bizim qətnaməmizi dəstəkləyən ölkələrin nümayəndələrinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bununla bərabər, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM və digər mötəbər beynəlxalq təşkilatlar bu məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmasının mümkünlüyü haqqında bəyanatlar, qərarlar vermişdir. Amma məsələ öz həllini tapmır. Ermənistanın işğalçı siyasəti, azərbaycanlılara qarşı soyqırımı siyasəti – Xocalı soyqırımı, etnik təmizləmə siyasəti 1 milyondan artıq azərbaycanlının öz doğma topraqlarından didərgin düşməsinə səbəb olmuşdur, minlərlə soydaşımız, günahsız insanlar həlak olmuşdur. Etnik təmizləmə siyasəti nəticəsində bu insanlar bu gün elementar insan hüquqlarından məhrumdurlar. İşğal olunmuş torpaqlarda – Dağlıq Qarabağda və onun ətrafındakı 7 rayonda bütün binalar dağıdılıbdır. Bizim mədəni abidələrimiz, əcdadlarımızın məzarları, məktəblər, xəstəxanalar, yollar – hər şey dağıdılıb, hər şey talan edilibdir. Bir neçə il əvvəl ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş bölgələrə səfər etmişdir və onların məruzəsində dediyim bütün məsələlər öz əksini tapmışdır. Ancaq nədənsə beynəlxalq ictimaiyyət bu məsələyə biganə qalır.

Bir daha demək istəyirəm, biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma bu həll ədalətli həll olmalıdır. Kiminsə əsaslanmamış istəkləri əsasında olmamalıdır. Beynəlxalq hüquq əsasında olmalıdır. Beynəlxalq hüquq bütün ölkələrə şamil edilməlidir. Əks-təqdirdə dünyada, dünya

birliyində xaos yaranar. Əgər ölkələr beynəlxalq hüquqa məhəl qoymasalar, onda beynəlxalq təşkilatların fəaliyyəti şübhə altına düşür. O beynəlxalq təşkilatlar ki, bu məsələyə dair öz qərarlarını açıqlayıblar, özlərinə hörmət etməlidirlər və işğalçı dövlətdən tələb etməlidirlər ki, işğala son qoysun. Azərbaycana məxsus olan və bütün dünya birliyi tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınan bölgələrdən çıxsınlar və o zaman bölgədə sülh yarana bilər. Əks-təqdirdə, gərginlik artacaq. Bu münaqişə yalnız Azərbaycana, yaxud da Ermənistana aid deyil. Bütün bölgənin təhlükəsizliyi bölgədə çox vacib, regional layihələrin və əməkdaşlıq imkanlarının qarşısında dayanan böyük bir maneədir. Mən bütün xarici qonaqlar qarşısında öz mövqeyimi bir daha açıqlamaq istəyirəm. Bir daha demək istəyirəm ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında öz həllini tapa bilər. Ermənistanın bütün qoşunları işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ondan sonra Dağlıq Qarabağda yaşayan ermənilərin və ora qayıdacaq azərbaycanlıların birgə yaşaması üçün lazımi tədbirlər görülməlidir və o bölgəyə yüksək özünüidarəetmə muxtariyyət statusu verilməlidir. Bu, beynəlxalq hüquq əsasında artıq özünü müxtəlif yerlərdə tapmış bir yanaşmadır. Bu yanaşma yeganə düzgün yanaşmadır. Mən çox şadam ki, beynəlxalq təşkilatlar bizim mövqeyimizi müdafiə edirlər. Lakin qəbul edilmiş bu qərarlar kifayət deyil ki, məsələ öz həllini tapsın.

Bir daha demək istəyirəm, biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Bölgədə yaranmış reallıqları da qarşı tərəf anlamalıdır. İqtisadi, hərbi, siyasi cəhətdən Azərbaycan son illər ərzində böyük irəliləyişə nail olubdur, beynəlxalq hüquq normaları da bizim tərəfimizdədir.

Mən bu məsələyə xüsusilə toxundum. Çünki bu bizim qarşımızda duran əsas və bəlkə də yeganə problemdir. Mən beynəlxalq birliyi, burada əyləşən müxtəlif ölkələrin parlamentlərinin nümayəndələrini çağırıram ki, onlar öz ölkələ-

rində bu məsələni diqqətdə saxlasınlar və sülhü yaxınlaşdıra biləcək addımlar atsınlar.

Mən vaxtınızı çox almaq istəmirəm. Bu gün bizim qonaqlarımız öz ürək sözlərini deyəcəklər. Bir daha demək istəyirəm ki, parlamentin yaranmasının 90 illik yubileyi çox böyük hadisədir, Azərbaycanda bayramdır. Biz öz dövlətçilik ənənələrimizi 1991-ci ildə bərpa etdik, 1993-cü ildə isə müstəqil Azərbaycanın quruculuğu üçün bütün lazımi tədbirlər görüldü. Bu gün dövlət quruculuğu, dövlətçilik imkanları Azərbaycanda genişlənir.

İlk demokratik respublika iki il yaşadı, müstəqilliyi qoruya bilmədi. Bugünkü Azərbaycan 17 ildən çoxdur müstəqil ölkə kimi yaşayır və əbədi yaşayacaqdır!

## PAKİSTAN PARLAMENTİNİN SƏDRİ MUHAMMAD MİAN SUMRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Pakistan parlamentinin sədri Muhammad Mian Sumronun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu, iqtisadi sahədə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanlar yarandığını vurğuladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi. Ölkələrimizin parlamentarilərinin əlaqələrinin əhəmiyyətindən danışan prezident İlham Əliyev bu səfərin həm Ali Qanunverici orqanlar arasında əməkdaşlığın, həm də ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycan parlamentinin 90 illik yubiley tədbirlərində iştirak etmək üçün ölkəmizə dəvət aldığına görə, prezident İlham Əliyevə təşəkkür edən Pakistan parlamentinin sədri Muhammad Mian Sumro ölkəsinin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini bildirdi. Qonaq iqtisadi sahədə əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu söylədi. Muhammad Mian Sumro Pakistanla Azərbaycan parlamentləri arasında əməkdaşlığın ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

# TÜRKMƏNİSTAN PARLAMENTİNİN SƏDRİ XANIM AKCA NURBERDIYEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkmənistan parlamentinin sədri xanım Akca Nurberdıyevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Akca Nurberdıyeva Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik etdi. Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin vacibliyini qeyd edən qonaq bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkmənistan arasında ikitərəfli münasibətlərin dinamik olaraq inkişaf etdiyini vurğuladı. Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə səfərinə toxunan prezident İlham Əliyev həmin səfərin əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi işinə xidmət göstərdiyini bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

# RUSİYA FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Rusiya Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, dövlət başçıları səviyyəsində keçirilən görüşlərin münasibətlərimizin daha da inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıdığı qeyd olundu. Görüşdə həmçinin Azərbaycan və Rusiya Ali Qanunverici orqanları arasında mütəmadi görüşlərin və qarşılıqlı səfərlərin parlamentlərarası əlaqələrin və əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyi vurğulandı və bu sahədə əlaqələrin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

# İORDANİYA HAŞİMİLƏR KRALLIĞI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ TAHİR ƏL-MASRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da İordaniya Haşimilər Krallığı parlamenti sədrinin müavini Tahir əl-Masrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İordaniya parlamenti sədrinin müavini Tahir əl-Masri İordaniya krali Əlahəzrət II Abdullahın salamlarını prezident İlham Əliyevə çatdırdı. Azərbaycana səfərinin əhəmiyyətindən danışan qonaq İordaniya Haşimilər Krallığının ölkələrimiz arasında əlaqələrə böyük önəm verdiyini qeyd etdi və əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanla İordaniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev İordaniya kralı Əlahəzrət II Abdullahın ölkəmizə və özünün İordaniya Haşimilər Krallığına səfərini məmnunluqla xatırlatdı və həmin səfərlərin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynadığını qeyd etdi. Dövlət başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev İordaniya kralı Əlahəzrət II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını İordaniya kralına çatdırmağı xahiş etdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN TƏHSİL VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ QOLİ AMERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də ABŞ Dövlət katibinin Təhsil və Mədəniyyət Məsələləri üzrə köməkçisi Qoli Amerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qoli Ameri ölkəsinin Azərbaycanla münasibətlərə böyük önəm verdiyini vurğuladı. O, ölkəmizdə olduğu müddətdə təhsil sahəsində məhsuldar görüşlər keçirdiyi və müzakirələr apardığı haqda prezident İlham Əliyevə məlumat verdi. Qoli Ameri ABŞ-la Azərbaycan arasında təhsil və mədəniyyət sahələrində əlaqələrin bundan sonra daha da genişlənməsi istiqamətində bütün imkanlardan istifadə edilməsini vacib saydı.*

*Prezident İlham Əliyev təhsilin ölkəmizdə prioritet sahələrdən biri olduğunu vurğuladı və bu sahədə Azərbaycanda böyük işlərin görüldüyünü qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və bu istiqamətdə əlaqələrimizin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

# İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ MƏHƏMMƏD ƏBUTURABİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də İran İslam Respublikası parlamenti sədrinin müavini Məhəmməd Əbuturabinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin inkişaf etdiyi qeyd olundu, ölkələrimizin əlaqələrinin daha da genişlənməsində parlamentlərarası əməkdaşlığın mühüm əhəmiyyət daşıdığı vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİNA OYULANDI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*20 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Estoniya parlamenti sədrinin müavini Kristina Oyulandı qəbul etmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsində parlamentlərarası əməkdaşlığın əhəmiyyəti vurğulandı, ölkələrimiz arasında əlaqələrin Avropaya inteqrasiya istiqamətində və Avropa İttifaqı çərçivəsində də önəm daşıdığı qeyd olundu.*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**XANIM MİKAEL JANA**

Hörmətli xanım General-qubernator!

Ölkənizin milli bayramı – Kanada günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Kanada münasibətlərində hazırda nəzərə çarpan inkişaf meyilləri məmnunluq doğurur. Əminəm ki, dostluq əlaqələrimiz, ikitərəfli qaydada və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyun 2008-ci il*

# HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 iyun 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 23-də Heydər Əliyev adına Sarayda aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə binanın fasadına baxdı, burada işlərin gedişi ilə maraqlandı. Prezident İlham Əliyevə məlumat verildi ki, sarayın fasadı xüsusi mərmərlə üzlənmiş, binanın qarşı və yan tərəflərində ABŞ istehsalı olan ekran tipli şüşələr quraşdırılmışdır. Bu ekran tipli şüşələr içəridə keçiriləcək tədbirləri birbaşa sarayın xaricindən də izləməyə imkan verəcəkdir. Bu isə sarayın əsas özəlliklərindən birini təşkil edəcəkdir. Ekran tipli şüşələr şəhərin gecə görüntüsünə də xüsusi yaraşıq verəcəkdir. Onlardan monitor kimi də istifadə olunacaqdır. Bundan əlavə, interyerdəki bütün mühəndis qurğuları dünyanın ən iri meqapolislərində istifadə olunan inşaat materiallarından hazırlanır.*

*Dövlətimizin başçısı sarayın istismarının da yüksək səviyyədə təşkil olunması ilə bağlı tapşırıqlarını verdi.*

*Bildirildi ki, artıq binada işlərin 95 faizi görülmüşdür. «Azəraqrartikinti» və «Pim Proje» Türkiyə–Azərbaycan birgə müəssisəsinin həyata keçirdiyi əsaslı təmir və yenidənqurma işləri qısa vaxtda tam başa çatdırılacaqdır. Artıq sarayın dam örtüyü dəyişdirilmiş, işıqlandırma sistemi yenidən qurulmuşdur. Binanın tavanında aparılan işlər də yekunlaşmaq üzrədir. Burada xüsusi alkapon materialdan istifadə olunub ki, bu da döşəməyə vurulan mərmərlə memarlıq baxımından vəhdət təşkil edir. Girişdə yaradılacaq su pərdəsi isə zövq oxşaya-*

*caqdır. Saraya gələn qonaqlar buradan xüsusi lazer sistemlə müxtəlif görüntüləri izləmək imkanı qazanacaqlar.*

*Prezident İlham Əliyev salona da baxdı. 2128 yerlik salonda tamaşaçıların rahatlığı üçün bütün şərait yaradılır. Burada modern avadanlıq quraşdırılır. Salonu işıqlandıracaq çilçıraqlar xüsusi özəlliyi ilə fərqlənəcəkdir. Səhnədə də işlər sürətlə aparılır. Akustikası müasir tələblərə tam cavab verəcək səhnədə işlərin mühüm hissəsi başa çatmışdır. Liftlər və eskalatorlar yeniləri ilə əvəzlənmiş, binanın daxilində həssas avtomatik yanğınsöndürmə sistemi qurulmuşdur. İndi inzibati korpusda rəngsazlıq, foyedə banket zalı və digər yardımçı otaqlarda bəzək işləri aparılır, xidməti otaqlar hazır vəziyyətə gətirilir. Binada xüsusi havalandırma sistemi quraşdırılmışdır. İtaliyadan alınan kondisioner və xüsusi havalandırma sistemləri artıq yerləşdirilmişdir. Sarayın həyatinə 6 min kvadratmetrdən çox mərmər və qranit döşənir, ətrafda yaşıllıqlar salınacaqdır.*

*Dövlətimizin başçısı işlərin yüksək səviyyədə və keyfiyyətlə görülməsi üçün tapşırıq və tövsiyələrini verdi.*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPAQAL ARROYOYA**

Hörmətli xanım Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2008-ci il*

## KÜVEYT ƏMİRİ APARATININ RƏHBƏRİ ŞEYX NASİR SABAH ƏL-ƏHMƏD ƏL-SABAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Küveyt Əmiri Aparatının rəhbəri Şeyx Nasir Sabah əl-Əhməd əl-Sabahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Küveyt Əmiri Aparatının rəhbəri Küveyt Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın xalqımızın ümummilli lideri Heydər Əliyevlə keçirdiyi görüşləri daim böyük ehtiramla xatırladığını dedi. Şeyx Nasir Sabah əl-Əhməd əl-Sabah Küveyt Əmirinin və Baş nazir Nasir Məhəmməd əl-Əhməd əl-Sabahın salamlarını prezident İlham Əliyevə çatdırdı. O, ölkəsinin zəngin tarixi keçmişə malik olan Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlıqda maraqlı olduğunu dedi və əlaqələrimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığımızın da genişlənəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Şeyx Nasir Sabah əl-Əhməd əl-Sabahın Azərbaycana bu səfəri də ikitərəfli münasibətlərimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.*

*Prezident İlham Əliyev Küveyt Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın və Baş nazir Nasir Məhəmməd əl-Əhməd əl-Sabahın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Küveyt Əmirinə və Baş nazirə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ İVAN PALÇEVİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*24 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Bolqarıstanın ölkəmizdəki səfiri İvan Palçevi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı son illər Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin müxtəlif sahələrdə genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanda diplomatik fəaliyyəti dövründə səfirin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi işinə öz töhfəsini verdiyini qeyd etdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.*

*İvan Palçev diplomatik fəaliyyəti dövründə səfirliyin işinə göstərilən yüksək diqqətə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini dedi, münasibətlərimizin bundan sonra daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

## «ALOV» ZAVODUNUN AÇILIŞI

*25 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Müdafiə Sənayesi Nazirliyi Optika-Mexanika İstehsalat Birliyinin «Alov» zavodunun açılış mərasimində iştirak etmiş, yeni yaradılan müəssisənin istehsal prosesi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi. Sonra dövlətimizin başçısı zavodun həyatində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət etdi.*

*Dövlətimizin başçısı müəssisənin əvvəlki və təmirdən sonrakı vəziyyətini əks etdirən videosüjetə baxdı. Daha sonra prezident İlham Əliyev müəssisədə yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov nazirliyin Optika-Mexanika İstehsalat Birliyinin «Alov» zavodu barədə Azərbaycan prezidenti İlham Əliyevə ətraflı məlumat verərək bildirdi ki, müəssisə 1990-cı ildən fəaliyyətini dayandırmış, ərazisi tamamilə bərbad vəziyyətə düşmüşdü. Azərbaycan prezidenti İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyi yaradıldıqdan sonra müəssisənin istehsal istiqaməti dəyişdirildi. Qısa vaxt ərzində zavod ən müasir standartlara uyğun olaraq əsaslı şəkildə bərpa edildi. Azərbaycanda yeni bir sahənin – optik nişangahların, gecəgörmə cihazlarının və digər müşahidə qurğularının istehsalına başlanıldı.*

*Dövlətimizin başçısı ayrı-ayrı istehsal sahələrinin işi ilə maraqlandı. Rəqəmlə idarə edilən torna və frezer emal mərkəzlərində oldu. Prezident İlham Əliyev burada nişangahların gövdə detallarının tökülməsi üçün nəzərdə tutulan müasir*

*qurğularla tanış oldu, gövdələrin mexaniki emal prosesini izlədi. Məlumat verildi ki, sexdə dünyanın ən müasir standartlarına cavab verən avadanlıq quraşdırılmışdır. Sonra prezident İlham Əliyev termik emal sahəsi ilə tanış oldu, müəssisədə istehsal edilmiş nişangahların, mexaniki və klimatik sınaqların keçirildiyi avadanlıqların iş prosesini izlədi. Prezident həmçinin mexaniki universal avadanlıqlar sexindəki müasir tipli torna və frezer dəzgahlarında emal prosesini izlədi, eləcə də optik nişangahlarda istifadə edilən linzaların, prizmaların və torların istehsal sahəsi ilə də tanış oldu. Ayrı-ayrı istehsal sahələrinə baxan prezident İlham Əliyev yığım sahəsinə də gəldi. Burada nişangahların tam şəkildə yığılma prosesi, onların xarakteristikasının və parametrlərinin ölçülməsi, eləcə də texniki nəzarət proseslərini izlədi. Daha sonra dövlətimizin başçısı müəssisədə istehsal olunan hazır məhsulların sərgisi ilə tanış oldu, onların keyfiyyəti ilə maraqlandı.*

*Sonra prezident İlham Əliyev motodor və motodor tipli müasir zirehli maşınların təqdimat mərasimində iştirak etdi. Dövlətimizin başçısı sükan arxasına keçərək zirehli maşını özü idarə etdi. Zirehli maşınların keyfiyyəti ilə tanış olan prezident İlham Əliyev bu tipli zirehli texnikanın Azərbaycanda istehsal olunmasını tövsiyə etdi, bütövlükdə zavoddakı istehsal sahələrinin gələcəkdə daha da inkişaf etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARADILMASININ 90-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN HƏRBİ PARADDA

*«Azadlıq» meydanı*

*26 iyun 2008-ci il*

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 90-cı ildönümü münasibətilə iyunun 26-da Bakının bayram libası geymiş Azadlıq meydanında hərbi parad keçirilmişdir. Hərbi paradda Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrinin, hərbi tədris müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin 4510 nəfərlik şəxsi heyəti, 210 modernləşdirilmiş hərbi texnika, döyüş vertolyotları, təyyarələri, gəmiləri və qayıqları iştirak edirdi.*

*Bu möhtəşəm tədbir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının təntənəsi olmaqla yanaşı, Silahli Qüvvələrimizin güc və qüdrətinin nümayişidir. On ildir ki, 26 iyun müstəqil Azərbaycanda ümumxalq bayramı kimi qeyd edilir. Bu günün tarixləşməsi də ümummilli liderimizin adı ilə bağlıdır. Prezident Heydər Əliyev 1998-ci il mayın 22-də imzaladığı Fərmanla tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası ilə bağlı çox böyük əhəmiyyətə malik bir addım atmışdır. Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra məhz ulu öndərin rəhbərliyi altında həyata keçirilən islahatlar nəticəsində qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşmışdır.*

*Meydana toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əsgərləri salamladı.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycanın Dövlət himnini ifa etdi.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev nitq söylədi.*

## Təntənəli hərbi paradda nitq

Əziz əsgərlər, zabitlər, generallar!

Əziz hərbçilər!

Xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Ordusunun 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Milli Ordusunun yaranması bizim tariximizdə çox əlamətdar və tarixi bir hadisə idi. 1918-ci ildə müsəlman aləmində ilk dəfə demokratik respublikanın yaranması çox böyük tarixi hadisə idi. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Azərbaycan dünya aləminə qovuşurdu. Biz bu yaxınlarda Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyini böyük təntənə ilə və çox geniş şəkildə qeyd etdik. Bir daha qeyd edirik ki, Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra Azərbaycan öz dövlət müstəqilliyini itirdi.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, əlbəttə ki, Milli Ordunun yaranması çox vacib məsələ idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda nizami ordu yarana bilmədi. Azərbaycanda ordu quruculuğu lazımi səviyyədə aparılmırdı. Yalnız Azərbaycan xalqının tələbi ilə ümummilli lider, ulu öndər Heydər Əliyev 1993-cü ildə Azər-

baycan rəhbərliyinə qayıtdıqdan sonra ölkədə ordu quruculuğu prosesi başlanmışdı. Əslində, Azərbaycanda dövlət quruculuğu prosesi başlanmışdı və müstəqil ölkəmizin qurucusu Heydər Əliyevin səyi nəticəsində, müstəsna xidmətləri sayəsində Azərbaycanda ordu quruculuğu prosesi çox sürətlə aparılırdı.

Qısa müddət ərzində nizami ordunun yaranması mümkün olmuşdur və bu gün ordunun güclənməsi üçün bütün lazımi tədbirlər görülür, peşəkarlıq artır. Mən çox şadam ki, bu gün Azərbaycan Ordusu ən yüksək standartlara cavab verir. Bildiyiniz kimi, mən hərbi hissələrdə tez-tez oluram, cəbhə bölgələrində, düşmənlə təmas xəttində dayanan əsgərlərlə səngərlərdə görüşürəm. Tərtər, Ağdam, Füzuli rayonlarının ərazisində, Naxçıvanda və digər sərhəd bölgələrində zabitlərlə, əsgərlərlə görüşərkən bir daha gördüm ki, Azərbaycan Ordusunun səviyyəsi çox yüksəkdir. Ruh yüksəkliyinin artırılması, peşəkarlıq, müasir standartlara uyğunlaşma prosesi çox sürətlə gedir. Əlbəttə ki, biz bunu böyük qürur hissi ilə qeyd edirik.

Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənir. Bu istiqamətdə son illər ərzində böyük işlər görülübdür. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə ölkəmizin hərbi xərcləri bugünkü hərbi xərclərdən ən azı on dəfə az idi. Bu gün ordu quruculuğu prosesi maddi-texniki bazanın möhkəmlənməsi ilə tamamlanır. Azərbaycanın ümumi hərbi xərcləri son beş il ərzində 10 dəfədən çox artmışdır və bu gün 2 milyard dollardan da çoxdur. Biz bir müddət bundan əvvəl qarşıya məqsəd qoymuşduq ki, Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmlənsin. Mən çox şadam ki, bu gün biz buna nail oluruq. Gələcəkdə daha da böyük işlər görüləcəkdir.

Bu gün keçirilən hərbi paradda bizim hərbi potensialımızın kiçik bir hissəsi nümayiş etdiriləcəkdir və Azərbaycan xalqı görəcəkdir ki, Azərbaycan Ordusu nəyə qadirdir. Biz bu prosesi bundan sonra da davam etdirəcəyik. Azər-

baycanın maddi imkanları artır, maliyyə imkanları artır və biz ordu quruculuğuna daha da böyük səylər göstərəcəyik. Onu demək kifayətdir ki, Azərbaycanın dövlət xərclərində hərbi xərclər birinci yerdədir və əminəm ki, bundan sonrakı illərdə də bu belə olacaqdır. Bununla yanaşı, hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün əməli-praktiki tədbirlər görülür. İldə iki dəfə əməkhaqları qaldırılır və bildiyiniz kimi, dünən hərbçilərin əməkhaqlarının qaldırılması üçün yeni sərəncam imzalanmışdır. Bu proses davam etdiriləcəkdir. Hərbçilərin sosial məsələlərinin həlli, məişət problemlərinin həlli həmişə diqqət mərkəzində olmuşdur, bu, bu gün də belədir. Gələcəkdə bizim maddi imkanlarımız artdıqca, əlbəttə ki, biz bunu daha da böyük həcmdə təmin edəcəyik.

Böyük məmnunluq hissi ilə deyə bilərəm ki, son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü hərbi sənaye kompleksi yaradılmışdır. Bildiyiniz kimi, mən bir müddət bundan əvvəl Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında sərəncam imzalamışdım. Bu gün çox şadam ki, bu sərəncamdan sonra əməli-praktiki işlər çox sürətlə gedir. Dünən hərbi sənaye kompleksinin yeni tərkib hissəsi olan zavodun açılışında olarkən bir daha gördüm ki, Azərbaycanda bu sahədə istehsal olunan məhsullar dünyanın ən yüksək standartlarına cavab verir. Biz qısa müddət ərzində Azərbaycanda güclü hərbi sənaye kompleksinin yaradılmasına nail olmalıyıq. Biz bunun ilkin nəticələrini görürük və bu çox sevindirici haldır. Bu onu göstərir ki, qəbul edilmiş bütün qərarlar çox böyük keyfiyyətlə və qısa müddət ərzində həyatda öz əksini tapır. Biz təbii ki, hələ silah-sursatın, hərbi texnikanın, döyüş təyyarələrinin böyük əksəriyyətini xaricdən alırıq. Bu proses davam etdirilir və bizim dost ölkələrlə bu sahədəki əməkdaşlığımız güclənir. Ancaq biz istəyirik ki, Azərbaycana lazım olan hərbi texnika və silah-sursat maksimum dərəcədə Azərbaycanda istehsal olunsun.

Bunu etmək üçün, əlbəttə, yeni texnologiyalar gətirilməlidir, peşəkar mütəxəssislər hazırlanmalıdır və maliyyə imkanları da ayrılmalıdır. Bütün bu amillər bu gün Azərbaycanda mövcuddur. İldən-ilə artan hərbi xərclərin tərkib hissəsi olan müdafiə sənayesinə ayrılan xərclər də artır. Biz yaxın zamanlarda daha da böyük rəqəmləri görəcəyik. Bir sözlə, hərbi potensialın gücləndirilməsi üçün, müasir ordunun yaranması üçün Azərbaycanda çox böyük işlər görülübdür. Biz bu gün bunu ordunun inkişaf etməsində görürük, müasir standartlara cavab verməsində görürük. Mən şübhə etmirəm ki, gələcəkdə bu müsbət meyillər davam etdiriləcəkdir.

Bir müddət bundan əvvəl mən demişdim ki, Azərbaycanın hərbi xərcləri artmalıdır, bu, prioritet məsələ olmalıdır. Bu gün bir daha qeyd etmək istəyirəm ki, dövlət büdcəsinin əsas xərcləri bu məqsədlərə yönəldilir. Demişdim ki, ordu quruculuğuna nə qədər vəsait lazımdır, o qədər də ayrılacaqdır. Onu da demişdim ki, Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün dövlət xərclərinə bərabər olmalıdır. Biz bu gün bunu görürük. Bu gün bütün hərbi məsələlərə ayrılan xərclər 2 milyard dollardan çoxdur. Biz bu məbləği gələn illərdə artıracağıq.

Bəzi hallarda beynəlxalq aləmdə bizim siyasətimiz narahatlıq doğurur. Amma deyə bilərəm ki, bizim təkcə hərbi xərclərimiz artmır. Bütün başqa sahələrə qoyulan xərclər böyük dərəcədə artmışdır. Təkcə onu demək kifayətdir ki, son beş il ərzində Azərbaycanın dövlət büdcəsi 10 dəfədən çox artmışdır, 2003-cü ildə 1,3 milyard dollar idisə, 2008-ci ilin ümumi icmal büdcəsi 16 milyard dollara yaxındır. Yəni Azərbaycanın artan iqtisadi imkanları, bizim güclü iqtisadi potensialımızın yaradılması Azərbaycanın bütün sahələrdəki təşəbbüslərinə böyük dəstəkdir. Hərbi xərclər artır, səhiyyə xərcləri artır, təhsil xərcləri artır, infrastruktur layihələri uğurla icra edilir.

Azərbaycanda çox müasir infrastruktur yaradılır. Biz bütün sahələrdə uğurlu proqramlar icra edirik və Azərbaycanın pers-

pektivləri də çox müsbətdir, çox parlaq olacaqdır. Bunu artıq Azərbaycan xalqı görür və bütün dünya ictimaiyyəti görür. Ona görə bizim hərbi xərclərimizi ümumi kontekstdən çıxarıb, bundan böyük bir hadisə yaratmağa heç bir ehtiyac yoxdur.

Ancaq o da həqiqətdir ki, Azərbaycan müharibə şəraitində yaşayır və müharibə hələ bitməyibdir. Müharibənin birinci mərhələsi başa çatıbdır və müvəqqəti olaraq atəşkəs rejimi mövcuddur. Bu atəşkəs qorunub saxlanılır. Ancaq o demək deyil ki, müharibə başa çatıbdır. Biz hər an öz doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq və məhz bu məqsədlə biz güclü ordu yaradırıq. O ölkələrdə ki, onların torpaqları işğal olunmayıb, bəlkə də ordu quruculuğuna o qədər də diqqət göstərilmir. Biz isə 10 ildən çoxdur ki, bu işğaldan əziyyət çəkirik. Azərbaycan öz torpaqlarının bir hissəsini müvəqqəti olaraq itiribdir. Belə olan halda, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək və bu məqsədlə nə lazımdır Azərbaycan dövləti edir.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün danışıqlar aparılır. Bu danışıqlar uzun müddətdir ki, aparılır və Azərbaycan xalqı bu danışıqlardan artıq yorulubdur. Biz hesab edirik ki, danışıqlar əbədi aparıla bilməz. Danışıqlar prosesində, düzdür, müsbət irəliləyişlər var. Bu gün müzakirə predmeti olan təkliflərdə Azərbaycanın ərazi bütövlüyü prinsipi əsas tutulur və danışıqlar masasında mövcud olan təkliflərdə Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün heç bir mexanizm yoxdur. Bu da təbiidir. Çünki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bunu dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix və beynəlxalq hüquq normaları göstərir. Bütün dünya

Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bunu nümayiş etdirən lazımi tədbirlər də görülür.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının dörd qətnaməsi qəbul edilibdir. Bu yaxınlarda BMT-nin Baş Məclisində yeni qətnamə qəbul edilibdir. Bütün bunlar bizim üçün çox böyük dəstəkdir və məsələnin sülh yolu ilə, ədalətli həlli üçün bizə imkan yaradır. Lakin qarşı tərəf beynəlxalq hüquq normalarına məhəl qoymur. Belə olan halda biz nə etməliyik?! Əlbəttə, biz hələ ki, danışıqları davam etdirəcəyik. Eyni zamanda, güclü ordunun yaranması həm danışıqlar prosesinə müsbət təsir göstərir və göstərəcəkdir, həm də bizə imkan verir ki, biz istənilən yolla ədaləti bərpa edək və öz doğma torpaqlarımızı işğalçılardan azad edək.

Bu, böyük ədalətsizlikdir. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bu siyasət nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşmüş, bir milyondan çox qaçqın-köçkün yaranmışdır. Biz bu ədalətsizliyə dözə bilmərik. Mən əminəm ki, biz bütün səylərimizi səfərbər edib diplomatik, iqtisadi, hərbi siyasətimizi gücləndirərək istədiyimizə nail olacağıq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi imkanlar bizim tərəfimizdədir, hərbi üstünlük də artıq bizim tərəfimizdədir. Vaxtilə Ermənistanla Azərbaycan arasında hərbi sahədə olan balans, tarazlıq pozulubdur. Bu gün Azərbaycan Ordusu bölgənin ən güclü ordusudur və bu proses davam etdirilir, ordunun güclənməsi üçün nə lazımdırsa, biz bundan sonra da edəcəyik.

Əziz dostlar, bu gözəl gündə mən sizin hamınızı bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanda hərbi paradın keçirilməsi böyük hadisədir. Mən çox şadam ki, bu gün bütün Azərbaycan xalqı görəcəkdir ki, Azərbaycan Ordusu nəyə qadirdir. Əminəm ki, bu paradı görən hər bir vətənpərvər insan fəxr edəcəkdir ki, Azərbaycanın belə güclü və qüdrətli ordusu var.

Azərbaycan Ordusuna eşq olsun!

# RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əvvəlcə prezidentlərin təkbətək görüşü oldu. Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsindən, bu baxımdan ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə əməkdaşlığının uğurla davam etdirilməsindən məmnunluq ifadə olundu. Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin respublikamıza səfərinin Azərbaycan ilə Dağıstan arasında əlaqələrin iqtisadi və digər sahələrdə genişləndirilməsinə xidmət etdiyi bildirildi.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi. Dağıstan prezidenti Muxu Əliyevin Azərbaycana ötənilki səfərini xatırladan prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin, o cümlədən respublikamızla Dağıstan arasında əlaqələrin genişlənməsindən məmnunluğunu vurğuladı. Dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə və yeni sahələri əhatə edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Dağıstan prezidenti Muxu Əliyevin ölkəmizə səfərinin nəticələrinin səmərəli olacağına inamını ifadə etdi.*

*Dağıstan prezidenti Muxu Əliyev ötən səfərlərdə olduğu kimi, bu dəfə də Dağıstan nümayəndə heyətinə Bakıda göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. O, Dağıstan xalqının ən xoş arzularını prezident İlham Əliyevə və Azərbaycan xalqına çatdırdı. Azərbaycan ilə Dağıstan arasında ənənəvi tarixi, mədəni yaxınlığın olduğunu diqqətə çatdıran prezident Muxu Əliyev Bakıya növbəti səfərinin də əlaqələrin daha da inkişafına xidmət etdiyini bildirdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni, rusiyalı həmsədri Yuri Merzlyakovu, amerikalı həmsədri Mətyu Brayzəni və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırki vəziyyətinə dair məsələlər müzakirə edilmişdir.*

# ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DEVİD KRAMER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ABŞ Dövlət katibinin Demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müavini Devid Krameri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. Müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət etdiyi qeyd olundu. Söhbət zamanı ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparıldı.*

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–NATO əməkdaşlığının hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

*Robert Simmons Bakıda hərbi paradın yüksək səviyyədə keçirildiyini vurğulayaraq, bu münasibətlə dövlətimizin başçısını təbrik etdi.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, hərbi paradın bu cür yüksək səviyyədə keçirilməsini ölkəmizdə ordu quruculuğuna göstərilən diqqətin nümunəsi kimi qiymətləndirdi.*

## BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinettini qəbul etmişdir.*

*Rafael Martinetti Azərbaycanın böyük güləş ənənələrinə malik olduğunu bildirərək, Bakıda güləş üzrə Qran-Pri beynəlxalq turnirinin yüksək səviyyədə təşkilini və ölkəmizdə güclü güləş komandasının olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Bakıda güləş üzrə Qran-Pri beynəlxalq turnirinin keçirilməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanda bu cür idman tədbirlərinin keçirilməsinin ölkəmizin beynəlxalq idman aləmində əməkdaşlığının daha da genişlənməsi işinə xidmət etdiyini bildirdi.*

## QLOBAL EKOLOGİYA FONDUNUN İCRAÇI DİREKTORU XANIM MONİK BARBÜ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbünü qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizdə ekologiya sahəsində irimiqyaslı proqramların uğurla icra olunduğunu bildirdi, ekologiya ilə bağlı məsələlərin kompleks şəkildə həlli istiqamətində gələcəkdə geniş planların həyata keçiriləcəyini qeyd etdi. Prezident İlham Əliyev Qlobal Ekologiya Fondu ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, bu baxımdan fondun icraçı direktoru xanım Monik Barbünün səfərinin əhəmiyyətini vurğuladı.*

*Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbü ölkəmizdə böyük iqtisadi inkişafa şahid olduğunu vurğuladı. O, Azərbaycanda ekologiya sahəsində görülən işlərə toxunaraq, bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd etdi. Xanım Monik Barbü ümidvar olduğunu bildirdi ki, birgə layihələrin həyata keçirilməsi əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*30 iyun 2008-ci il*

*Ukrayna prezidenti Viktor Yuşşenko iyunun 30-da Azərbaycana gəlmişdir.*

*Azərbaycan və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Ukrayna dövlətinin başçısını təyyarənin pilləkəni yanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar dost ölkənin rəhbərinə gül dəstələri təqdim etdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*30 iyun 2008-ci il*

*İyunun 30-da Azərbaycan prezidenti İlham Əliyevin və ölkəmizə işgüzar səfərə gəlmiş Ukrayna prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.*

*Görüşdə siyasi, iqtisadi və humanitar sahələrdə hazırda uğurla inkişaf edən ikitərəfli əlaqələrin genişləndirilməsi üçün yüksək səviyyədə görüşlər keçirməyin səmərəli olduğu qeyd edildi. Dövlət başçıları Azərbaycan ilə Ukraynanın beynəlxalq təşkilatlarda bir-birinin mövqelərini dəstəklədiklərini vurğuladılar. Tərəflər əmin olduqlarını bildirdilər ki, budəfəki səfər Azərbaycan–Ukrayna əlaqələrinin dərinləşməsi işinə öz töhfəsini verəcəkdir.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*30 iyun 2008-ci il*

*İyunun 30-da Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Viktor Andreyeviç!

Hörmətli qonaqlar!

İcazə verin, Sizi Azərbaycanda bir daha salamlayım. Bizim əlaqələrimizin bu cür intensiv xarakter daşıması mənə çox xoşdur. Düz bir ay bundan əvvəl mənim rəsmi səfərim və energetika sammiti çərçivəsində Sizinlə Kiyevdə görüşdük, çox uğurlu və konstruktiv danışıqlar apardıq. Sizin Azərbaycana bugünkü səfəriniz bizim əməkdaşlığın möhkəmləndirilməsi işində daha bir mühüm addımdır.

Bu gün qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdik və mən böyük razılıq hissi ilə demək istəyirəm ki, son illərdə ölkələrimiz arasında əldə edilmiş bütün razılaşmalar bizim milli mənafelərimizə uyğundur.

Sizin bugünkü səfəriniz xüsusən onunla əlamətdardır ki, biz Bakıda Ukrayna xalqının görkəmli oğlu Taras Şevçenkonun abidəsinin açılışında iştirak edəcəyik. Bu hadisə həm Ukraynanın böyük oğlunun xatirəsinə hörmət əlaməti, həm də ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın mühüm elementidir.

Ümumiyyətlə, bizim müzakirə etdiyimiz və daim üzərində iş aparılan məsələlərin bütün spektrləri barədə mövqelərimiz üst-

üstə düşür. Əminəm ki, bu gün fəal müzakirə edilən bütün məsələlər üzrə gələcəkdə müsbət irəliləyişlərin şahidi olacağıq.

Bir daha xoş gəlmisiniz!

**V i k t o r   Y u ş ş e n k o:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Sizin ölkənizin qonağı olmaq mənim üçün həmişə böyük şərəfdir. Biz buraya kifayət qədər böyük nümayəndə heyəti ilə gəlmişik. Həmişə sanballı, konkret mövzulara dair danışıqlarla səciyyəvi olan münasibətlərimizin genişlənməsini qeyd etmək istərdim. Biz gündəlikdəki bütün məsələləri müntəzəm müzakirə edirik. Deyə bilərəm ki, bu məsələlərdə çox uğurlu tərəqqi müşahidə olunur. Energetika sahəsində əməkdaşlıq məsələsinə gəldikdə demək istərdim ki, enerji layihələrinin həyata keçirilməsinin gedişindən, bu layihələrin əməli reallaşmasının sürətlənməsindən razıyam.

Əlamətdar haldır ki, biz bu gün həm Azərbaycanda «Ukrayna mədəniyyəti günləri»ni, həm də Taras Qriqoryeviç Şevçenkonun abidəsini açacağıq. Mənə belə gəlir ki, Ukraynaya ən böyük iltifat göstərmək istəyən xalq Taras Qriqoryeviç Şevçenkoya abidə ucaldır. Buna görə Sizə təşəkkür edirəm.

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*30 iyun 2008-ci il*

*İyunun 30-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan və Ukrayna prezidentlərinin birgə mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Viktor Andreyeviç!

Hörmətli xanımlar və cənablar!

Mən Ukrayna prezidentini Azərbaycanda bir daha salamlamaq istəyirəm. Biz bu səfərə çox böyük əhəmiyyət veririk və ona ölkələrimizin rəhbərləri arasında intensiv əlaqələrin davamı kimi baxırıq. Son vaxtlar bu əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlir. Çox fəal siyasi dialoq, iqtisadi əlaqələrdə, humanitar əməkdaşlıqda, energetikada fəallaşma müşahidə olunur. Başqa sözlə desək, bizim münasibətlərimizin formatı kifayət qədər genişdir.

Bunu demək kifayətdir ki, düz bir ay əvvəl mən Ukraynada rəsmi səfərdə olmuşam və həmin səfər çərçivəsində bizim münasibətlərin gələcək inkişafı barədə çox mühüm razılaşmalar əldə edilmişdir.

Bu gün biz Ukrayna prezidentini ölkəmizdə qəbul edirik. Bu da bizim münasibətlərin nə dərəcədə dinamik inkişaf

etməsinin göstəricisidir. Bu gün biz ikitərəfli münasibətlər, regional təhlükəsizlik, regional əməkdaşlıq məsələlərinin çox geniş spektrini müzakirə etdik və bu məsələlərin həllinə yanaşmalarımız oxşardır.

Eyni zamanda, energetika sahəsində qarşılıqlı əlaqə məsələlərini ətraflı müzakirə etdik. Kiyev energetika sammitindən sonra biz energetika sahəsində əməkdaşlığımızın bütün şərtlərinin razılaşdırılması proseslərinin intensivləşəcəyinə ümid edirik və bu ilin payızında keçiriləcək Bakı sammitinə qədər bizim regionda energetika sahəsində qarşılıqlı fəaliyyəti müəyyənləşdirəcək ciddi qərarlar qəbul etmək niyyətindəyik. Diversifikasiyanın istehlakçılar və malgöndərənlər üçün vacibliyini nəzərə alsaq, bu məsələ bu gün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və Ukrayna bu məsələdə fəal əməkdaşlıq edir və biz bu prosesin daha da fəallaşması üçün bundan sonra da səy göstərəcəyik. Bunun üçün çox yaxşı perspektivlər var və mən ümid edirəm ki, nəzərdə tutduqlarımızın hamısını yerinə yetirəcəyik.

Biz həmçinin iqtisadi əlaqələrin intensivləşdirilməsi, mümkün qarşılıqlı investisiyalar, bizim şirkətlərin Ukraynada və Azərbaycanda layihələrdə iştirakı məsələlərini, başqa sözlə, ikitərəfli əməkdaşlıq üçün güclü iqtisadi potensial yaradan bütün imkanları müzakirə etdik.

Bu gün Ukrayna ilə Azərbaycan arasında münasibətlərin tarixində əlamətdar gündür – Ukrayna xalqının görkəmli oğlu, Azərbaycanda xatirəsi əziz tutulan Taras Qriqoryeviç Şevçenkonun abidəsinin açılışı olacaqdır. Bu, ölkələrimiz arasında humanitar sahədə münasibətləri səciyyələndirən mühüm tarixi məqamdır. Bu gün biz həmin əməkdaşlığı yeni formalarla necə zənginləşdirmək barədə konkret danışdıq. Humanitar sahədə əməkdaşlıq xalqlarımızı, dövlətlərimizi bir-birinə yaxınlaşdırır və gələcəkdə də Azərbaycan ilə Ukraynanın beynəlxalq aləmdə iki dost dövlət kimi, fəal qarşılıqlı əlaqələri üçün möhkəm zəmin yaradır.

Biz həmçinin beynəlxalq təşkilatlarda iştirak məsələlərini də müzakirə etdik. Böyük razılıq hissi ilə qeyd edildi ki, biz bir-birimizin bütün təşəbbüslərini dəstəkləyirik. Biz BMT-nin Baş Məclisində Azərbaycan tərəfindən irəli sürülmüş Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət haqqında qətnamənin Ukrayna tərəfindən dəstəklənməsini xüsusi minnətdarlıqla qeyd edirik. Bu dəstək dostluq əlaməti, həmrəylik əlaməti, Ukraynanın Cənubi Qafqazda məsələlərin beynəlxalq hüquq çərçivəsində həll edilməsinə ədalətli yanaşmasının əlamətidir.

Başqa sözlə, bu gün böyük razılıq hissi ilə qeyd etmək olar ki, Ukrayna prezidentinin Azərbaycana səfəri gələcək münasibətlər üçün təməl yaradır. Bu möhkəm təməl tarixi köklərə, artıq mövcud olan ciddi təcrübəyə əsaslanır. Ümid edirik ki, gələcəkdə də ölkələrimiz arasında əməkdaşlıq səmərəli olacaqdır.

Təşəkkür edirəm.

## Ukrayna prezidenti Viktor Yuşşenkonun bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli jurnalistlər!

Mən ondan başlayardım ki, bizim münasibətlər – Ukrayna ilə Azərbaycan arasında münasibətlər xüsusi xarakter daşıyır. Bunu qeyd etmək mənə xoşdur ki, son illərdə bu münasibətlər yüksələn xətt üzrə, çox dinamik inkişaf edir. İlham Heydər oğlunun bu gün qeyd etdiyi kimi, biz ticarət, investisiyalar, energetika sahələrində əməkdaşlığın əsaslarını nəzərdən keçirdik. Qeyd etmək xoşdur ki, bizim münasibətlər, xüsusən ticarət sahəsində münasibətlər çox sürətli dinamikaya malikdir. Keçən il ticarət əlaqələrimizin həcmi əvvəlki ilin müvafiq göstəricisinin üçdə bir hissəsi qədər artmışdır, yaxın bir il yarımda ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi 1 milyard dollara çatdırılacaqdır. Bu cür

münasibətlərin inkişafı üçün bizim yaxşı, normal qanunvericilik bazamız var.

Prezidentlər, hökumətlər səviyyəsində çox fəal dialoq aparılır. Bu bizim münasibətlərin sabitliyinə, onların xüsusi statusuna dəlalət edir. Ən mühüm bloklar barədə danışmalı olsaq, məmnuniyyətlə qeyd etməliyəm ki, energetika kimi profil məsələlərdə bütün layihələr, o cümlədən Xəzər neftinin Ukrayna ərazisindən Avropa İttifaqına nəql edilməsi layihəsi normal inkişaf edir. Mən Odessa–Brodı–Avropa İttifaqı layihəsinin gələcək inkişafını nəzərdə tuturam. Bu gün həmin marşrut üzrə test nəqli üçün Azərbaycanın texnoloji neftinin çatdırılması barədə həm ekspertlər səviyyəsində, həm də hökumətlər səviyyəsində razılıq əldə edildi. İstehlak və satış portfelinin formalaşması üzrə iş aparılır. Bir sözlə, bu layihə texniki səviyyədə normal davam edir.

Bu gün biz regional səviyyədə təhsil və mədəniyyət sahəsində əməkdaşlıq layihələri barədə danışdıq. Bu məsələlərə dair qərarlarımızı jurnalistlərin diqqətinə çatdırmaq istərdim.

Təhsil sahəsində. Slavyan Universitetinin intensiv işi, burada Ukrayna filologiyası ixtisası üzrə 37 tələbə hazırlanması bizi çox məmnun etdi. Bu il həmin tələbələr Ukraynanın ali məktəblərində təcrübə keçəcəklər. Onların bir hissəsi, demək olar ki, yarısı təhsilini Ukraynanın ali məktəblərində davam etdirəcəkdir. Bu tələbələr təhsili başa vurduqdan sonra Azərbaycana qayıdacaq, təhsil sahəsində işləyəcəklər. Biz Ukraynada Azərbaycan məktəbi və Azərbaycanda Ukrayna məktəbi açılması barədə danışdıq. Biz nazirlərimizə və səfirlərimizə müvafiq tapşırıqlar verdik.

Mədəniyyət sahəsində. Bunu qeyd etmək mənə çox xoşdur ki, bizim bugünkü dialoqumuz nadir bir hadisə ilə –Bakıda Ukraynanın böyük oğlu Taras Qriqoryeviç Şevçenkonun abidəsinin açılışı ilə başlanır. Bu abidə ukraynalı müəlliflər kollektivinin işidir. Mən Azərbaycan tərəfinin ölkə paytaxtında bu abidənin ucaldılması üçün göstərdiyi səyə və

köməyə görə İlham Heydər oğluna və Bakının hakimiyyət orqanlarına təşəkkürümü bildirmək istəyirəm.

Bu gün biz qərara aldıq ki, payızda Azərbaycan prezidentinin himayəsi altında Taras Qriqoryeviç Şevçenkonun ikicildlik əsərləri nəşr edilsin. Bu gün biz daha bir layihəni – ukraynaca–azərbaycanca ilk lüğətin, bu qəbildən ilk məhsulun layihəsini birgə təqdim edirik.

Biz regionlar səviyyəsində mədəni münasibətlərin inkişafı barədə danışdıq. Ukraynanın regional strukturlarının rəhbərlərindən ibarət böyük bir nümayəndə heyəti yayda Azərbaycana gələcəkdir. Biz payıza qədər – oktyabrda keçiriləcək zirvə toplantısına qədər bir sıra məsləhətləşmələr aparmağı və bir sıra ikitərəfli regional layihələr təqdim etməyi planlaşdırırıq. İnanıram ki, bu gün bizim ikitərəfli münasibətlərin universal inkişafı üçün bu məsələ çox vacibdir.

Biz QNS – qazın nəqli sistemi sahəsində əməkdaşlıq barədə də danışdıq. Bu gün bu istiqamətdə bütün layihələr üzrə normal iş gedir. Bir neçə gün bundan əvvəl Azərbaycanın yüksək səviyyəli nümayəndə heyəti bu sahədə əməkdaşlıq barədə müvafiq protokol razılaşmalarına nail olmuşdur. Başqa sözlə desək, burada münasibətlər yaxşı inkişaf edir.

Biz cari ilin payızında Bakıda Ukrayna sənaye və kənd təsərrüfatı sərgisinin keçirilməsi barədə danışdıq. Hər iki prezidentin fikrincə, işgüzar səviyyədə əlaqələrin əsas problemi informasiya qıtlığıdır. Buna görə də biz bu qəbildən olan müxtəlif konfranslar, görüşlər, sənaye və kənd təsərrüfatı sərgilərinin keçirilməsini prezidentlər səviyyəsində hər vasitə ilə stimullaşdıracağıq.

Cənab Prezident qeyd etdi ki, beynəlxalq fəaliyyət sahəsində bizim yaxşı əməkdaşlığımız formalaşmışdır. Biz bütün incə məsələlər barəsində, o cümlədən İlham Heydər oğlunun xatırlatdığı məsələ barədə praktiki olaraq, sinxron mövqelərdə dururuq. Bu, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində baxılan və Dağlıq Qarabağla əlaqədar məsələdir. Bu gün biz 1932-33-cü illərdə Ukraynada aclıqdan qırılanlar mövzu-

sunu müzakirə etdik. Bu məsələdə istər beynəlxalq səviyyədə, istərsə də bizim ikitərəfli münasibətlər səviyyəsində Azərbaycan rəhbərliyinin tam dəstəyini görürük.

Bütövlükdə demək istərdim ki, bizim münasibətlər çox dinamik xarakter daşıyır. Bu münasibətlər əməkdaşlığın bütün istiqamətləri üzrə tərəqqi edir və Ukrayna nümayəndə heyəti ilə birlikdə bu gün dost Azərbaycanda olmağım mənə çox xoşdur.

Sağ olun.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Ukrayna mədəniyyətinə göstərilən saygı və hörmətə – Taras Şevçenkonun abidəsinin açılışına görə cənab Əliyevə və bütün Azərbaycan xalqına təşəkkür etmək istəyirəm. Amma mənim sualım başqa məsələyə aiddir. Cənab prezidentlər, sizin Kiyevdəki son görüşünüz zamanı mətbuat konfransında qeyd edilmişdir ki, iyulun əvvəlinə qədər ekspertlər Odessa–Brodı boru kəmərinə texnoloji neftin nəql edilməsi müddətlərini və həcmini müəyyən edəcəklər. Bununla əlaqədar sualım var. Cənab Yuşşenko, həmin parametrlər müəyyən edilmişdirmi və ekspert qruplarının sonrakı konkret addımları nədən ibarət olacaqdır? Cənab Əliyev, Siz Bakı sammitində hansı ciddi qərarların qəbul olunacağına ümid edirsiniz?**

**V i k t o r Y u ş ş e n k o:** Odessa–Brodı–Avropa İttifaqı layihəsinin texniki tərkib hissəsinin reallaşdırılmasına gəldikdə, biz bunu əsas götürürük ki, beynəlxalq müştərək müəssisə bu gün yaradılıb və o çox dinamik şəkildə işləyir. Bu layihə çərçivəsində bütün sazişlər yerinə yetirilir. Azərbaycan tərəfindən texnoloji neftin nəql olunmasının təmin edilməsi barədə Kiyev sammitində qoyulmuş məsələ bu gün həll edilmişdir. Bütün boru kəməri xətti üzrə operator funksiyalarının «Sarmatiya» birgə müəssisəsinə verilməsi məsələsinə gəldikdə isə, bu gün xidmətlərin həmin növü üzərində

dövlət inhisarına malik olan bütün ölkələr səviyyəsində bu məsələyə baxılır. Mənim fikrimcə, bu texniki məsələ də yaxın vaxtlarda həll ediləcəkdir, çünki siyasi səviyyədə heç bir etiraz yoxdur. Yalnız həll edilməli olan bəzi formal məsələlər var.

İlk nəqlə gəldikdə, mənim fikrimcə, bu gün bu məsələ final mərhələsindədir. Birinci vəzifə texnoloji neftin çatdırılması, istehlakçılar portfelinin və təchizat portfelinin formalaşdırılmasıdır. Artıq qeyd etdiyim kimi, bu layihədə hər iki tərəf, o cümlədən müştərək müəssisə də əvvəlki görüşdə əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində fəaliyyət göstərir. Layihənin reallaşması normal davam edir. Detallara gəldikdə isə, bu məsələni «Sarmatiya» birgə müəssisəsi şərh etməlidir. Burada dövlətlər səviyyəsində heç bir problem yoxdur.

**İ l h a m  Ə l i y e v:** Biz bu layihənin reallaşdırılması çərçivəsində fəal əməkdaşlıq edirik və bildiyiniz kimi, son vaxtlarda bu sahədə böyük irəliləyiş olmuşdur. Nisbətən qısa müddətdə çox iş görülmüşdür və bu gün həmin layihənin tam dəyərli texniki-iqtisadi əsaslandırılması hazırlanır. Əminəm ki, bu sənəd çoxəhatəli olacaq və layihənin həyata keçirilməsinə başlamağımıza imkan verəcəkdir.

İlk sınaq neftinin nəql edilməsinə gəldikdə, bu məsələ lap yaxın vaxtlarda gerçəkləşə bilər. Bunun üçün müəyyən işlər aparılmalıdır. Ümumiyyətlə, Azərbaycanın neft potensialı nefti müxtəlif istiqamətlərdə nəql etməyə imkan verir. Mənim fikrimcə, biz bu layihəni praktikada testləşdirmək üçün yaxın vaxtlarda neftin sınaq nəqlinə başlayacağıq. Əlbəttə, texniki-iqtisadi əsaslandırma bu layihənin kommersiya baxımından cəlbediciliyi barədə tam təsəvvür əldə etməyə imkan verəcəkdir. Lakin mən əminəm ki, texniki sınaqlar, yəni neftin praktiki nəql edilməsi daha tam mənzərə yaradacaqdır. Biz buna hazırıq və buna çalışırıq. Fikrimcə, yaxın vaxtlarda bütün texniki məsələlər, xüsusən Xəzər neftinin Qara dəniz limanlarına çatdırılması yolları barə-

də razılıq əldə ediləndən sonra biz ilk addımlar atmağa başlayacağıq.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Sizin fikrinizcə, Azərbaycan–Ukrayna münasibətləri regional əməkdaşlığın inkişaf etdirilməsi işinə nə kimi töhfə verir?**

**V i k t o r  Y u ş ş e n k o**: Biz belə hesab edirik ki, bu bizim ikitərəfli münasibətlərimizin mühüm tərkib hissələrindən biridir. Biz qonşu ölkələr deyilik. Buna görə də regionda iqtisadi, işgüzar, siyasi münasibətlərimizin necə formalaşması çox vacibdir. Bizim ikitərəfli münasibətlərimizin xeyli hissəsi də bundan asılıdır, ona görə də biz bu baxımdan fəal birgə və regional siyasət yeridirik. Artıq qeyd etdiyim kimi, biz bütün əsas məsələlərdə – iqtisadi, siyasi və təhlükəsizlik siyasəti məsələlərində, bir qayda olaraq, ümumi mövqelərdən çıxış edirik.

İlk növbədə onu qeyd etmək istərdim ki, GUAM çərçivəsində bir neçə iqtisadi, o cümlədən enerji və tranzit layihələri həyata keçirilir. «Vikinq» layihəsinin inkişafından danışırıq. Bu layihə xalis regional xarakter daşıyır. Hazırda həmin layihənin genişləndirilməsi, neftin nəql edilməsinə və onun Baltik dənizindən Qara dənizə və Xəzər dənizinə çatdırılmasına nəzarət edəcək rəsmi hüquqi şəxsin yaradılması məsələsinə baxılır. Bu mənada Azərbaycan əsas iştirakçılardan biridir. Tranzitin bu hissəsini inkişaf etdirmək üçün Moldovaya və Gürcüstana da müvafiq təkliflər göndərilmişdir.

Enerji layihələrindən danışırıqsa, Avrasiya neft nəqli dəhlizinin təşkili barədə suala cənab Prezidentin necə cavab verməsinin şahidi oldunuz, biz bu məsələnin yekun mərhələsindəyik. Bu layihənin texniki-iqtisadi əsaslandırılması haqqında məruzənin birinci hissəsi may ayında təqdim edilmişdir. Oktyabr ayında Bakıda keçiriləcək 4-cü enerji sammiti zamanı neft kəmərinin bütün marşrutu üzrə bu layihənin texniki-iqtisadi əsaslandırılmasına dair tam hesabat təqdim ediləcəkdir. Həmin sənədin müsbət olacağına şübhə yoxdur, çünki may ayında təqdim edilmiş məruzə də bütün-

lüklə bu layihənin iqtisadi baxımdan yüksək səviyyədə olmasını əsaslandıran müsbət məqamlardan ibarət idi. Həmin layihə çərçivəsində bir sıra mühüm məsələlər, o cümlədən Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və bir sıra digər tərəfdaş ölkələrin ərazisində müştərək tarif və tranzit siyasəti məsələləri həll edilir.

Mənim fikrimcə, təhlükəsizlik siyasəti regional siyasətin çox mühüm elementidir. Biz GUAM iştirakçısı olan ölkələrin milli təhlükəsizliyi ilə bağlı məsələləri müntəzəm olaraq GUAM-ın gündəliyinə daxil edirik. Bu məsələ ilə əlaqədar GUAM ölkələrində mövcud gərginlik nöqtələrinə biz çox həssaslıqla yanaşırıq. Dağlıq Qarabağ barədə məsələnin müsbət həllini Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Ukraynanın necə dəstəkləməsinin şahidi olduq. Bu onu göstərir ki, həm Ukrayna, həm də Azərbaycan bu və ya digər aktual məsələlərin – təhlükəsizlik siyasəti, bizim ticarət və iqtisadi münasibətlərimiz, tranzit sahəsində əməkdaşlıq məsələlərinin həllinə sabit münasibət bəsləyir, bu sahədə onların baxışları formalaşmışdır.

Biz onu əsas götürürük ki, regional komponent bizim ikitərəfli münasibətlərimizin ən həssas komponentlərindən biridir və buna görə də biz həmin komponentin inkişafına çox diqqətlə yanaşırıq.

**İ l h a m  Ə l i y e v:** Regional əməkdaşlıq bizim ikitərəfli münasibətlərimizin mühüm amilidir və biz bu münasibətlərə çox böyük əhəmiyyət veririk. Bu gün biz əməli addımlar atmaqla regional əməkdaşlığı yeni formalarla zənginləşdiririk. Xəzər dənizi – Qara dəniz əməkdaşlığının çox səmərəli və möhkəm formatı artıq yaranmışdır. Bu baxımdan, Odessa–Brodı–Avropa İttifaqı boru kəmərinə dair təşəbbüslər regional əməkdaşlığın tərkib hissəsidir. Biz ümid edirik ki, regional əməkdaşlığın mühüm amili olan energetika iqtisadiyyatın yeni sektorlarının bu sahəyə cəlb edilməsinə şərait yaradacaqdır.

Bu gün biz nəqliyyat, kommunikasiya layihələrinə ciddi əhəmiyyət veririk və bu istiqamətdə çox yaxşı təməl yaradılmışdır. Əminəm ki, burada, Qafqazda və Ukraynada həyata keçirilən təşəbbüslər nəqliyyatın tərkib hissəsinin regional formatda daha mühüm rol oynamasına kömək edəcəkdir. Əlbəttə, gələcəkdə regional əməkdaşlıq ölkələrimizin mövqelərindən asılı olacaqdır. Çünki bizim irəli sürdüyümüz təşəbbüslər əməkdaşlığın möhkəmlənməsinə yönəlmişdir. Biz öz münasibətlərimizin regional amilinə ölkələri bir-birinə yaxınlaşdıracaq, Qafqazda sülhün bərqərar olmasına, təhlükəsizliyə, əlverişli investisiya mühiti yaradılmasına, qarşılıqlı ticarətin inkişafına, yəni ölkələri və xalqları yaxınlaşdıran nə varsa hamısına kömək edəcək amil kimi baxırıq. Biz regional əməkdaşlığın möhkəmləndirilməsini çox ciddi məqsəd kimi qarşıya qoymuşuq.

Kiyevdə keçirilən enerji sammiti iştirakçılarının tərkibi artıq onu göstərir ki, bizim regional əməkdaşlıq Xəzər və Qara dəniz hüdudlarından kənara çıxır. Bütün bunlar regionda əməkdaşlığın yeni elementləridir və ölkələrimizin uğurla inkişaf etməsi üçün çox yaxşı ilkin zəmin yaradır. Biz gələcəkdə də bu istiqamətdə fəal iş aparacağıq. Biz səmərəli, konstruktiv işləyəcəyik ki, təhlükəsizlik sistemi möhkəmlənsin və bizim iqtisadi potensialımızın tam dəyərli reallaşması üçün yeni imkanlar yaradılsın.

# BAKIDA GÖRKƏMLİ UKRAYNA ŞAİRİ TARAS ŞEVÇENKONUN ABİDƏSİNİN AÇILIŞI

*30 iyun 2008-ci il*

*İyunun 30-da Bakının Azadlıq prospekti, 91/23 ünvanında görkəmli Ukrayna şairi Taras Şevçenkonun abidəsinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yuşşenko mərasimdə iştirak etmişlər.*

*Azərbaycan Dövlət xor kapellasının ifasında Taras Şevçenkonun məşhur əsərlərindən biri olan «Dumı moi dumı» əsəri səsləndi.*

*Dövlət başçıları mərasimdə çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Ukrayna–Azərbaycan münasibətlərinin tarixində çox gözəl və əlamətdar bir gündür.

Bu gün Bakıda Ukrayna xalqının böyük oğlu Taras Qriqoryeviç Şevçenkonun abidəsi açılır və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Ukrayna xalqının böyük oğlu Taras Şevçenko həm dahi şair, həm istedadlı rəssam, həm də çox fəal ictimai xadim idi. Milli azadlıq uğrunda mübarizə onun həyat və fəaliyyətinin çox önəmli tərkib hissəsi idi. Azərbaycanda Taras Şevçenkonun xatirəsinə çox böyük hörmət var. Onun, demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Mən çox şadam ki, bu abidənin açılışında bizimlə bərabər mənim dostum Ukrayna prezidenti cənab Viktor Yuşşenko da iştirak

edir. Bu abidənin açılışının Ukrayna–Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün çox önəmli rolu vardır.

Bu gün Ukrayna prezidentinin Azərbaycana işgüzar səfəri çərçivəsində ikitərəfli münasibətlər bir daha təhlil edilmiş və gələcək əməkdaşlıq haqqında vacib qərarlar qəbul edilmişdir. İki ölkə arasında əlaqələr çox sürətlə inkişaf edir. Bildiyiniz kimi, keçən ay mən Ukraynada rəsmi səfərdə olmuşdum, bu gün Ukrayna prezidenti bizim qonağımızdır. Bütün bunlar onu göstərir ki, bizim aramızda çox səmimi dostluq münasibətləri vardır və bu münasibətlər gündən-günə inkişaf edir.

Keçən ay Ukraynada rəsmi səfərim çərçivəsində mənə Taras Şevçenkonun adını daşıyan Ukrayna Dövlət Universitetinin Fəxri doktoru adı verilmişdir. Bu mənim üçün çox böyük şərəfdir. Çünki bu ali məktəb dünya səviyyəsində çox məşhurdur. Çox şadam ki, Ukrayna Dövlət Universitetində azərbaycanlı tələbələr də oxuyurlar. Bakı Slavyan Universitetində isə azərbaycanlı tələbələr Ukrayna dilini öyrənirlər. Bizim aramızda münasibətlər bütün sahələrdə – siyasi, iqtisadi və energetika sahələrində çox sürətlə inkişaf edir. Ancaq bununla bərabər, humanitar sahədə əməkdaşlığın xüsusi önəmi var.

Biz humanitar sahədə əməkdaşlığa çox böyük əhəmiyyət veririk və hesab edirəm ki, Taras Şevçenkonun abidəsinin açılışı bu istiqamətdə çox önəmli bir addımdır. Bizim xalqlarımızın bir-birinə çox böyük rəğbəti vardır və bu abidə bu rəğbətin nümayişidir. Taras Şevçenko milli azadlıq uğrunda mübarizə aparmışdır və çox əlamətdar hadisə ondan ibarətdir ki, bu küçə də Azadlıq prospektidir. Amma bu küçənin əvvəlki adı Lenin prospekti idi. Bu da rəmzi xarakter daşıyır. Ukrayna və Azərbaycan xalqları əsrlər boyu müstəqillik uğrunda mübarizə aparmışlar, müstəqillik əldə etmiş və onu itirmişdilər. Ancaq bu gün müstəqil ölkələr kimi, uğurla inkişaf edirlər. Taras Şevçenkonun abidəsinin məhz Azadlıq prospektində yerləşməsi xüsusi rəmzi xarakter daşıyır.

Mən, əziz dostlar, bir daha Ukrayna prezidentini və onunla bərabər Bakıya gəlmiş bütün qonaqları, eləcə də Azərbaycan ictimaiyyətini, Azərbaycanda yaşayan Ukrayna icmasının nümayəndələrini bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram.

## Ukrayna prezidenti Viktor Yuşşenkonun çıxışı

Əziz İlham Heydər oğlu!

Əziz Ukrayna icması!

Mən həqiqətən düşünürəm, Ukraynadan bir neçə min kilometr uzaqda olduğum halda Ukrayna icması ilə görüşmək və bu meydanda Taras Qriqoryeviç Şevçenkonun bəlkə də ən yaxşı əsərlərindən birini – «Mənim düşüncələrim»i oxumaq imkanına malik olmaq necə də gözəldir. Bu gün bizi qeyri-adi və təkcə Ukrayna milləti üçün deyil, inanıram ki, hər iki xalq üçün böyük əhəmiyyət kəsb edən çox gözəl bir hadisə birləşdirir. Bu gün biz millətimizin peyğəmbəri sayılan Taras Qriqoryeviç Şevçenkonun xatirəsinə hörmət və ehtiramımızı bildiririk. Bütün dünyada hamıdan çox bu insanın şərəfinə abidə ucaldılmışdır. Dünyada Taras Qriqoryeviç Şevçenkonun onlarca heykəli var və bu gün biz burada, Bakıda onun daha bir abidəsinin açılışının şahidi olmaq imkanına malikik.

Bizi bu meydana gətirən nədir? Nə üçün biz bu gün Taras Qriqoryeviç Şevçenkonun şəxsiyyətinə bu dərəcədə qayğı ilə yanaşırıq? Mən əminəm ki, 200 il bundan əvvəl nə müstəqil Azərbaycanın, nə də müstəqil Ukraynanın mövcud olmadığı dövrdə, bizim əcdadlarımız müstəqillik arzusu ilə yaşadığı vaxtlarda onların gələcək müstəqilliyi qorumaq və onu dərk etmək üçün bəlkə də ən güclü seçimlərindən biri məhz söz olmuşdur. 200 il bundan əvvəl müstəqil Ukrayna və ya müstəqil Azərbaycan məsələsi yox idi. Lakin 10 ildən, 100 ildən, yaxud 200 ildən sonra bizi bir millət kimi tanıdan dəyərləri necə qoruyub saxlamaq məsələsi gündəmdə idi.

Taras Qriqoryeviç yazırdı: «Bizim düşüncələrimiz, bizim mahnımız ölməyəcək, məhv olmayacaq. Ey insanlar, bizim şöhrətimiz, Ukraynanın şöhrəti bunlardır». Şair 200 il və ya 150 il bundan əvvəl göstərirdi ki, Ukrayna milləti məhz Ukrayna sözünün, Ukrayna ənənələrinin, Ukrayna incəsənətinin, Ukrayna mənəviyyatının vasitəsilə dirçələcəkdir. Əminəm ki, bu, 150–200 il bundan əvvəl hər bir insanın suveren Ukrayna üçün verə biləcəyi ən böyük töhfədir.

Biz Taras Qriqoryeviç Şevçenko haqqında təkcə milli böyüklük və milli mənsubiyyət kontekstində danışmırıq. Əminəm, Şevçenkonun qüdrəti ondadır ki, o, hər bir millət üçün vacib olan dəyərləri bu dünyaya bəxş etmiş və tərənnüm etmişdir. Mən əminəm, burada iştirak edənlərin hər birindən Şevçenkonun ondan ötrü kim olmasını soruşsaq, biri onu yüksək səviyyəli sənətkar, bir başqası öz dövrünün ən yaxşı nəqqaşı adlandıracaqdır. Çünki o, Sankt-Peterburq Rəssamlıq Akademiyasının fərqlənmə diplomunu almışdır. Burada iştirak edənlərdən kimsə deyə bilər ki, Şevçenko öz millətinin iradəsini və azadlığını hamıdan yaxşı tərənnüm edirdi, bir başqası deyər ki, o, əla şair olmuşdur. Biri də deyər ki, o öz dövrünün böyük filosofu idi. Bu adamların hamısı haqlı olar. Ona görə ki, Şevçenkonun şəxsiyyətində bu cavabların hər biri, dediklərimin hamısı təcəssümünü tapmışdı. Əminəm ki, Taras Qriqoryeviç Şevçenkonun obrazında biz bütün bəşəriyyətə xidmət etmiş bir dahi görürük. Ona görə də bugünkü hadisə, heç şübhəsiz, İlham Heydər oğlunun Ukrayna millətinə böyük ehtiramının ifadəsidir. Bu, Ukrayna və Azərbaycan xalqları arasında ikitərəfli münasibətlərə böyük hörmətin təzahürüdür. Bu bizim hansı milləti təmsil etməyimizdən asılı olmayaraq, bizi bir-birimizə yaxınlaşdıran dəyərlərə töhfədir.

Bu gün biz elə böyük bir insan haqqında danışırıq ki, onun bəxş etdiyi və tərənnüm etdiyi dəyərlərlə təkcə Ukrayna milləti yaşamır. Buna görə də mən fürsətdən istifadə edib bir il bundan əvvəl bu layihənin həyata keçirilməsi barədə

razılığa gəldiyimizə görə İlham Heydər oğluna təşəkkürümü bildirmək istəyirəm. On iki ay keçdi və biz bütün məsələləri həll etdik. Əminəm ki, bu gün bu möhtəşəm prospektdə ucalan bu abidə həm müstəqil Ukraynanı, həm də müstəqil Azərbaycanı tərənnüm edir. Mən Bakı şəhərinin rəhbərliyinə, heykəltəraşa və layihə müəlliflərinə, bugünkü hadisəyə aidiyyəti olan insanların hamısına təşəkkür etmək istəyirəm. İşiniz uğurlu olsun. Mən bu gün əllərində Ukraynanın dövlət bayraqlarını tutub, bu meydanda dayanan insanların hamısına Ukrayna milləti adından, Ukrayna xalqı adından dərin təşəkkürümü bildirirəm. Ukrayna icmasını burada görmək mənim üçün böyük şərəfdir.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yuşşenko abidənin üzərindəki örtüyü götürdülər. Dövlət başçıları Taras Şevçenkonun abidəsi önünə əklillər qoydular.*

*Prezident İlham Əliyev və prezident Viktor Yuşşenko abidənin müəllifi, Ukraynanın tanınmış heykəltəraşı İqor Qreçanikə bu gözəl işinə görə təşəkkür etdilər.*

*Dövlət başçıları Taras Şevçenkonun abidəsinin açılış mərasimində iştirak edən Ukrayna diasporunun çoxsaylı nümayəndələri ilə səmimi söhbət etdilər. Ukrayna icmasının üzvləri Azərbaycanda yüksək tolerantlıq şəraitinin hökm sürdüyünü vurğuladılar, onların öz doğma mədəniyyətinə yiyələnməsi, milli özünəməxsusluğu qoruyub saxlaması üçün yaradılmış şəraitə görə ölkəmizin rəhbərliyinə təşəkkür etdilər.*

*Ukraynanın dövlət strukturlarında məsul vəzifələr tutan, Bakıya məxsusi olaraq iki qardaş xalqın tarixində bu əlamətdar hadisədə iştirak etmək üçün gəlmiş azərbaycanlılar da prezident İlham Əliyevi və prezident Viktor Yuşşenkonu salamladılar.*

## BAKIDA UKRAYNA SƏFİRLİYİ ÜÇÜN TİKİLƏCƏK BİNALARIN LAYİHƏLƏRİ İLƏ TANIŞLIQ

*30 iyun 2008-ci il*

*İyunun 30-da Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yuşşenko Bakıda Ukraynanın yeni səfirliyi üçün ayrılan əraziyə baxmış və burada tikiləcək binaların layihələri ilə tanış olmuşlar.*

*Ukrayna səfirliyi üçün ayrılan ərazi Xətai rayonunda, Katolik kilsəsinin yaxınlığında, İzzət Orucova və Nəcəfqulu Rəfiyev küçələrinin arasında yerləşir. Sahəsi 0,9 hektar olan ərazidə səfirliyin binası ilə yanaşı, konsulluq, texniki və yaşayış binalarının inşası da nəzərdə tutulmuşdur.*

*Dövlət başçılarına məlumat verildi ki, paytaxtın abadlaşdırılan və yeni, müasir tikintilərlə zəngin olan bu ərazisində inşa olunacaq səfirlik kompleksi üçün 2 layihə hazırlanmışdır. Azərbaycan memarlarının təklif etdiyi layihələr Ukrayna və Azərbaycan memarlıq üslublarını özündə birləşdirir.*

*Dövlət başçılarına səfirlik kompleksinin eskizləri təqdim olundu. Klassik memarlıq üslubunda hazırlanmış birinci layihədə ənənəvi yerli materiallardan və Ukraynanın qırmızı qranitindən istifadə olunması nəzərdə tutulur. Modern üslubda işlənmiş ikinci layihə isə forma etibarilə fərqlənməklə yanaşı, müasir üzlüklər – şüşə və metal materiallardan geniş istifadəni tələb edir.*

*Kompleksin mərkəzində 440 kvadratmetr ərazini əhatə edən səfirliyin üçmərtəbəli binası yerləşəcəkdir. Digər üçmərtəbəli konsulluq binası üçün 210 kvadratmetr sahə ayrılıb. 463 kvadratmetr ərazini əhatə edən yaşayış binasında diplomatik*

*korpusun əməkdaşları, Ukraynanın Azərbaycanda fəaliyyət göstərən müəssisələrində çalışan nümayəndələri yaşayacaqlar. Doqquzmərtəbəli, ikibloklu binanın birinci mərtəbəsində Ukrayna Mədəniyyəti və Sərgi Mərkəzi fəaliyyət göstərəcəkdir. Səfirliyin ərazisində ikimərtəbəli texniki bina da inşa ediləcəkdir. Bina idman-istirahət kompleksi üçün nəzərdə tutulub.*

*Dövlət başçılarına ərazidə aparılacaq abadlaşdırma işləri barədə də məlumat verildi və bildirildi ki, burada yaşıllıq salınacaq və istirahət üçün hər cür şərait yaradılacaqdır.*

*Prezidentlər layihələr və görüləcək işlərlə bağlı tövsiyələrini verdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yuşşenko burada xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCANDA «UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİ»NİN AÇILIŞI

*30 iyun 2008-ci il*

*İyunun 30-da M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda «Ukrayna mədəniyyəti günləri»nin açılışı münasibətilə konsert olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna prezidenti Viktor Yuşşenko konsertdə olmuşlar.*

*Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Ukrayna incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna prezidenti Viktor Yuşşenkonun adından incəsənət ustalarına gül çələngləri təqdim edildi.*

*Konsertdən sonra filarmoniyanın foyesində Azərbaycan prezidenti İlham Əliyevə Taras Şevçenkonun Bakıda ucaldılmış abidəsinin maketi təqdim olundu. Abidənin müəllifi, ukraynalı heykəltəraş İqor Qreçanik dedi ki, azadlıq mübarizi Taras Şevçenkonun abidəsinin maketinin Azərbaycan prezidentinə təqdim olunması rəmzi xarakter daşıyır.*

*Taras Şevçenkonun Bakıda abidəsinin açılmasını əlamətdar hadisə adlandıran dövlətimizin başçısı uğurlu işinə görə müəllifi təbrik etdi.*

*Bakı Slavyan Universitetinin rektoru, yazıçı Kamal Abdulla Azərbaycan və Ukrayna prezidentlərinə lüğət təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

*1 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUAM dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün iyulun 1-də Gürcüstanın Batumi şəhərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Batumi hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Gürcüstan prezidenti Mixeil Saakaşvili səmimiyyətlə qarşıladı.*

*Milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstələri təqdim etdilər.*

*Gürcüstanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Gürcüstan prezidenti Mixeil Saakaşviliyə təqdim olundu.*

## GUAM DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Gürcüstanın Batumi şəhərindəki «İntourist Palace» mehmanxanasında GUAM dövlət başçılarının zirvə görüşünün plenar iclası keçirilmişdir.*

*İclasda GUAM-ın üzvü olan ölkələrin dövlət başçıları – Azərbaycan prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Ukrayna prezidenti Viktor Yuşşenko və Moldovanın Daxili İşlər naziri Valentin Mejinski, habelə qonaqlar – Polşa prezidenti Lex Kaçinski, Litva prezidenti Valdas Adamkus, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Devid Merkel, Çexiyanın, Rumıniyanın, Yaponiyanın, Beynəlxalq Avtonəqliyyat İttifaqının, MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak etmişlər.*

*Ümumiyyətlə, zirvə görüşündə müxtəlif ölkələrdən 25-dək nümayəndə iştirak etmişdir.*

*Zirvə görüşünü Gürcüstan prezidenti Mixeil Saakaşvili açaraq tədbirin iştirakçılarını salamladı, sözü GUAM-a sədrlik edən Azərbaycan prezidenti İlham Əliyevə verdi.*

*Yüksək qonaqpərvərliyə və təşkilatçılığa görə Gürcüstan tərəfinə minnətdarlıq edən Azərbaycan prezidenti İlham Əliyev dedi ki, GUAM-ın keçən ilin yayında Bakıda keçirilmiş sammitindən sonra təşkilata Azərbaycan sədrlik edir. Bu dövrdə müxtəlif sahələrdə, o cümlədən regional, təhlükəsizlik, enerji, nəqliyyat sahələrində əməkdaşlıq genişlənmiş, konkret nəticələr qazanılmışdır.*

*Dövlətimizin başçısı BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair qətnamənin qəbul edilməsində göstərdikləri dəstəyə görə GUAM dövlətlərinə və digər dost ölkələrə minnətdarlıq etdi. Prezident İlham Əliyev münaqişələrdən söhbət açaraq bildirdi ki, GUAM ölkələrindəki münaqişələr beynəlxalq hüququn normaları əsasında, dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.*

*Azərbaycan prezidenti İlham Əliyev GUAM çərçivəsində əməkdaşlıq məsələsinə toxundu, Xəzər dənizi, Qara dəniz və Baltik dənizi bölgələri ölkələri arasında əməkdaşlığın genişləndiyini bildirdi, bu bölgələrdə enerji və nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində son vaxtlar böyük irəliləyişlərin olduğunu qeyd etdi. Dövlətimizin başçısı Odessa–Brodı–Qdansk boru kəməri ilə bağlı layihələrin uğurla davam etdiyini dedi. Prezident İlham Əliyev bildirdi ki, növbəti enerji sammiti bu ilin noyabrında Bakıda keçiriləcəkdir. Azərbaycanın enerji hasilatını artırdığını bildirən dövlət başçısı regional nəqliyyat layihələrindən söhbət açdı, bildirdi ki, Bakı–Tbilisi–Qars dəmir yolu dəhlizi ilə bağlı iş gedir. Bu layihə təkcə üç ölkəni deyil, eyni zamanda, Avropa və Asiyanı birləşdirir. Azərbaycan prezidenti ölkəmizdə demokratik inkişaf proseslərindən də danışdı.*

*Dövlətimizin başçısı GUAM-a sədrliyin Gürcüstana keçdiyini elan etdi və bu işdə dost ölkəyə uğurlar arzuladı.*

*Sonra Gürcüstan prezidenti Mixeil Saakaşvili çıxış etdi, Azərbaycana GUAM-a sədrlik dövründə göstərdiyi səylərə görə təşəkkürünü bildirdi, Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğuladı. GUAM çərçivəsində əməkdaşlıqdan danışan Gürcüstan prezidenti bildirdi ki, GUAM ölkələrinin ərazilərindəki münaqişələrin həlli çox vacibdir. Regionun daha da inkişafı baxımından bu münaqişələr yalnız və yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.*

*Sonra Ukrayna prezidenti Viktor Yuşşenko çıxış etdi, GUAM-a sədrlik dövründəki işlərinə görə Azərbaycan prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi. Qeyd etdi ki, son*

*vaxtlar GUAM-ın fəaliyyəti daha da genişlənmişdir. GUAM ölkələrinin qarşılıqlı ticarət dövriyyəsinin həcminin artması buna əyani sübutdur. Ukrayna prezidenti enerji dəhlizlərinin reallaşmasında Azərbaycanın əhəmiyyətini xüsusi vurğuladı. GUAM məkanındakı münaqişələrin həllinə toxunan Ukrayna prezidenti bu münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini qeyd etdi. V.Yuşşenko bəyan etdi ki, Ukrayna Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyünü dəstəkləyir.*

*GUAM dövlət başçılarının zirvə görüşündə Azərbaycan prezidenti İlham Əliyev nitq söyləmişdir*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əvvəlcə mən cənab prezident Saakaşviliyə və bütün gürcü dostlarımıza zirvə görüşünü əla təşkil etdiklərinə və səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan GUAM-da sədrliyə başladığı Bakıdakı son zirvə görüşündən sonra biz önəmli işlər yerinə yetirmişik.

Biz regional əməkdaşlıq, regionda təhlükəsizlik məsələləri, enerji əməkdaşlığı, nəqliyyat, humanitar fəaliyyət sahələrində sıx işləyirik və bütün sahələrdə praktiki nəticələr görürük.

Biz Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı ölkəmizin BMT-nin Baş Məclisində irəli sürdüyü qətnaməyə verdikləri dəstəyə görə GUAM-ın üzv-ölkələrinə və digər dostlarımıza minnətdarlığımızı bildiririk. Ümumiyyətlə, ölkələrimizin ərazi bütövlüyünə beynəlxalq ictimaiyyətin və region ölkələrinin verdiyi dəstək çox vacibdir. Ümid edirik ki, ölkələrimizdə mövcud olan münaqişələr beynəlxalq hüquq və ölkələrimizin ərazi bütövlüyü prinsipi əsasında həll olunacaqdır. Bu, münaqişələrin həll olunmasının yeganə yoludur.

Münaqişələrin bizim üçün çox böyük siyasi, iqtisadi, sosial və mənəvi ağırlıq olması faktına baxmayaraq, Azərbaycan uğurlu inkişaf yoluna nail olub. İqtisadi nailiyyətlər və

sosial problemlərin həlli sahəsindəki nəticələr ölkəmizdə tamamilə yeni vəziyyət yaradır. Biz dostlarımız və tərəfdaşlarımızla regional əməkdaşlıq üzərində sıx işləyirik. Bu gün biz Xəzər dənizi–Qara dəniz–Baltik dənizi regionları arasında enerji, daşıma sahələrində və yaxud siyasi sahədə regional əməkdaşlıq üçün çox yaxşı perspektivlərə malikik. İqtisadi münasibətlərimiz genişlənir. Bütün bunlar gələcək əməkdaşlıq üçün çox yaxşı əsaslar yaradır.

Əlbəttə ki, enerji dəhlizlərinin yaradılması regionların bir araya gətirilməsi istiqamətində atılmış əsas addım oldu. Bu gün biz həmin əməkdaşlığın praktiki nəticələrini görürük. Odessa–Brodı–Qdansk boru kəməri layihəsi uğurla irəliyə doğru aparılır. Ümid edirik ki, bu ilin payızında Bakıda keçiriləcək enerji sammitində biz əməkdaşlığın ilk əməli nəticələrinin şahidi olacağıq.

Azərbaycan özünün neft və qaz hasilatını artırır, neft və qazı dünya bazarlarına çatdıran bütün boru kəmərlərindən istifadə edir. İstehsalçı ölkələr ilə istehlakçı ölkələr arasında maraqların tarazlığı səmimi regional əməkdaşlıq üçün ilkin şərtdir. GUAM nümunəsi və zirvə görüşlərimizdə qonaqlarımızın tez-tez iştirakı maraqların tarazlığının mümkünlüyünü aydın şəkildə nümayiş etdirir. Dostluq, tərəfdaşlıq və strateji baxışlara əsaslanan həmin maraqlar tarazlığı davamlı və uzunmüddətli uğura zəmin yarada bilər.

Bu gün biz daşıma məsələləri üzərində çalışırıq. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin tikintisi bütün region ölkələri üçün əlavə imkanlar yaradacaqdır. Bu nəinki bizim ölkələrimizi, o cümlədən Asiya ilə Avropanı bir-biri ilə birləşdirəcək dəmir yolu xətti olacaqdır. Ona görə biz ölkələrimizdə qlobal transmilli enerji daşıyıcılarının nəqli layihələri, siyasi dəyişikliklər, demokratikləşmə sisteminin, güclü siyasi sistemin yaradılması üzərində uğurla işləyirik. Biz forumlarımızda iştirak edən ölkələrə, ölkə başçılarına minnətdarıq. Onlar təşəbbüslərimizə verdikləri fəal dəstəklə bütün təşəbbüslərimiz üçün münasib şərait yaradırlar. Bu gün Polşa və

Litva prezidentləri aramızdadır. Biz Polşa–Litva təşəbbüsü sayılan Krakov təşəbbüsünü belə bir xüsusi formatda birgə irəli sürdük. Bu gün həmin format uğurla inkişaf etdirilir. Əminəm ki, gələcəkdə onun iştirakçıları daha çox olacaqdır.

Ümumiyyətlə, hesab edirəm ki, keçən ilin iyun ayında keçirilmiş sonuncu zirvə görüşü və Vilnüsdəki yubiley görüşümüzdən sonrakı dövr əməkdaşlığımız üçün çox faydalı və uğurlu olmuşdur. Çox şadam ki, Azərbaycanın sədrliyi dövründə birillik müddət üçün planlaşdırılan bütün nəticələr əldə olunmuşdur.

Bu gün biz məmnunluq hissi ilə sədrliyi Gürcüstana təhvil veririk. Əminəm ki, Gürcüstanın sədrliyi ölkələrimiz və tərəfdaşlarımız arasında münasibətlərin daha da genişlənməsinə və əməkdaşlığın dərinləşməsinə imkan yaradacaqdır.

Çox sağ olun.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də «Babokvati» hökumət iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişlənməsindən məmnunluq ifadə olundu.*

*GUAM-ın Batumidə keçirilən sammitinin əhəmiyyətinin vurğulandığı görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının möhkəmləndiyi qeyd olundu.*

*Görüşdə dövlət başçıları Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə etdilər.*

## POLŞA PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GÖRÜŞ

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Batumidə «İntourist Palace» mehmanxanasında Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin genişlənməsindən məmnunluq ifadə olundu. Bu cür yüksək səviyyədə görüşlərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində əməkdaşlığının inkişaf etdiyi qeyd olundu.*

*Bildirildi ki, Azərbaycan–Polşa əlaqələri Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı baxımından da əhəmiyyətlidir. Dövlət başçıları əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etdilər.*

## GUAM–POLŞA GÖRÜŞÜ

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Batumidə «İntourist Palace» mehmanxanasında GUAM–Polşa görüşü keçirilmişdir.*

*Görüşü Gürcüstan prezidenti Mixeil Saakaşvili açdı.*

*Polşa prezidenti Lex Kaçinski çıxış edərək ölkəsinin GUAM dövlətləri, o cümlədən Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Prezident Lex Kaçinski xüsusi vurğuladı ki, Polşa GUAM məkanındakı münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Polşa Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ərazisidir.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə çıxış etdi. Dövlətimizin başçısı GUAM–Polşa münasibətlərinin inkişafından və regional əməkdaşlıqdan danışdı. Azərbaycan prezidenti Polşa prezidenti tərəfindən GUAM–Polşa münasibətlərinin inkişafına göstərilən dəstəyə görə, ona minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanın GUAM-a sədrliyi dövründə görülmüş işlərdən də danışdı və sonda ümid etdiyini bildirdi ki, bu görüş GUAM–Polşa əməkdaşlığının genişlənməsinə töhfə verəcəkdir.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKEL İLƏ GÖRÜŞ

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Batumidə «İntourist Palace» mehmanxanasında Azərbaycan prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Devid Merkel ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi. Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.*

## BATUMİDƏ GÜRCÜ AİLƏSİNİN MƏNZİLİNDƏ AZƏRBAYCAN QAZI YANDIRILMIŞDIR

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə gürcü ailəsinin mənzilində Azərbaycan qazı yandırılmışdır.*

*Binanın sakinləri Azərbaycan və Gürcüstan prezidentlərini alqışlarla qarşıladılar.*

*Dövlət başçıları Batumi şəhərinin Qaydar Abaşidze küçəsindəki 2 nömrəli evin 21-ci mənzilində Azərbaycan qazı ilə təchiz olunmuş qaz plitəsini yandırdılar.*

*Sonra prezidentlər mənzilin sakinləri ilə çay süfrəsi arxasında söhbət etdilər.*

*Gürcüstan prezidenti Mixeil Saakaşvili bu mənzilə ilk dəfə qaz verildiyini bildirdi, bunun Batumi sakinləri üçün nə qədər mühüm əhəmiyyət kəsb etdiyini söylədi.*

*Xoşməramlı tədbirdən məmnunluğunu ifadə edən prezident İlham Əliyev Batumiyə Azərbaycan qazının verilməsini tarixi hadisə kimi qiymətləndirdi, bunun yerli əhalinin məişət şəraitinin yaxşılaşdırılmasına əsaslı töhfə olduğunu vurğuladı. Dövlətimizin başçısı Batumiyə qaz verilməsini Azərbaycan–Gürcüstan dostluğu və əməkdaşlığının bariz nümunələrindən biri kimi dəyərləndirdi, belə böyükhəcmli layihənin qısa müddətdə həyata keçirildiyini dedi. Prezident İlham Əliyev Gürcüstanın qazlaşdırılmasında yaxından iştirak edən Azərbaycandan qonşu ölkəyə ixrac edilən qazın həcminin artdığını bildirdi.*

*Prezident Mixeil Saakaşvili Batumi şəhərinin XIX əsrin sonu və XX əsrin əvvəllərində məhz Bakının sürətli inkişafı ilə əlaqədar böyüdüyünü və inkişaf etdiyini xatırlatdı. O, Azərbaycandakı sürətli inkişafın yenidən Batuminin də inkişafına təkan verdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında yüksək səviyyəli əlaqələrin və mehriban qonşuluq münasibətlərinin bundan sonra da genişlənəcəyini və daha da möhkəmlənəcəyini bildirdi.*

*Mənzilin sakinləri də Azərbaycan – Gürcüstan münasibətlərinin inkişafından razılıqlarını ifadə etdilər, onlara yaxından dəstəyə görə Azərbaycan dövlətinin başçısına minnətdarlıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev Azərbaycandan Gürcüstana təbii qazın verilməsi ilə yanaşı, bu ölkədə də qazlaşdırmanı Azərbaycan Dövlət Neft Şirkəti kimi nüfuzlu bir qurumun yerinə yetirməsindən razılığını vurğuladı.*

*Mənzilin sahibi Tamuna Sioridze dost ölkələrimizin dövlət başçılarını öz evində qəbul etməkdən şad olduğunu dedi, Azərbaycan və Gürcüstan prezidentlərinə dərin minnətdarlığını bildirdi.*

*Sonra dövlət başçıları bu əlamətdar hadisə münasibətilə ev sahibinə təbriklərini və ən xoş arzularını yetirdilər.*

## BİRGƏ MƏTBUAT KONFRANSI

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Batumidə GUAM sammitinin plenar iclası başa çatdıqdan sonra dövlət başçılarının birgə mətbuat konfransı olmuşdur.*

*Mətbuat konfransını Gürcüstan prezidenti Mixeil Saakaşvili açmışdır. Zirvə görüşündə vacib məsələlərin müzakirə olunduğunu bildirən Gürcüstan prezidenti Batumi sammitinin uğurla keçdiyini qeyd etdi. Bildirdi ki, GUAM üzv və tərəfdaş ölkələrin əməkdaşlığı üçün əhəmiyyətli təşkilatdır.*

*Ukrayna prezidenti Viktor Yuşşenko təşkilat daxilində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi və bildirdi ki, bu sammitdə qəbul edilən qərarlar münasibətlərin dərinləşdirilməsi və inkişafı baxımından mühüm addım hesab olunmalıdır.*

*Sammitin təşkilinə və qonaqpərvərliyə görə Gürcüstan prezidenti Mixeil Saakaşviliyə təşəkkür edən Azərbaycan prezidenti İlham Əliyev bugünkü zirvə görüşünün GUAM-ın gələcək inkişafı baxımından əhəmiyyətli olduğunu bildirdi. GUAM-ın bir təşkilat kimi, əhəmiyyətinin getdikcə artdığını bildirən Azərbaycan prezidenti qeyd etdi ki, üzv-ölkələr bir-birini dəstəkləyir. Prezident İlham Əliyev bu yaxınlarda BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair qətnamənin qəbulu zamanı GUAM dövlətlərinin ölkəmizi dəstəkləməsini yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı regional təhlükəsizlik məsələlərinə toxundu və Dağlıq Qarabağ münaqişəsinin yaratdığı problemləri diqqətə çatdırdı. Qeyd etdi ki, münaqişə nəticəsində bir*

*milyondan artıq insan doğma torpaqlarından didərgin düşüb, onların insan haqları kobud şəkildə pozulub, ərazilərimizin 20 faizi işğal olunub. Prezident İlham Əliyev xüsusi vurğuladı ki, bu münaqişələrin həlli yalnız beynəlxalq hüquq normaları əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində mümkündür. Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğunu, bu əməkdaşlığın enerji sektorunda da davam etdiyini söylədi, qeyd etdi ki, bu gün səhər Azərbaycan qazı Batumi sakinlərinin mənzillərində yandırılmışdır. Bu bizim yüksək səviyyədə olan əməkdaşlığımızın təzahürüdür. Bizim müxtəlif sahələrdə əlaqələrimiz inkişaf edir. Azərbaycanın və Gürcüstanın enerji layihələrində birgə iştirakını diqqətə çatdıran dövlətimizin başçısı bəyan etdi ki, Xəzər dənizi, Qara dəniz və Baltik dənizi hövzəsində yeni əməkdaşlıq təşəbbüsləri vardır.*

*Azərbaycan prezidenti çıxışına «Bizim siyasətimiz regionun təhlükəsizliyinə yönəlib» sözləri ilə yekun vurdu.*

*Polşa prezidenti Lex Kaçinski çıxış edərək GUAM-la əməkdaşlığın ölkəsi üçün böyük önəm daşıdığını qeyd etdi, enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı. GUAM dövlətlərinin Avropa strukturlarına inteqrasiyasını dəstəklədiyini bildirdi, iqtisadi əlaqələrin inkişafına tərəfdar olduğunu söylədi. Polşa prezidenti qeyd etdi ki, onun ölkəsi GUAM dövlətlərinin ərazi bütövlüyünü dəstəkləyir. Bu ölkələrin ərazi bütövlüyünün pozulması yolverilməzdir.*

*Litva prezidenti Valdas Adamkus çıxış edərək GUAM-ın əməkdaşlıq baxımından əhəmiyyətini vurğuladı, müasir dövrdə münaqişələrin, dövlətin ərazisinin güc yolu ilə tutulmasının yolverilməz olduğunu bildirdi. V.Adamkus münaqişələrin həllinin regionun daha da çiçəklənməsinə və inkişafına şərait yaradacağını qeyd etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Əvvəlcə, mən zirvə görüşünün əla təşkil olunmasına və bizə göstərilmiş qonaqpərvərliyə görə prezident Saakaşviliyə öz minnətdarlığımı bildirirəm və onu təbrik edirəm.

Bu tədbir təşkilatımızın inkişafında vacib bir mərhələ oldu. Azərbaycan ötən il Bakıda GUAM-ın sədrliyini qəbul etdi və biz son bir il ərzində əldə olunmuş nailiyyətləri müzakirə etdik. Bu müddətdə təşkilat daha səmərəli fəaliyyət göstərmişdir. Üzv-ölkələr arasında, o cümlədən zirvə görüşündə qonaq qismində iştirak edən ölkələr arasında münasibətlər uğurla inkişaf edir. Bu gün əminliklə deyə bilərik ki, GUAM səmərəli beynəlxalq təşkilata çevrilib. Biz bir-birimizə beynəlxalq səviyyədə və təşkilatlar çərçivəsində dəstək veririk. Biz hər zaman bir-birimizə yardım etməyə çalışırıq. Bir çox halları nümunə kimi gətirə bilərik ki, ölkələrimiz arasında praktiki əməkdaşlıq qarşılıqlı fayda vermişdir. Biz bir-birimizə bütün siyasi işlərimizdə güclü dəstək veririk. Bu gün mən geniş iclas zamanı bildirdim və yenə də bildirmək istəyirəm ki, Azərbaycan BMT-nin Baş Məclisində ölkəmizin işğal olunmuş əraziləri ilə bağlı irəli sürdüyü qətnaməyə dəstək vermiş bütün ölkələrə olduqca minnətdardır. GUAM-ın bütün üzvləri həmin qətnamənin lehinə səs vermişlər. Eyni birlik və həmrəyliyi biz Gürcüstanın öz ərazi bütövlüyü ilə bağlı qətnaməsi irəli sürüləndə gördük.

Regional təhlükəsizlik məsələlərinə göz yummaq olmaz. Çünki gələcək inkişafımız, iqtisadi və sosial tərəqqi məhz regional təhlükəsizlik məsələsindən asılıdır. Bu gün ölkələrimizin ərazi bütövlüyü pozulub. Gürcüstan və Azərbaycan etnik təmizləmə siyasətindən əziyyət çəkir. Bu siyasətin nəticəsində yüz minlərlə vətəndaşımız məcburi köçkün vəziyyətinə düşmüşdür. Onlar mülkiyyətindən, adi insan hüquqlarından məhrum olmuşlar. Bu gün bir milyon insan təcavüz, işğal, separatçılıq və ərazi bütövlüyünün pozulma-

sından əziyyət çəkir. Biz ərazi bütövlüyünün bərpa edilməsi səylərində həmrəyik. Azərbaycanda biz məsələni siyasi yolla həll etməyə çalışırıq. Lakin onun həlli yalnız ərazi bütövlüyü prinsipi və beynəlxalq hüquq normaları əsasında tapılmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün əlimizdən gələni edirik. Bu səbəbə görə, regional təhlükəsizlik məsələsi böyük diqqət tələb edir. Bugünkü sammitdə qəbul olunmuş sənədlər ölkələrimiz arasında gələcək əməkdaşlıq üçün çox əhəmiyyətlidir.

Artıq dostum prezident Saakaşvilinin qeyd etdiyi kimi, bu gün səhər biz Batumidə yaşayan bir gürcü ailəsinə baş çəkdik. Bizim çox səmimi görüşümüz oldu. Mən bunu mərasim yox, məhz görüş adlandırıram. Bu, adi ailənin prezidentlər ilə keçirdiyi səmimi görüşü idi. Azərbaycan qazı artıq Batumiyə çatmışdır. Bu, tarixi hadisədir. Bu, tarixdə ilk dəfə idi ki, baş verirdi, çünki bildiyimə görə, əvvəllər bu yerlərdə qaz olmamışdır. Beləliklə, bundan sonra Batumi və onun ətraf yerlərində yaşayan sakinlər təbii qaz almağa başlayacaqlar. Bu, yalnız Gürcüstan ilə Azərbaycan arasında aparılan əməkdaşlıq sayəsində mümkün olmuşdur.

Əməkdaşlığımız iqtisadiyyatımıza, siyasi inteqrasiyamıza və təhlükəsizliyimizə, o cümlədən regional əməkdaşlığa böyük təsir göstərir. Biz regionda böyük enerji layihələrini birgə həyata keçirmişik. Əməkdaşlıq regionda siyasi münasibətlər sisteminə güclü təsir göstərir. Artıq sirr deyil ki, enerji təhlükəsizliyi beynəlxalq gündəlikdə duran əsas məsələlərdən birinə çevrilir. Müttəfiqlər, tərəfdaşlar və dost ölkələr kimi, Gürcüstan ilə Azərbaycan enerji təhlükəsizliyi işinə böyük töhfə verirlər. Başladığımız layihələr uğurla həyata keçirilib. İndi isə gündəlikdə daha geniş əməkdaşlığı nəzərdə tutan yeni layihələr var. Hazırda biz Odessa–Brodı–Qdansk layihəsi üzərində Polşa, Ukrayna və Litvadan olan dostlarımızla birgə işləyirik.

Əminəm ki, irəli sürdüyümüz təşəbbüslər sayəsində bir çox ölkələr əhatə olunacaqdır. Beləliklə, regional əməkdaşlıq

regionlar arasında tərəfdaşlığı daha da gücləndirəcəkdir. Bu gün biz artıq bəyan edirik ki, Xəzər dənizi–Qara dəniz–Baltik dənizi regionu enerji təhlükəsizliyinin, nəqletmə marşrutlarının, yeni dəhlizlərin, xalqlar və ölkələr arasında əlaqələrin təşviq olunmasında səylərini birləşdirir. Bu, müxtəlif regionlarda yerləşən ölkələrin birləşməsini nümayiş etdirən əla nümunədir.

GUAM bu əməkdaşlıq üçün çox münasib formatdır. Mən GUAM-ın gələcəyinə inanıram. Əminəm ki, Gürcüstanın təşkilata sədrliyi çox uğurlu olacaq. Gələn birillik dövr ərzində nailiyyətlərimiz daha çox olacaq və bunun nəticəsində tərəfdaşlıq və əməkdaşlığımız güclənəcəkdir.

Mən bütün gürcü xalqına dərin dostluq və qardaşlıq hisslərimi ifadə etmək istəyirəm. Xalqlarımız arasında olan münasibətlərin böyük tarixi var. Bu, dostluq və əməkdaşlıq tarixidir. Biz xoşbəxtik ki, bizim nəsil müstəqil ölkələrdə yaşayır. Əsrlər boyu ata-babalarımız xalqlarımızı müstəqil görmək arzusu ilə yaşayıblar, buna çalışıblar. İndi isə biz bunu görürük. Hazırda biz həmin müstəqilliyimizi və tərəfdaşlığımızı möhkəmləndirmək üçün çalışmalıyıq.

Mən dostum Mixeil Saakaşviliyə qonaqpərvərliyə və əla təşkilatçılıq işlərinə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çox şadam ki, bu zirvə görüşü böyük uğurla nəticələndi və gələcəkdə bir çox görüşləri səmimiyyətlə arzulayıram.

Təşəkkür edirəm.

## DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Batumi*

*1 iyul 2008-ci il*

*İyulun 1-də Batumidə Gürcüstan prezidenti Mixeil Saakaşvilinin adından GUAM zirvə görüşündə iştirak edən dövlət başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

### Səfər başa çatdı

*İyulun 1-də GUAM dövlət başçılarının Batumi zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana səfəri başa çatmışdır.*

*Batumi Hava Limanında dövlətimizin başçısını Acarıstan Muxtar Respublikasının qubernatoru Levan Varşalomidze, GUAM-ın Baş katibi Valeri Çeçelaşvili və digər yüksək vəzifəli şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün gecə Bakıya gəldi.*

*Azərbaycan prezidenti İlham Əliyevi Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli polis əməkdaşları və veteranlar!

Sizi Azərbaycan polisinin yaranmasının 90 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Polis orqanları 90 illik şanlı tarixi ərzində şərəfli yol keçərək dövlətçiliyimizin əsas dayaqlarından birinə çevrilmişdir. 1918-ci il iyulun 2-də asayişi mühafizə dəstələrinin yaradılması ilə təməli qoyulan polis orqanları Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin müstəqilliyinin və daxili asayişin təmin olunmasında mühüm rol oynamışdır. Cümhuriyyətin süqutundan sonrakı 70 il ərzində daxili işlər orqanları sovet dövlətinin siyasətini həyata keçirsələr də, bütövlükdə təcrübə qazanmış, yüksək peşə hazırlığı əldə etmiş və təşkilati cəhətdən möhkəmlənmişdir.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə yaranan mürəkkəb vəziyyət, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü şəraitində siyasi-iqtisadi böhranın dərinləşməsi, qanunsuz silahlı dəstələrin mövcudluğu, qanunların fəaliyyətsizliyi, hərc-mərcliyin və cinayətkarlığın vüsət alması, ölkəyə rəhbərlik edənlərin yaranmış vəziyyətdən çıxış yolu tapa bilməməsi Azərbaycanda dövlətçiliyin itirilməsi təhlükəsinə gətirib çıxarmışdır.

Belə bir şəraitdə 1993-cü il iyunun 15-də xalqın israrlı tələbi ilə siyasi rəhbərliyə qayıdan ümummilli lider Heydər Əliyev qanunçuluq və dövlətçilik prinsiplərini rəhbər tutaraq hökm sürən özbaşınalığa son qoymuş, ölkəmizi vətəndaş müharibəsi təhlükəsindən xilas edərək ictimai-siyasi sabitliyin təmin edilməsinə, Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasına və demokratik hüquqi dövlətin möhkəm əsaslarda qurulmasına nail olmuşdur.

Bu dövr ərzində Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə qətiyyətli addımlar atmış, qanunun aliliyinin, insanların təhlükəsizliyinin təmin olunması, ictimai asayişin qorunması kimi çətin vəzifənin öhdəsindən layiqincə gəlmişdir.

Daxili işlər orqanlarının şəxsi heyəti Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra erməni təcavüzünün dəf edilməsində ön sıralarda vuruşmuş, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşlərdə 932 şəhid vermişdir.

Bu gün Azərbaycan polisi inkişaf və yeniləşmə mərhələsini yaşayır. Müasir dövrün çağırışlarına cavab olaraq aparılan islahatlar nəticəsində onun üzərinə qoyulan vəzifələrin dairəsi genişlənir. Cinayətlərin qarşısının alınması ilə yanaşı, insan hüquq və azadlıqlarının qorunması daxili işlər orqanlarının əsas prioritetlərindən birinə çevrilir. Polis orqanlarının fəaliyyətini təkmilləşdirmək, iş keyfiyyətini, peşə hazırlığını və bilik səviyyəsini artırmaq məqsədi ilə yeni axtarış və informasiya texnologiyaları ilə təmini, maddi-texniki bazanın ən müasir tələblər səviyyəsinə çatdırılması və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görülür. Polisin inkişafına dövlət qayğısı bundan sonra da davam edəcəkdir.

Bu isə öz növbəsində polis orqanlarının məsuliyyətini artırır. Hakimiyyətin nümayəndəsi kimi, xalqa xidmət etməyə borclu olan polis qətiyyəti, peşəkarlığı və mədəniyyəti ilə onun daha böyük inamını qazanmalıdır. Polisin sosial funksiyalarını effektiv yerinə yetirməyə imkan verən, müasir dövrün tələblərinə və dünya təcrübəsinə cavab verən müasir iş metodları tətbiq edilməli, institusional islahatlar davam etdirilməli, cinayətkarlığa qarşı mübarizə daha da gücləndirilməlidir.

Əminəm ki, xalqa, vətənə, dövlətçiliyə və peşə borcuna sadiq olan daxili işlər orqanlarının əməkdaşları bundan sonra da Azərbaycan Respublikasına ləyaqətlə xidmət edəcək, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qo-

runması və ictimai təhlükəsizliyin təmin edilməsində öz vəzifələrini vicdanla yerinə yetirəcəklər.

Sizi bir daha peşə bayramınız münasibətilə təbrik edir, şərəfli və fədakar fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı , *1 iyul 2008-ci il*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ LUİS MARİA DE PUÇUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Avropa Şurası Parlament Assambleyasının sədri Luis Maria de Puçun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Qonaqların zəngin səfər proqramları barədə məlumatlı olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, bu səfər Azərbaycanda gedən proseslər barədə daha geniş informasiya əldə etmək üçün yaxşı imkan yaradacaqdır.*

*Dövlətimizin başçısı bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasının sədri vəzifəsinə seçilən Luis Maria de Puçun ölkəmizə səfərinin əhəmiyyətinə toxunaraq əminliklə qeyd etdi ki, səfər əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Luis Maria de Puç ölkəmizə səfərinin və Azərbaycan prezidenti İlham Əliyevlə görüşünün əhəmiyyətli olduğunu bildirdi. O, cənab İlham Əliyevin Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin rəhbəri olarkən fəaliyyətini xatırlatdı və onun çıxışlarının həmişə maraqla qarşılandığını qeyd etdi.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 iyul 2008-ci il*

*İyulun 2-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycana səfər etmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevi Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər qarşıladılar.*

*Hava limanının ali qonaqlar üçün salonunda prezident Dmitri Medvedev və Baş nazir Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.*

* * *

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidenti Dmitri Medvedevi böyük səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Rusiya prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Dmitri Medvedev Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Rusiya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Dmitri Medvedevə, Rusiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*3 iyul 2008-ci il*

*İyulun 3-də Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Dmitri Anatolyeviç!

Mən Sizi Azərbaycanda ürəkdən salamlayıram, Sizi görməyimə çox şadam. Bu Sizin ölkəmizə ilk səfərinizdir və çox xoşdur ki, Siz prezident vəzifəsində işə başlayandan az sonra Azərbaycana səfər edirsiniz. Bu bizim əməkdaşlığımızın, ölkələrimiz arasında dostluq münasibətlərinin çox yaxşı əlamətidir. Mən əminəm ki, bu səfər çox uğurlu olacaq və münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Bizim çox geniş gündəliyimiz var, qarşılıqlı maraq doğuran məsələlərin əhatə dairəsi genişdir. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaq və fəal surətdə irəliləməyimizə imkan verəcəkdir.

**Dmitri Medvedev:** Hörmətli İlham Heydər oğlu!

Sizin indicə dediklərinizlə tamamilə razıyam. Sankt-Peterburq zirvə toplantısında razılaşdığımız kimi, Sizə qonaq gəlməyimə çox şadam. Çox yaxşıdır ki, Bakıya rəsmi səfərim belə tezliklə baş tutdu. Əminəm ki, danışıqlarımız konstruktiv keçəcək, yaxşı nəticələr verəcəkdir. Bu gün Sizinlə imzalayacağımız bəyannamə və bir sıra sənədlər xalqlarımızın mənafelərinə cavab verəcəkdir.

# AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*3 iyul 2008-ci il*

*İyulun 3-də Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin təkbətək görüşü başa çatdıqdan sonra iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə Azərbaycan–Rusiya danışıqları aparılmışdır.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Sizin bu vəzifədə işə başlamağınızdan az sonra Azərbaycana rəsmi səfər etməyinizi biz çox yüksək qiymətləndiririk. Bu bizim münasibətlərimizin xarakterinin və ruhunun göstəricisidir. Bu səfər ölkələrimiz arasında münasibətləri daha da möhkəmlədəcəkdir. Bu gün biz ikitərəfli və regional xarakterli məsələlərin çox geniş spektrini, beynəlxalq münasibətləri müzakirə etdik. Böyük razılıq hissi ilə qeyd etmək istəyirəm ki, danışıqlarımızın yekunları çox müsbətdir.

Ölkələrimiz arasında münasibətlər ənənələrə, tarixə əsaslanır. Dostluq, mehriban qonşuluq və strateji münasibətlər kimi səciyyələnən bu münasibətlər Azərbaycanın mənafelərinə və əminəm ki, Rusiyanın da maraqlarına tam cavab verir. Mən həmçinin əminəm ki, səfər çox uğurlu olacaqdır. Bizim müzakirə etdiyimiz, planlaşdırdığımız məsələlər, səfərin yekunlarına əsasən imzalayacağımız sənədlər yerinə yetiriləcək və ölkələrimiz arasında münasibətlər yeni səviyyəyə yüksələcəkdir. Bu münasibətlər bundan sonra da tərəf-

daşlıq, strateji və dostluq münasibətləri kimi səciyyələnəcəkdir. Bu, Azərbaycanın milli maraqlarına tam cavab verir. Əminəm ki, bu səfər – Siz Azərbaycanda əvvəllər də olmusunuz, lakin prezident kimi, buraya ilk dəfə gəlmisiniz – və onun nəticələri müsbət olacaq, habelə ölkəmizlə, şəhərimizlə bir daha tanışlıq üçün yaxşı fürsət olacaqdır.

Xoş gəlmisiniz!

**D m i t r i M e d v e d e v:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli həmkarlar!

Əlbəttə, Azərbaycan Qafqazda bizim strateji tərəfdaşımızdır. Mən tamamilə razıyam ki, bizi çoxəsrlik tarixi köklər və indiki tərəfdaşlığımızın xüsusi xarakteri, çox güclü əlaqələr birləşdirir və bu həqiqətən, ən müxtəlif problemlərin həllinə kömək edir. Bununla əlaqədar mən onu da demək istərdim ki, bir müddət əvvəl əmtəə dövriyyəsinin həcmini indiki meyarlarla yüksək səviyyəyə – təxminən 2 milyard dollara çatdırmaq barədə qarşıya qoyduğumuz məqsədə nail olmağa əslində yaxınlaşmışıq. Hətta son dörd ayda əmtəə dövriyyəsinin, demək olar ki, yarıbayarı artması müşahidə olunur. Yəni bu sahədə çox yaxşı potensial var. Onu da qeyd etmək lazımdır ki, söhbət təkcə enerji daşıyıcılarından deyil, həm də intellektual məhsullardan gedir, bu isə ölkələrimizin potensialını yaradır. Ona görə də mən bu səfəri mühüm hadisə hesab edirəm. Zənnimcə, bu gün biz Sizinlə həqiqətən çox mühüm, mürəkkəb, ciddi, lakin çox perspektivli məsələləri – qarşılıqlı əlaqələrimizi, həm ticari-iqtisadi, həm də humanitar sahələrdə əməkdaşlığımızın perspektivli məsələlərini müzakirə etdik. Ümid edirəm ki, bizim həmkarlarımız vaxtı hədər yerə itirməyiblər, indi biz bəzi başqa məsələləri də müzakirə edəcəyik. Müzakirələrin yekunlarına əsasən hazırda əməkdaşlığımızın yüksək səviyyəsini səciyyələndirən müəyyən sayda yeni sənədlər, o cümlədən ölkələrimiz və xalqlarımız arasında dostluğa və qardaşlığa həsr edilmiş birgə bəyannamə imzalanması nəzərdə tutulur. Bizi Azərbaycana dəvət etdiyinizə görə sağ olun.

## SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

*3 iyul 2008-ci il*

*İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Rusiya–Azərbaycan əlaqələrinə dair sənədlər imzalanmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Dostluq və strateji əməkdaşlıq haqqında bəyannaməni imzaladılar.*

*Rusiya Federasiyasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Federal Agentliyi və Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi arasında Dövlət əmlakının özəlləşdirilməsi və idarə edilməsi sahəsində əməkdaşlıq haqqında memorandumu Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov və Rusiya Federasiyasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Federal Agentliyinin rəhbəri Yuri Petrov imzaladılar.*

*Rusiya Federal Gömrük Xidməti və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında Gömrük hüquq pozuntularına qarşı mübarizədə əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov imzaladılar.*

*Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında Tranzit yüklərin salamatlığının təmin edilməsi sahəsində qarşılıqlı fəaliyyət haqqında memorandumu Azərbaycan Respublikasının Daxili İşlər naziri Ramil Usubov və Rusiya Federasiyasının Daxili İşlər naziri Rəşid Nurqaliyev imzaladılar.*

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi arasında Arxivlər sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*3 iyul 2008-ci il*

*İyulun 3-də Azərbaycan–Rusiya əlaqələrinə dair sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Dmitri Medvedev mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Dmitri Anatolyeviç!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən Rusiya prezidentini Azərbaycanda bir daha ürəkdən salamlamaq istəyirəm. Biz Rusiya prezidentinin rəsmi səfərinə çox böyük əhəmiyyət veririk. Əminik ki, bu səfər Rusiya ilə Azərbaycan arasında dostluq, mehriban qonşuluq əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Biz çox səmərəli danışıqlar apardıq, ikitərəfli məsələlərin, regional əməkdaşlıq, beynəlxalq münasibətlər məsələlərinin çox geniş spektrini müzakirə etdik. Məmnuniyyətlə qeyd etmək istərdim ki, gündəliyin bütün bəndləri üzrə bizim mövqelərimiz üst-üstə düşür.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin formatı genişlənir və zənginləşir. Biz siyasi müstəvidə fəal əməkdaşlıq edirik, iqtisadi əlaqələrimiz, əmtəə dövriyyəsi artır, onun strukturu, nəqliyyat və humanitar sahələrdə, təhlükəsizliyin təmin edilməsi və regionumuzda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi sahəsində əməkdaşlıq yaxşılaşır. Bunlar daim müzakirə edilən məsələlərin heç də tam siyahısı deyildir.

Bu gün çox mühüm sənədlər imzalanmışdır, onlar gələcəkdə əməkdaşlığımızın inkişaf istiqamətlərini müəyyən edəcəklər. İmzalanmış sənədlər arasında mən Rusiya ilə Azərbaycan arasında dostluq və strateji tərəfdaşlıq haqqında birgə bəyannaməni xüsusi qeyd etmək istərdim. Bu bəyannamənin adı çox şeydən xəbər verir. Biz bir-birimizi dost ölkələr, bir-birini strateji tərəfdaş adlandıran ölkələr hesab edirik. Bu sadəcə, rəsmiyyət deyil, bizim münasibətlərimizin mahiyyətini əks etdirir.

Bu münasibətlərin möhkəm təməli, dərin tarixi var və bu gün onlar dostluq, mehriban qonşuluq, hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanır. Bəyannamə ikitərəfli əməkdaşlığımızın bütün sahələrini əhatə edir və çox sevindirici haldır ki, Azərbaycanda bir nömrəli məsələ sayılan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də bu bəyannamədə öz əksini tapmışdır. Həmin sənəddə deyilir ki, münaqişə beynəlxalq hüququn prinsip və normaları əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri, ATƏT-in qərarları əsasında, dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun olaraq həll edilməlidir. Biz bu mövqeyinə görə Rusiyaya təşəkkür edirik. Əminik ki, bu mövqe, eləcə də ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiyanın münaqişənin həllində fəal iştirakı öz səmərəsini verəcəkdir.

Bu gün biz ənənəvi və potensial enerji əməkdaşlığı məsələlərini fəal müzakirə etdik. Elektrik energetikası sahəsində əməkdaşlığın zəngin tarixi və yaxşı perspektivləri var, neft-qaz sahəsində əməkdaşlıq da tarixi nailiyyətlərə əsaslanır və bu gün biz qarşılıqlı maraq doğuran, karbohidrogen ehtiyatlarından maksimum səmərə ilə istifadə olunmasına xidmət edəcək yeni layihələri nəzərdən keçiririk.

Xəzər dənizinin statusunun tənzimlənməsi ilə bağlı məsələlər də ölkələrimizi birləşdirir. Biz həm Qafqazda, həm də Xəzərdə qonşuyuq. Regionda proseslərin inkişafı və iqti-

sadi inteqrasiya məsələləri xeyli dərəcədə bizim ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsindən asılıdır.

Bizim münasibətlərimizin humanitar formatı genişlənir. Bu gün mən Dmitri Anatolyeviçə dedim ki, Azərbaycanda təhsilin rus dilində aparıldığı 300-dən çox məktəb var. Onlardan 19-u xalis rus məktəbidir, həmin məktəblərdə tədris yalnız rus dilində aparılır. Bu yaxınlarda Azərbaycanda Moskva Dövlət Universitetinin filialının yaradılması haqqında qərar qəbul edilmişdir. Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır, burada rus dilində çoxlu qəzet nəşr edilir. Başqa sözlə desək, Azərbaycanın rusdilli vətəndaşlarının hərtərəfli inkişafı üçün zəruri olan bütün işlər görülür. Buna görə də əməkdaşlığın humanitar formatı, təbii ki, münasibətlərimizdə mühüm yer tutur. Biz gələcəkdə də bu əməkdaşlığı yeni formalarla və yeni layihələrlə zənginləşdirmək üçün səy göstərəcəyik.

Bir sözlə, ikitərəfli münasibətlərimiz haqqında və onların burada, Qafqazda oynadığı rol haqqında çox danışmaq olar. Mən sizin vaxtınızı almaq istəmirəm. Onu demək istəyirəm ki, müzakirə edilən bütün məsələlər barədə bizim qarşılıqlı anlaşmamız var, nailiyyətləri və ən başlıcası, gələcək perspektivləri ümumi mövqedən qiymətləndiririk. Əminəm ki, səfər uğurlu başladığı kimi, uğurlu da davam edəcək və münasibətlərimizin daha da inkişaf etdirilməsi və dövlətlərimizin daha da yaxınlaşması işində çox mühüm addım olacaqdır.

## Rusiya prezidenti Dmitri Medvedevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, qonaqpərvər Bakıda keçən bu səmərəli görüş üçün Azərbaycan prezidentinə və bütün azərbaycanlı dostlara təşəkkür etmək və Rusiya–Azərbaycan münasibətlərinin vəziyyətinə indicə verilən qiymətlərlə tam razılaş-

dığımı bildirmək istərdim. Biz bütün məsələləri dostcasına, işlərimizin çox yaxşı vəziyyətdə olmasını və gələcək üçün çox əlverişli planlarımızın olmasını nəzərə almaqla müzakirə etdik.

Güman edirəm ki, bu ilin payızında Bakıda keçirilməsi nəzərdə tutulan gənc ifaçılar festivalı yeni istedadları üzə çıxaracaq və mədəni həyatda gözəl, əlamətdar hadisə olacaqdır.

Biz başqa mövzuları da müzakirə etdik. Dağlıq Qarabağ münaqişəsinin həlli problemindən də yan keçmədik. Bu, mürəkkəb prosesdir və biz imkan daxilində onun irəliləməsinə kömək edəcəyik. Bəzi cüzi irəliləyişlər var. Hər halda, biz iyunun 6-da Sankt-Peterburqda Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqların bərpa olunmasını tamamilə dəstəkləyirik. Bir daha vurğulayıram ki, Rusiya bu məsələnin qarşılıqlı məqbul həllinin tapılmasına bundan sonra da kömək edəcəkdir.

İlham Heydər oğlunun qeyd etdiyi daha bir məsələ Xəzər mövzusudur. Biz necə işləməli olmağımız barədə, qarşıdakı zirvə toplantısı haqqında danışdıq. Razılaşdıq ki, zirvə toplantısını onun qəti gündəliyi formalaşandan sonra, o cümlədən Xəzərdə təhlükəsizliyə dair saziş məsələlərinə baxılandan sonra keçirmək lazımdır. Bu, ötən il Tehranda qəbul edilmiş qərarlara uyğundur. Başqa sənədlər də hazırlana bilər. Bu halda müvafiq tədbirin, Xəzəryanı dövlətlərin rəhbərlərinin müvafiq görüşünün keçirilməsi də məqbul və zəruri olacaqdır.

Bir daha vurğulamaq istərdim ki, aparılmış danışıqlar Rusiya–Azərbaycan münasibətlərinin inkişafında, ölkələrimiz, xalqlarımız arasında strateji tərəfdaşlığın və dostluğun möhkəmlənməsində mühüm mərhələ oldu.

İcazə verin, əsl dostluq və işgüzarlıq ruhlu qarşılıqlı fəaliyyətə görə prezident İlham Əliyevə bir daha təşəkkürümü bildirim.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*3 iyul 2008-ci il*

*İyulun 3-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, prezident Dmitri Anatolyeviç Medvedev başda olmaqla, Rusiya Federasiyasının nümayəndə heyətini bir daha ürəkdən salamlayım və səfərin nəticələrindən çox məmnun olduğumu bildirim.

Biz çox şadıq ki, Rusiya prezidenti özünün ilk rəsmi səfərlərindən birini bizim ölkəmizə etmişdir. Biz bunu dostluq əlaməti kimi, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsinin ifadəsi kimi qiymətləndiririk.

Xalqlarımız arasında münasibətlərin çoxəsrlik tarixi var. Xalqlarımız yüzilliklər boyu sülh, dostluq, əməkdaşlıq şəraitində yaşamış, həmişə fəal qarşılıqlı əlaqə saxlamışlar. Çox xoşdur ki, Sovet İttifaqı dağılandan sonra Rusiya ilə Azərbaycan arasında münasibətlər, xüsusən indiki mərhələdə, 2000-ci illərdən başlayaraq çox dinamik, konstruktiv

şəkildə inkişaf edir. Bu əlaqələr səmimi, mehriban qonşuluq və dostluq münasibətlərinə əsaslanır.

Bugünkü səfər buna parlaq sübutdur. Bu gün biz ikitərəfli maraq doğuran məsələləri müzakirə etdik, əvvəlki uğurlarımızı təhlil etdik. Əlbəttə, münasibətlərin gələcək perspektivlərini müzakirə etdik ki, bu da çox əhəmiyyətli məqamdır. Xüsusən ona görə ki, Azərbaycan və Rusiya Xəzər dənizi regionunda və Qafqaz regionunda baş verən proseslərə təsir göstərən ölkələrdir. Ona görə də regionda gələcəkdə yaranacaq vəziyyət ölkələrimiz arasında səmimi qarşılıqlı əlaqələrdən, səylərimizi əlaqələndirməkdən, təhlükəsizliyin möhkəmləndirilməsi naminə fəal işləməkdən, əməkdaşlıqdan, iqtisadi və humanitar inkişafdan çox asılı olacaqdır.

Bu gün biz böyük razılıq hissi ilə qeyd edirik ki, kifayət qədər genişəhatəli münasibətlərimizin gündəliyinin bütün bəndləri üzrə tam anlaşma var, bizim yanaşmalarımız eynidir. Başa düşürük ki, bizim münasibətlərimiz indiyə qədər olduğu kimi, bundan sonra da səmərəli və dinamik inkişaf etməlidir.

Bu gün müzakirə edilən mövzular arasında regional təhlükəsizlik, regional əməkdaşlıq, enerji təhlükəsizliyi məsələləri, energetika sahəsində əməkdaşlıqla bağlı mövcud layihələr, gələcək üçün potensial layihələr vardır ki, bunlar da ölkələrimizi daha sıx birləşdirəcək və qarşılıqlı əmtəə dövriyyəsini daha da artırmağa, nəqliyyat, kommunikasiyalar, texnologiyalar, təhsil və humanitar sahədə əməkdaşlığı genişləndirməyə imkan verəcəkdir. Bu gün praktik olaraq bütün istiqamətlər üzrə qazanılmış uğurlar təhlil olunmuş və gələcəyə aparan yollar müəyyən edilmiş, dialoqun intensivləşdirilməsi və bütün planlarımızın sürətlə həyata keçirilməsi barədə müvafiq strukturlara konkret tapşırıqlar verilmişdir.

Əlbəttə, bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər kifayət qədər çoxsahəlidir. Lakin mən humanitar sahədə əməkdaşlığı xüsusi vurğulamaq istərdim. Şübhə

yoxdur ki, əmtəə dövriyyəsi artır, biz yeni sahələri əhatə edən qarşılıqlı əməkdaşlığın potensialını genişləndiririk. Lakin ölkələrimiz arasında gələcək münasibətlərin əsasını, müstəqil Azərbaycan və müstəqil Rusiya şəraitində böyüyən və püxtələşən gələcək nəsillərin formalaşdıracağı münasibətlərin əsasını, əlbəttə, humanitar sahə təşkil edəcəkdir. Hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında bu istiqamətdə əməkdaşlıq başqa ölkələr üçün nümunə sayıla bilər.

Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox qayğıkeş münasibət bəsləyirlər. Cənubi Qafqazda ən böyük rus icması Azərbaycanda yaşayır və biz bunu regionda şəraitin tarixi inkişaf amili kimi qiymətləndiririk. Elə bir amil hesab edirik ki, müstəqillik əldə olunduqdan sonrakı 17 ildə ölkəmizdə elə vəziyyət yaranmışdır ki, burada yaşayan bütün millətlərin nümayəndələri özlərini rahat, sərbəst hiss edir, bir böyük ailə kimi dolanırlar. Ölkəmizdə millətlərarası sülh və konfessiyalararası dialoq bizim uğurlu inkişafımızın əsasıdır. Heç şübhəsiz ki, Qafqazda ən böyük icma və Azərbaycanda yaşayan icmalardan ən böyüyü olan rus icması bu baxımdan çox mühüm rol oynayır. Azərbaycanda rus teatrı fəaliyyət göstərir, Moskva Dövlət Universitetinin filialı yaradılır, tədrisin rus dilində aparıldığı 300-dən çox məktəb var, rus dilində çoxsaylı, Sovet İttifaqı dövründə olduğundan daha çox qəzet çıxır.

Mən bunları təkcə əldə edilmiş uğurları vurğulamaq üçün deyil, həm də ölkələrimiz arasında münasibətlərin ruhunu bir daha ifadə etmək üçün deyirəm. Bizim çox yaxşı əlaqələrimiz, qarşılıqlı iqtisadi münasibətlər, siyasi dialoq, neft-qaz, nəqliyyat və s. sahələrdə konkret layihələrimiz ola bilər. Ümumiyyətlə, bu istiqamətdə səylərin artmasını müşahidə edirik və gələcəkdə bu səyləri artırmaq ümidindəyik. Lakin mən hesab edirəm ki, xalqlarımızın mənəvi yaxınlığı, səmimi münasibətlər, qonşuluq münasibətləri heç də az əhəmiyyəti olmayan amillərdir. Hər şeydən əvvəl, Rusiya və Azərbaycan həm də qonşu ölkələrdir. Qonşular arasında müna-

sibətlər heç də arzu edilən kimi olmur. Biz bunu öz regionumuzun və daha geniş coğrafi məkanın tarixindən bilirik.

İndiki halda mən hesab edirəm ki, ölkələrimizin münasibətləri qonşular arasında, böyük ölkə ilə coşğun inkişaf edən ölkə arasında, vaxtilə bir dövlətdə yaşamış və hazırda iki müstəqil dövlət kimi, öz münasibətlərini dostluq, mehriban qonşuluq, qarşılıqlı kömək, qarşılıqlı dəstək və hüquq bərabərliyi əsasında quran ölkələr arasında münasibətlərə nümunə ola bilər.

Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. Bir daha demək istəyirəm, nəinki mən, Azərbaycanın bütün ictimaiyyəti bu faktı çox yüksək qiymətləndirmişdir ki, Azərbaycan Rusiya prezidentinin səfər etdiyi ilk ünvanlardan biridir. Əminəm ki, bu əlaqələr gələcəkdə də intensiv davam edəcək və ölkələrimiz arasında, xalqlarımız arasında münasibətlərin inkişafına xidmət edəcəkdir.

Mən bu badəni Rusiya prezidenti Dmitri Anatolyeviç Medvedevin sağlığına, dost Rusiya dövlətinin tərəqqisi şərəfinə, Azərbaycan ilə Rusiya arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

## Rusiya prezidenti Dmitri Medvedevin nitqi

Hörmətli İlham Heydər oğlu!
Hörmətli Mehriban Arif qızı!
Hörmətli dostlar!
Hörmətli həmkarlar!

Bu gün Azərbaycanda səfərdə olmağım mənə çox xoşdur. Bunun müxtəlif səbəbləri var. Lakin ilk növbədə ona görə ki, biz buraya dostlarımızın yanına qonaq gəlmişik və bugünkü danışıqlar, bugünkü görüşlər də bizim əməkdaşlığımızın nə qədər dinamik, nə qədər əsaslı olduğunu göstərdi.

Bu axşam vaxtı sizi rəqəmlərlə, danışıqların yekunları barədə faktlarla yormaq istəmirəm. Hərçənd, mənim fikrim-

cə, bu danışıqlar özləri hər şeyi göstərdi. Bu danışıqlar bir-biri ilə çox sıx əlaqə saxlayan, bütün istiqamətlərdə – həm energetika, həm sənaye, həm də sosial-humanitar istiqamətlərdə birgə işləyən iki dövlət arasında danışıqlardır. Əlbəttə, bütün bunlar ölkələrimizin son illərdəki inkişafının nəticələridir.

Zənnimcə, biz hələ çox iş görməliyik. Xüsusən ona görə ki, bir sıra layihələr həqiqətən gələcəyə istiqamətlənmişdir. Biz hər iki ölkə üçün faydalı olan iri layihələrin maddiləşməsi üçün, onların xalqlarımıza, dövlətlərimizin mənafelərinə xidmət etməsi üçün səylərimizi əsirgəməyəcəyik.

Dünya inkişaf edir və onun problemləri azalmır. Buna görə də mən belə hesab edirəm ki, bizim müntəzəm əlaqələrimiz, ən mürəkkəb beynəlxalq məsələləri, postsovet məkanında mövcud olan məsələləri, mürəkkəb dövlətlərarası problemləri müzakirə etməyimiz yalnız işin xeyrinədir. Bugünkü dialoq bunu növbəti dəfə nümayiş etdirdi.

İlham Heydər oğlu ilə biz, demək olar ki, bütün beynəlxalq problemləri gözdən keçirdik, həm uzaq xaricdə, həm də postsovet məkanında münasibətlərin necə qurulması barədə danışdıq. Biz, demək olar ki, bütün beynəlxalq məsələlərə dair fikir mübadiləsi etdik və bu göstərdi ki, bütün məsələlərə münasibətdə mövqelərimiz eynidir. Bu çox yaxşı haldır. Bu bizim gələcək münasibətlərimizi də həm əvvəllər, Azərbaycana Heydər Əlirza oğlu Əliyevin rəhbərlik etdiyi dövrdə, həm də indi – Azərbaycan Respublikasına İlham Heydər oğlu Əliyevin başçılıq etdiyi şəraitdə olduğu kimi, konstruktiv dostluq əlaqələri üzərində qurmağa imkan verəcəkdir.

Hesab edirəm ki, bu, gələcək üçün çox yaxşı, möhkəm təməldir. Mən o fikirlə də tam razıyam ki, iqtisadiyyatdan əlavə, insanlar arasında əlaqələr, humanitar qarşılıqlı münasibətlər də çox vacibdir. Əlbəttə, bu mənada Azərbaycan başqa dillərə, tarixən həqiqətən millətlərarası ünsiyyət dili olmuş rus dilinə qayğıkeş münasibət göstərilməsinin nümunəsidir. Mədəni dialoqun inkişafı, tədrisin rus dilində

aparıldığı məktəblər şəbəkəsinin genişləndirilməsi, universitetlərin, o cümlədən Moskva Universitetinin filialının açılması – bütün bunlar məhz bu istiqamətdə atılan addımlardır və biz bunu çox yüksək qiymətləndiririk.

Hesab edirəm ki, əgər biz tərəfdaşlığımızı bundan sonra da bu şəkildə davam etdirsək, o, son dövrdə vaxtilə bizi birləşdirən vahid dövlətin əsasında yaranmış dövlətlərin inkişafının real nümunəsi olacaqdır.

Azərbaycana gəlməyə dəvət olunduğum üçün səmimi təşəkkürümü bildirmək istərdim. Mənim fikrimcə, bizim bu il də ünsiyyət saxlamağımız üçün səbəb çox olacaqdır. Biz həmişə Moskvada qonaq kimi Sizin yolunuzu gözləyirik. Biz Sizi təkcə Moskvada yox, Rusiyanın başqa şəhərlərində də görməyə həmişə şad olarıq. Rusiya kiçik ölkə deyil, bizim layihələrimiz də çoxdur, sadəcə görüşmək, ən müxtəlif məsələləri müzakirə etmək üçün səbəblər də çoxdur. Bu qədər ciddi və ölkələrimiz üçün vacib məsələlərin müzakirəsində iştirak etdiklərinə görə bütün iştirakçılara – dövlət strukturlarının nümayəndələrinə, dövlət qulluqçularına, biznes təmsilçilərinə, bu gün görüşdüyüm konfessiyaların nümayəndələrinə təşəkkür etmək istəyirəm. Doğrudan da Azərbaycandakı vəziyyət konfessiyalararası dialoqun və vətəndaş sülhünün gözəl nümunəsidir.

İcazə verin, Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevin, onun xanımı Mehriban Arif qızının sağlığına, Azərbaycan xalqının firavanlığı, xalqlarımız arasında dostluğun şərəfinə badə qaldırmağı təklif edim.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*3 iyul 2008-ci il*

*Rusiya prezidenti Dmitri Medvedev iyulun 3-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və fondun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Rusiyanın dövlət başçısını səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.*

*Rusiya prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr edilmiş kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Prezident Dmitri Medvedev fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Rusiya prezidentinə hədiyyə təqdim olundu.*

*Ali qonaq fonddan xoş və zəngin təəssüratla ayrıldı.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLA SARKOZİYƏ**

Hörmətli cənab Prezident!

Fransanın milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Fransa münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Ölkələrimiz arasında daim genişlənən dostluq əlaqələri, bir sıra sahələrdə qarşılıqlı maraq doğuran səmərəli əməkdaşlığımız ikitərəfli münasibətlərimizin dinamikasının və məzmununun bariz göstəricilərindəndir.

Biz Fransanın Azərbaycana maraq və diqqətindən, ölkəmizin qarşısında duran məsələlərin həllinə öz töhfəsini vermək istəyindən məmnunluq duyuruq. Bu baxımdan Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin dərinləşməsi prosesinə Fransanın İttifaqa sədrliyi dövründə xüsusi dəstək vermək niyyətində olması bizim üçün çox əhəmiyyətlidir.

Ən başlıcası isə, biz ölkəmizə qarşı təcavüz nəticəsində yaranmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə və ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın öz fəallığını və əzmkarlığını daha da artıracağına böyük ümidlər bəsləyirik.

Cənab Prezident, bu əlamətdar bayram münasibətilə bir daha Sizə öz təbriklərimizi yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2008-ci il*

**MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NAMBARIN ENXBAYARA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monqolustan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Monqolustan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2008-ci il*

## ÇEXİYANIN XARİCİ İŞLƏR NAZİRİ KAREL ŞVARTSENBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Çexiyanın Xarici İşlər naziri Karel Şvartsenberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Çexiya arasında münasibətlərin yaxşı səviyyədə olduğunu bildirdi. Ölkələrimizin regional və beynəlxalq çərçivədə əməkdaşlığına toxunan prezident İlham Əliyev GUAM-ın Batumi sammitində Çexiya tərəfinin iştirakının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı ikitərəfli əməkdaşlığın inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı və qonağın ölkəmizə bu səfərinin əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

*Karel Şvartsenberq Çexiya Respublikasının Azərbaycana səfər edən ilk Xarici İşlər naziri olduğunu vurğuladı. O, ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini, əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsi üçün geniş imkanların olduğunu bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA İŞGÜZAR SƏFƏRİ

*5 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astananın 10 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbirlərdə iştirak etmək üçün iyulun 5-də Qazaxıstan Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev yola saldılar.*

* * *

*Astana Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Milli geyimli qız dövlətimizin başçısına gül dəstəsi təqdim etdi.*

## DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜ

*Astana*

*5 iyul 2008-ci il*

*İyulun 5-də Qazaxıstan prezidentinin sarayında – «Akorda»da Astananın 10 illiyi ilə əlaqədar təntənəli yubiley tədbirlərində iştirak edən dövlət başçılarının görüşü olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev dövlət başçılarını səmimiyyətlə qarşıladı, onlara «Astananın 10 illik yubileyi medalı»nı təqdim etdi.*

*Dövlət başçıları fikir mübadiləsi apardılar.*

## Astana şəhərinin 10 illiyinə həsr olunmuş təntənəli iclas

*İyulun 5-də «Sülh və əmin-amanlıq» sarayında Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərinin 10 illiyinə həsr olunmuş təntənəli iclas keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.*

*Əvvəlcə Qazaxıstanın Dövlət himni səsləndi.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev iclasda çıxış etdi.*

## ASTANADA YUBİLEY KONSERTİ

*5 iyul 2008-ci il*

*İyulun 5-də Astananın 10 illik yubileyi münasibətilə şəhər stadionunda incəsənət ustalarının konserti olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konsertə tamaşa etmişdir.*

* * *

*Elə həmin gün Astananın 10 illik yubileyi münasibətilə təntənəli tədbirlərdə iştirak edən dövlət başçılarının şərəfinə Qazaxıstan prezidenti Nursultan Nazarbayevin adından ziyafət verilmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

## İORDANİYA KRALI II ABDULLAH İLƏ GÖRÜŞ

*Astana*

*5 iyul 2008-ci il*

*İyulun 5-də Astanada Azərbaycan prezidenti İlham Əliyevin və İordaniya kralı II Abdullahın görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan–İordaniya münasibətlərinin genişlənməsindən məmnunluq ifadə olundu, iki ölkə arasında əməkdaşlığın yaxşı perspektivlərinin olduğu vurğulandı. Azərbaycan prezidenti ilə İordaniya kralı arasında dostluq münasibətlərinin ölkələrimizin əlaqələrinin genişlənməsinə töhfə verdiyi qeyd olundu. Söhbət zamanı yüksək səviyyəli görüşlərin əhəmiyyəti vurğulandı, qarşılıqlı münasibətlərin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə edildi.*

## TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Astana*

*6 iyul 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 6-da Astanada onun üçün ayrılmış iqamətgahda Türkiyə prezidenti Abdullah Gül ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə daim inkişaf etdiyi vurğulandı. Qeyd olundu ki, ölkələrimiz beynəlxalq təşkilatlarda yüksək səviyyədə əməkdaşlıq edirlər. Münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Tərəflər qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi apardılar.*

### Səfər başa çatdı

*Astananın 10 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbirlərdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana işgüzar səfəri iyulun 6-da başa çatmışdır.*

*Astana Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Qazaxıstanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya gəldi.*

*Azərbaycan prezidenti İlham Əliyevi Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev qarşıladılar.*

## MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Macarıstanın Baş naziri Ferents Dyurçanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Macarıstanın Baş naziri ilə görüşünü məmnunluqla xatırladaraq dedi ki, onun ölkəmizə bu səfəri əlaqələrimizin hazırkı vəziyyətini, perspektivlərini nəzərdən keçirmək üçün yaxşı imkan yaradır. Azərbaycan–Macarıstan əməkdaşlığının uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev cənab Ferents Dyurçanın respublikamıza səfərinin səmərəli keçəcəyinə, ölkələrimizin ikitərəfli əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə yaxşı perspektivləri olduğunu və bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etdi.*

*Ölkələrimizin bütün sahələrdə əlaqələrinin uğurla inkişaf etdiyini söyləyən Baş nazir Ferents Dyurçan Azərbaycana səfəri zamanı keçirdiyi görüşlər barədə prezident İlham Əliyevə məlumat verdi və bu görüşlərin məhsuldar olduğunu qeyd etdi. O, Azərbaycan–Macarıstan ikitərəfli əlaqələrinin bundan sonra daha da möhkəmlənəcəyinə əmin olduğunu vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASI DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN III MÜŞAVİRƏSİ

*7 iyul 2008-ci il*

*İyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin III müşavirəsi keçirilmişdir.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı müşavirədə geniş nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli səfirlər, Xarici İşlər Nazirliyinin əməkdaşları!

Bu müşavirələr artıq ənənəvi xarakter daşıyır və hamımız yaxşı bilirik ki, müşavirələrin çox gözəl nəticələri olur. Bu görüşlərin geniş formatda keçirilməsi, bir neçə gün ərzində bütün səfirlərin Bakıda olması və müvafiq strukturların nümayəndələri ilə görüşləri əminəm ki, səfirlərin fəaliyyəti üçün çox böyük əhəmiyyət kəsb edir. Səfirlər xarici siyasətin prezident tərəfindən müəyyən edilmiş istiqamətlərini bir daha eşidirlər. Təbii ki, bizim xarici siyasətimiz çox açıqdır, aydındır, çox səmimidir və bizim bütün bəyanatlarımız, atdığımız addımlar bütün ictimaiyyət üçün aydındır. Amma eyni zamanda, bütün mərhələlərdə siyasi kursun daha dəqiq müəyyənləşməsi əhəmiyyət kəsb edir.

Səfirlər qarşısında böyük vəzifələr dayanır. Bildiyiniz kimi, son illər ərzində bir neçə ölkədə yeni səfirliklər açılmışdır. Nazir qeyd etdi ki, son dörd il ərzində 30 ölkədə

Azərbaycan səfirlikləri açılmışdır ki, bu da ölkəmizin xarici siyasətinin daha da uğurlu olmasına çox böyük dəstək verir. Biz bunu edirik və bu siyasəti davam etdirəcəyik. Çünki hələ dünyada Azərbaycan haqqında tam müfəssəl məlumat yoxdur. Düzdür, bizim siyasi və diplomatik səylərimiz nəticəsində Azərbaycan haqqında vaxtilə formalaşmış mənfi rəy artıq tamamilə dağıdılıbdır. Müstəqillik əldə etdikdən sonra Azərbaycan haqqında məlumat, ümumiyyətlə, ya az idi, ya da ki, çox mənfi xarakter daşıyırdı. Bunun həm obyektiv, həm subyektiv səbəbləri vardı. Amma o da faktdır ki, Azərbaycanın inkişafı, xarici əlaqələrinin genişlənməsi üçün bu çox böyük maneə idi. Bu gün Azərbaycan haqqında dünyada daha dolğun, daha dəqiq məlumat vardır. Əminəm, gələcək illərdə biz nail olacağıq ki, Azərbaycan həqiqətləri dünya birliyinin nəzərinə tam şəkildə çatdırılsın. Əlbəttə ki, səfirlərin bu işdə çox böyük rolu vardır.

Prezident kimi, mən xarici siyasətə çox böyük diqqət göstərirəm və son illər ərzində müxtəlif ölkələrdə həm işgüzar, həm rəsmi səfərlərdə olmuşam. Bütün bu səfərlər həm ikitərəfli münasibətlərin inkişafı üçün lazımdır, həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində çox mühüm əhəmiyyət daşıyır. Çünki demək olar ki, əksər hallarda ikitərəfli səfərlər zamanı imzalanan siyasi bəyannamələr Azərbaycanın ərazi bütövlüyü prinsipini bir daha təsdiqləyir. Prezidentin fəaliyyəti ilə bərabər, səfirlərin mütəmadi fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Baxmayaraq ki, bu, böyük maliyyə ehtiyatları tələb edir, məhz bu məqsədlə bu gün bizim 47 ölkədə səfirliyimiz fəaliyyət göstərir.

Səfirlər Azərbaycanla çalışdıqları ölkələrin arasında əməkdaşlığın daha da dərinləşməsi üçün ciddi fəaliyyət göstərməlidirlər. Biz bu fəaliyyəti görürük, bunu bəyənirik. Amma hesab edirəm ki, bu bizi tam şəkildə qane edə bilməz. Çünki bəzi hallarda, hətta yüksək dövlət məmurları xaricdən Azərbaycana gələrkən və Azərbaycan reallıqları ilə tanış olarkən bildirirlər ki, onlar gözləmirdilər ki, Azərbaycan

belə inkişaf etmiş müasir ölkədir, Azərbaycanda ictimai-siyasi vəziyyət çox yüksək səviyyədədir, burada bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Yəni, hətta yüksək vəzifəli dövlət məmurları bəzi hallarda Azərbaycana gələrkən bu ifadələri işlədirlərsə, deməyə əsas var ki, bu istiqamətdə fəaliyyət daha da mütəşəkkil və məqsədyönlü olmalıdır.

Səfirlər bütün dövlət, hökumət qurumları ilə sıx əlaqə saxlamalıdırlar, Azərbaycan həqiqətlərini onlara çatdırmalıdırlar, ictimai qurumlarla fəaliyyəti gücləndirməlidirlər, xaricdə yaşayan Azərbaycan icmaları ilə daha da sıx əlaqə saxlamalıdırlar. Mən hesab edirəm ki, bu istiqamətdə son illər ərzində çox böyük işlər görülübdür. Demək olar ki, azərbaycanlıların yaşadıqları bütün ölkələrdə bizim diaspor strukturlarımız formalaşıb və güclənir. Bu həm orada yaşayan azərbaycanlılar üçün böyük fayda gətirir, həm də ki, Azərbaycanın siyasətinə böyük dəstəkdir.

Mətbuat orqanları ilə iş haqqında. Mən keçən müşavirədə də bunu demişdim və hesab edirəm ki, bunu bir daha deməyə əsas var. Çünki son iki il ərzində dünya mətbuatında Azərbaycan haqqında daha tarazlı, yaxud da ki, qərəzsiz məlumatlar dərc edilməsinə baxmayaraq, hələ ki, biz qərəzli məqalələri də görürük. Erməni lobbisi tərəfindən Azərbaycana qarşı aparılan siyasət davam etdirilir və bu fəaliyyət heç vaxt dayanmayacaqdır. Biz buna hazır olmalıyıq, hazırıq və mən bir daha demək istəyirəm ki, biz bütün istiqamətlərdə hücum taktikasını rəhbər tutmalıyıq və bu taktika bütün istiqamətlərdə öz bəhrəsini verməkdədir.

Səfirlər Azərbaycanın siyasi və iqtisadi maraqlarını çalışdıqları ölkələrdə dəstəkləməlidirlər. Bu gün Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir, ölkəmizin imkanları artır, Azərbaycan şirkətləri böyük maliyyə imkanlarına malik olurlar və müxtəlif ölkələrə investisiya qoyurlar. Bu investisiya imkanlarını araşdırmaq, Azərbaycan şirkətləri

üçün daha da yaxşı şərait yaratmaq və müxtəlif istiqamətlərə yönəltmək vəzifələri də çox mühüm əhəmiyyət daşıyır.

Bəlkə iki il bundan əvvəl biz bu barədə heç danışmırdıq. Amma bu gün bu reallıqdır və gələcəkdə belə imkanlar daha da artacaq. Əlbəttə ki, biz investisiyaları ilk növbədə bizim üçün daha yaxın ölkələrə yönəltməliyik. Baxmayaraq ki, bu gün Azərbaycan investisiyaları xaricdə gözlənilir və mənim müxtəlif həmkarlarım ilə çoxsaylı görüşlərimdə bu mövzu qaldırılır. Onu da deyə bilərəm ki, təkcə son bir il ərzində Azərbaycan Dövlət Neft Şirkəti Türkiyə və Gürcüstan iqtisadiyyatına 2,5 milyard dollar sərmayə qoyubdur və bu proses davam edir. Biz sərmayələr üçün nəinki enerji sahəsində, digər sahələrdə də yeni yerlər axtarırıq. Bunu etmək üçün bizim imkanlarımız var. Bu, Azərbaycanın iqtisadi maraqlarını daha da gücləndirəcək, iqtisadiyyatı şaxələndirəcəkdir. Beləliklə, nəticədə Azərbaycan daha da uğurlu xarici siyasət aparacaqdır.

Əlbəttə ki, səfirlərin əsas vəzifələrindən biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri beynəlxalq aləmə çatdırmaqdır. Mən hesab edirəm ki, biz bu istiqamətdə artıq böyük uğurlar əldə edə bilmişik. Bu gün Azərbaycanın haqq işi dəstəklənir, Azərbaycanın ərazi bütövlüyü beynəlxalq təşkilatlarda və bayaq qeyd etdim ki, ikitərəfli müstəvidə dəstəklənir. Bütün dünya artıq bilir ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bu mövqe həm beynəlxalq hüquq normalarına, həm də tarixə əsaslanır. O da sirr deyil ki, Azərbaycanın artan imkanları, Azərbaycanın önəmli ölkəyə çevrilməsi, əlbəttə, bizim mövqeyimizi daha da gücləndirir. Beynəlxalq hüquq bəzi hallarda əfsuslar olsun ki, işləmir. Beynəlxalq hüquq normaları pozulur və dünya ictimaiyyəti buna biganə qalır. Hətta Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi, əgər belə demək olarsa, havada qalıbdır. Belə olan halda biz, əlbəttə ki, öz diplomatik səylərimizi və ölkəmizi daha da gücləndirməliyik.

Bu gün Azərbaycan regional çərçivələrdə çox önəmli rola malikdir. Getdikcə bu rol daha da böyüyəcəkdir. Biz artıq regional çərçivələrdən çıxıb daha böyük əməkdaşlıq məkanında öz rolumuzu gücləndiririk. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər, konkret layihələr, əməkdaşlığa yönəldilmiş enerji siyasətimiz, əlbəttə ki, ölkəmizin imkanlarını gücləndirir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha da əlverişli vəziyyət yaradır. Bu gün həm siyasi, həm iqtisadi baxımdan, həm beynəlxalq hüquq normaları baxımından və nəhayət, hərbi potensial baxımından Azərbaycan Ermənistandan bir neçə dəfə üstündür. Uğurlu xarici siyasətimiz, beynəlxalq təşkilatlarda təşəbbüslərimizə dəstəyin verilməsi, xüsusilə BMT Baş Məclisində qətnaməmizin dəstəklənməsi bizim böyük siyasi və diplomatik qələbəmizdir. Biz bu səyləri artırmalıyıq. Həm beynəlxalq təşkilatlarda, həm də ikitərəfli formatda bu mövzu birinci yeri tutmalıdır.

Bu belədir. Mən istəyirəm ki, bu daim belə olsun, Ermənistanın işğalçı siyasəti nəinki dövlətlərin rəsmi orqanlarında, ictimai rəydə də, mətbuatda da tam şəkildə ifşa olunsun. Bu da çox önəmlidir. Çünki ictimai rəy dünyada və o cümlədən Azərbaycanda çox böyük rol oynayır. Münaqişə haqqında dəqiq məlumat, Azərbaycan torpaqlarının uzun müddət işğal altında qalması – bütün bu mövzular daim danışıqlar və fəaliyyət mövzusu olmalıdır. Bu məsələdə biz bir dəfə keçirilmiş hansısa tədbirlə, yaxud da ki, bir dəfə edilmiş hansısa bəyanatla kifayətlənməməliyik. Bu, gündəlik fəaliyyətdə olmalıdır. Necə ki, mən bu mövzunu gündəlik fəaliyyətimdə, bütün görüşlərdə, bütün beynəlxalq tədbirlərdə, bütün bəyanatlarımda diqqətdə saxlayıram. Bəlkə də bəzi hallarda iqtisadi forumlarda, ya digər mövzu ətrafında keçirilmiş forumlarda birbaşa bu mövzuya toxunulmur. Amma mən daim bu məsələni həm diqqət mərkəzində saxlayıram, həm də Azərbaycanın haqq işini bütün beynəlxalq aləmə çatdırmağa çalışıram. Deyə bilərəm ki, beynəlxalq

təşkilatlar öz yerində, biz beynəlxalq ictimai rəydə də müsbətə doğru dəyişiklikləri görürük. Baxmayaraq ki, çox güclü erməni lobbisi daim bizə qarşı çalışır, Azərbaycanı ləkələmək istəyir. Bəzi hallarda xarici mətbuatda Azərbaycan haqqında əsassız ittihamlarla dolu məqalələrin arxasında məhz erməni təşkilatlarının fəaliyyəti dayanır. Biz bunu bilirik və onu da bilirik ki, bizə qarşı bu mübarizə heç vaxt dayanmayacaqdır. Heç vaxt. Biz də öz mübarizəmizi dayanmadan aparmalıyıq. Hücum etməliyik. Nəzərə almalıyıq ki, bunu etməyə, həqiqəti deməyə bizim tam əsasımız var. O ki qaldı münaqişənin həlli yollarına, bu barədə də, əlbəttə, siz mənim mövqeyimi, Azərbaycan dövlətinin mövqeyini bilirsiniz.

Bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsi əsasında həll olunmalıdır. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil. Danışıqlar masasında mövcud olan sənəddə də, onu da mən sizə deyə bilərəm və bunu ictimaiyyət bilir, Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmi yoxdur. Ermənistanın rəsmi nümayəndələri nə qədər deməyə çalışsalar ki, danışıqların mahiyyətində xalqların müqəddəratının təyin olunması prinsipi dayanır, bu yalandır. Bu prinsipin icra olunma mexanizmləri yoxdur. Danışıqların mahiyyəti Azərbaycanın bütün işğal olunmuş torpaqlarının qaytarılmasıdır, qaçqın, köçkün soydaşlarımızın öz doğma torpaqlarına qayıtmasıdır, təhlükəsizlik tədbirlərinin təmin olunmasıdır və Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. O ki qaldı xalqların müqəddəratının təyin olunmasına, erməni xalqı öz taleyini bir dəfə həll edibdir. Onların bir erməni dövləti var. Baxmayaraq ki, bu dövlət əzəli Azərbaycan torpağında yaradılıbdır. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt Azərbaycan dövləti və xalqı icazə verməz. Bildiyiniz kimi, biz maksimum konstruktivlik göstərərək danışıqlarda hələ ki, iştirak edirik. Baxmayaraq ki, artıq atəşkəs reji-

mindən 14 il vaxt keçir və heç bir nəticə yoxdur. İrəliləyişin olması müsbət əlamətdir. Amma nəticə olmayan halda bu irəliləyişin heç bir əhəmiyyəti yoxdur. Biz danışıqlarda hələ ki, iştirak etmək fikrindəyik. Ermənistanın yeni rəhbərliyinin mövqeyi bizim üçün hələ ki, tam aydın deyil. Bəzi məqamlarda ümidverici fikirlər səslənir, bəzi hallarda yenə də köhnə mövzular ortaya atılır. Nəzərə alsaq ki, Ermənistanda indi ictimai-siyasi vəziyyət sabit deyil, bəlkə bu da təbiidir. Yəqin ki, yeni rəhbərliyə müəyyən bir vaxt lazımdır ki, cəmiyyətdə sabitlik yaransın və ondan sonra daha da cəsarətli addımlar atılsın.

Ermənistan tərəfindən əgər cəsarətli addımlar atılmasa, münaqişə heç vaxt öz həllini tapa bilməz. Azərbaycandan isə güzəşt tələb etmək əsassızdır. Biz bütün mümkün güzəştləri etmişik, Dağlıq Qarabağa gələcəkdə ən yüksək muxtariyyət statusunu verməyə hazırıq. Bundan böyük güzəşt ola bilməz. Buna bənzər başqa münaqişələrdə bu barədə söhbət getmir. Erməni əhalisinin tam əksəriyyəti Dağlıq Qarabağa digər bölgələrdən köçürülübdür və qonaq kimi gəlmişdilər. Buna baxmayaraq, biz onlara muxtariyyət verməyə hazırıq. Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyətmi verilib? Orada bir nəfər də azərbaycanlı qalmamışdır. Hamısını sürgün etdilər və etnik təmizləmə siyasəti apardılar. Nəinki Ermənistanda, Dağlıq Qarabağda və ətraf bölgələrdə də. Baxmayaraq ki, Qərbi Azərbaycan – indiki Ermənistan ərazisi Azərbaycan torpağıdır və tarixən də belə olubdur. Ona görə bizdən əlavə güzəşt tələb etmək, sadəcə olaraq danışıqlara zərbə vurmaqdır. Bizim mövqeyimiz açıqdır, bəllidir. Bu, dəfələrlə bəyan edilibdir və biz bu mövqedən geriyə bir addım da atmayacağıq. Gözləyirik ki, qarşı tərəf – işğalçılıq siyasəti, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparan tərəf, nəhayət ki, beynəlxalq hüquq normalarına riayət edəcək və torpaqlarımızdan öz xoşu ilə çıxacaqdır. Əks-təqdirdə istənilən vasitəyə əl atmaq olar. Azərbaycanın

tam haqqı var, bütün hüquqi əsaslar var və qarşı tərəf də bunu bilir və bilməlidir.

Mən bu gün bölgədə bizimlə rəqabət aparmaq iqtidarında olan ikinci dövlət görmürəm, nəinki o da ola problemlər içində çabalayan Ermənistan. Bizim həm iqtisadi potensialımız onlardan qat-qat üstündür, həm də hərbi gücümüz. Bölgədə siyasi proseslər bizim xeyrimizə gedir və biz bu siyasəti davam etdirəcəyik. Ancaq bununla bərabər, bir də demək istəyirəm ki, bizim haqq işimizi, ədalətli mövqeyimizi daha da gücləndirmək üçün bütün ölkələrdə, səfirliyimiz olan ölkələrdə mütəmadi qaydada bu məsələ qaldırılmalıdır. Müxtəlif forumlar keçirilməlidir.

Bir müddət bundan əvvəl mən göstəriş vermişdim ki, müxtəlif ölkələrdə sərgilər keçirilsin, Xocalı soyqırımı haqqında məlumat daha da dolğun verilsin. Müxtəlif konfranslar keçirilməlidir. İndi Azərbaycanın iqtisadi imkanları var. Xarici İşlər Nazirliyinin büdcəsi də ildən-ilə artır və nə qədər lazımdırsa biz bunu artıracağıq ki, Azərbaycanın haqq işi dünya birliyinə çatdırılsın, dünya ictimai rəyində tam şəkildə ədalətli yanaşma üstünlük əldə etsin. Bu bizə lazımdır, həm danışıqların davam etdirilməsi üçün, həm də ki, əgər danışıqlar dayansa, başqa tədbirlərin görülməsi üçün. Bunlar səfirlər və səfirliklər qarşısında duran əsas vəzifələrdir.

Bildiyiniz kimi, bizim xarici siyasətimiz çox açıqdır, çevikdir. Biz ikitərəfli formatda çox uğurlu xarici siyasət aparırıq. Mənim son beş ilə yaxın müddətdə çoxsaylı xarici rəsmi və qeyri-rəsmi, işgüzar səfərlərim olubdur. Xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri olubdur və bu davam edir. Azərbaycan son illər ərzində bölgə üçün, dünya üçün çox əhəmiyyətli ölkəyə çevrilibdir və biz ikitərəfli münasibətlərimizi bundan sonra da gücləndirəcəyik. Bir daha demək istəyirəm ki, bizim siyasətimiz səmimidir. Bizim bəyanatlarımız və bizim əməllərimizlə bunlar arasında heç bir fərq yoxdur və auditoriyadan, yaxud da ki, səfər etdiyim ölkədən asılı olmayaraq bütün məsələlərlə –

istər daxili məsələ, istər xarici, istər münaqişələr, istər dünyada narahatlıq doğuran məsələlərlə bağlı Azərbaycanın mövqeyi birmənalıdır. Biz bütün ölkələrlə ikitərəfli formatda qarşılıqlı maraq, qarşılıqlı hörmət, bir-birimizin işinə qarışmamaq prinsiplərini üstün tuturuq və görürük ki, hətta bəzi hallarda bir-biri ilə o qədər də yaxın münasibəti olmayan ölkələrlə də Azərbaycanın münasibətləri yaxşıdır.

Mən bunu əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan qarşıdurma məkanına, rəqabət məkanına çevrilməyəcəkdir. Azərbaycan əməkdaşlıq üçün gözəl bir ölkədir. Azərbaycan dünyada əməkdaşlıq üçün, işbirliyi üçün, iqtisadi layihələr üçün, sosial məsələlərin həlli üçün və dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır. Bizim təcrübəmiz, bizim siyasətimiz göstərir ki, əgər ölkə müstəqil siyasət aparırsa, öz milli maraqlarını müdafiə edirsə, bəzi hallarda bu hansısa başqa ölkələrin maraqları ilə üst-üstə düşməyə də bilər, bu da təbiidir, bu mövqe hörmətə malik olacaqdır. Mən deyə bilmərəm ki, hamı bizim siyasətimizi bəyənir və qarşımıza belə məqsəd də qoymamışıq. Amma hamı bizə hörmət edir. Bilirlər ki, əgər Azərbaycan hansısa təşəbbüsü irəli sürübsə, hansısa bəyanatı veribsə, bunun arxasında dayanacaqdır. Bizim siyasətimizdə konyunktura meyilli heç bir məqam yoxdur. Yaxud da ki, qeyri-səmimi, ləyaqətsiz addımlar yoxdur. Biz öz milli maraqlarımızı müdafiə edirik. Belə də olmalıdır və biz bütün ölkələrlə münasibətləri, bir də demək istəyirəm ki, qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurmuşuq. Mən sizə deyə bilərəm ki, bu siyasət dünyada böyük rəğbətlə qarşılanır. Hətta bəzi hallarda, qeyri-rəsmi söhbətlərdə sual verilir, necə olub ki, Azərbaycan öz maraqlarına güzəşt etmədən bütün ölkələrlə normal münasibətlər yarada bilibdir.

Bunun müxtəlif səbəbləri var. Bir də demək istəyirəm ki, bizim siyasətimiz birmənalıdır və açıqdır. Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır.

Səfirlər də öz növbəsində bu münasibətləri daha da zənginləşdirməlidirlər. Onlar müxəlif ölkələrdə yaşayırlar, ölkələrin problemlərini də, imkanlarını da yaxşı bilirlər və elə etməlidirlər ki, bütün ölkələrlə bizim münasibətlərimiz daha konkret xarakter daşısın. Siyasi sahədə bizim heç bir problemimiz yoxdur. Biz elə etməliyik ki, iqtisadi, sosial, mədəni sahələrdə də münasibətlər güclənsin.

Beynəlxalq təşkilatlarla bağlı olan məsələlər haqqında nazir öz çıxışında söylədi. Mən bir də demək istəyirəm ki, bizim son illər ərzində beynəlxalq təşkilatlarda uğurlu siyasətimiz konkret, praktik nəticələrə gətirib çıxarıbdır. Onları sadalamaq üçün çox vaxt lazımdır, yəqin ki, bu müşavirədə bunlar müzakirə olunacaq. Mən mart ayında BMT-nin Baş Məclisində işğal olunmuş torpaqlarda vəziyyətlə bağlı qətnamənin qəbul olunmasını qeyd etmək istəyirəm. Bu doğrudan da bizim böyük siyasi və diplomatik qələbəmizdir. Biz bir neçə il idi ki, bu qələbəyə doğru irəliləyirdik. Bu qətnamənin qəbul olunması üçün çox böyük işlər görülübdür. İctimaiyyət təbii ki, bunun son nəticəsini görür. Görür ki, artıq səsvermədə Azərbaycan böyük üstünlüklə qələbə qazanıb. Amma bunu təmin etmək üçün nə qədər böyük səylər göstərilibdir. Əlbəttə ki, bunu hamı bilə bilməz. Bu qətnamə artıq digər beynəlxalq təşkilatlara da öz təsirini göstərir. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul edilmiş sənəddə artıq BMT Baş Məclisindəki sənədə istinad edilir və bunun əhəmiyyəti haqqında sizə yenidən deməyə ehtiyac yoxdur. Siz bunu yaxşı anlayırsınız. Bu onu göstərir ki, məqsədyönlü siyasət və düşünülmüş addımlar nəticəyə, uğura gətirib çıxarır. Digər beynəlxalq təşkilatlarla da münasibətlərimiz bizi qane edir. Biz bəzi beynəlxalq təşkilatlar qarşısında ora üzv olarkən üzərimizə öhdəliklər götürmüşük. Məsələn, Avropa Şurasına üzv olarkən götürdüyümüz öhdəlikləri yerinə yetiririk. Biz o təşkilata könüllü daxil olmuşuq. Heç kim bizi ora dartmayıb, heç kim bizi məcbur etməyib ki, biz ora üzv olaq. Üzv olduq və

biz istəyirik ki, Avropanın ən inkişaf etmiş ölkələrində mövcud olan müsbət təcrübə Azərbaycanda da tətbiq edilsin.

Avropa Şurası bildiyiniz kimi, daha çox demokratiya, insan haqları məsələləri ilə məşğuldur və son 7 il ərzində bu istiqamətdə Azərbaycan çox böyük bir yol keçibdir. Azərbaycanda demokratikləşmə prosesləri, insan haqlarının qorunması işində atdığımız addımlar ölkəmizi daha da zənginləşdirir və gücləndirir. Bəzi hallarda siz də bunu yaxşı bilirsiniz ki, bizə qarşı ikili standartlar siyasəti aparılır və bunun səbəbləri də aydındır. Nə üçün bu belədir, bunun tarixi səbəbləri nədən ibarətdir? Əlbəttə, tarixi səbəbləri var. Azərbaycanın müstəqil siyasəti deyə bilmərəm ki, hamının xoşuna gəlir və biz buna hazır olmalıyıq. Avropa Şurası Parlament Assambleyasında son sessiyalarda Azərbaycanla bağlı məsələ müzakirə olunarkən Avropa deputatları demişdilər ki, Azərbaycan cəmi 7 ildir ki, təşkilatın üzvüdür, nə üçün 8-ci dəfə Azərbaycan məsələsi müzakirə olunur? Nə üçün Azərbaycanla bərabər, yaxud da ki, hətta ondan daha əvvəl təşkilata üzv olmuş MDB ölkələri belə böyük diqqətə malik deyillər? Nə üçün? Biz bu sualları qarşı tərəfə, yəni bizim tərəfdaşlara açıq şəkildə deyirik və predmetli danışıqlar nəticəsində görürük ki, bizim əsaslı iradlarımıza, əsaslı narahatlığımıza tutarlı cavab ala bilmirik. Bəzi hallarda bizim həmkarlarımız razılaşmağa məcbur olurlar ki, bəli, dünyada ikili standartlar var və biz bunu bilirik. Azərbaycan cəmiyyəti də bunu bilir. Bizə qarşı bəzi hallarda əsassız hücumlar, tənqidlər bütün Azərbaycan xalqını da, bizi də üzür. Çünki bu hücumlar əsassızdır.

Təbii ki, Azərbaycan cəmiyyətində hər şey kamil deyil. Hansı cəmiyyətdə hər şey mükəmməldir? Ən inkişaf etmiş ölkələrdə, özünü demokratiya simvolu adlandıran ölkələrdə məgər hər şey demokratik əsaslarla həll olunur? Əlbəttə ki, yox! Bu gün qloballaşma dövründə, internet dövründə heç bir şeyi gizlətmək mümkün deyil və insanlar hər şeyi görürlər. Biz sadəcə olaraq, bunu nəzərə almalıyıq. Amma

biz öz siyasətimizdən, milli maraqlarımızın müdafiəsi prinsiplərindən bir addım da geri çəkilməyəcəyik. Qoy bizi nə qədər istəyirlər tənqid etsinlər, qoy nə qədər istəyirlər Azərbaycanı ləkələməyə çalışsınlar. Onsuz da Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti ölkədə gedən bütün müsbət dəyişiklikləri görür və bunu dünya birliyi də görür. Sadəcə, istərdik ki, bəzi təşkilatlarda bu riyakar siyasət artıq keçmişdə qalsın. Bunun əhəmiyyəti yoxdur. Bizə qarşı bir təzyiq mexanizmi kimi, bu işləmir. Bunu hamı da görür. Bizə təzyiq etmək mümkün deyil. O təzyiq cəhdləri sadəcə olaraq, münasibətlərin gərginləşməsinə gətirib çıxarır və əgər bir neçə il bundan əvvəl biz, sadəcə olaraq, buna reaksiya vermirdik, yaxud da ki, susurduqsa, bu gün biz susmuruq. Bu gün biz sözümüzü deyirik və əgər kimsə Azərbaycanın gözəl imicini ləkələmək istəyirsə, biz o tərəfə qarşı mübarizə aparacağıq. Bizim gücümüz də var, imkanlarımız da!

Sözün qısası, onu demək istəyirəm ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanla əməkdaşlıq etmək lazımdır, Azərbaycanla yaxşı münasibətlər qurmaq lazımdır. Necə ki, biz bütün ölkələrlə və beynəlxalq təşkilatlarla yaxşı münasibətlərin qurulmasının tərəfdarıyıq. Hesab edirik ki, bizə də adekvat münasibət olacaq. O halda ki, münasibət adekvat olmayacaq, onda bizdən də heç kim inciməsin. Bizim münasibətimiz də eyni olacaqdır.

Siz səfirlərsiniz və siz 47 ölkədə öz fəaliyyətinizi göstərirsiniz. Təbii ki, işlədiyiniz ölkələrdə Azərbaycanla o ölkələr arasında münasibətlərin inkişafı üçün çalışırsınız. Siz çalışdığınız ölkələrin daxili işlərinə qarışmırsınız. Təbii ki, qarışmırsınız, çünki Azərbaycanın siyasəti buna imkan verməz. Siz səfirliyə, onun statusuna xas olmayan təşəbbüslər irəli sürmürsünüz. Əlbəttə ki, biz bütün ölkələrdən eyni münasibəti gözləyirik, eyni yanaşmanı gözləyirik. Biz bütün ölkələrlə çox yaxşı münasibətlərin davam etdirilməsində maraqlıyıq, bunu istəyirik. Ancaq bu, qarşılıqlı olmalıdır və Azərbaycana qarşı əsassız,

bəzi hallarda təzyiq xarakterli addımları biz nə qəbul edə bilərik, nə də ki, buna göz yuma bilərik.

Digər beynəlxalq təşkilatlarla da münasibətlər davam edir. Biz Avropa İttifaqı ilə indi həm qonşuluq siyasətindəyik, qonşuluq proqramındayıq, həm də enerji dialoqundayıq. Bu qonşuluq proqramı artıq iki ilə yaxındır ki, icra olunur. Ümid edirik ki, növbəti illərdə biz bu proqramın daha da konkret nəticələrini görəcəyik. Bir başlanğıc kimi, proqram, əlbəttə ki, müsbət hadisədir və o proqrama da biz könüllü qoşulduq, yəni bu, məcburi xarakter daşımırdı. Ona görə qoşulduq ki, biz istəyirik Azərbaycanda bütün meyarlar Avropanın inkişaf etmiş ölkələrinin müsbət meyarlarına uyğun olsun – istər iqtisadi azadlıqlarda, siyasi azadlıqlarda, istərsə də demokratik proseslərdə, sosial məsələlərin həllində. Sirr deyil ki, Avropa İttifaqının inkişaf etmiş ölkələrində bu məsələlər yüksək səviyyədə həll olunub. Biz də bunu istəyirik. Biz istəyirik ki, Azərbaycan müasir dövlətə çevrilsin, bütün lazımi təchizatlar yaransın və insanlar daha da yaxşı yaşasınlar. Və hesab edirik ki, növbəti illərdə qonşuluq siyasətində biz daha da konkret nəticələri görəcəyik.

O ki qaldı enerji təhlükəsizliyi məsələlərinə, mən hələ buna toxunacağam. Bu istiqamətdə Azərbaycan əməkdaşlığa həmişə hazır olub və burada başlanmış və bizim təşəbbüsümüzlə icra olunan layihələr artıq bizim maraqlarımızı təmin edir və bizə dost olan ölkələrin maraqlarına xidmət edir.

İslam Konfransı Təşkilatı ilə bizim münasibətlərimiz güclənir. Bildiyiniz kimi, Azərbaycanda müxtəlif tədbirlər keçirilir. İslam aləmi ilə bizim münasibətlərimiz çox sürətlə inkişaf edir və bu məni çox sevindirir. Biz elə etməliyik ki, bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyək, islam həmrəyliyini gücləndirək və bizim üçün dost olan ölkələrlə münasibətlərimizi bütün istiqamətlərdə davam etdirək. Azərbaycan İslam Konfransı Təşkilatı çərçivəsində çox vacib rol oynayır və bu rolu oynamağa davam edəcəkdir. MDB, GUAM, NATO, Qara Dəniz İqtisadi Əməkdaşlıq

Təşkilatı, İƏT – bütün bu təşkilatlarla da bildiyiniz kimi, biz əməkdaşlıq edirik və onların tədbirlərində fəal iştirak edirik.

İndiki zamanədə bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri ön plana çıxır. Bu, beynəlxalq təşkilatların gündəliyindədir və bütövlükdə dünyada müzakirə olunan mövzulardan biridir, bəlkə də ən önəmli mövzudur. Çünki bu gün enerji təhlükəsizliyi ölkələrin əslində milli təhlükəsizliyi deməkdir. Azərbaycan bu istiqamətdə uzun illərdir ki, öz töhfəsini verir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla davam etdirilən Azərbaycanın neft strategiyası nəinki ölkəmizi tamamilə yeniləşdiribdir, bölgədə bizim imkanlarımızı gücləndiribdir və bizim müttəfiqlərimizin sayının artırılmasında önəmli rol oynayıbdır. Enerji təhlükəsizliyi, enerji diplomatiyası – bütün bunlar yəqin ki, növbəti illərdə də dünyanın diqqət mərkəzində duran vacib məsələlərdən biri olacaqdır. Bizim enerji potensialımız dünya birliyinə bəllidir. Biz artıq çox böyük neft və qaz hasil və ixrac edən ölkəyə çevrilirik. Bu il Azərbaycanda neft hasilatı 50 milyon tondan çox olacaqdır. Qaz hasilatı haradasa, 20 milyard kubmetrə yaxın olacaqdır. Bizim zəngin neft-qaz yataqlarımız 100 ildən sonra da Azərbaycanın maraqlarını təmin edəcək və bizim ixrac potensialımızın davam etdirilməsinə imkan yaradacaqdır. Bizim neft kəmərlərimiz 3 istiqamətə Azərbaycan neftini daşıyır. Biz indi yeni layihələr üzərində işləyirik.

Bakı–Ceyhan, Bakı–Supsa, Bakı–Novorossiysk – bütün bu kəmərlər işlək vəziyyətdədir. Təmirdə olan Bakı–Supsa neft kəməri yəqin ki, bir-iki aydan sonra yenə fəaliyyətə başlayacaqdır. Biz Odessa–Brodı layihəsi üzərində işləyirik. «Şahdəniz» qaz layihəsi uğurla davam etdirilir. Bizi qonşu ölkələrlə bağlayan dörd qaz kəməri var. Bəlkə dünya ictimaiyyəti bu barədə o qədər də böyük bilgilərə malik deyildir. Hesab edilirdi ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərindən başqa kəmərlər yoxdur. Bu belə deyildir. Əlbəttə ki, Bakı–Tbilisi–Ərzurum qaz kəməri bizim böyük tarixi nailiyyətimizdir. Azərbaycan qazı artıq bu gün Avropa İttifaqı

məkanına daxil edilibdir. Bu, tarixi bir hadisədir. Amma bununla bərabər, bizi Gürcüstanla birləşdirən digər qaz kəmərimiz var. Biz indi onu bərpa etmişik, bütün təmir işləri aparılır və eyni zamanda, o kəmər vasitəsilə Gürcüstana qaz ötürülür. Bizi Rusiya ilə bağlayan qaz kəmərimiz var. O da hər iki istiqamətə işləyə bilər və bu barədə də söhbətlər aparılır. Ölkəmizi İranla bağlayan qaz kəmərimiz var. O qaz kəməri vasitəsilə bu gün İranla mübadilə əməliyyatı aparılır. İran Naxçıvana, biz isə Astaradan İran ərazisinə qaz ötürürük. Yəni bu dörd kəmərin hamısı işlək vəziyyətdədir və bu dörd kəmər imkan verir ki, biz öz qazımızı istənilən istiqamətə, istənilən həcmdə nəql edək. Enerji ehtiyatlarının şaxələndirilməsi məsələləri budur. Bu gün istehlakçılar şaxələndirmə haqqında düşünürlər və hesab edirlər ki, hələ bu istiqamətdə işləmək lazımdır. Amma bu, istehsalçılar üçün də az əhəmiyyət daşımır. Əgər bizim 7 neft-qaz kəmərimiz olmasaydı, vəziyyətimiz indiki kimi ola bilməzdi. Danışıqlarda bizim mövqeyimiz möhkəm ola bilməzdi. Bütün kəmərləri işlək vəziyyətdə saxlamağımız bizim milli maraqlarımıza uyğun gəlir. Əlbəttə, hər bir başqa ölkə kimi, Azərbaycan özü üçün ən məqbul, ən əlverişli variantları seçib və seçəcəkdir. Bu bir variant da və ya çox variant da ola bilər.

Yəni bu gün bizim qarşımızda duran bütün enerji məsələlərini uğurla icra etdik. Demək olar ki, Heydər Əliyev neft strategiyası zəfər çalıbdır. Azərbaycanın bugünkü imkanları bu strategiyanın təntənəsidir. Əlbəttə ki, bundan sonra daha da rahat formada, tələsmədən və maksimum mənfəət əldə etmək şərti ilə – mənfəət dedikdə, burada təkcə iqtisadi mənfəətdən söhbət getmir – biz bu işləri davam etdirəcəyik. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Dünyada və bölgədə bizim qazımıza tələbat artır və biz müxtəlif ölkələrlə bu münasibətləri sadəcə olaraq, qarşılıqlı maraqlar əsasında həll etməliyik. Bizim qaz ehtiyatlarımız minimum 2 trilyon kubmetrdir ki, bu da bizə 100 ildən çox müddətə kifayət edəcəkdir. Bir daha demək istəyirəm ki, enerji siya-

sətimiz bundan sonra da Azərbaycanın milli maraqlarına, iqtisadi və siyasi maraqlarına xidmət edəcəkdir. Biz bu gün iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Heç bir kreditdən asılı deyilik, əksinə, biz kreditlər veririk.

İqtisadi müstəqillik imkan verir ki, biz müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, müstəqil siyasət apara bilərdikmi? Əlbəttə ki, yox! Sözsüz ki, bizi hansısa təşəbbüslərə, hansısa istiqamətə yönəltmək, sövq etmək istəyən tərəflər daha da fəal olacaqlar. Ancaq Azərbaycana heç bir iqtisadi yardım lazım deyil. Məsələn, biz Avropa İttifaqı ilə əməkdaşlıq edirik və inteqrasiya siyasətimizi davam etdiririk. Ona görə yox ki, biz Avropa İttifaqından nəsə umuruq, nəsə gözləyirik. Yox, bizə heç nə lazım deyil. Bilirsiniz ki, Avropa İttifaqının yeni üzvləri təşkilatdan böyük məbləğdə – milyardlarla dollar vəsait alırlar. Bizim buna ehtiyacımız yoxdur. Ona görə bu, imkan verir ki, biz müstəqil siyasi xətt aparaq və aparırıq – istər daxili, istər xarici siyasətdə, istər enerji diplomatiyasında – bütün istiqamətlərdə. Azərbaycan bəlkə də nadir ölkələrdən biridir ki, xarici siyasətimiz tam şəkildə müstəqildir. Mən bunu dəfələrlə demişən, bir daha demək istəyirəm, müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara bilsin.

Biz müstəqillik arzusu ilə yaşamışdıq. Nəsillər müstəqillik arzusu ilə yaşamışdılar. 1918-ci ildə qısa müddət ərzində müstəqillik əldə edildi və deyə bilmərəm ki, o vaxt Azərbaycan tam şəkildə müstəqil siyasət apara bilərdi. O vaxt mövcud vəziyyət hamımıza tarixdən yaxşı bəllidir. Demək olar ki, Azərbaycanın müstəqil siyasət aparmaq imkanları çox məhdud idi. 1918-ci ildə Azərbaycan öz dövlətini elan edəndə qərarlar başqa ölkələr tərəfindən qəbul edilirdi və verilirdi. Bizim o vaxtkı bədbəxtliyimiz də məhz onda idi ki, o vaxt bu qərarları verən tərəflər sonra o qərarlarından geri çəkilmiş və nəticədə Azərbaycan öz müstəqilliyini itirmişdi. Ondan sonra biz başqa ölkənin tərkibində yaşadıq. Biz bu gün müstəqilik. Bu bizim ən böyük sərvətimizdir. Müstəqil

olmaq öz xalqının maraqlarına qulluq etməkdir, öz müstəqil siyasətini aparmaqdır. Biz bunu edirik və edəcəyik.

Mən görürəm, bizim belə açıq siyasətimiz, prinsipial mövqeyimiz bəzi hallarda kimisə qıcıqlandırır. Ancaq nəticə etibarilə güclü və müstəqil Azərbaycan bizim dostlarımız üçün də çox böyük imkanlar açır. Çünki hamı artıq dəqiq bilir ki, bizim mövqeyimizdə konyunktura naminə heç bir dəyişiklik olmayacaqdır. Bizim mövqeyimizdə dəyişiklik ancaq o halda ola bilər ki, bu, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün zəruridir. Hansısa xarici amillər bizim siyasətimizə təsir edə bilməz. Bunu artıq hamı gözəl anlayır. Bir daha demək istəyirəm ki, söylədiyim bütün məsələlər nəinki xarici siyasət prioritetləridir, daxildə gedən proseslərə də böyük təsir göstərir. Xarici siyasət daxili siyasətin davamıdır. Biz daxildə bütün imkanlarımızı səfərbər edə bilmişik. Biz dördüncü ildir ki, iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkəyik. İkinci belə ölkə yoxdur ki, üç il ərzində iqtisadiyyatı 96 faiz artsın. Əgər varsa, qoy desinlər. Əgər ikinci belə ölkə varsa ki, üç il ərzində yoxsulluq 49 faizdən 16 faizə düşübdür, qoy desinlər.

650 min iş yeri açılıbdır. Bütün ölkədə quruculuq-abadlıq işləri gedir. Bütün cəmiyyət ruh yüksəkliyi ilə yaşayır. Budur Azərbaycanın reallıqları.

Ona görə də «Azərbaycanda o düzgün deyil», «bu iş yaxşı aparılmır», «orada qüsur var» deyənlər gedib bir güzgüyə baxsınlar, öz ölkələrinə nəzər salsınlar. Yəni bir daha demək istəyirəm ki, son müşavirədən keçən dövr ərzində bizim bu məsələlərlə bağlı mövqeyimiz daha da sərt və daha da birmənalı olubdur. Biz, əlbəttə ki, diplomatik qaydalara riayət edirik və siz səfirlər də bunu etməlisiniz. Amma o halda ki, bizə qarşı diplomatik münasibət göstərilir. O halda ki, bu göstərilmir, mən sizə deyirəm, baxmayaraq ki, diplomatsınız, siz də eyni qaydada cavab verməlisiniz. Heç kimin ixtiyarı yoxdur ki, Azərbaycanın daxili işinə qarışsın,

bizə məsləhət versin, bizə mühazirə oxusun. Biz bu haqqı heç kimə verməmişik və heç bir ölkənin qarşısında öhdəlik götürməmişik. Yenə deyirəm, beynəlxalq təşkilatlara üzv olarkən öhdəlik götürmüşük və onu yerinə yetiririk. Əgər bizim orada olmağımız kiməsə sərf eləmir, gəlib desinlər. Biz beynəlxalq təşkilatda olmasaq nə olacaq? Azərbaycan batacaqmı? Azərbaycan ən ağır vəziyyətdə olanda – 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə kim gəlib bizə arxa olub, kim bizə kömək edib? Bizim pulumuz olmayanda, bizim iqtisadiyyatımız dağılanda – sənaye istehsalı tamamilə tənəzzülə uğramışdı, xaos, böhran, vətəndaş müharibəsi hökm sürürdü və iqtisadiyyat iflic olmuşdu – kimsə gəlib bizə məsləhət veribmi? Xəzinədə bir manat pul olmayanda kimsə ora bir manat qoyub ki, indi gəlib bizim imkanlarımıza nəzarət etsin? Bizim öz işimizdir. Biz neft gəlirlərinin idarə olunmasında ən şəffaf mexanizm icad etmişik. BMT buna görə Azərbaycan Dövlət Neft Fondunu mükafatla təltif edibdir. Biz özümüz bilirik necə yaşamalıyıq, özümüz bilirik ölkəmizi necə idarə etməliyik. Biz deyəndə, mən Azərbaycan xalqını nəzərdə tuturam. Çünki Azərbaycan xalqının qərarı ilə mən bu gün bu vəzifədəyəm və sizi də mən təyin etmişəm. Azərbaycan hakimiyyətinin mənbəyi Azərbaycan xalqıdır. Əgər kimsə Azərbaycan xalqına, Azərbaycan dövlətinə qarşı pis fikirdə olsa, biz amansız mübarizə aparacağıq, öz müstəqilliyimizi, öz müstəqil siyasətimizi qorumaq üçün, Azərbaycan xalqının maraqlarını təmin etmək üçün və Azərbaycanın inkişafı üçün. Budur əsas prinsiplər. Hər bir ölkənin uğurunun təməlində müəyyən prinsiplər dayanır. O da heç də hər zaman iqtisadi amillərlə, yaxud da ki, enerji ehtiyatları ilə ölçülmür. O prinsiplər ölkəni ölkə edir, müstəqilliyi gücləndirir və ölkə qarşısında yeni üfüqlər açır. Bunlar dövlətçilik, müstəqillik və rifah prinsipləridir.

Mən hesab edirəm ki, bir neçə gün ərzində keçiriləcək müşavirə sizin üçün çox əhəmiyyətli olacaqdır, burada

müxtəlif qurumların nümayəndələri çıxış edəcək və sizin üçün yeni informasiya verəcəklər. Əminəm ki, sizin gələcək fəaliyyətiniz üçün bu çox lazımlı olacaqdır. Bir daha demək istəyirəm ki, siz – Azərbaycan dövlətini təmsil edən insanlar – ölkəmizi ləyaqətlə təmsil etməlisiniz, Azərbaycanın milli maraqlarını müdafiə etməlisiniz və işlədiyiniz ölkələrlə münasibətlərin daha da yaxşı inkişaf etməsinə çalışmalısınız. Bütövlükdə mən bizim diplomatik nümayəndələrin fəaliyyətindən razıyam, bunu bəyənirəm, sadəcə olaraq, öz sözlərimi deməklə sizi bu işlərdə daha da fəal olmağa çağırıram.

Sağ olun.

## PAKİSTAN SENATININ XARİCİ ƏLAQƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ MÜŞAHİD HÜSEYN SƏİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Pakistan Senatının Xarici Əlaqələr Daimi Komitəsinin sədri Müşahid Hüseyn Səidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Senator Pakistan prezidenti Pərviz Müşərrəf və Baş nazir Yusuf Raza Gillaninin salamlarını prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimiz arasında dostluq münasibətlərinin hərtərəfli inkişaf etdiyini, Pakistan və Azərbaycan xalqları arasında qardaşlıq əlaqələrinin möhkəmləndiyini bildirdi. Müşahid Hüseyn Səid Azərbaycan prezidentinin Pakistana səfəri zamanı etdiyi çıxışın çox böyük maraqla qarşılandığını vurğuladı. Qonaq qeyd etdi ki, ölkələrimizin parlamentlərarası əməkdaşlığının genişlənməsi ikitərəfli münasibətlərimizin daha da inkişafı işinə öz töhfəsini verir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında əlaqələrin bütün sahələrdə inkişaf etməsindən məmnunluğunu ifadə etdi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini bildirdi. Dövlətimizin başçısı Pakistan Senatının Xarici Əlaqələr Daimi Komitəsinin sədrinin ölkəmizə bu səfərinin həm parlamentlərarası əməkdaşlığın, həm də ikitərəfli münasibətlərimizin daha da dərinləşməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Pakistan prezidenti Pərviz Müşər-rəfin və Baş nazir Yusuf Raza Gillaninin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Pakistanın dövlət başçısına və Baş nazirə çatdırmağı xahiş etdi.*

## «QARABAĞ» YÜK GƏMİSİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*Bakı buxtası*

*8 iyul 2008-ci il*

*İyulun 8-də Yaxt-klubun yerləşdiyi Bakı buxtasında «Qarabağ» yük gəmisinin istifadəyə verilməsi mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirov qarşıladı. Sonra gəminin kapitanı Azərbaycan prezidenti İlham Əliyevə məruzə etdi.*

*Dövlətimizin başçısı əvvəlcə gəminin yük göyərtəsinə baxdı. Sonra üst qatdakı göyərtədə gəminin kayutları, heyətin istirahət salonu, yeməkxana ilə tanış oldu.*

*Məlumat verildi ki, Xorvatiyanın Pula tərsanəsində inşa olunmuş gəmi öz göyərtəsinə əvvəlki gəmilərdən fərqli olaraq 28 yox, 52 dəmiryol vaqonu götürə bilir.*

*Bu gəmidən ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu TRASEKA nəqliyyat dəhlizində yükdaşımada istifadə olunacaqdır. «Qarabağ» gəmisi Türkmənistanın Türkmənbaşı və Qazaxıstanın Aktau limanlarından Bakıya və əks istiqamətlərə yük daşıyacaqdır.*

*Gəminin uzunluğu 154,5 metr, eni 17,5 metr, sürəti saatda 14 dəniz milidir. Tam yükgötürmə qabiliyyəti 5985 tondur.*

*Ən müasir naviqasiya avadanlığı ilə təchiz olunmuş gəmidə kompyuter idarəetmə sistemi quraşdırılmış, beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq yüksək səviyyədə təhlükəsizlik tədbirləri görülmüşdür.*

*Vaqonlar gəmidə 2 göyərtəyə yüklənəcəkdir. Bunun üçün xüsusi lift quraşdırılmışdır. Gəmini 22 nəfərdən ibarət heyət idarə edəcəkdir.*

*Dövlətimizin başçısı kapitan körpüsündə gəminin istifadəyə verilməsini bildirən fitin düyməsini basdı.*

*Prezident İlham Əliyev «Qarabağ» gəmisinin kollektivinə uğurlar arzuladı.*

## MÜASİR TİPLİ YOLÖTÜRÜCÜ VƏ TUNELİN AÇILIŞI

*10 iyul 2008-ci il*

*Azərbaycan Respublikası Prezidentinin «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında» 2006-cı il 2 fevral tarixli Sərəncamına uyğun olaraq, paytaxtda inşa edilən 9 yol qovşağından daha biri – «Excelsior» mehmanxananası dairəsində müxtəlif səviyyəli yol qovşağının ilkin mərhələsi iyulun 10-da istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Yolötürücünün və tunelin açılışına toplaşan inşaatçılar prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı yol qovşağı kompleksinin layihəsinə və sxemlərinə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, 2006-cı il avqustun 4-də prezident İlham Əliyevin təməlini qoyduğu yol qovşağı kompleksini Nəqliyyat Nazirliyinin sifarişi ilə «Akkord» şirkətlər qrupu inşa edir. Kompleksə 4 yolötürücü ilə bərabər, 2 tunel daxildir. Həmin ərazidən keçən dəmir yolu körpüsü yenisi ilə əvəz edilir.*

*İstifadəyə verilən yolötürücünün aşırım hissəsinin uzunluğu 340 metr, eni 11,7 metr, yanaşma yolları ilə birlikdə ümumi uzunluğu 540 metrdir. Tunelin uzunluğu isə 220 metr, eni 11 metr, iki istiqamətdə yan yolların ümumi uzunluğu 2600 metrdir. Respublikamızda ilk dəfə olaraq bu yolötürücüdə avtomatik istilik sistemi quraşdırılmışdır. Temperatur mənfi 1 dərəcəyə enən kimi, istilik sistemi avtomatik işə düşür, müsbət 6 də-*

*rəcəyə çatanda sistem dayanır. Yolötürücünün və tunelin giriş-çıxışlarında təzyiqlə vurulan suyun fırlatdığı 8 qranit kürə qoyulmuşdur.*

*Ərazidə 20 min kvadratmetr yaşıllaşdırma-abadlıq işləri aparılmış, ağac və gül kolları əkilmiş, 15 min kvadratmetr sahəyə asfalt döşənmişdir. Yolötürücüdə paslanmayan materialdan hazırlanmış 1560 metr məhəccər, 24 işıqlandırma dirəyi qoyulmuşdur. Tunelin və yolötürücünün inşasında qranit piltələrdən istifadə olunmuşdur. Tikinti zamanı 600 yerli mütəxəssis üç növbədə çalışmışdır.*

*Dövlətimizin başçısı yolötürücünün açılışını bildirən rəmzi lenti kəsdi, inşaatçıları təbrik etdi.*

*Prezident İlham Əliyev yolötürücünü və tuneli gəzdi, işin keyfiyyəti ilə maraqlandı, kompleksin qalan hissəsinin yüksək səviyyədə inşası ilə bağlı tapşırıqlarını verdi.*

*Azərbaycan prezidenti İlham Əliyevə yolötürücünün açılışından xatirə olaraq hədiyyə təqdim edildi.*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Belçikanın milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Belçika münasibətlərinin, istər ikitərəfli qaydada, istərsə də Avroatlantika strukturları çərçivəsində əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2008-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri ardıcıl inkişaf yolundadır. Əminəm ki, dövlətlərarası münasibətlərimiz bir çox sahələrdə qarşılıqlı maraq doğuran səmərəli əməkdaşlığımız üçün daim möhkəm zəmin olacaqdır.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2008-ci il*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBE VELESƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kolumbiya arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2008-ci il*

## BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİNİN ƏSASLI YENİDƏNQURMA VƏ TİKİNTİ İŞLƏRİNDƏN SONRA AÇILIŞI

*12 iyul 2008-ci il*

*Əsaslı yenidənqurma və tikinti işlərindən sonra Bibiheybət ziyarətgah kompleksi iyulun 12-də istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*IX əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə islam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə peyğəmbər nəslinin 7-ci nümayəndəsi uyuyur. İmam Museyi Kazımın qızı həzrəti Hökümə xanımın məzarı da bu ziyarətgahdadır. Sovet dövründə Azərbaycanın say-seçmə övladları ilə yanaşı, maddi-mədəniyyət abidələrimiz, o cümlədən xalqımızın iman və inanc yeri olan Bibiheybət ziyarətgahı da repressiyaya məruz qalmışdır. 1934-cü ildə bolşeviklər bu müqəddəs ocağı darmadağın etməklə xalqımızın vicdan azadlığı hüququna ağır zərbə vurmuşlar.*

*Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi, iradəsi, milli-mənəvi dəyərlərimizə dərindən bağlılığı sayəsində bu ziyarətgaha yenidən həyat verilmişdir. Ümummilli lider 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət etmiş, 1997-ci il iyulun 23-də, peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoymuşdur. Bir il sonra, yenə də peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak etmişdir.*

*Heydər Əliyev ideyalarına sadiq qalan və onu uğurla davam etdirən prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imza-*

*ladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapmışdır. Dövlətimizin başçısı 2005-ci ilin oktyabrında və 2007-ci ilin dekabrında buranı ziyarət edərkən fikirlərini bölüşmüş, tövsiyələrini vermişdir. Bununla da müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan Bibiheybət məscidinin inşası sürətləndi. Prezident İlham Əliyev tikintinin gedişini daim diqqətdə saxlamış, qarşıya çıxan problemlər dərhal həll olunmuş, qısa müddətdə bu müqəddəs ocaq tanınmaz dərəcədə dəyişmiş, nəfis və möhtəşəm görkəm almışdır.*

*Açılış mərasiminə gələn prezident İlham Əliyev yolüstü Bibiheybət buxtasında aparılan ekoloji tədbirlərlə tanış oldu.*

*Neft mədənlərinin yerləşdiyi həmin ərazi uzun müddət təmizlənmədiyindən, burada heç bir əsaslı ekoloji tədbir həyata keçirilmədiyindən Bibiheybət buxtasında acınacaqlı vəziyyət yaranmışdı. Ətraf ərazi çirklənmiş, torpaq yararsız hala düşmüşdü. Dövlətimizin başçısının tapşırığına əsasən, burada qısa müddətdə xeyli iş görülmüş, silsilə ekoloji tədbirlər həyata keçirilmiş, torpaq neft tullantılarından təmizlənmiş, ətrafda yaşıllıqlar salınmışdır.*

*Bütün bunlar ərazinin görkəminin tanınmaz dərəcədə dəyişməsinə səbəb olmuşdur. Hazırda ölkəmizin başçısının tapşırığına müvafiq olaraq nəzərdə tutulan tədbirlər davam etdirilir.*

*Prezident İlham Əliyev burada görüləcək işlərlə bağlı əlavə tapşırıqlarını verdi.*

*Sonra dövlətimizin başçısı xanımı Mehriban Əliyeva, qızları Leyla və Arzu ilə birlikdə Bibiheybət ziyarətgah kompleksinə gəldi.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə prezident İlham Əliyevə burada aparılan əsaslı yenidənqurma və tikinti işləri barədə ətraflı məlumat verdi. Bildirildi ki, ziyarətgah kompleksində ən yüksək səviyyədə yenidənqurma, tikinti və tərtibat işləri aparılmışdır.*

*Dövlətimizin başçısına ziyarətgah kompleksində yüksək zövqlə aparılan tərtibat işləri barədə geniş məlumat verildi. Qeyd olundu ki, məscidin birinci və ikinci mərtəbələrində, mərkəzi salonda, foyenin tavanında, zirzəminin divarlarında incə memarlıq nümunələri əksini tapmışdır. Məscidin gümbəzi də mükəmməl şəkildə işlənib. Burada smaltadan rəngbərəng şüşə materiallarından ibarət mozaikada Qurani-Kərimdən «Ən-Nisa» surəsi yazılıb. Ümumiyyətlə, məscidin müxtəlif guşələrində Quranın müxtəlif surələri əksini tapmışdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ərazinin relyefinin mürəkkəbliyi nəzərə alınaraq, ziyarətgah və buradan keçən magistral yol genişləndirilmiş, köhnə evlər sahiblərinə yeni mənzillər verilməklə və ya kompensasiya ödənilməklə sökülmüşdür. Müsəlmanların digər möhtəşəm ziyarətgahlarında olduğu kimi, bu məsciddə də ilk dəfə muzey və kitabxana zəvvarların ixtiyarına verilmişdir. Burada aparılan yenidənqurma tədbirləri ölkəmizdə dini dəyərlərə nə qədər həssaslıqla yanaşılmanın bariz nümunəsidir.*

*Kompleksdə çoxlu yardımçı otaqlar tikilmiş, yeməkxana, hər cür şəraiti olan qurbangah yaradılmışdır. Kompleksin ayrıca qazanxanası, mükəmməl su təchizatı, havalandırma və digər mükəmməl kommunikasiya sistemi vardır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva həzrəti Hökumənin və imamın nəvələrinin məzarlarını ziyarət etdilər. Onların ruhlarına dualar oxundu.*

*Prezident İlham Əliyev nəzir verdi.*

*Mərasimdən yadigar olaraq xatirə şəkli çəkdirildi.*

*Dövlətimizin başçısı kompleksin üst qatında həyata keçirilən yenidənqurma və tikinti işləri ilə tanış oldu. Qeyd edildi ki, burada tikilmiş geniş meydançada dini mərasimlər icra olunacaq, müxtəlif mədəni tədbirlər təşkil ediləcəkdir. Burada yay aylarında ziyarətgaha gələnlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİBİHEYBƏT ZİYARƏT KOMPLEKSİNİN AÇILIŞINDA NİTQİ *

Hörmətli xanımlar və cənablar!
Hörmətli din xadimləri!
Əziz dostlar!

Bu gün Azərbaycan xalqının həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün Bibiheybət məscidində təmir-bərpa və genişləndirmə işləri tam başa çatmışdır. Bu münasibətlə mən bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

IX əsrin yadigarı olan Bibiheybət ziyarətgahı əsrlər boyu insanların inanc və ibadət yeri olmuş, Azərbaycan xalqı tərəfindən qorunmuşdur. Bibiheybət ziyarətgahının böyük tarixi vardır və XIII əsrdə burada Şirvanşahlar tərəfindən məscid tikilmişdir. Bütün dövrlərdə bu müqəddəs ocaq insanları özünə cəlb edib. Bildiyiniz kimi, keçən əsrin 30-cu illərində məscid dağıdılmışdır. Bütövlükdə, Sovet İttifaqı zamanında dinə qadağa qoyulmuşdu və məscidin dağıdılmasını əks etdirən o acı kadrlar bizim gözümüzün qabağındadır. Dəfələrlə biz bu dəhşətli hadisəni kinokadrlar vasitəsilə görmüşük.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil ölkə kimi yaşamağa başlamışdır. Ancaq müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi. Demək

---

*Mərasimdə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə, Bakı və Xəzəryanı bölgə yeparxiyasının yepiskopu Aleksandr Ata, Dağ yəhudiləri icmasının sədri Semyon İxiilov və Bakıdakı Roma katolik kilsəsinin başçısı Yan Çapla çıxış etdilər.

olar ki, ölkəmizdə bütün istiqamətlərdə geriləmə müşahidə olunurdu. İqtisadiyyat çökmüşdü, sənaye istehsalı tənəzzülə uğrayırdı, ölkədə xaos və böhran hökm sürürdü. Deyə bilərəm ki, 1991–93-cü illərdə milli-mənəvi dəyərlərə o qədər də böyük fikir verilmirdi. O vaxtkı iqtidar nümayəndələri özlərini elə aparırdılar ki, sanki onlardan əvvəl heç tarix də olmamışdır. Milli-mənəvi dəyərlərin təbliğ olunması, bizim milli ənənələrimizə qayıdış prosesi ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra başlamışdır. Məhz 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanda bütün istiqamətlərdə xoşagəlməz proseslərin dayanmasına gətirib çıxardı. Mənəviyyat sahəsində də Azərbaycan xalqı öz mənəvi və dini köklərinə qayıtdı.

Bildiyiniz kimi, o illər Azərbaycan iqtisadiyyatı üçün böyük sınaq illəri olmuşdur. Demək olar ki, iqtisadi inkişaf sıfır dərəcəsində idi, ölkədə çoxlu sosial problemlər mövcud idi. Sovet İttifaqının dağılması nəticəsində və 1991–93-cü illərdə müşahidə olunan böhran nəticəsində hər hansı bir iqtisadi dirçəlişdən söhbət gedə bilməzdi.

Ulu öndərin səyləri nəticəsində ölkədə sabitlik yarandı, quruculuq, inkişaf dövrü başladı və baxmayaraq ki, o illərdə – 1993–94-cü illərdə bizim dövlət büdcəmiz də çox məhdud idi, əlavə imkanlarımız da yox idi, xəzinədə 1 manat vəsait də yox idi. Bibiheybət məscidinin bərpası üçün 1994-cü ildə Heydər Əliyevin qərarı işıq üzü gördü. 1994-cü ildə Qurban bayramında Heydər Əliyev buranı ziyarət etmiş və göstəriş vermişdi ki, burada məscidin binası tikilsin. Ondan sonra layihələndirmə işləri başlamış, layihə hazırlanmış və 1997-ci ildə həzrəti Məhəmməd peyğəmbərin mövludu günündə Heydər Əliyevin iştirakı ilə məscidin bünövrəsi qoyulmuşdur.

Mən xüsusilə diqqəti iqtisadi çətinliklərə yönəltmək istəyirəm. Çünki Azərbaycanın indiki şəraitində, əlbəttə ki, bütün böyük layihələri icra etmək olar. İnfrastruktur layihə-

lərinin, sosial proqramların həlli, iqtisadi və sənaye potensialının möhkəmlənməsi üçün müxtəlif tədbirlər görülür və siz bunların hamısını yaxşı bilirsiniz. Ancaq o dövrdə Azərbaycan tamamilə, demək olar ki, iqtisadi cəhətdən iflic vəziyyətdə idi, Azərbaycanda sənaye istehsalı üçün heç bir vasitə yox idi. 1994-cü ilin yazında ulu öndər bu müqəddəs yeri ziyarət etmişdi, o vaxt bizim perspektivlərimiz də çox müəmmalı idi. Bizim heç neft müqaviləmiz də imzalanmamışdı. Ancaq milli-mənəvi dəyərlərə ulu öndərin verdiyi önəm və qiymət imkan yaratdı ki, hətta məhdud iqtisadi imkanlar şəraitində məscidin tikintisinə başlanılsın. 1997-ci ildə başlanmış tikinti 1998-ci ildə başa çatmışdır və Heydər Əliyevin iştirakı ilə məscidin əsas korpusunun, əsas hissəsinin açılışı olmuşdur.

Azərbaycanın son illər ərzində əldə etdiyi uğurların təməlində ulu öndər Heydər Əliyevin qoyduğu siyasi xətt dayanır. Biz bu xəttə sadiqik, biz Azərbaycanı onun göstərdiyi yolla inkişaf etdiririk və Azərbaycanın hərtərəfli inkişafı üçün əlimizdən gələni əsirgəmirik. Bu gün istər iqtisadi sahədə, sosial məsələlərin həlli istiqamətində, nəhəng infrastruktur layihələrinin icrası sahəsində – bütün istiqamətlərdə biz uğurlardan qürur hissi ilə danışa bilərik.

Azərbaycan doğrudan da çox yüksək dərəcədə inkişaf edibdir. Biz öz siyasi və iqtisadi mövqelərimizi möhkəmləndirmişik. Biz bölgədə söz sahibiyik. Azərbaycan müasirləşir, yeniləşir, Azərbaycanın bölgədəki imkanları və mövqeləri güclənir, artır. Biz ölkəmizi hərtərəfli inkişaf etdiririk və bu gün istər iqtisadi inkişaf baxımından, sənaye istehsalı artımı baxımından, istərsə ölkədə ictimai-siyasi vəziyyətin sabit olması baxımından Azərbaycan haqlı olaraq bu bölgənin lideri adını qazanmışdır.

Biz nəinki iqtisadi islahatlara üstünlük veririk, eyni zamanda, siyasi islahatları da uğurla icra edirik və demokratik inkişaf baxımından Azərbaycan bölgə üçün nümunə

ola bilər və biz bunu yaxşı bilirik. Azərbaycan xalqının rahat yaşaması üçün biz bütün imkanlardan istifadə edirik.

Bu gün bizim ölkəmiz bölgədə gedən proseslərə çox böyük təsir imkanlarına malikdir. Azərbaycan dünyada gözəl imic əldə edibdir. Bizimlə əməkdaşlıq etmək istəyən və bizimlə bərabər layihələrdə iştirak etmək istəyənlərin sayı artır. Azərbaycan böyük imkanlarından bölgədə əməkdaşlığın inkişafı üçün məharətlə istifadə edir. Biz ölkəmizi gələcəyə aparırıq. Biz milli mənəvi dəyərlər əsasında, zəngin mədəni və tarixi irsimiz əsasında müasir ölkə yaradırıq və bu istiqamətdə artıq böyük uğurlara nail olmuşuq.

Bu gün elə məsələ tapmaq çətindir ki, biz bunu edə bilməyək. Bax, bu müqəddəs ocağa gələrkən mən yolda maşını saxlatdım və yuxarıdan Bibiheybət buxtasına baxdım. Bir müddət əvvəl mənim tərəfimdən göstəriş verilmişdi ki, bütün bu ərazi neftlə çirklənmiş gölməçələrdən təmizlənsin. Bu ərazidə uzun illər – bir əsrdən çoxdur ki, neft hasil edilir və ekoloji vəziyyət çox acınacaqlı idi. Bu gün yuxarıdan bu əraziyə baxarkən gördüm ki, həqiqətən də elə məsələ yoxdur ki, biz bunu həll edə bilməyək. Artıq köhnədən qalan neft dirəkləri yığışdırılıb, Bibiheybət buxtasının ətrafında 30 mindən çox ağac əkilibdir. Ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşıbdır və vaxtilə ekoloji fəlakət sahəsi kimi tanınan bu ərazi bu gün artıq ekoloji cəhətdən ən təmiz yerlərdən birinə çevrilib və bu hələ başlanğıcdır. Bir ildən, iki ildən sonra o ağaclar böyüyəcək, gözəl parklar olacaq, orada insanların istirahəti üçün, yaşaması üçün çox gözəl imkanlar yaranacaqdır. Nə üçün mən bunu deyirəm, ona görə ki, bir daha qeyd etmək istəyirəm, müasir Azərbaycanın qarşısında elə problem yoxdur ki, biz bunu uğurla həll etməyək və bütün istiqamətlərdə bizim proqramlarımız uğurla icra edilir. Həyatımızın hər bir sahəsi üçün müvafiq proqramlar var və onların konkret icra mexanizmləri var, maliyyə resursları var. Ölkəmizdə gedən quruculuq-abadlıq işləri hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz nəinki transmilli

enerji və nəqliyyat layihələrini icra edirik, biz ölkəmiz üçün ölkə daxilində çox böyük infrastruktur və sosial obyektlərin tikintisi ilə məşğuluq – təhsil sahəsində, səhiyyə sahəsində, yollar çəkilişi sahəsində – bütün sahələrdə.

Azərbaycanın artan iqtisadi imkanları və artan nüfuzu, yenə də deyirəm, ulu öndərin keçən əsrin 90-cı illərinin ortalarında başlanmış uğurlu neft strategiyasına əsaslanır. Əgər o vaxt o cəsarətli addım atılmasaydı, bu gün Azərbaycan, əlbəttə ki, müstəqil siyasət apara bilməzdi. Biz müstəqil siyasət aparırıq, Azərbaycan xalqının maraqları əsasında bu siyasəti aparırıq və bundan sonra da bu siyasətə sadiq olacağıq. Mən çox şadam ki, Azərbaycan cəmiyyətində ümummilli ideya ətrafında bütün cəmiyyət səfərbər olunub, cəmiyyət azərbaycançılıq ideyası, dövlətçilik ideyası, müstəqillik ideyası və müstəqil həyat ideyası uğrunda birləşibdir. Budur bizim əsas siyasi prinsiplərimiz və bu prinsiplər əsasında biz öz siyasətimizi qururuq – istər ikitərəfli formatda, istər bölgədə gedən əməkdaşlıq prizmasından. Bizim əsas sütun prinsiplərimiz bunlardır və bütün sahələrdə olduğu kimi, Azərbaycanda gedən ictimai-siyasi proseslər elə müsbət istiqamətdə inkişaf edir ki, Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri özlərini çox rahat hiss edirlər. Azərbaycan bu baxımdan nümunə ölkə ola bilər və artıq dünya birliyi bunu daha da dərindən dərk etməyə başlamışdır. Ölkəmizdə keçirilən çoxsaylı dialoqlar, forumlar əsasında sivilizasiyalararası dialoqun möhkəmlənməsi, dinlərarası münasibətlərin tənzimlənməsi işində Azərbaycan nəinki bölgədə, dünyada əvəzolunmaz funksiyasını yerinə yetirir.

Biz çox şadıq ki, Azərbaycanda bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, öz doğma vətəninin inkişafına töhfələrini verirlər. Bu bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir. Azərbaycan çoxmillətli ölkədir, çoxkonfessiyalı ölkədir. Bizim təcrübəmiz, mən bunu tam qətiyyətlə deyirəm, artıq başqa ölkələrdə öyrənilir, beynəlxalq

təşkilatlarda diskussiyalar mövzusuna çevrilir və gələcəkdə, əlbəttə ki, Azərbaycanın tolerantlıq məkanı kimi, rolu dünya işlərində, dünyada gedən proseslərdə artacaqdır. Biz öz milli köklərimizə, dini köklərimizə qayıtmışıq. Azərbaycan xalqını, azərbaycanlıları bütün dövrlərdə, müstəqil olmadığımız dövrlərdə bir millət kimi qoruyub saxlayan bizim ənənələrimiz, milli-mənəvi dəyərlərimiz, ana dilimiz olubdur, bizim dinimiz olubdur. Biz bütün başqa dinlərə hörmətlə yanaşırıq və hesab edirik ki, dünyada bütün dinlərə hörmətlə yanaşılmalıdır.

İslam dini Azərbaycan xalqının formalaşmasında çox mühüm rol oynamışdır və bu gün bizim dini abidələrimiz bərpa olunur. Bibiheybət məscidinin ərazisi xeyli genişləndirilmişdir. Mən qeyd etdim ki, 1998-ci il iyulun 12-də məscidin əsas hissəsi istismara verilmişdir. Düz 10 il sonra 2008-ci il iyulun 12-də biz Bibiheybət məscid-ziyarətgahına yeni həyat verdik və bu gözəl salon yenidən tikilmişdir. Məscidin yuxarı hissəsində təmir-bərpa işləri aparılmışdır. Əminəm ki, buraya toplaşan dostlarımız imkan tapıb vəziyyətlə tanış olacaqlar. Ən yüksək səviyyədə təmir-bərpa işləri aparılmışdır. Mən dəfələrlə müxtəlif müsəlman ölkələrində olmuşam. Orada olarkən məscidləri ziyarət etmişəm. Deyə bilərəm ki, biz Bibiheybət məscidində mövcud olan vəziyyətlə fəxr edə bilərik. Burada ən keyfiyyətli materiallardan istifadə olunubdur, ən gözəl ustalar burada fədakarcasına işləyiblər. Bu məscidin tikintisində və tikintinin başa çatmasında iştirak etmiş bütün insanlara mən öz minnətdarlığımı bildirmək istəyirəm. Mən çox şadam ki, bu gözəl, müqəddəs yerdə əzəmətli məscid tikilib. 2005-ci ildə mən burada olarkən məscidin genişlənməsi üçün və ərazinin böyüməsi üçün müvafiq göstərişlər vermişdim. Ondan sonra burada praktiki işlər başlanmışdır. Ərazi genişləndirildi, yadınızdadır, burada məscidə bitişik çoxsaylı fərdi evlər var idi. Biz orada yaşayan insanları köçürdük, onlara yüksək səviyyədə kompensasiya verildi. Söz düşmüşkən, qeyd etmək istəyirəm ki, indi Azərbaycanda, Bakıda və digər yerlərdə

çox böyük quruculuq-abadlıq işləri aparılır, infrastruktur layihələri icra olunur və bəzi hallarda köçürülmələrlə bağlı problemlər yaradılır. Mən bütün müvafiq qurumlara ciddi göstəriş vermişdim ki, bütün köçürülən ailələrə lazımi səviyyədə kompensasiya verilsin, onlar ya yeni evlərlə təmin olunsunlar, ya maddi kompensasiya verilsin ki, onlar daha da yaxşı şəraiti o vəsait hesabına əldə edə bilsinlər.

Burada yeni salonlar tikilibdir və bu gün qürur hissi ilə deyə bilərəm ki, Bibiheybət məscidi bir memarlıq abidəsidir. Tikinti zamanı mən işin gedişi ilə tanış olmaq üçün burada olmuşam, baxmışam, öz fikirlərimi bildirmişəm. Biz tikintinin aparılması üçün bütün lazımi tədbirləri gördük. Dövlət hesabına böyük vəsait ayrılıbdır və bu gün biz yenə də böyük qürur hissi ilə deyə bilərik ki, bu müqəddəs ocaq dünyanın ən yüksək standartlarına cavab verir.

Bütövlükdə Azərbaycanda dini abidələrin qorunmasına, bərpasına çox böyük diqqət göstərilir. Bildiyiniz kimi, Təzəpir məscidində çox böyük quruculuq işləri aparılır. Əgər biz desək ki, Təzəpir məscidində təmir işləri aparırıq, səhv edərik. Faktiki olaraq, ora yenidən qurulur, ərazi xeyli genişləndirilib, çox gözəl memarlıq üslubunda inzibati binalar tikilir, həm xarici görünüşü tamamilə yeniləşdirilir, həm də daxildə dizayn işləri çox yüksək səviyyədədir. Mən bir daha demək istəyirəm ki, əlbəttə, hər bir təmiri etmək olar və bunun keyfiyyəti də müxtəlif səviyyədə ola bilər. Amma mənim istəyim ondan ibarətdir ki, bizim üçün, Azərbaycan xalqı üçün, Azərbaycan müsəlmanları üçün müqəddəs olan yerlərdə dünyanın ən yüksək texnologiyaları tətbiq olunsun, ən gözəl ustalar işləsin və ən gözəl materiallardan istifadə olunsun. Bu gün Təzəpir məscidində də sürətlə tikinti gedir və yəqin ki, yaxın zamanlarda biz orada da açılışa toplaşacağıq.

Əjdərbəy məscidində də təmir-bərpa işləri gedir. Bildiyiniz kimi, bu yaxınlarda Bakıda katolik kilsəsinin açılışını biz bərabər qeyd etdik. Bunlar siyasətimizin təzahürüdür, Azər-

baycan vətəndaşlarının mənəvi vəziyyətini göstərir. Azərbaycan vətəndaşları çox dözümlüdürlər, çox tolerantdırlar. Azərbaycanda yaşayan bütün xalqlar, bütün dinlərin nümayəndələri özlərini çox rahat hiss edirlər.

Mən bunu bilirəm, çünki milli azlıqların yaşadıqları bölgələrdə tez-tez oluram, onların vəziyyəti ilə maraqlanıram, lazımi göstərişləri verirəm və elə etmək istəyirəm ki, Azərbaycanda yaşayan bütün insanlar millətindən, dinindən asılı olmayaraq, özlərini yaxşı, rahat hiss etsinlər. Bunu etmək üçün bizim imkanlarımız var və Azərbaycanın ildən-ilə artan iqtisadi gücü və potensialı burada yaşayan bütün insanların həyat səviyyəsinə müsbət təsir göstərir.

Əziz dostlar, mən bu gözəl gündə sizi bir daha salamlamaq və bütün Azərbaycan xalqını Bibiheybət məscidinin tikintisinin başa çatması və istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİNƏ

Hörmətli Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşları!

Sizi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 10 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini Azərbaycan dövlətinin ali məqsədi elan etmiş və bu dəyərlərin qorunması üçün etibarlı mexanizmlər müəyyən etmişdir. Konstitusiyanın aliliyini təmin etmək məqsədi ilə ümummilli liderimizin təşəbbüsü ilə 1998-ci ildə Konstitusiya Məhkəməsi yaradılmış, onun fəaliyyətinin təşkili üçün mühüm qanunvericilik və institusional tədbirlər görülmüşdür.

Ötən müddət ərzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi səmərəli hüquqi təsisat kimi formalaşmış, dövlət hakimiyyəti sistemində özünəməxsus yer tutmuşdur.

Konstitusiya Məhkəməsi insan hüquqlarına dair müasir ideyaların, xüsusilə də İnsan Hüquqları üzrə Avropa Konvensiyasında təsbit olunmuş prinsiplərin milli hüquqa tətbiqində, ölkəmizin Avropa hüquq məkanına inteqrasiyasında əhəmiyyətli rol oynayır, qəbul etdiyi qərarlarla hüquq sisteminin inkişafına və hüquq mədəniyyətinin artırılmasına təsir göstərir, bütövlükdə dövlətin hüquqi əsaslarının gücləndirilməsində fəal iştirak edir.

Hazırda Azərbaycan sosial-iqtisadi inkişafının və hüquqi islahatların keyfiyyətcə yeni mərhələsini yaşayır. Konsti-

tusiya Məhkəməsi öz fəaliyyətini müasir dövrün tələblərinə uyğun qurmalı, qanunun aliliyinin təmin edilməsi, Konstitusiyaya hörmət və ehtiramın aşılanması məqsədlərinə xidmət etməli, onun qərarları hüququn mötəbər mənbəyinə çevrilməlidir.

Azərbaycan dövləti qarşılıqlı maraq və qarşılıqlı hörmət əsasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi önəm verir. Konstitusiya Məhkəməsi də xarici ölkələrin Konstitusiya nəzarəti orqanları və beynəlxalq təşkilatlarla geniş əlaqələr qurmalı və bu əlaqələr milli və beynəlxalq hüququn qarşılıqlı bəhrələnməsinə töhfə verməlidir. Konstitusiya Məhkəməsinin yubileyi münasibətilə təşkil olunmuş beynəlxalq konfrans məhz bu məqsədə xidmət edir.

Hörmətli Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşları!

Sizi bir daha bu əlamətdar tarixlə əlaqədar təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı , *12 iyul 2008-ci il*

# KONSTİTUSİYA MƏHKƏMƏSİNİN YARADILMASININ X İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*14 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də ölkəmizdə Konstitusiya Məhkəməsinin yaradılmasının X ildönümü münasibətilə Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkəmizdə bu cür yüksək səviyyəli tədbirlərin keçirilməsinin təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan qədim diyardır, lakin müstəqil ölkə kimi, 17 yaşı var. Bu illər ərzində siyasi sistemin dəyişdirilməsinə, qanunun aliliyinin bərqərar olunmasına və ölkənin qısa müddətdə inkişafını təmin edən hüquqi sistemin yaradılmasına xüsusi diqqət yetirilmişdir. Azərbaycanın 2001-ci ildən Avropa Şurasının üzvü olduğunu və bir çox beynəlxalq sazişlərə və konvensiyalara qoşulduğunu deyən prezident İlham Əliyev iqtisadi, siyasi və hüquqi sistemin inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılması istiqamətində görülən işlərdən də danışdı. Dövlətimizin başçısı dedi ki, bizim gələcəkdə də görəcəyimiz işlər çoxdur. Məhz bu səbəbdən də başladığımız və davam etdirməyi planlaşdırdığımız islahatları həyata keçirmək üçün fikir və təcrübə mübadiləsinin aparılması vacibdir. Prezident İlham Əliyev Azərbaycanla yaxından tanışlıq üçün bu tədbirin əhəmiyyətini vurğuladı və Bakıda keçirilən konfransın praktik baxımdan səmərəli olacağına əminliyini söylədi, konfrans iştirakçılarına uğurlar arzuladı.*

*Qazaxıstan Respublikası Konstitusiya Şurasının sədri İqor Roqov Bakıda doğulduğunu bildirdi və Azərbaycanda ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu islahatların uğurla həyata keçirildiyini dedi. O, Azərbaycanla Qazaxıstan arasında əlaqələrin getdikcə genişlənməsini müsbət hal kimi dəyərləndirdi.*

*Macarıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri Piter Pakjolay Bakıya 1996-cı ildə səfər etdiyini xatırlatdı və ölkəsi ilə Azərbaycan arasında tarixi əlaqələrin mövcudluğuna toxundu. O, ölkəmizdə qanunun aliliyinin təmin edilməsi sahəsində nailiyyətlərin şahidi olduğunu söylədi, bu işdə Konstitusiya Məhkəməsinin rolunu vurğuladı.*

*Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkio ölkəmizdə dəfələrlə səfərdə olduğunu, xalqımızın ümummilli lideri Heydər Əliyevlə və prezident İlham Əliyevlə görüşlərini xatırlatdı. O dedi ki, 2001-ci ildə Avropa Şurasına üzv olduğu vaxtdan biz Azərbaycanın müxtəlif qurumları ilə sıx əməkdaşlıq edirik.*

*Prezident İlham Əliyev də Avropa Şurası və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı. Ölkəmizin Avropa Şurasına üzv olduğu 7 ildə mühüm nailiyyətlərin əldə edildiyini və bu əməkdaşlığın faydalı olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Avropa ailəsinə inteqrasiya istiqamətində əhəmiyyətli addımlar atır. Prezident İlham Əliyev Avropa İttifaqı ilə uğurla həyata keçirilən «Yeni qonşuluq siyasəti»nin, enerji təhlükəsizliyi sahəsində görülən işlərin buna misal olduğunu qeyd etdi. Dövlətimizin başçısı Dağlıq Qarabağ münaqişəsindən danışaraq bildirdi ki, Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal edib, nəticədə 1 milyon insan doğma torpaqlarından didərgin düşübdür. Prezident İlham Əliyev eyni zamanda vurğuladı ki, indi Azərbaycan dünyada iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir və hökumət məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı mühüm işlər görür.*

*Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev dövlətimizin başçısına minnətdarlığını bildirərək dedi ki, 39 il öncə iyulun 14-də Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gələn xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil ölkəmizin Konstitusiya Məhkəməsinin yaradılması və formalaşmasında da böyük xidmətlər göstərmişdir. Konstitusiya Məhkəməsinin sədri konfrans iştirakçıları adından prezident İlham Əliyevə Xatirə medalını təqdim etdi.*

## ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Boyden Qreyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkionu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Venesiya Komissiyası arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PASKAL KUŞPENƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Məmnunluqla qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan ilə İsveçrə arasındakı münasibətlər dinamik inkişaf yolundadır. Əminəm ki, dost ölkələrimizin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində sıx əməkdaşlığı üçün göstərdiyimiz səylər bundan sonra da öz bəhrəsini verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveçrə xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2008-ci il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Mərakeşin milli bayramı– Taxt-tac günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Mərakeş arasındakı ənənəvi dostluq münasibətlərinin bugünkü real təzahüründən məmnunluq duyuram. Əminəm ki, xalqlarımızın iradəsini ifadə edərək həm ikitərəfli qaydada, həm də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2008-ci il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldivin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan – Maldiv münasibətləri xalqlarımızın məramına uyğun olaraq daim dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Maldiv xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*24 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı–Tbilisi–Qars dəmir yolunun Türkiyə ərazisindəki hissəsinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün iyulun 24-də Qars şəhərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş hava limanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Milli geyimli oğlan və qız Azərbaycan prezidentinə gül dəstəsi təqdim etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

*Türkiyə, Qars*

*24 iyul 2008-ci il*

*İyulun 24-də Qarsda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim sürətlə inkişaf etməsindən məmnunluqlarını ifadə etdilər, Azərbaycan və Türkiyənin qlobal layihələrdə birgə iştirakının qarşılıqlı əlaqələrin möhkəmlənməsinə, habelə regional əməkdaşlığın daha da genişlənməsinə xidmət etdiyini vurğuladılar.*

*Prezidentlər Bakı–Tbilisi–Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulmasını mühüm hadisə kimi səciyyələndirdilər. Bildirildi ki, bu dəmir yolu ümumən regionda iqtisadi əməkdaşlığın genişlənməsi baxımından çox önəmli layihədir.*

*Görüşdə iki dost, qardaş ölkə arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu, qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN TÜRKİYƏ HİSSƏSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*Türkiyə, Qars*

*24 iyul 2008-ci il*

*İyulun 24-də Türkiyənin Qars şəhərində Bakı–Tbilisi–Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasim keçirilmişdir.*

*«Dəmir İpək Yolu» adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi ilə həm də Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmir yolu əlaqəsi yenidən bərpa olunacaqdır.*

*Layihəyə əsasən, Qarsdan Gürcüstanın Axalkalaki şəhərinədək olan 105 kilometrlik hissənin çəkilməsinə 450 milyon dollar sərmayə qoyulacaqdır. Qarsdan Gürcüstan sərhədinədək 76 kilometrlik hissənin tikintisini Türkiyə maliyyələşdirəcəkdir. Gürcüstanın Azərbaycandan aldığı 200 milyon dollarlıq kreditlə isə Türkiyə sərhədindən Axalkalakiyə qədər olan təqribən 30 kilometrlik xətt çəkiləcək və Azərbaycan sərhədinədək mövcud olan 160 kilometrlik xətt yenidən qurulacaqdır.*

*Layihənin 2010-cu ildə tamamlanması nəzərdə tutulur. İlk mərhələdə ildə 1,5 milyon sərnişin və ildə 6,5 milyon ton yük daşınacağı proqnozlaşdırılır. Qazaxıstanın da bu xəttə qoşulması üçün protokol imzalanmışdır.*

*Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ilə əlaqədar anlaşmanı 2007-ci ilin fevralında Tbilisidə Azərbaycan prezidenti*

*İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Mixeil Saakaşvili imzalamışlar. Ötən ilin noyabrında isə Azərbaycan prezidenti İlham Əliyevin, Türkiyə prezidenti Abdullah Gülün və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə xəttin Gürcüstan hissəsinin təməli qoyulmuşdur.*

*Təməlqoyma mərasiminin keçirildiyi yer bayramsayağı bəzədilmiş, üç ölkənin dövlət bayraqları asılmışdı.*

*Türkiyə Respublikasının Prezidenti Abdullah Gül mərasimdə iştirak etmək üçün gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilini səmimiyyətlə qarşıladı.*

*Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Hər üç ölkənin dövlət himnləri səsləndirildi.*

*Mərasimi Türkiyənin Nəqliyyat naziri Binəli Yıldırım açaraq, dövlət başçılarını, bütün iştirakçıları əlamətdar hadisə münasibətilə salamladı.*

*Nazir dedi ki, 2007-ci il noyabrın 21-də Marabdada hər üç ölkənin dövlət başçısının iştirak etdiyi bir mərasimdə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin Gürcüstan hissəsinin təməlini qoyduq. Bu gün isə Türkiyədən Gürcüstan sərhədinədək 76 kilometrlik hissənin təməlqoyma mərasimini keçiririk. Yenə bu şad gündə Azərbaycanın dövlət başçısı hörmətli İlham Əliyev, Gürcüstanın dövlət başçısı hörmətli Mixeil Saakaşvili və hörmətli cümhur başqanımız Abdullah Gül bu tarixi hadisəyə şahidlik edirlər.*

*Türkiyənin Azərbaycan və Gürcüstanla dostluq və qardaşlıq münasibətləri gündən-günə inkişaf etməkdədir. Bu layihə üç ölkənin bir-biri ilə daha da sıx bağlanmasına, sevinclərini, uğurlarını birlikdə paylaşmalarına, yüklərin müştərək şəkildə daşınmasına şərait yaradacaq ən mühüm addımlardan biridir.*

*Bu layihə barədə 15 ilə yaxın söhbət, danışıqlar getdiyini xatırladan Binəli Yıldırım bildirdi ki, nəhayət, 2007-ci ilin fevralında Gürcüstan və Azərbaycan prezidentlərinin, Tür-*

*kiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə dövlət və hökumət başçıları səviyyəsində qərar qəbul edilmiş və beləliklə, layihənin qarşısındakı bütün problemlər aradan qaldırılmışdır. Bu layihə Türkiyədə tikintisi davam edən Mərmərə layihəsi vasitəsilə Şərqlə Qərbi birləşdirərək, Avropaya, Londona qədər uzanan bir mədəniyyət dəhlizi, beynəlxalq dostluq və qardaşlıq dəhlizi yaradacaqdır.*

*Nazir dövlət başçılarını əmin etdi ki, layihənin tez bir zamanda tamamlanması üçün başlanğıcda hazırlıq işləri hansı həssaslıqla görülürdüsə, bundan sonra da eyni həssaslıqla davam etdiriləcək, gecikmədən istifadəyə veriləcəkdir.*

## Gürcüstan prezidenti Mixeil Saakaşvilinin nitqi

Mən sizi çox qonaqpərvər bir torpaqda, türk torpağında salamlayıram!

Dost, qonşu və sizi sevən gürcü xalqı adından salamlayıram!

Bu təkcə dəmir yolu deyil, gələcək nəsillərə ərməğan etdiyimiz layihədir. Bu layihə bir neçə il bundan əvvəl prezident Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanla həyata keçirməyə başladığımız layihələrin davamıdır. Biz bu layihələrə ona görə başladıq ki, vətəndaşlarımız üçün sərhədləri keçmək asanlaşsın. Mən xatırlayıram, Batumiyə getdik, Baş nazir Ərdoğanla birgə qərar qəbul etdik ki, bizim vətəndaşlarımız sərhədi keçəndə vizaya ehtiyac olmasın. Belə qərara gəldik ki, yeni sərhəd məntəqələri açılsın, Sarp sərhəd-keçid məntəqəsi genişlənsin. Bir neçə sərhəd məntəqəsi açılacaq, onlardan biri Qardaxidir. Yollar da çəkirik – İstanbuldan Batumiyə və Batumidən Tbilisiyə. Bu yollar dəmir yolu ilə paralel işləyəcəkdir. Mən buradaca demək istəyirəm ki, Azərbaycan Bakıdan Gürcüstan sərhədinə qədər yolu yenidən qurur və bu yol Gürcüstan vasitəsilə Türkiyəyə uzanacaqdır.

Biz birlikdə qərara gəldik ki, Batumidə aeroport tikək və bunu etdik. Bu, dünyada Cenevrədən sonra ikinci aeroportdur ki, iki ölkəyə xidmət edir. Hər gün İstanbula uçuşlar keçirilir. Buradan Ankaraya və Türkiyənin başqa şəhərlərinə də uçuşlar planlaşdırılır. Bu aeroport Türkiyə və Gürcüstan arasında olan dostluğun daha bir nümunəsidir. Biz qərara aldıq ki, dəmir yolu tikək. Bu işdə çox geosiyasi çətinliklər var idi. Lakin biz öz iradəmizlə bunun öhdəsindən gəldik və birlikdə bu layihəni reallaşdırdıq. Bu, Gürcüstan ərazisində 175 kilometrlik dəmir yolunun tikintisi və yenidən qurulması deməkdir.

Bizim Azərbaycanla çox yaxın dostluq münasibətlərimiz var. Azərbaycan bizim müstəqilliyimizin və uğurlu inkişafımızın əsas təminatçısıdır, Azərbaycan Gürcüstanın yaxını, əzizi və xoşməramlı qonşusudur və Azərbaycan xalqı gürcü xalqına dost xalqdır. Azərbaycanın inkişafı, uğurları və varlanması bilavasitə Gürcüstana da təsir edir. Azərbaycanın qələbəsi Gürcüstanın da qələbəsidir. Biz də əlimizdən gələni edəcəyik ki, Gürcüstanın nailiyyətləri Azərbaycana da xeyir gətirsin. Biz unutmamalıyıq ki, 2005-ci ilin yanvar ayında Gürcüstana təbii qaz verilməsi dayandırılmışdı. Bu çox müəmmalı bir şəraitdə baş vermişdi. O zaman Azərbaycan böyük bir xeyirxah addım atdı, öz əhalisinin ehtiyaclarını tam ödəmədiyi halda, qaz ehtiyatının yarısını Gürcüstana ötürdü və Gürcüstan sakinlərini qışda donmaqdan xilas etdi. Bu xeyirxahlıq bizim insanların yaddaşından heç vaxt silinməyəcəkdir.

Biz Heydər Əliyevin başladığı işləri də unutmamalıyıq. Bunlardan biri Bakı–Tbilisi–Ceyhan neft kəməridir. Onun reallaşacağına heç kim inanmırdı. Heç kim inanmırdı ki, layihə uğurla başa çatdırılacaqdır. Heydər Əliyev elə liderlərdən idi ki, təkcə bu günü və sabahı yox, yüz il, iki yüz il bundan sonranı görürdü. Onun gördüyü işlərin hamısı gələcək nəsillərə əmanətdir.

Bizim ölkələr Avropa və Asiya arasında körpüdür. Dünyanın bir çox nöqtəsindən Çinə və Orta Asiyaya ən qısa yol bizim ölkələrdən keçir. Bu dəmir yolu da Avropaya ən qısa yol olacaq, regional infrastrukturlarımızın mükəmməlliyini tamamlayacaqdır. Biz bu istiqamətdə çox işlər görəcəyik. Biz Potidə sənaye zonası yaratmışıq və Batumidə də yaradırıq. Bu baxımdan biz Azərbaycan və Türkiyənin sərmayələrini dəstəkləyirik. Biz Azərbaycanla birlikdə yüz il ərzində ilk dəfə Kulevi terminalını tikdik. Bu, dənizdə qoşa qaladır, Türkiyə limanlarına rəqib deyildir. Biz bir-birimizin bu sahədə çatışmazlıqlarını tamamlayırıq.

Mən özümü xoşbəxt sayıram ki, belə bir tarixi prosesin iştirakçısıyam. Bizim ölkələr böyük nailiyyətlər əldə edib, inkişaf edəcək və biz bunun şahidi olacağıq. Neft və qaz kəmərləri, dəmir yolu insanların daha da yaxınlaşmasına kömək edəcəkdir. Beynəlxalq səviyyədə Asiya ilə Avropanı yaxınlaşdıracaqdır. Bu layihəyə uğurlar arzulayırıq. Bu layihəyə tərəfdar olan Gürcüstan həmin işə axıra qədər sadiq qalacaqdır.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Prezident, əziz qardaşım Abdullah Gül!

Hörmətli Prezident, əziz qardaşım Mixeil Saakaşvili!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, məni qardaş Türkiyəyə dəvət etdiyinə görə prezident Abdullah Gülə dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyədə yenidən olmağımdan böyük qürur hissi keçirirəm.

Bu gün doğrudan da tarixi bir gündür. Bu barədə artıq deyildi. Türkiyə, Gürcüstan və Azərbaycan yeni tarix yazır. Üç ölkənin səmərəli əməkdaşlığı nəticəsində bütün layihələr uğurla icra olunur. Biz həm ikitərəfli formatda çox səmərəli əməkdaşlıq edirik, eyni zamanda, üçtərəfli formatda da

əlaqələrimiz real, konkret layihələrin həyata keçirilməsi ilə nəticələnir.

Bütün bu işlərin, əlbəttə ki, çox böyük tarixi vardır. Bizim xalqlarımız bütün dövrlərdə dostluq, mehribanlıq şəraitində yaşamışlar. Bizim xalqlarımız əsrlər boyu qonşu, dost xalqlar olaraq, bir-birinə daim kömək etmişlər, əməkdaşlıq etmişlər, bir yerdə yaşayıb-yaratmışlar.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra onu ilk tanıyan Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim aramızda əlaqələr dostluq, qardaşlıq əsasında qurulmuşdur. Bu əlaqələr sürətlə inkişaf edir. Bu gün deyə bilərəm ki, bu əlaqələr ən yüksək zirvədədir. Siyasi, iqtisadi, mədəni – bütün sahələrdə Türkiyə–Azərbaycan münasibətləri nümunə xarakteri daşıyır. Bu bizə imkan verir ki, öz potensialımızı daha da böyük həcmdə reallaşdıraq. Türkiyə–Azərbaycan münasibətlərinin gələcək perspektivləri də çox böyükdür, çox gözəldir. Bizim birgə həyata keçirdiyimiz layihələr, əlbəttə ki, ölkələrimizi gücləndirir, xalqlarımızı bir-birinə daha da yaxın edir, bölgəyə yeni ab-hava gətirir, yeni əməkdaşlıq imkanları açır.

Gürcüstan–Azərbaycan əlaqələri də çox uğurla inkişaf edir. Bizim xalqlarımız qardaş xalqlardır. Biz uzun illər ərzində müstəqillikdən məhrum olmuşuq, başqa ölkələrin tərkibində yaşamışıq. Ancaq öz milli adət-ənənələrimizi saxlamışıq, tariximizi qorumuşuq, mədəniyyətimizi, dilimizi qorumuşuq. Müstəqil dövlətlər fəaliyyətə başlayan kimi, dərhal Gürcüstan–Azərbaycan münasibətləri uğurla inkişaf etməyə başlamışdır. Biz strateji tərəfdaşıq, birlikdə çox böyük işlər görürük. Bu bölgədə Gürcüstan–Azərbaycan münasibətlərinin inkişafından çox şey asılıdır. Mənim dostum Mixeil Saakaşvili qeyd etdi ki, Gürcüstan üçün çətin anlarda Azərbaycan heç bir tərəddüd etmədən öz imkanlarını qardaş xalqın sərəncamına verdi. Bu belə də olmalıdır. Əlbəttə ki, hər bir ölkənin maraqları var, iqtisadi potensialı və iqtisadi prioritetləri var. Ancaq o da həqiqətdir ki, əgər hansısa bir

dost ölkə müvəqqəti çətinliklər yaşayırsa, biz mütləq, daim onların yanında olmalıyıq. Mən hesab edirəm ki, bugünkü hadisə, bu yaşanan tarix bizim münasibətlərimizin nə qədər dərin köklərə söykəndiyini göstərir.

Deyə bilərəm ki, üç ölkə arasında üçtərəfli əməkdaşlıq bəlkə də dünyada müşahidə olunmur, bunun analoqu yoxdur. Bu həm siyasi, iqtisadi, mədəni sahələrdə olan əməkdaşlıqdır, həm də real layihələrin həyata keçirilməsi baxımından çox önəmlidir. Təkcə bizim ölkələrimiz və xalqlarımız üçün deyil, Avropa üçün, dünya üçün önəmli olan irimiqyaslı layihələri Türkiyə, Gürcüstan, Azərbaycan birgə həyata keçiribdir. Vaxtilə əfsanə sayılan və bəzi dairələr tərəfindən qəbul edilməyən, yaxud şübhə ilə yanaşılan Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq reallıqdır. Biz buna nəyin hesabına nail olduq? Üç ölkənin iradəsi hesabına, xalqlarımızın bir yerdə olması və birgə əməkdaşlıq imkanlarımızın ortaya qoyulması hesabına. Vaxtilə əfsanə sayılan Bakı–Tbilisi–Ceyhan kəməri indi uğurla işləyir və bu il kəmər vasitəsilə 40 milyon tondan çox Azərbaycan nefti ixrac ediləcəkdir. Ancaq bəziləri deyirdilər ki, Azərbaycanda neft yoxdur və Bakı–Tbilisi–Ceyhan neft kəmərinin doldurulması üçün üçüncü tərəfin nefti lazımdır. Bizə bu lazım deyil, uzun illər bundan sonra da Azərbaycan nefti Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tam şəkildə fəaliyyət göstərməsini təmin edəcəkdir. Gələn il kəmər tam gücü ilə işləyəcək və bu kəmər vasitəsilə 50 milyon tondan çox neft nəql ediləcəkdir.

Bakı–Tbilisi–Ərzurum qaz kəməri də bəzi dairələr tərəfindən qəbul edilmirdi və şübhələr var idi. Ancaq həyat, reallıq və bizim yorulmadan çalışmağımız bu önəmli layihəni həyata keçirdi. Dünyada enerji təhlükəsizliyi məsələlərinin ön plana çıxdığı indiki dövrdə biz bir daha görürük ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin nə qədər böyük əhəmiyyəti vardır. Biz zəngin «Şahdəniz» qaz yatağının işlənilməsinə 1996-cı ildə başlamışdıq. İndi artıq o yataqdan qaz hasil

edilir və qardaş ölkələrə ixrac olunur. Bu gün Azərbaycan böyük həcmdə qaz ixrac edən ölkəyə çevrilmişdir. Aparılan kəşfiyyat işləri nəticəsində bizim qaz ehtiyatlarımız böyük dərəcədə artmışdır. Ən minimal hesablamalara görə, Azərbaycanın 2 trilyon kubmetr qaz ehtiyatları vardır. Bu da uzun illər, bundan sonra onilliklər ərzində həm ölkəmizin tələbatını ödəyəcək, həm də dost, qardaş ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayacaqdır.

Bakı–Tbilisi–Qars layihəsi də, demək olar ki, vaxtilə bəziləri tərəfindən ciddi qəbul olunmurdu və hesab edilirdi ki, bu layihə sadəcə, kağız üzərində qalacaqdır. Bu layihə barədə söhbətlər gedirdi, danışıqlar aparılırdı. Amma hətta bizim ölkələrdə də bəziləri inanmırdı ki, biz bunu gerçəkliyə çevirəcəyik. Ancaq biz bunu etdik. Əlbəttə ki, Bakı–Tbilisi–Qars dəmir yolunun layihəsinin həyata keçirilməsində Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin də rolu böyükdür. Biz artıq bu dəhlizi açdıq. Azərbaycan, Gürcüstan və Türkiyəni enerji layihələri ilə birləşdirdik. Təbii ki, neft layihəsi, qaz layihəsi ona gətirib çıxarıb ki, bu gün biz öz nəqliyyat infrastrukturumuzu da birləşdiririk. Biz bunu da bacardıq. Əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu müəyyən edilmiş tarixdə istismara veriləcəkdir. Beləliklə, bölgədə gedən əməkdaşlıq daha da güclənəcək, Türkiyə, Gürcüstan, Azərbaycanın milli maraqları daha da böyük dərəcədə müdafiə olunacaqdır. Biz Avropa və Asiya üçün əvəzolunmaz nəqliyyat nöqtəsinə çevriləcəyik və əlbəttə, bunun çox böyük iqtisadi və sirr deyil ki, böyük siyasi dividendləri vardır. Biz artıq bunu hiss edirik.

Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədə gedən prosesləri müəyyən edir. Bölgədə əməkdaşlıq əhval-ruhiyyəsi böyük dərəcədə bizim səylərimiz nəticəsində mümkün olmuşdur. İndi görürük ki, bizim layihələrə qoşulmaq istəyən ölkələrin sayı artır. Bizim enerji və nəqliyyat infrastrukturumuzdan istifadə etmək, əlbəttə ki, hər bir tərəf üçün fayda gətirəcəkdir. Çünki bu, enerji daşıyıcılarının

dünya bazarlarına çıxarılması üçün ən səmərəli, ən faydalı yoldur və nəqliyyat baxımından məsafəni xeyli dərəcədə qısaldan bir yoldur. Mən şübhə etmirəm ki, Bakı–Tbilisi–Qarsı da Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurumun taleyi gözləyir. Çünki bunu etmək üçün bütün imkanlar var. Bizim bu gün burada birgə olmağımız bunun əyani sübutudur.

Əgər yaxın tarixə nəzər salsaq görərik ki, son bir neçə il ərzində Türkiyə, Gürcüstan və Azərbaycanın iştirakı ilə çox önəmli tədbirlər keçirilmişdir. 2005-ci ildə Bakıda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini biz bir yerdə qeyd etdik. 2006-cı ildə Ceyhanda artıq Azərbaycan neftinin Ceyhana gəlməsini qeyd etdik. 2007-ci ildə Türkiyə–Yunanıstan sərhədində Azərbaycan qazının Avropa İttifaqı bazarına daxil olmasını qeyd etdik. 2007-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolunun Gürcüstan hissəsinin tikintisinə başlanmasını qeyd etdik, bu gün isə Türkiyə hissəsinin təməlinin qoyulmasını qeyd edirik. Mən arzu edirəm ki, gələcəkdə belə gözəl tədbirlər çox olsun və əminəm, belə də olacaqdır. Çünki bunu etmək üçün bizim imkanlarımız var, siyasi iradə var, artan iqtisadi potensial var və əməkdaşlıq var. Mən hesab edirəm ki, bizim uğurlu əməkdaşlıq təcrübəmiz başqa tərəflər üçün də örnək olmalıdır. Hamı görməlidir ki, dostluq, mehribanlıq, qarşılıqlı anlaşma, bir-birinə dəstək olan yerdə bütün işlər daha da asanlıqla gedir. Bu gün biz atılan addımların və qəbul edilən cəsarətli qərarların nəticəsini görürük. Bu, yalnız başlanğıcdır. Mən görürəm ki, bizim gələcəyimiz çox uğurlu, çox parlaq olacaq və ölkələrimiz öz iqtisadi və siyasi mövqelərini daha da gücləndirəcəkdir.

Mən bu yüksək kürsüdən Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarını bu tarixi hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün soydaşlarımıza cansağlığı, uğurlar, rifah və əmin-amanlıq arzulayıram.

Sag olun!

## Türkiyə prezidenti Abdullah Gülün nitqi

Hörmətli prezidentlər, əziz qardaşlarım hörmətli Əliyev və hörmətli Saakaşvili!

Hörmətli nazirlər!

Dəyərli qonaqlar!

Qars şəhərinin dəyərli insanları, vətəndaşlarım!

Bu gün biz həqiqətən, çox xoşbəxt bir gün yaşayırıq. Azərbaycan prezidentinin və Gürcüstan prezidentinin də bu xoşbəxt günün şahidi olmaları, habelə bu əlamətdar gündə burada olmağımız, şübhəsiz ki, bizim sevincimizi daha da artırmaqdadır.

Bu gün böyük bir layihənin Türkiyə hissəsinin təməlqoyma mərasimini keçiririk. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi əslində hamının bildiyi tarixi İpək Yolunun təkrar canlanmasıdır. Vaxtilə bu İpək Yolu ilə karvanlar gedib-gəlirdi. İndi isə bunu «Dəmir İpək Yolu»nun həyata keçirilməsi ilə təkrar reallığa çeviririk. Bu həqiqətən böyük bir layihədir. Çünki sadəcə üç ölkəni – Azərbaycanı, Gürcüstanı və Türkiyəni dəmir yolu ilə bir-birinə bağlamır. Bu, Asiyanın mərkəzini, Çini Avropanın o biri ucu – Londonla bağlayan bir dəmir yoludur. Bu layihə tamamlandıqda, sadəcə, sərnişinlər deyil, çox böyük miqdarda yüklər də Orta Asiyadan Avropanın digər ucuna, yaxud Avropadan da Orta Asiyaya qədər daşına biləcəkdir. Bu baxımdan, layihə təkcə iki müxtəlif coğrafiyanı bir-birinə bağlamayacaq, eyni zamanda, mədəniyyətləri, fərqli anlayışları da bir-birinə qovuşduracaqdır. Bu səbəbdən layihənin böyüklüyü çox anlaşılandır.

Bir az öncə əziz dostlarımın, prezidentlərin söylədiyi kimi, əvvəllər bəziləri bu layihəyə bir xəyal kimi baxırdı. Əslində, bu layihə bir zamanlar unudulmuşdu, «həyata keçirilməsi mümkün deyil» bəhanəsi ilə rəflərə atılmışdı. Amma 2004-cü ildə təkrar rəflərdən qaldırıldı və üç ölkə arasında təkrar görüşlər keçirildi, danışıqlar aparıldı. Bu layihənin həyata keçirilməsi ilə bağlı siyasi iradələr güclü bir şəkildə ortaya

qoyuldu. Bundan başqa, bu üç ölkəni Qazaxıstan və Çin də dəstəklədi. Qazaxıstan bu dəmir yolunun fəaliyyətə başlaması ilə xüsusilə çox maraqlanır. Hörmətli prezident Nazarbayevlə bütün görüşlərimiz və danışıqlarımız zamanı o, bu layihəyə xüsusi diqqət yetirir.

Bütün bu səylər nəticəsində indi layihə həyata keçirilməkdədir. Keçən il Gürcüstanda təməlqoyma mərasimi keçirilərək, dəmir yolunun Gürcüstan hissəsinin tikintisi ilə bağlı tədbirlər görüldü. Bu tikintinin maliyyə dəstəyi də təmin olundu. Azərbaycan prezidenti hörmətli İlham Əliyevin layihəyə verdiyi önəmli dəstək onun həyata keçirilməsinə daha əlverişli şərait yaratdı.

Türkiyə hissəsinin tikintisini bu gündən həyata keçiririk. Türkiyə ərazisində tamamilə yeni bir xətt çəkiləcəkdir. Bunun böyük əhəmiyyəti vardır.

Bütün bunlar göstərir ki, əgər siyasi iradə varsa, ölkələrin rəhbərləri böyük siyasi əhəmiyyətli layihələrin həyata keçirilməsində qətiyyətlidirlərsə, bu layihələr həyata keçirilə bilər. Bunun örnəyi Bakı–Tbilisi–Ceyhan neft boru xətti və Bakı–Tbilisi–Ərzurum təbii qaz kəməri layihələrində də olmuşdur. Bu gün də dəmir yolu layihəsini həyata keçirmək üçün qətiyyətli addımlar atırıq. Layihənin qısa müddət ərzində həyata keçiriləcəyinə əminik. Çünki hər ölkə öz hissəsində tədbirlərini görmüşdür. Amma bu, üç ölkənin müştərək layihəsi olduğu üçün işlərin ən asan şəkildə əlaqələndirilməsi və icraya nəzarət olunması lazımdır. Bu gün dəyərli qardaşlarım İlham Əliyev və Mixeil Saakaşvili ilə keçirdiyimiz görüşlərdə bu layihəyə nəzarətlə bağlı hörmətli nazirlərimizə tapşırıqlar verdik. Onlar tez-tez görüşürlər və görülən işlər barədə mütəmadi olaraq bizə hesabat verəcəklər və beləliklə, biz layihənin necə yerinə yetirildiyini və tamamlandığını izləyəcəyik. İnanıram ki, işlər vaxtından əvvəl tamamlanacaqdır.

Bu layihə əslində Qafqazda sabitliyə və rifaha töhfə verəcək bir layihədir. Layihə Qafqazdakı və bölgədəki bütün ölkələrə açıqdır. Bölgənin sabitliyinə və sülhə yardımçı olan,

yaxşı qonşuluq əlaqələrinə önəm verən və hörmətlə yanaşan hər bir ölkəyə açıqdır. Bu layihənin həyata keçməsi ilə sadəcə, iqtisadi fəaliyyət deyil, öncə söylədiyim kimi, mədəni əlaqələr də daha çox canlanacaqdır. Biz böyük ümidlə və məmnuniyyətlə görürük ki, hələlik adı elan edilməyən yaxşı bir iqtisadi bölgə ortaya çıxmaqdadır. Türkiyə ilə Gürcüstan arasında sərbəst ticarət anlaşması imzalandı. Türkiyə ilə Azərbaycan arasında da ticarətin daha da asanlaşdırılması ilə bağlı ikitərəfli danışıqlar aparılır. Batumi hava limanı müştərək işlədilir. İndi İstanbuldan uçan sərnişinlər Artvində pasport nəzarətindən keçmədən Batumi hava limanına enə bilirlər.

Bunlar göstərir ki, bu iqtisadi bölgə gələcəkdə daha da canlanacaqdır. Bütün bu işlərin zəminində olan önəmli amil buradakı üç ölkənin liderlərinin siyasi iradəsidir. Bu siyasi iradə davam edəcəyi təqdirdə, heç şübhəm yoxdur ki, bütün bu layihələrdən üç ölkənin xalqları, vətəndaşları faydalanacaqlar. Bu siyasi iradə daha da güclü şəkildə davam edəcək, gündəliyə yeni-yeni layihələr gələcək və həyata keçiriləcəkdir.

Mən bir daha bu layihənin uğurlu olmasını diləyirəm. Bütün bölgəmizə faydalı olmasını arzulayıram. Burada əməyi olan hər kəsə təşəkkür edirəm.

Əziz qardaşlarımın – dövlət başçılarının Türkiyədə olmalarından, bu mərasimdə iştirak etmələrindən duyduğum xoşbəxtliyi və məmnunluğu bir daha ifadə edərək, hamınıza hörmət və ehtiramımı çatdırıram.

Bir daha uğurlar diləyirəm.

* * *

*Sonra dövlət başçıları üç ölkənin ərazisinin təsvir olunduğu sxematik xəritənin asıldığı səhnəyə dəvət edildilər. Azərbaycan prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixeil Saakaşvili və Türkiyə prezidenti Abdullah Gül öz ölkələrinin «ərazisində» rəmzi dəmir yolu xətlərini qoyaraq birləşdirdilər. Stansiyadakı qatarın fiti səsləndi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜ ZİYARƏT

*Türkiyə, Qars*

*24 iyul 2008-ci il*

*İyulun 24-də Azərbaycan prezidenti İlham Əliyev Qars şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəlmişdir.*

*Dövlətimizin başçısı ulu öndərin parkdakı büstü önünə gül dəstəsi qoydu.*

*Xatırladaq ki, bu, Heydər Əliyevin sağlığında xarici ölkədə qoyulmuş ilk büstüdür.*

## AZƏRBAYCANIN QARSDAKI BAŞ KONSULLUĞUNUN YENİ BİNASI İLƏ TANIŞLIQ

*Türkiyə, Qars*

*24 iyul 2008-ci il*

*İyulun 24-də Azərbaycan prezidenti İlham Əliyev ölkəmizin Türkiyənin Qars şəhərindəki Baş konsulluğunun yeni binası ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada əsaslı təmir işlərinə 2007-ci ilin əvvəllərində başlanılmışdı, hazırda son tamamlama mərhələsidir.*

*İkimərtəbəli binada iş otaqlarından əlavə, akt və konfrans salonları da olacaq, konsulluğun işçilərinin fəaliyyəti üçün hər cür şərait yaradılacaqdır.*

*Konsulluq 1921-ci ildə tarixi Qars müqaviləsinin imzalandığı binanın qonşuluğunda yerləşir.*

*Prezident İlham Əliyev bina ilə tanış oldu, işlərin yüksək səviyyədə və tez başa çatdırılması üçün tapşırıq və tövsiyələrini verdi.*

## QARS QAFQAZ UNİVERSİTETİNDƏKİ HEYDƏR ƏLİYEV TƏDRİS MƏRKƏZİNDƏ

*24 iyul 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 24-də Qars Qafqaz Universitetindəki Heydər Əliyev Tədris Mərkəzi ilə tanış olmuşdur.*

*Heydər Əliyev Fondunun dəstəyi ilə 2007-ci ilin noyabrında açılmış Mərkəz vaxtilə ulu öndərin Fəxri doktoru adına layiq görüldüyü Qars Qafqaz Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsinin tələbələri üçün tədris bazası rolunu oynayır. Heydər Əliyev Fondu Mərkəzi əyani vəsaitlərlə təmin etmişdir. Burada ümummilli lider Heydər Əliyevin fəaliyyətini, ulu öndərin Türkiyəyə, eləcə də Qarsa səfərlərini əks etdirən fotoguşə yaradılmışdır.*

*Tədris Mərkəzində Azərbaycanın tarixinə, ədəbiyyatına dair nəşrlərdən ibarət zəngin kitabxana, oxu və kompyuter salonları fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev Tədris Mərkəzi ilə tanış oldu, Xatirə kitabına ürək sözlərini yazdı.*

*Dövlətimizin başçısına xatirə hədiyyələri, o cümlədən ulu öndər Heydər Əliyevin fotoşəkli təqdim edildi.*

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Mən çox şadam ki, qardaş torpaqdayam. Qars şəhərində çox gözəl tədbir keçirilib. Bakı–Tbilisi–Qars dəmir yolunun Türkiyə hissəsinin tikintisinin başlanması çox tarixi bir gündür. Bu yol Türkiyəni Azərbaycanla daha da sıx birləşdirəcək, qardaş xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaqdır. Biz bütün dövrlərdə bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə–Azərbaycan münasibətləri çox sürətlə

inkişaf edib və bu gün ən yüksək zirvədədir. Heydər Əliyev Tədris Mərkəzində nümayiş etdirilən fotoşəkillər də bunu göstərir. Burada «Ümid körpüsü»nün – Naxçıvanla Türkiyə arasında tikilmiş körpünün fotoşəkilləri var. Digər şəkillər də var. Bu, böyük tarixdir və bu tarix bizi irəliyə aparır. İrəlidə isə bizi daha da böyük işlər gözləyir. Bütün türk xalqına cansağlığı, xoşbəxtlik və rifah arzulayıram.

## DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHAR

*24 iyul 2008-ci il*

*İyulun 24-də Bakı–Tbilisi–Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulması münasibətilə keçirilən mərasim başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin şərəfinə nahar verilmişdir.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

İstanbulda insan tələfatına səbəb olmuş terror aktlarının baş verməsi xəbərini dərin kədər hissi ilə qarşıladım.

Törədilmiş bu amansız əməllərə qarşı öz hiddətimizi bildirir, insanların həyatı üçün daim təhlükə mənbəyi olan terrorizmin bütün təzahürlərini kəskin şəkildə pisləyirik.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyul 2008-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

İstanbulda törədilmiş terror aktları nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Biz terrorizmi qətiyyətlə pisləyir, belə dəhşətli cinayət əməllərinə qarşı mübarizədə birgə səylər göstərilməsini zəruri hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyul 2008-ci il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Ukraynanın qərb vilayətlərində təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına başsağlığı verir, zərərçəkənlərin hamısının dərdinə ürəkdən şərik olduğumu bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2008-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasında tarixən mövcud olan dostluğun qorunub saxlanması və möhkəmlənməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişafı naminə qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Əfqanıstan xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2008-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

İndoneziyanın milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İndoneziya münasibətlərinin hərtərəfli inkişafı, xalqlarımız arasında dostluğun daha da möhkəmlənməsi naminə bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2008-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SELLAPAN RAMA NATANA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Milli gün münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Sinqapur arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2008-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Pakistan münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dost ölkələrimizin hərtərəfli əməkdaşlığı birgə səylərimiz sayəsində daim öz miqyasını genişləndirərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, qardaş Pakistan xalqına sabitlik və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2008-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Azadlıq günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri bu gün uğurla inkişaf edir. Əminəm ki, əməkdaşlığımızın daha geniş məcrada həyata keçirilməsi istiqamətində səylərimiz bundan sonra da birgə işimizə öz müsbət təsirini göstərəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2008-ci il*

## ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ ELÇİSİ HEYKİ TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da ATƏT-in hazırkı sədrinin xüsusi elçisi Heyki Talvitiyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## XXIX YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK GƏNCLƏRİN ÇİNƏ YOLASALMA MƏRASİMİ

*30 iyul 2008-ci il*

*Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçiriləcək XXIX Yay Olimpiya oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının iyulun 30-da yolasalma mərasimi keçirilmişdir.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevi və onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Mərasimi Gənclər və İdman naziri Azad Rəhimov açdı.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi *

Əziz idmançılar!

Əziz olimpiyaçılar!

Əziz dostlar!

Bir neçə gündən sonra Pekin Yay Olimpiya oyunları başlayır və siz Pekinə yola düşürsünüz. Mən əminəm ki, siz

---

* XXIX Yay Olimpiya oyunlarında iştirak edəcək Azərbaycan idmançılarını yolasalma mərasimində Gənclər və İdman naziri Azad Rəhimov, Yunan-Roma güləşi üzrə Respublika yığma komandasının Baş məşqçisi Elçin Cəfərov, Olimpiya Gənclər düşərgəsinin iştirakçısı Fidan Allahyarova və Taekvondo üzrə dünya və Olimpiya yarışlarının iştirakçısı Rəşad Əhmədov çıxış etdilər.

Olimpiya oyunlarında doğma vətənimizi, həmişə olduğu kimi, ləyaqətlə təmsil edəcəksiniz. Olimpiya oyunları idman tarixində çox mühüm yer tutan beynəlxalq miqyaslı bir hadisədir və hər bir ölkə çalışır ki, əsas idman tədbirində qələbə qazansın, uğurlar əldə etsin. Gənc müstəqil dövlət kimi, Azərbaycan, demək olar ki, müstəqilliyimizin ilk illərindən Olimpiya oyunlarında iştirak etməyə çox böyük diqqət vermişdir və bu gün bu barədə deyildi. Azərbaycan artıq müstəqil ölkə kimi, dördüncü dəfə Olimpiya oyunlarında iştirak edəcəkdir. İndiyədək hər dəfə iştirakımız qələbələrlə nəticələnmişdir. Bizim idmançılarımız bütün yarışlarda çox böyük ustalıq, məharət nümayiş etdirərək, doğma vətənimizin idman şöhrətini yüksəklərə qaldırmışlar və əminəm ki, milli komandamız Pekin Olimpiya oyunlarında da uğurla çıxış edəcəkdir.

İldən-ilə Azərbaycanda idman potensialı güclənir. Bizim böyük quruculuq işlərimiz nəticəsində idman sahəsində də böyük irəliləyiş var və bunu görmək, bilmək üçün, sadəcə olaraq, statistik göstəricilərə nəzər salmaq lazımdır. Hər il beynəlxalq yarışlarda yüzlərlə medal qazanılır. Azərbaycan idmançıları müxtəlif yarışlarda – dünya, Avropa çempionatlarında yüksək nəticələr göstərirlər. Bu onu göstərir ki, bizim idmançılarımızın uğurları təsadüfi xarakter daşımır. Bu, məqsədyönlü tədbirlərin nəticəsidir. O cümlədən, medalların qazanılması da bütünlükdə ölkədə idmanın inkişafından asılıdır. Çünki bizim işimiz təkcə beynəlxalq yarışlarla məhdudlaşmır. İdman Azərbaycanın ictimai həyatının çox mühüm sahəsinə, mühüm hissəsinə çevrilibdir. Bizim idmançılarımız yüksək nəticələr göstərir, gənclərimiz idmanla məşğul olmaq üçün çalışırlar. Azərbaycanda idman infrastrukturu genişlənir, müasirləşdirilir. Bütövlükdə Azərbaycan cəmiyyətində idmançılara çox müsbət münasibət var, çox böyük hörmət var. İdmançılar da öz işləri ilə, öz qələbələri ilə, öz davranışları ilə daim ölkəmizin idman şöhrətini uca tutmalıdırlar.

Azərbaycan idman ölkəsi kimi tanınır. Bunu təkcə biz yox, ən mötəbər beynəlxalq idman qurumlarının rəhbərləri də qeyd edirlər. İdman ölkəsi kimi, Azərbaycan artıq dünya idman aləmində özünəlayiq yerini tuta bilibdir. Bizim olimpiya hərəkatında fəal iştirakımız, Azərbaycanda beynəlxalq yarışların, o cümlədən olimpiya lisenziya turnirlərinin keçirilməsi, idmançılarımızın beynəlxalq yarışlarda uğurla çıxış etməsi, güclü idman infrastrukturunun yaradılması, idmana dövlət qayğısının artması – bütün bu amillər Azərbaycanın idman ölkəsi kimi tanınmasına şərait yaratmışdır və bu çox fərəhli bir haldır. Çünki idman ölkəsi adını qazanmaq asan məsələ deyildir. İdmanın inkişafı üçün Azərbaycanda çox böyük, hərtərəfli tədbirlər keçirilir və bunu sadalamaq üçün yəqin ki, çox vaxt lazım olacaqdır.

Amma siz idmançılar, idman mütəxəssisləri, məşqçilər bunu yaxşı bilirsiniz ki, Azərbaycanda idmana cavabdehlik daşıyan bütün qurumlar vahid konsepsiya əsasında fəaliyyət göstərirlər. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar – bütün idman qurumları qarşıda duran məqsədlərə nail olmaq üçün birlikdə çalışırlar. Çox güclü əlaqələndirmə işləri aparılır və onu da deyə bilərəm ki, heç də hər bir ölkədə vəziyyət belə deyildir. Bir çox hallarda idman qurumları arasında nəinki əməkdaşlıq, hətta qarşıdurma, ziddiyyətlər də var. Azərbaycan bu baxımdan nümunəvi bir ölkədir və bizim idmanda əldə etdiyimiz nəticələr, uğurlar, bax, bu siyasətin nəticəsidir. Həm idmana cavabdehlik daşıyan qurumlar, vəzifəli şəxslər, həm də idmançılar, idman mütəxəssisləri və məşqçilər bütün səylərini əsirgəmirlər ki, Azərbaycanın idman şöhrəti daha da yüksək zirvələrə qalxsın. Biz bunu ildən-ilə artan qələbələrin sayında, Azərbaycanın beynəlxalq idman aləmindəki mövqelərində görürük.

Azərbaycanın hərtərəfli inkişafı üçün idman potensialının güclənməsi çox böyük əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, idman ictimai həyatın mühüm hissəsidir. İdman insanları

həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam edir, idman sağlam həyat tərzi deməkdir. İdmançılar öz qələbələri ilə gənc nəslə də nümunə olmalıdırlar və olurlar. Mən çox böyük məmnunluq hissi ilə demək istəyirəm ki, Azərbaycanda uşaqlar, yeniyetmələr arasında idmanla məşğul olmağa maraq getdikcə artır və bunun da səbəbləri var. Yəqin ki, bu səbəblərin əsası bizim idman sahəsində əldə etdiyimiz uğurlar, idmançılarımızın uğurlu çıxışları və Azərbaycanın bütün bölgələrində idmanla məşğul olmaq üçün yeni imkanların yaradılmasıdır.

Ona görə biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda idmanın hərtərəfli inkişafı təmin olunubdur. İdmançılarımız beynəlxalq yarışlarda yüksək nəticələr göstərir, Azərbaycanda dünya, Avropa çempionatları böyük uğurla və böyük təşkilatçılıq peşəkarlığı ilə keçirilir. Azərbaycanda kütləvi idmanın inkişafı müşahidə olunur. Bölgələrdə, rayonlarda müasir, bütün dünya standartlarına cavab verən idman qurğuları, olimpiya kompleksləri, üzgüçülük hovuzları tikilir. İndi tikilməkdə olan olimpiya kompleksləri yəqin ki, bu il və gələn il istifadəyə veriləcəkdir. Beləliklə, vaxtilə qarşımıza qoyduğumuz məqsəd – hər bir rayonda müasir olimpiya kompleksinin tikilməsi – həyatda öz əksini tapacaqdır. 23 idman kompleksi tikilməkdədir, 13-ü artıq fəaliyyətdədir və bu proses davam edir. Nəzərə alsaq ki, federasiyalar və idman cəmiyyətləri də öz tərəfindən bu işlərlə məşğuldurlar, biz görərik ki, Azərbaycanda çox güclü idman infrastrukturu yaradılır. Azərbaycanda nəinki Bakıda, hətta bir çox başqa şəhər və rayonlarda istənilən beynəlxalq yarışın keçirilməsi mümkündür. Bu, idmanın inkişafı üçün çox mühüm bir vasitədir. Həm də bölgələrin inkişafı üçün böyük təkandır. Bildiyiniz kimi, son illər ərzində inşa edilən idman komplekslərinin yanında müasir mehmanxanalar, üzgüçülük hovuzları da tikilir. Yəni bu komplekslər təkcə peşəkar idmançılar üçün deyil, idmanla sadəcə həvəskar kimi məşğul olmaq istəyənlər üçün də əhəmiyyət daşıyır. Nəzərə alsaq ki,

gələcəkdə yeni idman komplekslərinin tikintisi nəzərdə tutulur, görərik ki, bir neçə ildən sonra bizim bu sahədəki bütün məqsədlərimiz həyatda öz əksini tapacaqdır.

Əlbəttə ki, təlim-məşq toplanışlarının düzgün aparılması, idmançıların hazırlanması, məşqçi heyətinin güclənməsi – bütün görülən tədbirlərin bir məqsədi var, o da ki, idmançıların uğurlu çıxışlarıdır. İdmançılar son sözü deyir, son nəticəni, qələbəni qazanırlar və biz istəyirik ki, bu qələbələrin sayı çox olsun. Çünki hər bir idmançının qələbəsi həm onun şəxsi qələbəsidir, eyni zamanda da ölkəmizin qələbəsidir. Hər dəfə dünya, Avropa çempionatlarında Azərbaycanın milli bayrağı qaldırılanda hər bir vətənpərvər insan qürur hissi keçirir. Xüsusilə Olimpiya oyunlarında qələbə qazanmaq, hesab edirəm ki, hər bir idmançının həyatında tarixi hadisədir və eyni zamanda, hər bir ölkənin tarixində mühüm hadisədir. Çünki Olimpiya oyunlarında, demək olar ki, bütün ölkələr iştirak edirlər. Ölkələrin iştirakından, idmançıların çıxışlarından ölkələrin idman gücü müəyyən olunur. Mən çox şadam ki, Azərbaycan idmançıları indiyədək Olimpiya oyunlarında yüksək nəticələr göstərmişlər, bizim medallarımızın sayı artır. İstəyirik ki, Pekin Olimpiya oyunlarında da idmançılar gözəl nəticələr göstərsinlər.

Amma onu da bilirik ki, hər dəfə Olimpiya oyunlarında yarışlar daha da gərgin keçir, rəqabət artır, hər bir ölkə çalışır ki, yaxşı nəticə göstərsin və biz bunu nəzərə almalıyıq. Hesab edirəm, idmançılar, idman mütəxəssisləri, məşqçilər bunu gözəl başa düşürlər ki, Olimpiya oyunları idman tarixində ən mötəbər yarışlardır və bu nəticələr növbəti dörd il ərzində ölkənin idman gücünü göstərəcəkdir.

Mən hesab edirəm ki, bütün görülən tədbirlər nəticəsində biz Pekin Yay Olimpiya oyunlarında yaxşı nəticə göstərməliyik.

İdmanın inkişafı bundan sonra da davam etdiriləcək, idmana dövlət qayğısı artacaq, bütün lazımi tədbirlər görüləcəkdir. İdmançıların həm məişət problemləri həll olunur,

həm də mukafatlandırma məsələsində irəliləyişlər var. Hər bir vətənpərvər vətəndaş Olimpiya oyunlarını izləyəcək və hər bir qələbəyə sevinəcəkdir. Olimpiya oyunları böyük bir idman hadisəsidir və deyə bilərəm ki, dünya miqyasında çox böyük ictimai hadisədir.

Gələcəkdə, əlbəttə ki, bizim idman imkanlarımız daha da genişlənəcəkdir. Bu gün Azərbaycanda yaradılan müasir idman infrastrukturu, tikilən obyektlər dünya miqyaslı obyektlərdir. Məsələn, burada qeyd olundu, Mingəçevir avarçəkmə bazasının bərpası, faktiki olaraq, yenidən qurulması prosesi başlanmışdır. Bu, dünya miqyaslı bir layihədir. Eyni zamanda, qış idman növlərinin inkişafı və turizmin inkişafı üçün Qusar rayonu ərazisində yeni idman və turizm infrastrukturu yaradılır. Bu da dünya miqyaslı bir layihə olacaqdır. Həm bölgənin inkişafına, iş yerlərinin açılmasına xidmət göstərəcək, həm də beynəlxalq turizm mərkəzinə çevriləcəkdir.

Bütün bu layihələr böyük vəsait tələb edir və onu da bilməliyik ki, bu vəsaitin qaytarılması uzun illərdən sonra mümkün olacaqdır. Yəni bu investisiyalar kommersiya xarakteri daşımır. Bütövlükdə, Azərbaycanda son illər ərzində kapital qoyuluşu, investisiyaların həcmi, dövlət tərəfindən qoyulan investisiyalar sosial xarakter daşıyır. Tikilən elektrik stansiyaları, yollar, körpülər, məktəblər, xəstəxanalar, idman qurğuları, sosial infrastrukturun yeniləşməsi – bütün bunlar sosialyönümlü tədbirlərdir. Bu onu göstərir ki, Azərbaycan dövlətinin çox güclü sosial siyasəti vardır. Xarici və yerli şirkətlər, əlbəttə ki, ilk növbədə daha çox kommersiya xarakterli investisiyalara üstünlük verirlər və bu da təbiidir. Ancaq dövlət öz tərəfindən hər şeyi etməlidir ki, Azərbaycanda yaşayan bütün insanlar daha da yaxşı yaşasınlar, daha da yaxşı imkanlar olsun və Azərbaycanda yaradılan yeni infrastruktur obyektləri dünya standartlarına cavab versin. İdmanda biz bunu görürük və bir daha demək istəyirəm, mən çox şadam ki, beynəlxalq idman aləmi, olim-

piya ailəsi Azərbaycanı idman ölkəsi kimi tanıyır. Bu onu göstərir ki, bu vaxta qədər görülmüş bütün tədbirlər, atılmış addımlar düzgün istiqamətdə olmuşdur.

Azərbaycanda idmanın inkişafı dövlət əhəmiyyətli məsələdir. Dövlət bundan sonra da bu sahəyə qayğı göstərəcəkdir. Əlbəttə ki, idmançıların mükafatlanması işində də nə lazımdırsa edəcəyik. Bilirsiniz ki, keçən Olimpiya oyunlarında yüksək nəticə göstərən idmançılar üçün mükafat fondu var idi. Keçən Olimpiya oyunlarında qızıl medalı qazanan idmançıya 50 min dollar dövlət tərəfindən və 50 min dollar Milli Olimpiya Komitəsi tərəfindən mükafat verilmişdir. Mən hesab edirəm ki, Azərbaycanın artan imkanlarını nəzərə almaq şərtilə, biz bu mükafat fondunu daha da böyütməliyik.

Son dörd il ərzində, keçən Yay Olimpiya oyunlarından sonra Azərbaycanın iqtisadi potensialı böyük dərəcədə güclənmişdir və biz bunu statistik rəqəmlərdə və abadlaşan, yeniləşən şəhərlərin simasında görürük. Artıq Azərbaycanın çox güclü iqtisadi imkanları var. Bizim ildən-ilə artan dövlət büdcəmiz imkan verir ki, istənilən sosial məsələnin həlli üçün lazımi tədbirlər görək. Mən hesab edirəm ki, yeni reallığı, yəni Azərbaycanın iqtisadi cəhətdən güclü ölkəyə çevrilməsini nəzərə almaqla lazımi tədbirlər görə bilərik. Son 3 il ərzində Azərbaycanda olan iqtisadi inkişaf sürəti dünya miqyasında heç bir yerdə olmamışdır. Bunu biz də deyirik, beynəlxalq təşkilatlar da deyir. Son 3 il ərzində iqtisadi inkişaf sürəti baxımından dünya miqyasında bütün ölkələr arasında birinci yeri tutmaq asan məsələ deyildir. Biz buna nail olmuşuq və bu meyillər davam edir. Əminəm ki, 2008-ci ilin iqtisadi inkişaf göstəricilərinə görə Azərbaycan dünya miqyasında bu liderliyini saxlayacaqdır. Bütün bunlar düşünülmüş iqtisadi islahatlar nəticəsində mümkün olmuşdur. Bütün bunların təməli XX əsrin 90-cı illərinin ortalarında ulu öndər Heydər Əliyevin Azərbaycanda başladığı iqtisadi və siyasi islahatlarla qoyulmuşdur.

Azərbaycan son 4 il ərzində, axırıncı Olimpiya oyunlarından keçən dövr ərzində bütün sahələrdə öz imkanlarını böyük dərəcədə genişləndirmişdir. Siyasi mövqelərimiz möhkəmlənib, iqtisadi imkanlarımız güclənib, insanların rifah halı yaxşılaşır, güclü tikinti-abadlıq işləri aparılır. Bir sözlə, mən hesab edirəm ki, bütün bunları nəzərə almaq şərtilə biz Pekin Yay Olimpiya oyunlarında qələbə qazanan idmançıları daha da böyük məbləğlə mükafatlandırmalıyıq. Mən hesab edirəm ki, müvafiq federasiyalar, idman cəmiyyətləri və müxtəlif şirkətlər, dövlət şirkətləri və özəl şirkətlər, sponsorlar da öz sözünü deyəcəklər. Bu onların öz işidir. Milli Olimpiya Komitəsinin prezidenti və ölkə prezidenti kimi, mən Milli Olimpiya Komitəsi və dövlət tərəfindən danışa bilərəm. Bəyan etmək istəyirəm ki, Yay Olimpiya oyunlarında qızıl medal qazanmış idmançıya Milli Olimpiya Komitəsi 200 min manat, Azərbaycan dövləti isə 400 min manat mükafat verəcəkdir.

Ancaq mən bilirəm və siz də bilirsiniz ki, bu, qələbə qazanmaq üçün əsas amil deyildir. İdmançıları qələbəyə çağıran, qələbəyə aparan əsas amil vətən sevgisidir, vətənpərvərlik ruhudur və azərbaycançılıq fəlsəfəsidir. Sadəcə olaraq, mən hesab edirəm ki, idmançıların əməyinin lazımi səviyyədə qiymətləndirilməsi üçün mükafatın bu məbləği məqsədəuyğundur.

Əziz idmançılar, mən sizi ilk növbədə, Olimpiya oyunlarında iştirak etmək üçün qazanılmış lisenziyaların əldə olunması münasibətilə bir daha təbrik edirəm. Bu, əldə edilən nəticədən asılı olmayaraq, hər bir idmançının həyatında tarixi bir hadisədir. Eyni zamanda, sizi qələbəyə çağırıram. Siz bilin ki, bütün vətənpərvər Azərbaycan vətəndaşları bu oyunları izləyəcəklər, sizin qələbənizi gözləyəcəklər və Azərbaycana qələbəylə qayıdanda sizi böyük təntənə ilə qəbul edəcəklər. Sizə uğurlar, qələbələr arzulayıram.

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ ELÇİSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 iyul 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi elçisi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

# YENİ AZƏRBAYCAN PARTİYASININ IV QURULTAYI 2008-ci İL 15 OKTYABRDA KEÇİRİLƏCƏK PREZİDENT SEÇKİLƏRİNDƏ PARTİYANIN SƏDRİ, AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAMİZƏDLİYİNİ İRƏLİ SÜRMÜŞDÜR

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*2 avqust 2008-ci il*

*Avqustun 2-də Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində Yeni Azərbaycan Partiyasının IV qurultayı keçirilmişdir.*

*YAP-ın 450 mindən çox üzvünü təmsil edən nümayəndələr partiyanın sədri, dövlətimizin başçısı İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Qurultay Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlandı.*

*Partiyanın sədri, Azərbaycan prezidenti İlham Əliyev qurultayda geniş nitq söylədi. Dövlətimizin başçısı YAP-ın yaranmasından və keçdiyi yoldan, partiyanın banisi, ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən, təşkilatın ölkəmizin və cəmiyyətimizin həyatındakı rolundan bəhs etdi.*

*Sonra qurultayda partiya sədrinin müavini Murtuz Ələsgərov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Şuşadan olan məcburi köçkün Anar Xəlilov, Naxçıvan Dövlət Universitetinin prorektoru, Muxtar Respublika Ali Məclisinin deputatı Hüseyn Həşimli, Memarlıq və İnsaat Universitetinin rektoru, partiyanın Siyasi Şurasının üzvü Gülçöhrə Məmmədova, Tibb Universitetinin kafedra müdiri, Siyasi Şuranın üzvü Sudeif İmamverdiyev, YAP Gənc-*

*lər Birliyinin Nəsimi rayon təşkilatı İdarə Heyətinin üzvü, Azərbaycan Dillər Universitetinin III kurs tələbəsi Aygün Allahverdiyeva, Tovuz rayonundan Əməkdar müəllim Fazil Məhərrəmov çıxış etdilər.*

*Qurultay 2008-ci il 15 oktyabrda keçiriləcək prezident seçkilərində Azərbaycan prezidenti, partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qərar qəbul etdi.*

*Prezident İlham Əliyev qurultay nümayəndələrinə təşəkkür edərək dedi ki, əgər xalqımız yenidən mənə etimad göstərsə, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkəmizin milli maraqlarının yüksək səviyyədə qorunması üçün səylərimi əsirgəməyəcəyəm, Azərbaycan xalqına, doğma Vətənə ləyaqətlə xidmət edəcəyəm.*

*Bununla da qurultay başa çatdı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Konyada uşaq yataqxanasının çökməsi nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca sarsıtdı.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 avqust 2008-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Konyada baş vermiş facia nəticəsində çoxlu sayda uşağın həlak olması xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 avqust 2008-ci il*

## NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA

Hörmətli cənab Prezident!

Nepal Federativ Demokratik Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Nepal arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Nepal xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 avqust 2008-ci il*

## RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN 2008-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ*

*6 avqust 2008-ci il*

Bu gün biz Nazirlər Kabinetinin geniş iclasında ilin 6 ayının yekunlarını müzakirə edəcəyik və sosial-iqtisadi sahədə əldə edilmiş nailiyyətlər, gələcək planlar haqqında danışacağıq. Bütövlükdə deyə bilərəm ki, ilin ilk yarısında Azərbaycan iqtisadiyyatının yüksək sürətlə inkişafı davam etmişdir. Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində istənilən sahədə, iqtisadi və sosial məsələlərin həllində gözəl nailiyyətlərimiz var. Bunu biz gündəlik həyatda görürük və statistik rəqəmlər də bunu əks etdirir. Bütövlükdə, son illər ərzində Azərbaycanda iqtisadi inkişaf çox sürətlə getmişdir və 2003–2008-ci illərdə iqtisadiyyatımızın həcmi, ümumi daxili məhsul 2,7 dəfə artmışdır. Bu, nadir bir göstəricidir və 5 il ərzində iqtisadiyyatın həcmini təxminən 3 dəfə artırmaq doğrudan da böyük nailiyyətdir. 2008-ci ildə də bu istiqamətdə atılmış addımlar müsbət olub və iqtisadiyyatımız 16,5 faiz artmışdır. Keçən illərlə müqayisədə bu, bir az da artıb, ancaq nəzərə alsaq ki, son 5 il ərzində iqtisadiyyat təxminən 3 dəfə artıb, əlbəttə, gələcək illərdə 20–30 faiz iqtisadi artım gözləmək düzgün olmazdı. Buna ehtiyac da yoxdur. Bizim iqtisadiyyatımız böyüyür və hər bir faizin keyfiyyəti və mahiyyəti, əlbəttə ki, daha da böyük məna daşıyır.

---

* İclasda Maliyyə naziri Samir Şərifov, Təhsil naziri Misir Mərdanov, Kənd Təsərrüfatı naziri İsmət Abasov və Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov çıxış etdilər.

Çox sevindirici haldır ki, sənaye istehsalında artım davam edir. Sənaye istehsalı təxminən 14 faiz artmışdır. Əlbəttə, biz indi başqa ölkələrin statistik göstəricilərinə də nəzər salırıq, xüsusilə MDB ölkələrinin iqtisadi göstəricilərinə. Nəzərə alsaq ki, bu məlumatlar mütəmadi qaydada dərc olunur, görürük ki, bəzi ölkələrdə iqtisadi artımın olmasına baxmayaraq sənaye istehsalı aşağı düşür. Burada təzadlı bir şey yoxdur. Bu sadəcə onu göstərir ki, iqtisadiyyat qeyri-sənaye sahəsində artır. Bu da bütövlükdə iqtisadi sahədə tarazlığın pozulmasına gətirib çıxaracaqdır. Hesab edirəm ki, ümumi daxili məhsulla bərabər, sənaye istehsalı iqtisadi artımın ən çox əhəmiyyət kəsb edən göstəricisidir və Azərbaycanda sənayeləşmə prosesi uğurla davam edir. Həm neft, həm də qeyri-neft sektorunda böyük irəliləyiş var və son illər ərzində başlanan irimiqyaslı sənaye layihələri, yəqin ki, 2-3 ildən sonra öz bəhrəsini verəcək və beləliklə, bizim sənayemiz daha da çoxşaxəli olacaqdır.

Bizim gələcək illər üçün əsas məqsədimiz neft-qaz amilindən asılılığımızı azaltmaqdır. Əlbəttə, biz realist olmalıyıq və bilməliyik ki, hələ uzun illər ərzində neft-qaz, enerji sahəsi bizim iqtisadiyyatımız üçün aparıcı sahə olacaqdır və bu, normal bir prosesdir. Amma bilirsiniz ki, qeyri-neft sektorunun inkişafı üçün lazımi tədbirlər görülür və deyə bilərəm ki, son illər ərzində kənd təsərrüfatında ən yüksək nəticələr əldə edilibdir. Bu ilin altı ayında kənd təsərrüfatı istehsalı 10 faizdən çox artmışdır. Əvvəlki illərdə bu artım daha da aşağı rəqəmlərlə ölçülürdü. Ancaq görülən tədbirlər nəticəsində – biz bu gün bu barədə danışacağıq – bir il ərzində böyük artıma nail ola bildik. Bu tədbirlər kompleks xarakter daşıyırdı və təkcə bir ilin tədbirləri deyildir. Biz bunu son bir neçə il ərzində etmişdik və indi nəticələrini görürük. Mən şübhə etmirəm ki, artıq görülmüş və gələcəkdə görüləcək tədbirlər nəticəsində kənd təsərrüfatında daha da böyük inkişaf olacaqdır.

Bütövlükdə, ərzaq təhlükəsizliyi məsələləri indi dünya birliyində çox geniş müzakirə olunur. Biz də bu məsələlərin həlli üçün lazımi tədbirləri görürük və görəcəyik.

Bu sevindirici rəqəmlər arasında üzücü rəqəm də var. O da inflyasiyanın yuxarı səviyyədə olmasıdır. İnflyasiya 6 ayda 20 faiz təşkil etmişdir və əlbəttə ki, bu bizi ciddi narahat edir. Düzdür, əhalinin pul gəlirləri 32 faiz artmışdır. Beləliklə, əhalinin real gəlirləri kifayət qədər artmışdır. Amma o da həqiqətdir ki, hər bir vətəndaşın gəlirləri 32 faiz artmayıbdır. Ona görə biz inflyasiyanın normal səviyyədə saxlanılması üçün əlavə tədbirlər görməliyik. Bütün dünyada bahalaşma gedir və bunun müxtəlif obyektiv səbəbləri var. Əgər belə olmasaydı, bu, necə deyərlər, fərdi xarakter daşıyardı. Amma bu, bütün dünyada kütləvi xarakter daşıyır. Bununla bərabər, mən hesab edirəm, bizim imkanlarımız var ki, gələcək illərdə inflyasiyanı normal səviyyədə saxlayaq. Beləliklə, əhalinin həyat səviyyəsinin yaxşılaşması daha da yüksək sürətlə gedəcəkdir.

Hesab edirəm ki, biz kapital qoyuluşu sahəsində bu il yenə uğurlar əldə etmişik. Artıq bir müddət bundan əvvəl daxili investisiyalar xarici investisiyaları üstələməyə başlamışdır. Bu da çox sevindirici məqamdır. Bu onu göstərir ki, Azərbaycanın öz imkanları daha da genişdir və biz xarici sərmayədən daha az asılıyıq. Mənə verilən məlumata görə, bütövlükdə altı ayda 4,4 milyard dollar sərmayə qoyulub və onun 3,1 milyard dolları daxili sərmayədir.

Özəl sektorun inkişafı davam edir və ümumi daxili məhsulda onun çəkisi artıq 84 faiz təşkil edir. Bu da çox gözəl rəqəmdir və onu göstərir ki, bizim iqtisadiyyatımız tam liberallaşıb, tam şəkildə bazar iqtisadiyyatı prinsipləri əsasında qurulubdur. Dövlət qurumlarının payına düşən 16 faiz də bazar iqtisadiyyatı prinsipləri əsasında formalaşır. Çünki bizim dövlət qurumlarımız artıq həm beynəlxalq mühasibat sisteminə keçirlər və həm də bütün beynəlxalq normalara uyğun şəkildə fəaliyyət göstərməyə başlayırlar.

Gələcəkdə bu proses daha ciddi getməlidir və bütün dövlət şirkətləri də beynəlxalq şirkətlər kimi fəaliyyət göstərməlidir. Beynəlxalq audit keçirilməlidir və bütün standartlar dünya səviyyəsində olmalıdır. Bilirsiniz ki, biz indi xaricə sərmayə qoyuluşuna başlamışıq və belə olan halda Azərbaycanda bütövlükdə iqtisadi sahədə vəziyyətin dünya səviyyəsinə çatdırılması üçün bütün şirkətlər beynəlxalq qaydalara əməl etməlidir.

Valyuta ehtiyatlarımız artır. Əlbəttə ki, uğurlu neft siyasəti nəticəsində bizim imkanlarımız genişlənir və iyun ayına olan məlumata görə, valyuta ehtiyatlarımız 13 milyard dollardan çoxdur. Bu bizim üçün böyük dəstəkdir, bizə əlavə inam verir. Əlbəttə ki, valyuta ehtiyatlarının çox olması hər bir ölkənin arzusudur. Deyə bilərəm ki, dünyada o qədər də çox ölkə yoxdur ki, orada valyuta ehtiyatı milyardlarla dollarla ölçülsün. Nəzərə alsaq ki, ilin sonuna qədər, 2009-cu ildə və ondan sonrakı illərdə bu rəqəm daha da artacaq, deməli, Azərbaycan dünya miqyasında valyuta ehtiyatlarının həcminə görə birinci sıralarda olan ölkələrin tərkibinə daxil ediləcəkdir. Bir sözlə, artıq bizim maliyyə imkanlarımız çox genişdir və biz bu imkanlardan səmərəli istifadə edirik. İlk növbədə, ölkəmizin hərtərəfli inkişafı üçün, sənaye potensialının möhkəmlənməsi, infrastruktur layihələrinin icra edilməsi və insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün. Bax, budur bizim əsas istiqamətlərimiz, burada heç bir yenilik yoxdur. Bu istiqamətləri biz bir neçə il bundan əvvəl müəyyən etmişik. Hər bir sahə üzrə xüsusi proqramlar var, bütün proqramlar maddi resurslara əsaslanır və onların icra mexanizmləri də vardır. Bütün bu proqramlar Azərbaycanın dövlət büdcəsində öz əksini tapır. Beləliklə, bizim qəbul etdiyimiz qərarlar və verdiyimiz sözlər həyatda öz əksini tapır və bir çox hallarda da vaxtından əvvəl. Bu doğrudan da böyük nailiyyətdir və gələcək illərdə biz yüksək dinamikanı saxlamalıyıq.

Sosial müdafiə sahəsində əlavə tədbirlər görülür. Ünvanlı sosial yardım alan insanların sayı artır. Artıq Azərbaycanda 100 min ailə – 467 min insan ünvanlı sosial yardım alır. Bu onu göstərir ki, bizim çox güclü sosialyönümlü siyasətimiz var və biz artan iqtisadi imkanlardan aztəminatlı təbəqənin yaşayışının yaxşılaşdırılması üçün istifadə edirik. Bazar iqtisadiyyatı prinsipləri bəzi hallarda sosial ədalət normalarını pozur. Bu, bazar iqtisadiyyatının mənfi tərəfidir. Ancaq biz Azərbaycanda güclü sosial siyasət aparmaqla çalışırıq və çalışmalıyıq ki, aztəminatlı ailələr dövlət tərəfindən dəstəklənsin və onlara verilən müavinət ildən-ilə artmalıdır və artacaqdır. İnflyasiyanın yüksək səviyyədə olmasını nəzərə alaraq, biz minimum əməkhaqqını və minimum pensiyanın məbləğini yenidən artırmalıyıq. Artıq bu, gözəl ənənəyə çevrilibdir. Azərbaycanda ildə iki dəfə minimum pensiya və minimum əməkhaqqı artırılır. Hesab edirəm, gələn aydan biz bunları yenə də artırmalıyıq ki, insanlar daha da yaxşı yaşasınlar və öz tələbatlarını daha da böyük həcmdə təmin edə bilsinlər.

Sosial-iqtisadi inkişafın tərkib hissəsi bölgələrin inkişafıdır. Bu sahədə 2004-cü ilin əvvəlində qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində 700 mindən çox yeni iş yeri açılmışdır ki, bunun da 500 mini daimidir. Təkcə 2008-ci ilin birinci yarısında 60 min yeni iş yeri, o cümlədən 45 min daimi iş yeri açılmışdır. Bir də demək istəyirəm ki, bu, qəbul edilmiş qərarların icrası nəticəsində mümkün olmuşdur. Demək olar ki, Azərbaycanda işsizlik kimi çox böyük bir sosial problem tədricən və çox sürətlə aradan qaldırılır. İndi bütün bölgələrdə böyük quruculuq-abadlıq işləri, tikinti aparılır, yeni müəssisələr açılır. Məndə olan məlumata görə, ilin sonuna qədər, demək olar ki, bütün bölgələrdə yeni müəssisələr işə düşəcək və insanlar işlə təmin olunacaqlar.

İndi Azərbaycanda işləmək istəyən insan işlə təmin oluna bilər. Yəqin xatırlayırsınız, bir müddət bundan əvvəl mən

demişdim ki, biz artıq nəinki iş yerlərinin açılmasına böyük diqqət göstərməliyik, bu, daim diqqət mərkəzində olmalıdır, eyni zamanda, xaricdən Azərbaycana işçi qüvvəsinin gəlməsinə hazır olmalıyıq. Bu məqsədlə bir müddət bundan əvvəl dövlət miqrasiya xidməti yaradılmışdır. Mən bilirdim və görürdüm ki, vəziyyət hansı istiqamətdə inkişaf edəcək, Azərbaycanın artan imkanları necə böyüyəcək, ölkədə gedən tikinti-quruculuq, sənayeləşmə işləri hansı nəticələrə gətirib çıxaracaqdır. Mənə verilən məlumata görə, bu ilin altı ayında əcnəbi işçilərin Azərbaycana gəlməsi və işləmək üçün icazə alması halları 6 dəfə artıbdır. Təkcə altı ay ərzində! Bir tərəfdən bu, əlbəttə ki, çox gözəl göstəricidir, onu göstərir ki, Azərbaycan xarici vətəndaşlar üçün cəlbedici ölkəyə çevrilir. Azərbaycanda əcnəbilər müxtəlif sahələrdə işləyirlər. Onlar yüksək maaş alan mütəxəssislərdir, enerji sektorunda, xidmət sektorunda çalışanlardır. Ancaq bununla bərabər, fəhlələr də kifayət qədər çoxdur və onların sayı getdikcə artır. Bir daha demək istəyirəm ki, bu, iqtisadi inkişafın çox vacib göstəricisidir. İkincisi, bu onu göstərir ki, Azərbaycan yaşamaq üçün çox gözəl ölkədir. Biz onsuz da bunu bilirik. İndi isə bütün dünya bunu bilir.

Azərbaycanda təhlükəsizlik məsələləri çox yüksək səviyyədə həll olunur, ictimai-siyasi asayiş yüksək səviyyədə qorunur, sabitlik, inkişaf var, dözümlülük, tolerantlıq var. Bunlar olmasaydı, əminəm ki, iqtisadi cəhətdən nə qədər cəlbedici olsa da, xaricdən buraya adam gəlməzdi. Ancaq bununla bərabər, biz miqrasiya siyasətimizi daha da gücləndirməliyik, çox ciddi sistem yaratmalıyıq. Mən bu barədə əvvəllər demişəm. Hər bir gələn xarici vətəndaş qeydiyyatdan keçməlidir. Qanunsuz bir adam da burada işləməməlidir. Biz istənilən anda bilməliyik ki, hansı xarici vətəndaş hansı gündə haradadır və nə ilə, hansı işlə məşğuldur.

Mən nə üçün buna böyük diqqət göstərirəm?! Çünki mən görürəm ki, gələcəkdə bu problem daha da ciddiləşə bilər. Azərbaycanda hərtərəfli inkişafın təmin olunması üçün bu

məsələ daim diqqət mərkəzində olmalıdır və dövlət tərəfindən tənzimlənməlidir. Bir daha demək istəyirəm ki, bu, aparılan işlərin təzahürüdür.

İnfrastruktur layihələri bütün ölkədə geniş vüsət alıbdır. Bütün istiqamətlərdə magistral yollar, kənd yolları tikilir. Böyük sənaye müəssisələri yaradılır. Biz infrastruktur layihələrinin həyata keçirilməsi üçün gələcək illərdə də vəsait ayıracağıq. Düzdür, bəzi fikirlər var ki, bu, inflyasiyaya daha da böyük təkan verir. Ancaq inflyasiya daha çox obyektiv səbəblər üzündən baş verir. Dünyada enerji daşıyıcılarının qiymətinin qalxması, ərzaq məhsullarının qiymətinin qalxması nəticəsində. Əlbəttə ki, əlavə xərclər inflyasiyanı daha da stimullaşdırıb, amma bu onun tərkibində böyük paya malik deyildir. Baxmayaraq ki, bu, müəyyən mənada bahalaşmaya gətirib çıxara bilər, mən hesab edirəm, biz öz dövlət xərclərimizi məhdudlaşdırmamalıyıq. Güclü infrastruktur layihələri Azərbaycanda bütün sahələrdə işlərin daha da sürətlə getməsinə təkan verəcək və ölkəmiz daha da güclü olacaqdır. Biz görürük ki, yollar, su kəməri xətləri, elektrik stansiyaları çəkilən yerlərdə canlanma, inkişaf daha sürətlə gedir. Beləliklə, ölkəmizin hər bir yerində iqtisadiyyat sürətlə inkişaf edəcəkdir.

Ordu quruculuğunda görülən işlər bizi çox sevindirir. Bu sahə daim diqqət mərkəzindədir. Bu il iyunun 26-da keçirilmiş hərbi parad bizim gücümüzü göstəribdir, hərbi potensialımızı və hərbçilərimizin peşəkarlığını göstəribdir. Biz bu sahəyə daim böyük diqqət göstərməliyik və dövlət xərclərində hərbi xərclər birinci yerdədir. Bu belə də olmalıdır. Hərbi sənayenin güclənməsi üçün əlavə tədbirlər görülür. Bu həm sənayenin yeni sahəsidir və güclü bir sahəyə çevrilib, həm də bizim ehtiyaclarımızı daxili imkanlar hesabına ödəyəcəkdir. Şübhə yox ki, güclü ordu Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün həlledici amildir və ordu quruculuğuna nə lazımdırsa, biz bundan sonra da edəcəyik.

O ki qaldı Ermənistan–Azərbaycan münaqişəsinin həllinə, bu barədə bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Mən bir daha demək istəyirəm ki, aparılan danışıqlar Azərbaycanın ərazi bütövlüyünün bərpasına gətirib çıxarmalıdır. Azərbaycan dövlətinin mövqeyi birmənalı olaraq dəyişməz qalır. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və Dağlıq Qarabağda yaşayan insanlara və gələcəkdə oraya qayıdacaq azərbaycanlılara muxtariyyət statusu verilməlidir. Bunun kənarında heç bir variant müzakirə olunmur. Mən nə üçün belə deyirəm? Çünki vaxtaşırı müxtəlif bəyanatlar səslənir və bu bəyanatlar cəmiyyətdə müəyyən dərəcədə yanlış fikirlər oyadır. Danışıqların əsas mahiyyəti Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Ermənistanın qoşunlarının bütün işğal olunmuş rayonlardan çıxarılması və qaçqın-köçkün soydaşlarımızın öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasıdır. O ki qaldı Dağlıq Qarabağın gələcək statusunun həllinə, bu məsələ müzakirə oluna bilər və Azərbaycan dövlətinin razılığı olmadan heç vaxt heç bir status mümkün olmayacaqdır. Azərbaycan dövləti isə Azərbaycanın ərazi bütövlüyü xaricində Dağlıq Qarabağa heç bir status verməyəcəkdir. Bunu həm Ermənistan tərəfi, həm də bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri bilir və bu, danışıqlar masasında müzakirə olunan məsələdir. Nə üçün mən bunu xüsusilə vurğulayıram? Çünki bir daha demək istəyirəm ki, bu barədə müəyyən spekulyasiyalar edilir. Təbii ki, Ermənistanda onlar öz əhalisini əmin etməyə çalışırlar ki, gələcəkdə nə vaxtsa Dağlıq Qarabağ müstəqil quruma çevriləcəkdir. Halbuki bunu etmək üçün danışıqlar masasında heç bir sənəd yoxdur, Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmi yoxdur, olmayıb və ola da bilməz. Amma əfsuslar olsun ki, Ermənistanın təbliğatı ilə bərabər, bəzi beynəlxalq tərəflər də bu məsələyə dair öz subyektiv və reallığı əks etdirməyən fikirlərini söyləməklə, sadəcə olaraq,

yanlış məlumatları yaymaqla vəziyyəti daha da gərginləşdirə bilərlər.

Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır. Bu mövqe BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Məclisinin qətnaməsi, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında formalaşıbdır və məsələnin yalnız hüquqi müstəvidə həll olunması mümkündür. Həm Ermənistan tərəfi, həm də bu məsələdə yardımçı olmaq istəyən tərəflər bunu nə qədər tez dərk etsələr, bir o qədər yaxşıdır.

Bir sözlə, Azərbaycan öz prinsipial mövqeyindən bir addım da geriyə çəkilməyəcək və bütün imkanları səfərbər edib məsələnin tezliklə və beynəlxalq hüquq normaları əsasında həll olunmasına çalışacaqdır. Bununla bərabər, biz bütün səylərimizi – diplomatik, siyasi, iqtisadi, təbliğat, hərbi sahələrdə səylərimizi daha da gücləndirməliyik. Belə olan halda, məsələnin həlli daha yaxın zamanlarda mümkün olacaqdır.

## YEKUN NİTQİ

Bugünkü iclasda maliyyə, təhsil, kənd təsərrüfatı, rabitə və informasiya texnologiyaları nazirləri çıxış etmişlər və öz sahələrində əldə edilmiş nailiyyətlər, gələcək addımlar haqqında məlumatlar vermişlər. Mən əminəm ki, əgər başqa nazirlər də bu gün çıxış etsəydilər, onlar da son illər ərzində öz sahələrində əldə edilmiş nailiyyətlərdən danışa bilərdilər.

Biz Nazirlər Kabinetinin geniş iclaslarını ildə dörd dəfə keçiririk və demək olar, hər bir nazirin imkanı var ki, öz sahəsində mövcud olan problemlər və əldə edilmiş uğurlar, gələcəkdə görüləcək əsas işlər haqqında məlumat versin. Bu bir də onu göstərir ki, istənilən sahədə Azərbaycanın inkişafı çox sürətlidir. Məsələn, hələ 5 il bundan əvvəl bizdə informasiya-kommunikasiya texnologiyaları, demək olar ki, yox idi. Ancaq Davos Dünya İqtisadi Forumunun hesablama-

larına görə – nazir Əli Abbasov bu barədə dedi – bu gün Azərbaycan MDB məkanında birinci və dünya miqyasında da 62-ci yerdədir. Bu qısa müddət ərzində biz, faktiki olaraq, yeni sahəni yaratdıq və özü də yüksək səviyyədə. Bu gün isə söhbət ondan gedir ki, biz kosmik sənayenin yaranmasına yaxınlaşırıq. Bu da reallıqdır və bunu etmək üçün artıq konkret tədbirlər planı var, maliyyə imkanları da artıq müəyyən edilibdir. Əminəm ki, gələn ilin büdcəsində biz bu sahənin yaradılması və iki süni peykin orbitə çıxarılması üçün konkret tədbirlər görməliyik. Bu, ölkəmizin müasirləşməsinə, Azərbaycanda yüksək texnologiyaların tətbiq olunmasına yeni təkan verəcəkdir. Eyni zamanda, bu, gəlir gətirən sahədir və biz gələcəkdə bu imkanlardan səmərəli istifadə edərək, həm iqtisadi imkanlarımızı genişləndirəcəyik, həm də, bir də demək istəyirəm ki, Azərbaycanda yeni sənaye sahəsi, özü də ən texnoloji sənaye sahəsi yaradılacaqdır.

Bununla bərabər, biz informasiya təhlükəsizliyinə böyük diqqət göstərməliyik və bu sahədə əlavə tədbirlər görülür, əlavə vəsait ayrılıbdır. Elə etməliyik ki, bu vacib olan sahədə bütün lazımi tədbirlər görülsün.

Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik və bu gün Azərbaycan böyük neft-qaz hasil və ixrac edən ölkəyə çevrilibdir. Həm təbii resursların hesabına, həm artıq güclü infrastrukturun hesabına Azərbaycanın enerji təhlükəsizliyi tam şəkildə təmin olunubdur. Yeni elektrik stansiyalarının yaradılması, elektrik xətlərinin, yardımçı stansiyaların tikintisi, qazlaşdırma prosesinin sürətlə getməsi – biz növbəti illərdə buna yenə də lazımi diqqəti göstərəcəyik.

Bu ilin sonuna qədər Azərbaycanda qaz almayan rayonlar qalmayacaqdır. Biz son illər ərzində əvvəllər heç vaxt qaz almayan rayonlara qaz xətlərini çəkdik. Belə rayonların sayı çox deyildi, ancaq var idi. Məsələn, Lerik, Yardımlı – ilk dəfə olaraq, onlara qaz xətləri çəkilmişdir. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaz təminatı pozulmuş

bölgələrə qaz nəqli bərpa edilir. Beyləqan, Ağcabədi, Ağdam, Füzuli rayonlarına qaz xətləri artıq çəkilib, yaxud da ki, yaxın zamanlarda çəkiləcək və qaz veriləcəkdir. 13 ildən sonra biz Naxçıvanı yenidən qazla təmin edə bilmişik. İranla mübadilə yolu ilə. Bunun nəticəsində Naxçıvanın qazlaşdırılması proqramı, demək olar ki, tam şəkildə təmin edilibdir. Yəqin ki, yaxın zamanlarda Naxçıvan Muxtar Respublikasının bütün məntəqələri, bütün kəndləri 100 faiz qazlaşdırılacaqdır.

Bu gün elə imkan yaranıb ki, biz Naxçıvandan Türkiyəyə elektrik enerjisi verilməsinə nail ola bilmişik. Vaxtilə bunu heç arzu etmək mümkün deyildi. Bu gün isə reallıqdır. Naxçıvanda tikilən elektrik stansiyalarının, növbəti illərdə tikiləcək su elektrik stansiyalarının gücü elə olmalıdır ki, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə daxili resurslar hesabına təmin edilsin. Həmin stansiyalarda istehsal olunan elektrik enerjisi həm də ixrac ediləcək və muxtar respublikanın iqtisadiyyatına dəstək olacaqdır.

Bir sözlə, biz enerji təhlükəsizliyi məsələlərinə kompleks şəkildə yanaşmışıq və qısa müddət ərzində bütün lazımi tədbirlər görülübdür. Nəinki özümüzü təmin edirik, Azərbaycan digər ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəsini verir.

Nəqliyyat təhlükəsizliyi məsələləri də öz həllini tapır. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri nəticəsində Azərbaycan bu sahədə əvəzolunmaz ölkəyə çevriləcəkdir. Bizim coğrafi vəziyyətimiz və nəqliyyat infrastrukturuna – dəmir yolu, avtomobil yolları, hava nəqliyyatı, dəniz nəqliyyatı – bütün sahələrə qoyulan böyük həcmdə investisiyalar və transmilli layihələr, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi bölgədə yeni vəziyyətin yaranmasına gətirib çıxarıbdır. Bu, tarixi bir nailiyyətdir və bundan sonra Azərbaycan uzun illər, əslində əbədi olaraq nəqliyyat təhlükəsizliyini təmin etmiş olur. Həm tranzit ölkə kimi, bu layihələrdən böyük mənfəət götürəcək, həm də, əlbəttə ki, Azərbaycanın geosiyasi önəmi böyük dərəcədə artacaqdır.

İnformasiya təhlükəsizliyi, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, ərzaq təhlükəsizliyi – biz bu sahələrə xüsusi diqqət göstərməliyik. Bu ilin timsalında görürük ki, həyata keçirilən tədbirlər nəticəsində kənd təsərrüfatında artım 10 faizdən çoxdur. Nazir İsmət Abasov qeyd etdi, cəmi bir il ərzində taxıl istehsalı 480 min ton artıbdır. Nəyin hesabına? Ona görə ki, biz bu vaxta qədər kompleks tədbirlər görmüşük. «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaratmışıq, aqroservislər yaradılıbdır. Azərbaycanda kənd təsərrüfatı texnikası istehsalına başlanılmışdır və artıq Gəncədə traktorlar istehsal olunur. Biz ilk illərdə xaricdən texnikanın alınmasına dövlət büdcəsi xətti ilə vəsait ayırırdıq, bu gün də bu davam edir. Çünki hələ ki, buna ehtiyac var. Amma artıq bu vəsaitin müəyyən hissəsi Azərbaycanda qalır, yerli istehsalın yaranmasına xidmət göstərir. Azərbaycan iqtisadiyyatı üçün lazım olan avadanlıqlar Azərbaycanda istehsal olunur. Fermerlərə maliyyə dəstəyi, gübrənin güzəştli şərtlərlə verilməsi, «Aqrolizinq»in, aqroservislərin yaradılması və digər tədbirlər nəticəsində biz görürük ki, çox böyük irəliləyiş var. Mən bu barədə artıq demişdim, hökumətə göstərişimi vermişdim və bir daha demək istəyirəm ki, kompleks tədbirlərin görülməsi üçün 2009-cu ilin dövlət büdcəsində lazımi maliyyə resursları təmin olunmalıdır. Hesab edirəm ki, subsidiyaların həcmi artırılmalıdır. Ərzaq məhsullarının saxlanılması üçün anbarlar tikilməlidir. Bu anbarların tikintisi üçün artıq 2008-ci ilin büdcəsində vəsait nəzərdə tutulub, 2009-cu ildə də nəzərdə tutulmalıdır. Beləliklə, ərzaq təhlükəsizliyi üçün lazımi tədbirlər görüləcəkdir.

Hələ ki, biz taxıl məhsulları ilə tam şəkildə özümüzü təmin edə bilmirik. Bu heç vaxt olmayıbdır. Bilirsiniz ki, Sovet İttifaqı zamanında vahid kənd təsərrüfatı kompleksi mövcud idi və o kompleks elə qurulmuşdu ki, bütün respublikalar bir-birindən asılı idilər. Bilərəkdən belə bir sistem yaradılmışdı. Nəticədə, Sovet İttifaqı dağılandan sonra bütün təsərrüfat əlaqələri kəsilmişdi və iqtisadi sahədə böyük

problemlər yaranmışdı. Bu gün biz artıq yavaş-yavaş ona nail oluruq ki, əsas ərzaq məhsulları ilə özümüzü təmin edirik. Məsələn, Sovet İttifaqı zamanında Azərbaycan heç vaxt özünü ət məhsulları, süd məhsulları ilə təmin edə bilmirdi. Bitki yağları ilə, şəkərlə təmin edə bilmirdi. Bu gün biz buna, demək olar ki, nail ola bilmişik. Ət, süd məhsullarının təxminən 90 faizi, şəkər, bitki yağlarının 100 faizi Azərbaycanda istehsal olunur. Düzdür, şəkərin və bitki yağlarının istehsalı üçün xammal xaricdən gətirilir. Bu da təbiidir, bütün ölkələrdə belədir. Ancaq son məhsul Azərbaycanda istehsal olunur.

O ki qaldı meyvə-tərəvəz məhsullarına, təbii ki, biz özümüzü təmin edirik və ixrac da edirik. Ancaq taxıl, buğda ilə təminatda biz xaricdən gələn idxaldan asılıyıq. Mən bunda da heç bir ciddi problem görmürdüm, çünki bazar iqtisadiyyatı prinsipləri tələbatla təklif arasındakı tarazlığı tənzimləyirdi. Azərbaycan isə öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurubdur. Baxmayaraq ki, bazar iqtisadiyyatı prinsipləri işləyir, ancaq bu son müddət ərzində biz gördük ki, o bizim ərzaq təhlükəsizliyimizi təmin etmir. Biz lazımi səviyyədə idxal etmək üçün əlavə tədbirlər görməli olduq. Baxmayaraq ki, müqavilələr də imzalanmışdı və taxılın gətirilməsi məsələləri də həll olunmuşdu. Ancaq biz gördük ki, dünyada qıtlıq yaranmışdır. Bu qıtlığın əsas səbəbi bioyanacağın istehsalı, etanolun istehsalı olmuşdur və etanolun istehsalı üçün daha çox əkin sahələri ayrılmışdır və nəticədə kənd təsərrüfatı məhsullarının istehsalı azalmışdır. Bütün bunların əsasında enerji daşıyıcılarının qiymətlərinin artması dayanır. Bu olmasaydı, bioetanola da böyük tələbat olmazdı. Yəni biz görürük ki, bu sahə nə qədər həssasdır və hətta BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatı kimi böyük qurumlar öz narahatlığını ifadə etmişdilər. Hətta bəzi bölgələrdə, bəzi qitələrdə aclıq təhlükəsi yaranmışdı.

Ona görə biz hər bir xoşagəlməz vəziyyətə hazır olmalıyıq və mən inanıram ki, əlavə tədbirlər nəticəsində Azərbaycanda ərzaq təhlükəsizliyini tam şəkildə təmin edəcəyik.

Güzəştli kreditlər verilməsi 2009-cu ildə də davam edəcəkdir. Artıq bir neçə ildir ki, bu kreditlər verilir və daha çox aqrar sahəyə aiddir. Baxmaq lazımdır, bəlkə 2009-cu ildə bu kreditlərin həcmini artıraq. Azərbaycana güzəştli şərtlərlə gübrənin gətirilməsi təmin olunmalıdır. Mütəxəssislər yaxşı bilirlər ki, müxtəlif gübrələr var. Gübrə var ki, birbaşa bu ilin məhsulu üçün lazımdır, eləsi də var ki, torpaqların münbitləşməsi üçün, bundan sonra uzun müddət yaxşı məhsul götürülməsi üçün lazımdır. Yəni dövlət bu sahədə öz səylərini, əlbəttə ki, artırmalıdır. Bütün dünyada olduğu kimi, biz də fermerlərə subsidiyalar verməliyik və bu subsidiyaların həcmi artmalıdır. Bu həm bölgələrdə yaşayan insanların həyat səviyyəsini yaxşılaşdıracaq – bizdə əhalinin 48 faizi aqrar bölgələrdə yaşayır, həm iş yerlərinin yaradılmasına təkan verəcək, həm də yerli istehsal artacaq, ərzaq təhlükəsizliyi tam şəkildə təmin olunacaqdır. Mən bu sahəyə xüsusilə böyük diqqət ayırıram və bu barədə danışıram, çünki bu bizim üçün növbəti illərdə prioritet sahə olmalıdır. Həmişə belə olub, ancaq indiki şəraitdə biz bu sahədə daha da ciddi olmalıyıq.

Bununla bərabər, suvarılan torpaqların sahəsi genişləndirilməlidir. Bizim böyük meliorasiya və suvarma proqramlarımız var. Bu barədə xüsusi iclas da keçirmişik, bütün layihələr bəllidir, icra olunur. 2009-cu ildə əlavə tədbirlərin görülməsi üçün dövlət büdcəsində vəsait nəzərdə tutulmalıdır. Suvarılan sahələrin artırılması və eyni zamanda, kənd təsərrüfatının intensiv yollarla inkişaf etməsi çox vacibdir. Biz məhsuldarlığı artırmalı və eyni zamanda, əkin sahələrini genişləndirməliyik. Nəzərə alsaq ki, Azərbaycanda torpaqlar çox deyil, biz torpağın hər bir qarışından səmərəli istifadə edilməsi üçün lazımi tədbirlər görməliyik. Bir daha demək istəyirəm ki, dövlət öz tərəfindən bütün lazımi tədbirləri

görməli, infrastruktur layihələrini həyata keçirməli, maliyyə dəstəyi verməlidir. Fermerlər isə öz zəhməti ilə həm özlərinin yaşayış səviyyəsini yaxşılaşdırmalıdır, həm də ki, ölkənin ərzaq təhlükəsizliyini təmin etməlidirlər.

İlin sonuna qədər və 2009-cu ildə biz infrastruktur layihələrinə diqqət yetirəcəyik. Bu sahədə böyük uğurlar var və demək olar ki, bütün bölgələrdə nəhəng infrastruktur layihələri həyata keçirilir. Yollar tikilir, bizi üç ölkə ilə birləşdirən magistral yolların tikintisi sürətlə gedir, şəhərlərarası, şəhərlərdaxili, kənd yolları çəkilir. Yəni yol infrastrukturunun yeniləşməsi, müasirləşməsi gələcək illərdə də vacib sahə olacaqdır. Bu, insanlara həm rahatlıq verir, həm də ki, bölgələrin inkişafı üçün lazımi şərait yaradır. Bizim çox gözəl turizm imkanlarımız var. Ancaq yol olmayan yerdə heç bir ciddi investor bu sahəyə vəsait qoymaz. Eyni zamanda, yolun çəkilməsi, təbii ki, sənaye istehsalının artmasına gətirib çıxarır. Ümumiyyətlə, bu hər bir ölkənin inkişafı üçün çox vacib sahə sayılır. Təsadüfi deyil və biz dünya tarixindən də bunu bilirik ki, keçmişdə böyük müharibələrdən sonra infrastrukturun bərpası məhz yol infrastrukturunun bərpasından başlanmışdır. Çünki bu əsasdır. Bu, Azərbaycanda da infrastruktur sahələri arasında vacib yer tutur və görürük ki, biz qısa müddət ərzində keyfiyyətli və müasir yolların tikintisinə nail ola bilmişik. Çox sevindirici haldır ki, artıq yerli şirkətlər də bu işlərdə fəaldır və Azərbaycanda yol infrastrukturuna ayrılan vəsait güclü özəl sektorun yaranmasına gətirib çıxarır. Özəl şirkətlər bu layihələrdən bəhrələnir. Mən çox şadam ki, daha çox yerli şirkətlər bu işlərlə məşğuldur. Bu onu göstərir ki, həm onların peşəkarlıq səviyyəsi kifayət qədərdir, həm də yerli insanlarımız Azərbaycanın artan imkanlarından bəhrələnirlər.

Bununla bərabər, bütün digər infrastruktur layihələri ilin sonuna qədər və ondan sonrakı dövrdə sürətlə davam etdirilməlidir. Bizim elektrik enerjisi ilə bağlı, qazlaşdırma ilə bağlı çox böyük planlarımız var, su-kanalizasiya layihələri-

nin icrası başlayır. Əminəm ki, biz yaxın zamanlarda həm beynəlxalq maliyyə qurumlarının kreditləri, həm də öz daxili imkanlarımız hesabına bunu edəcəyik.

Bakını içməli su ilə təmin etmək üçün Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi davam edir. Əminəm ki, yaxın zamanlarda bu kəmərin tikintisi başa çatacaqdır. Samur –Abşeron kanalı, Taxtakörpü su anbarı – yəni bütün bu nəhəng infrastruktur layihələrinin sadalanması üçün çox vaxt lazımdır. Onların hər biri özlüyündə nəhəng layihədir və Azərbaycanın infrastrukturunun müasirləşməsi və yaradılması üçün çox mühüm rol oynayır.

İstilik sisteminin yeniləşdirilməsi ilə bağlı işlər gedir, daha da sürətləndirilməlidir. İndi yəqin ki, müvafiq qurumlar qışa hazırlıqla bağlı öz tədbir planlarını hazırlayırlar. Keçən il və 2006-cı ildə qışda elektrik enerjisi, qazın verilməsi ilə bağlı heç bir ciddi problem olmamışdır. Çünki biz qısa müddət ərzində çox müasir sistem yaratmışıq, bu sahəyə çox böyük vəsait qoymuşuq və bu proses davam etdirilir. Yeni elektrik stansiyalarının və paylayıcı xətlərin tikintisi davam edir.

Bununla bərabər – bəlkə də bu məsələ o qədər də qlobal xarakter daşımır, amma insanların rahat yaşaması üçün çox vacibdir – bizdə lift təsərrüfatının yeniləşdirilməsi məsələsi həll olunmalıdır. Çünki Bakıda və iri şəhərlərdə liftlərin böyük əksəriyyəti sıradan çıxıb və insanlara böyük əziyyət yaradır. Lift olmayan, işləməyən yerdə yuxarı mərtəbələrdə yaşayan insanlar öz mənzillərinə ayaqla qalxmağa məcbur olurlar. Bu sahədə biz təcili tədbirlər görməliyik, Azərbaycanda lift istehsal edən müəssisələr yaradılır. Onların işini gücləndirməliyik və bəlkə də təcili surətdə xaricdən liftlər almalıyıq. Bu hesablanmalıdır ki, nə qədər vəsait lazımdır. Əlbəttə, bunun texniki tərəfi də var, xüsusi briqadalar olmalıdır. Bu işə biz daha da böyük miqyasda başlamalıyıq. Müəyyən işlər görülüb, ancaq bu, vacib məsələdir. Hər bir insanın, yəni hündürmərtəbəli binalarda yaşayan hər bir insanın rahatlığı üçün biz bunu etməliyik.

İqtisadi və sosial məsələlərin həlli ilə bərabər, bütün başqa məsələlər də həll olunmalıdır. Mən bunu əvvəllər də demişəm. Bütün sahələr üzrə bizim proqramlarımız var. Ekoloji tədbirlərin güclənməsi işinə 2009-cu ildə daha da böyük vəsait ayrılmalıdır. Bu proses başlanıbdır. Neftlə çirklənmiş ərazilər təmizlənir və bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməlidir. Dövlət proqramı var, vəsait ayrılır. Mən hesab edirəm ki, biz bu sahəyə daha da böyük diqqət göstərməliyik. Çünki sirr deyil ki, Bakıda və Abşeron yarımadasındakı ekoloji vəziyyət bizi qane edə bilməz. Bunun müxtəlif səbəbləri var. Uzun illər ərzində bu ərazilərdə neft hasil olunubdur və deyə bilərəm ki, ekoloji normalara çox da böyük əhəmiyyət verilmirdi. İndi biz bu böyük işləri görməliyik. Neftlə çirklənmiş bütün ərazilərdə rekultivasiya işləri aparılmalıdır. Bu da çox böyükhəcmli işlərdir. Həm böyük vəsait, həm peşəkarlıq, həm də texnikanın alınmasını tələb edir. Ancaq biz elə məqsəd qoymuşuq ki, Bakının, Abşeron yarımadasının neftlə çirklənmiş bütün əraziləri təmizlənməlidir və beləliklə, Azərbaycanda ekoloji vəziyyət yaxşılaşacaqdır.

Bakı buxtasının təmizlənməsi üçün əlavə tədbirlər görülməlidir. Bu, kompleks tədbirlər olmalıdır. Həm təmizlənmə, həm kanalizasiya ilə bağlı işlərin sürətlə getməsi – bütün bu işlər görülməlidir. Əgər əlavə tədbirlər görülməlidirsə, vaxtında müraciət edin və nə lazımdırsa, biz edəcəyik.

Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti nəticəsində biz konkret layihələrə başlamalıyıq. Biz Azərbaycan İnvestisiya Şirkətini ona görə yaratmışıq ki, Azərbaycan dövlətinə lazım olan sahələrə xarici investorları cəlb edək və öz iştirakımızla onları təşviq edək. Bilirəm ki, müəyyən layihələr hazırlanıb, biz sadəcə, onların tezliklə icra olunmasına və başa çatmasına çalışmalıyıq. Bizdə əslində investisiyalarla bağlı problem yoxdur. Çünki həm xaricdən maraq böyükdür, həm də çox böyük həcmdə daxili investisiyalar qoyulur. Dövlət investisiya xərcləri ildən-ilə artır və demək olar ki, infra-

strukturun bütün sahələrinə dövlət tərəfindən böyük həcmdə investisiya qoyulur. Ancaq istərdik ki, bizə lazım olan sahələrə xarici, yaxud da yerli şirkətlər investisiya qoysun. Biz Dövlət İnvestisiya Şirkətini yaradanda əsas vəzifəsi ondan ibarət idi ki, xaricdən potensial investorları cəlb etsin. Ancaq bir halda ki, indi Azərbaycanda daxildə güclü şirkətlər yaranır, biz də bu şirkətlərə kömək etməliyik ki, onlar böyüsün. Azərbaycanda dünya miqyaslı şirkətlər, təkcə dövlət şirkətləri yox, özəl firmalar da yüksək səviyyəyə qalxsın. İstisna olunmur ki, əgər yerli şirkətlər tərəfindən yaxşı layihələr təqdim olunsa, Dövlət İnvestisiya Şirkəti onlarla da işləyə bilər.

Ümumiyyətlə, növbəti illərdə Azərbaycandan kənarda investisiya qoyuluşuna da daha böyük diqqət göstərməliyik. Əlbəttə, ilk növbədə biz öz resurslarımızı Azərbaycana investisiya şəklində qoymalıyıq. Ancaq həm biznes baxımından, həm də ki, geniş maraqlarımız baxımından biz başqa ölkələrə kapital qoyuluşunu daha da artırmalıyıq. Bu baxımdan Dövlət Neft Şirkəti artıq böyük layihələrdə iştirak edir. Son müddət ərzində neft-qaz kəmərlərinə qoyulan vəsaitdən əlavə, Dövlət Neft Şirkəti Türkiyə, Gürcüstan iqtisadiyyatına 2,5 milyard dollar sərmayə qoyubdur və bu proses davam edir. Mən əvvəllər demişəm ki, Dövlət Neft Şirkəti beynəlxalq səviyyəli neft şirkətinə çevrilməlidir və bu proses uğurla gedir. Növbəti illərdə başqa ölkələrə, bizə dost olan ölkələrin iqtisadiyyatına investisiyaların qoyulması nəzərdə tutulmalıdır. Digər dövlət şirkətlərinin də imkanları artır. Onlar da baxmalıdırlar ki, xarici ölkələrə investisiya qoyulması üçün harada cəlbedici layihələr var. Bu həqiqətdir ki, bizim dövlət şirkətləri artıq ən böyük iqtisadi imkanlara malik olan şirkətlərdir. Ola bilər ki, onlar özəl şirkətləri də bu layihələrə qoşsunlar. Beləliklə, özəl şirkətlər də bu böyük layihələrdə iştirak etməklə, həm böyük təcrübə qazanar, həm maliyyə vəziyyətini yaxşılaşdırar, həm də gələcəkdə müstəqil

şəkildə başqa ölkələrin bazarlarında istənilən sahələrdə – inşaat, ticarət, maliyyə – fəal iştirak edərlər.

Bu, zəmanənin tələbidir. Azərbaycan müasir ölkəyə çevrilir və hər bir müasir ölkəyə xas olan xarici sərmayə proqramı da olmalıdır. Biz yəqin ki, müəyyən müddətdən sonra bunu tərtib edə bilərik. Yəni prioritetlər müəyyən edilməlidir və əminəm ki, ölkəmizin möhkəmlənməsi üçün bunun çox böyük əhəmiyyəti olacaqdır. Bizim indi 50-dən çox ölkədə səfirliklərimiz var və onlar da bu işlərdə fəal olmalıdırlar. Onlar cəlbedici sahələri araşdırmalıdırlar. Buradakı müvafiq qurumlarla əlaqə saxlamalı və olduqları ölkələrdə Azərbaycanın iqtisadi maraqlarını təmin etməlidirlər. Bu yaxınlarda bütün səfirlərin iştirakı ilə bir neçə gün ərzində müşavirə keçirilmişdir və bilirəm ki, bu məsələ də müzakirə olunmuşdur. Səfirliyimiz olan hər bir ölkədən məlumat gəlməlidir – o ölkənin iqtisadi imkanlarının perspektivləri və potensialı, investisiya obyektlərinin siyahısı. Biz onda baxacağıq, bu məsələni təşkil etmək bizə daha da asan olacaqdır.

Sosial sahədə bütün tədbirlər davam edəcəkdir. 2009-cu ildə həm bu il icra olunan layihələr davam edəcək, həm də ki, növbəti layihələr. Təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində, turizm sektorunda əlavə tədbirlər görüləcəkdir. Hər bir sahə üzrə proqramlar, tikiləcək obyektlərin siyahısı var. Biz elə etməliyik ki, Azərbaycanda ilk növbədə, yeni tikilən bütün obyektlər dünya səviyyəsində olsun, eyni zamanda, maksimum çalışmalıyıq ki, əvvəllər tikilmiş, köhnəlmiş, yararsız vəziyyətə düşmüş tikililər də bərpa olunsun. Bu istiqamətdə biz artıq böyük işlər görmüşük. Həm məktəb tikintisi, tibb ocaqlarının tikintisi, həm də idman komplekslərinin tikintisi sürətlə gedir. İndi növbəti ilin dövlət büdcəsi hazırlanır. Bütün bu məsələlər orada öz əksini tapmalıdır. Hesab edirəm ki, biz 2009-cu ildə xüsusilə turizm imkanlarının genişlənməsinə diqqət göstərməliyik. Bu il həmin məqsədlər üçün çox böyük vəsait ayrılıbdır. Azərbaycanda yeni turizm zonaları, qış turizm zonaları müəyyən edilibdir.

Əminəm ki, əgər hər şey plan üzrə getsə, 1-2 ildən sonra Azərbaycanda beynəlxalq səviyyəyə cavab verən qış turizm mərkəzi yaradılacaqdır. Burada da mexanizm çox sadədir. Dövlət bütün infrastruktur layihələrini öz üzərinə götürür – yol, elektrik stansiyaları, elektrik xətləri, qazpaylayıcı şəbəkələr, su xətləri. Qalan işləri də özəl firmalar etməlidir. Əgər özəl firmaların işə başlaması üçün dövlət dəstəyi lazım olacaqsa, biz bunu da etməyə hazırıq. Beləliklə, Azərbaycanda güclü turizm imkanları yaranacaqdır. Bildiyiniz kimi, bizim səfalı yerlərimiz çoxdur. Həm turizm, həm müalicə müəssisələrinin yaradılması üçün çox gözəl imkanlarımız var. Bir müddət bundan əvvəl Naftalan Dövlət Kurort Mərkəzinin yaradılması üçün lazımi qərarlar qəbul edilib, ilkin vəsait ayrılıb, indi təhlil-qiymətləndirmə işləri aparılır.

Mən əminəm ki, dünyada nadir müalicəvi xüsusiyyətlərə malik olan Naftalan neftindən səmərəli istifadə etmək üçün biz dövlət tərəfindən bütün lazımi tədbirləri, infrastruktur layihələrini tezliklə başa çatdırmalıyıq. Beləliklə, özəl sektorun inkişafı, insanların istirahəti və Azərbaycanı turizm ölkəsinə çevirmək üçün yaxşı şərait yaradılacaqdır.

Biz daxili turizm haqqında fikirləşməliyik. Xüsusilə biz görürük ki, yay aylarında insanların böyük əksəriyyəti bölgələrə yola düşür. Rayonlarda yeni müəssisələr, turizm yerləri açılır. Yəni biz bunu vətəndaşlarımızın rahat dincəlməsi üçün etməliyik. Əlbəttə ki, bu, dünya səviyyəsində olmalıdır ki, bizim insanlar bundan istifadə etsinlər və xaricdən də daha çox turistlər gəlsin.

İndi gələn ilin dövlət büdcəsi hazırlanır. Biz son illər ərzində büdcə sahəsində böyük irəliləyişə nail ola bilmişik. Azərbaycanın builki icmal büdcəsi 15 milyard dollardan çoxdur. Buraya həm dövlət büdcəsi, həm də Neft Fondundan, digər mənbələrdən ayrılan vəsait aiddir. Gələn il yəqin ki, büdcəmiz artacaqdır. Ancaq bu artım məqsədyönlü şəkildə olmalıdır. Mən bilirəm ki, müxtəlif dövlət qurumları, nazirliklər tərəfindən hökumətə, Maliyyə Nazirliyinə sifariş-

lər göndərilir. Bəzi hallarda bu sifarişlər şişirdilir. Mən bu barədə demək istəyirəm ki, bütün sifarişlər reallığı və bütün qurumların, nazirliklərin real imkanlarını əks etdirməlidir. Əlbəttə, çox böyük quruculuq, abadlıq işləri gedir və mən çox istəyirəm ki, daha da tez getsin, sürətlə getsin. Bəzi işlər var ki, başqa yerdə onu 2 ilə, 3 ilə görürlər, biz bunu bir ilə görürük. Bəzi işlər var, bir ilə görülür, biz bunu 3 aya görürük. Bu bizim yanaşmamızdır. Mən demək istəyirəm ki, Azərbaycanda infrastrukturun yaranması nə qədər tez olsa, bir o qədər yaxşıdır. Ancaq bununla bərabər, biz gərək öz maliyyə imkanlarımızı da düzgün şəkildə qiymətləndirək. Düzdür, indi bizim valyuta ehtiyatlarımız 13 milyard dollardan çoxdur. İlin sonuna qədər yəqin ki, 20 milyard dollara yaxınlaşacaqdır. Gələn il uğurlu neft strategiyasının icrası nəticəsində daha da artacaqdır. Amma biz hər bir vəsait qoyuluşuna böyük həssaslıqla yanaşmalıyıq, israfçılığa yol verməməliyik və ölkəmiz üçün ən prioritet xarakter daşıyan layihələrin icrası ilə məşğul olmalıyıq. İlk növbədə, bu il icra olunan layihələrin başa çatması üçün lazımi vəsait ayrılmalıdır. Ondan sonra prioritet xarakter daşıyan layihələrə investisiyalar cəlb edəcəyik.

2009-cu ilin büdcəsi sosial məsələlərin həlli üçün əlavə vəsaitin nəzərdə tutulmasında da rol oynayacaqdır. İnvestisiya, kapital qoyuluşu, müdafiə sənayesinin güclənməsi, ordu quruculuğu prosesinin sürətləndirilməsi və ölkə üçün lazım olan bütün başqa işlərin görülməsindən ötrü lazımi tədbirlər nəzərdə tutulur. Elə etməliyik ki, real, konkret proqramların icrası üçün kifayət qədər vəsait olsun.

Ancaq yenə də deyirəm, onsuz da verilən sifarişlərin hamısı yerinə yetirilməyəcək, sadəcə, mən bütün qurumlara məsləhət görürəm ki, verdikləri təkliflər reallığı əks etdirsin. Şişirdilmiş arzulardan kənar olsun.

Əsas məsələlər bunlardır. Mən bir məsələyə də toxunmaq istəyirəm, baxmayaraq ki, bizim bugünkü iclasa bunun birbaşa aidiyyəti yoxdur. Ancaq bir halda ki, Azərbaycanda

prezident seçkiləri kampaniyası başlanmışdır, mən bunu xüsusilə qeyd etmək istəyirəm. Bildiyiniz kimi, bu yaxınlarda Yeni Azərbaycan Partiyasının qurultayında mənim namizədliyim irəli sürülübdür və seçki kampaniyası başlanmışdır. Mən əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycanda prezident seçkiləri ədalətli, şəffaf keçirilməlidir və keçiriləcəkdir. Biz beynəlxalq müşahidəçiləri dəvət edəcəyik. Kim istəyir gəlsin, müşahidə etsin. Əminəm ki, Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində tam şəkildə öz əksini tapacaqdır.

Əlbəttə ki, bütün namizədlər üçün bərabər şərait yaradılmalıdır, yaradılır və yaradılacaqdır. Seçkilərə qədər bütün dövr ərzində hər bir namizədin eyni, bərabər imkanları olmalıdır. İstər kampaniyanın aparılması üçün, istərsə də insanlarla görüşlərin təşkili üçün. Müvafiq göstərişlər verilibdir ki, bütün bölgələrdə namizədlərin seçicilərlə görüşməsi üçün yerlər müəyyən edilsin və bütün namizədlər eyni yerlərdən istifadə etsinlər. Əlbəttə ki, təşviqat kampaniyasının aparılmasında da bu bərabərlik prinsipi qorunub saxlanılmalıdır. Mənim kütləvi informasiya vasitələrindən xahişim bundan ibarətdir. Dövlət kütləvi informasiya vasitələri, əlbəttə ki, bunu göstəriş kimi qəbul etməlidir. Özəl qurumlara mən, sadəcə olaraq, öz tövsiyəmi verə bilərəm ki, heç bir namizədə qarşı ayrı-seçkilik, hansısa başqa münasibət göstərilməsin.

Bununla əlaqədar və təkcə bununla əlaqədar deyil, bütövlükdə bir məsələyə toxunmaq istəyirəm. Əvvəllər də şəhər və rayon icra qurumlarına bunu demişdim ki, küçələrdən mənim portretlərim götürülsün. Buna ehtiyac yoxdur. Mən buna müsbət baxmıram və görəndə ki, harada mənim yeni portretim asılıb, dərhal göstəriş verirəm ki, onu oradan çıxarın. Bunu Hacıbala Abutalıbov yaxşı bilir. Mən ondan soruşuram ki, kim asıb bu portreti? Çünki mən onları qadağan etmişəm. O da deyir ki, o icra hakimiyyəti başçısı, bu icra hakimiyyəti başçısı. Dedim ki, zəng et, de ki, bir gün vaxt verirəm, əgər çıxarmasa, onda məndən inciməsin. Mən

rayonlarda da oluram, orada da görürəm. Yəni bu mənə lazım deyil və mən hesab edirəm ki, bu portretlər yığışdırılmalıdır. Seçki ərəfəsində və ümumiyyətlə, ondan sonra da olmamalıdır. Mənə bu lazım deyil. Azərbaycan xalqı mənə öz münasibətini 2003-cü ildə göstərmişdir. Mən bu beş il ərzində çalışmışam ki, Azərbaycan xalqının etimadını doğruldum. Azərbaycan xalqı seçkidə mənə yenidən öz münasibətini göstərəcəkdir. Əgər etimad göstərsə, mən növbəti beş ildə də Azərbaycan xalqına xidmət edəcəyəm.

O ki qaldı yerli icra qurumlarının fəaliyyətinə, onlar öz işi ilə, öz səmərəli əməlləri ilə, insanlara qayğı göstərməklə öz funksiyalarını yerinə yetirsinlər. Portret asmaqla yox. Ona görə bir daha və axırıncı dəfə Hacıbala Abutalıbova, Zeynal Nağdəliyevə tapşırıram: bütün lazımi tədbirləri görün və küçələrdən mənim şəkillərimi yığışdırın.

Növbəti müddət ərzində, ilin sonuna qədər biz hələ yığışacağıq. Biz 9 ayın yekunlarını müzakirə edəcəyik və əminəm ki, növbəti üç ay ərzində nə lazımdırsa, onu edəcəyik. Azərbaycan iqtisadiyyatı yüksək sürətlə artır, bizim bütün proqramlarımız uğurla icra olunur. Əminəm ki, növbəti aylarda və növbəti illərdə Azərbaycanın sürətlə inkişafı davam edəcək və Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşayacaqdır.

Sağ olun.

# MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZAYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Malayziya dövlətlərarası münasibətləri xalqlarımızın istək və iradəsinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2008-ci il*

## QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

Hörmətli Kurmanbek Saliyeviç!

Milli bayram – Dövlət Müstəqilliyi günü münasibətilə Sizi və bütün Qırğızıstan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasında istər ikitərəfli qaydada, istərsə də beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq xalqlarımızın və dövlətlərimizin mənafeyi naminə bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir.

Hörmətli Kurmanbek Saliyeviç, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Qırğızıstan xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2008-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və bütün Moldova xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Fərəhlidir ki, bu gün Azərbaycanı və Moldovanı bir-birinə sıx dostluq, qarşılıqlı dəstək və tərəfdaşlıq telləri bağlayır. Əminəm ki, iqtisadi əməkdaşlığımız və siyasi qarşılıqlı əlaqələrimiz bundan sonra da xalqlarımızın və dövlətlərimizin mənafeyi naminə səmərəli surətdə inkişaf edəcəkdir.

Hörmətli Vladimir Nikolayeviç, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Moldova xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2008-ci il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Ukrayna xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Şadam ki, tarixən yaranmış mehriban dostluq və qarşılıqlı dəstək ənənələri kimi möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz bu gün uğurla inkişaf edir.

Əminəm ki, birgə səylərimiz bundan sonra da həm beynəlxalq və regional təşkilatlarda, həm də transmilli enerji və kommunikasiya layihələrinin həyata keçirilməsində əməkdaşlığımızın genişlənməsinə yönəldiləcəkdir.

Hörmətli Viktor Andreyeviç, Sizə möhkəm cansağlığı və uğurlar, bütün dost Ukrayna xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PEKİNƏ SƏFƏRİ

*7 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində keçirilən XXIX Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün avqustun 7-də Çinə səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Pekinin beynəlxalq hava limanında Çinin yüksək vəzifəli dövlət və hökumət rəsmiləri, Olimpiadanın təşkilat komitəsinin üzvləri və digər rəsmi şəxslər qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

# PEKİN OLİMPİADASININ AÇILIŞ MƏRASİMİNƏ GƏLMİŞ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA

*8 avqust 2008-ci il*

*Avqustun 8-də Pekində Çin Xalq Respublikasının sədri Hu Szintaonun adından XXIX Yay Olimpiya oyunlarının açılış mərasiminə gəlmiş ölkələrin dövlət və hökumət başçılarının şərəfinə nahar verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva naharda iştirak etmişlər.*

*Çin Xalq Respublikasının sədri Hu Szintao dövlətimizin başçısını və onun xanımını səmimiyyətlə qarşılamışdır.*

## PEKİNDƏ XXIX YAY OLİMPİYA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*8 avqust 2008-ci il*

*Avqustun 8-də axşam Çinin paytaxtında 91 min tamaşaçı tutan «Quş yuvası» olimpiya stadionunda XXIX Yay Olimpiya oyunlarının təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Avqustun 24-dək davam edəcək Olimpiadada Beynəlxalq Olimpiya Komitəsinin üzvü olan 205 ölkə təmsil edilmişdir. 302 dəst medal uğrunda (bu, Olimpiada–2004 ilə müqayisədə bir dəst çoxdur) 10.500 idmançı mübarizə aparacaqdır. 2008-ci ilin Yay Olimpiya oyunlarının yarışları Pekin, Sindau, Honkonq, Tyantszin, Şanxay, Şenyan, Sinxuandao şəhərlərində keçiriləcəkdir. 2008-ci ilin Olimpiya oyunlarının emblemi qaçan insanı xatırladan heroqlifin ənənəvi olimpiya rəmzi ilə uzlaşdırılmasından ibarətdir. Emblemin aşağı hissəsində ingilis dilində, Çin kalliqrafiyasına uyğunlaşdırılmış «Pekin–2008» yazısı vardır.*

*Çinin Dövlət himninin sədaları altında bu ölkənin Dövlət bayrağı qaldırıldı. Təntənəli açılış mərasimində əsas şou «Böyük sivilizasiya» və «Şanlı era» adlı iki hissəyə bölünmüşdü. Şounun 15 minə yaxın iştirakçısı Çin sivilizasiyasının beş min il ərzində keçdiyi yolu təsvir etdilər. 2008 musiqiçidən ibarət orkestr qədim musiqi alətlərini səsləndirdi. Onları əyinlərində Çində yaşayan 56 xalqın milli geyimləri olan 224 ifaçıdan ibarət xor əvəz etdi. Sonra «Canlı şəkillər» Çinin ən mühüm kəşflərindən – kağızın ixtira edilməsi Çin rəngkarlıq sənəti və s. barədə «danışdı».*

*Bu ölkənin mədəniyyətinin növbəti səhifəsi məşhur Çin operasıdır. Onu Çinin birinci imperatoru Sin Şixuanın «Terraqot ordusu» əvəz etdi. Tamaşaçılar böyük İpək Yoluna və qədim Çinin digər nailiyyətlərinə həsr edilmiş süjetlərə də baxdılar.*

*Məşhur britaniyalı müğənni Sara Braytman və Çin pop-ulduzu Lyu Huan birlikdə Pekin Olimpiadasının himnini ifa etdilər.*

*Olimpiya himni səslənəndən sonra iştirakçı ölkələrin nümayəndə heyətləri əllərində milli bayraqlarla stadiona daxil oldular. Ənənəyə görə iştirakçıların paradını Olimpiya oyunlarının vətəni Yunanıstanın yığma komandası açdı.*

*Ölkəmizin nümayəndə heyəti bu paradda başda şef-demision İlham Mədətov olmaqla, 56 idmançı, məşqçi və mütəxəssislə təmsil edilmişdir. Azərbaycan Respublikasının Dövlət bayrağını komandanın kapitanı, Olimpiya çempionu, güləşçi Fərid Mansurov aparırdı.*

*Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Fəxri qonaqlar tribunasından komandamızı səmimiyyətlə salamladı.*

*Xatırladaq ki, Azərbaycan komandasının 44 üzvü idmanın 12 növündə yarışacaqdır. Atçılıq idmanı yarışlarında və bədii gimnastika üzrə qrup halında komanda birinciliyində idmançılarımız ilk dəfə çıxış edəcəklər.*

*Sonra Olimpiada–2008-in Təşkilat Komitəsinin sədri Lyu Si və Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq mərasimdə çıxış etdilər.*

*Çin Xalq Respublikasının sədri Hu Szintao XXIX Yay Olimpiya oyunlarını açıq elan etdi.*

*İdmançıların və hakimlərin adından olimpiya andları oxundu. «Bir dünya – bir arzu» devizi altında keçən 2008-ci il Olimpiya oyunlarının açılış mərasimində ən yaddaqalan məqamlardan biri olimpiya məşəlinin yandırılması oldu. Bu şərəfli vəzifəni olimpiya çempionu, Los-Ancelesdə keçirilmiş XXIII Yay Olimpiya oyunlarında üç qızıl, iki gümüş və bir bürünc medal qazanaraq, Dünya İdman Jurnalistləri Assosia-*

*siyasının versiyasına görə XX yüzilliyin 25 ən böyük atletindən biri hesab edilmiş məşhur Çin gimnastı Li Nin yerinə yetirdi.*

*Olimpiadanın dörd saat davam etmiş və atəşfəşanlıqla başa çatmış təntənəli açılış mərasimini Yer kürəsinin bütün qitələrində 4 milyard nəfər televiziya vasitəsilə seyr etmişdir. Bu, dörd il bundan əvvəl Afina Olimpiadasında olduğundan 100 milyon nəfər çoxdur. Azərbaycanın idman pərəstişkarlarının da bu mərasimi izləmək imkanı olmuşdur. AzTV və «Lider» telekanalı açılış mərasimini birbaşa translyasiya etmişdir.*

## PEKİNİN OLİMPİYA KƏNDİNDƏ ÖLKƏMİZİN İDMANÇILARI İLƏ GÖRÜŞ

*9 avqust 2008-ci il*

*Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində olimpiya kəndində olmuşdur.*

*Dövlətimizin başçısını səmimiyyətlə qarşılayan olimpiya kəndinin meri onu olimpiyaçıların yaşadıqları məkanla tanış etdi, Azərbaycan idmançılarının Pekin Olimpiadasında uğurla çıxış edəcəyinə əminliyini bildirdi.*

*Sonra prezident İlham Əliyev Gənclər və İdman naziri Azad Rəhimovun və ölkəmizin nümayəndə heyətinin şef-de-misionu İlham Mədətovun müşayiəti ilə Azərbaycan idmançılarının qaldıqları binaya gəldi, onlar üçün yaradılmış şəraitlə tanış oldu.*

*Daha sonra Azərbaycan nümayəndə heyətinin yaşadığı binanın həyətində idmançılarımız və onların məşqçiləri ilə söhbət edən prezident İlham Əliyev dedi:*

– Olimpiya oyunları elə bir yarışdır ki, burada istənilən nəticə ola bilər. Ancaq bizim idmançılarımızın bu vaxta qədərki uğurları ümid etməyə əsas verir ki, yaxşı nəticələr olmalıdır. İndi hər şey sizdən asılıdır, eyni zamanda, hakimlər də ədalətli olmalıdırlar. Əminəm ki, siz Azərbaycan bayrağını yüksəklərə qaldıracaqsınız. Ən əsası yaxşı idman formasını saxlamaq və yarışlara hazır olmaqdır. Bizim komandamız çox böyükdür, biz dünən tribunadan bütün komandaların meydana gəlməsini seyr etdik və gördük ki, kifayət qədər böyük komandamız var.

Belə bir yaxşı ənənə yaranıb – iştirak etdiyimiz ilk Olimpiya oyunlarında bir medal qazanmışdıq, ikinci Olimpia-

dada üç, üçüncü Olimpiadada beş medal. Amma o da həqiqətdir ki, hər dəfə medal qazanmaq daha da çətin olur. Çünki həm rəqabət artır, həm də maraq artır. İndi, demək olar ki, Olimpiya oyunlarına bütün dünyada böyük maraq var. Hər bir ölkə istəyir ki, onun idmançıları yaxşı nəticə göstərsinlər. İndi Azərbaycanda da çox güclü idman məktəbi var və o daha da güclənir. İdmançılarımızın əksəriyyəti Olimpiya oyunlarında ilk dəfə iştirak edir. Bu da onu göstərir ki, bizdə idman məktəbi inkişaf edir və idmanla məşğul olmaq üçün Azərbaycanda indi hər cür şərait var. Həm idmançılar üçün, həm də ki, adi vətəndaşlar üçün. Mən də hər dəfə Bakıda, rayonlarda cavanlarla görüşəndə deyirəm ki, siz gedin idmanla məşğul olun. İdmançı olmasanız da, idman insanı gücləndirir. Siz bunu yaxşı bilirsiniz, həm fiziki, həm də mənəvi cəhətdən gücləndirir. Hər bir insan gərək öz sağlamlığına, fiziki formasına fikir versin.

Sizin qələbələriniz, əlbəttə ki, gənc nəsil üçün də böyük stimul olacaqdır. Mənim yadımdadır, Sidney, Afina Olimpiya oyunlarından sonra uşaqlar idman bölmələrinə kütləvi şəkildə gəlməyə başladılar. Xüsusilə indi bizim bütün bölgələrdə gözəl idman komplekslərimiz var, idman salonlarımız var. Biz – həm federasiyalar, idman cəmiyyətləri, həm də Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi bu şəraiti yaradırıq. Çox şey demək olar, amma siz bütün vəzifələri özünüz yaxşı bilirsiniz. Onu da bilirsiniz ki, Azərbaycan xalqı sizə baxır, sizə azarkeşlik edir və sizin uğurlarınızı gözləyir.

***

*Azərbaycan prezidentinə Pekin olimpiya kəndinin xatirə hədiyyəsi təqdim olundu.*

*Dövlətimizin başçısı olimpiya kəndinin Xatirə kitabına ürək sözlərini yazdı, Azərbaycan idmançıları ilə xatirə şəkli çəkdirdi.*

*Sonra olimpiya kəndinin yeməkxanası ilə tanış olan Azərbaycan prezidentinə məlumat verildi ki, bura bütün gün ərzində fasiləsiz işləyir və eyni vaxtda 3500 idmançı yemək yeyə bilər. Burada məşhur Litva basketbolçusu, bir müddət ölkəmizdə məşqçi işləmiş Rimas Kurtinaytis Azərbaycan prezidentinə yaxınlaşaraq səmimiyyətlə görüşdü, olimpiyaçılarımıza uğurlar arzuladı.*

## XXIX YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ «AZƏRBAYCAN GÜNÜ»

*10 avqust 2008-ci il*

*Avqustun 10-da Çin Xalq Respublikasının paytaxtı Pekində – «China World Hotel»də XXIX Yay Olimpiya oyunları çərçivəsində «Azərbaycan günü» keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mərasimin keçirildiyi salon ölkəmizin Dövlət bayrağı ilə, Azərbaycana xas milli üslubda zövqlə bəzədilmişdi. Burada quraşdırılmış iri ekranlarda Azərbaycanın mədəniyyəti və incəsənətindən, tarixindən, müasir inkişafından bəhs edən videomateriallar nümayiş etdirilirdi.*

*Mərasimə dəvət olunmuş beynəlxalq idman federasiyalarının rəhbərləri Azərbaycan prezidentini və xanımını səmimiyyətlə qarşıladılar. Onlar dövlətimizin başçısı ilə müxtəlif vaxtlarda görüşlərini xatırladaraq, bunun onlarda xoş təəssürat yaratdığını bildirdilər.*

*Prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, mən bizim bu gecəmizə təşrif gətirdiyinizə görə sizin hamınıza təşəkkür etmək istəyirəm. Bu gün biz Pekində «Azərbaycan günü» keçiririk. Biz bu gün mədəniyyətimiz, tariximiz və idman tariximiz haqqında kiçik bir təqdimat etmək istəyirik.

Müstəqil ölkə kimi, Azərbaycan artıq dördüncü dəfədir ki, Olimpiya oyunlarında iştirak edir. İndiyədək bizim iştirakımız uğurlu olub, hər növbəti Olimpiya oyunlarında əvvəlkindən daha çox medal qazanmışıq. Ümid edirəm ki, bu yaxşı ənənə davam edəcəkdir.

Ümumiyyətlə, biz idmanın inkişafına çox diqqət yetiririk, belə ki, idman bizim ictimai həyatımızın vacib bir amilidir. Olimpiya hərəkatının inkişafına böyük diqqət yetirilir. Azərbaycan regionumuzda və bütün dünyada olimpiya hərəkatında əhəmiyyətli rol oynayır və olimpiya ideyalarını tam bölüşür.

Olimpiya oyunları sadəcə, dünyanın əsas idman hadisəsi deyil, eyni zamanda, bu oyunlar qlobal miqyasda ən əhəmiyyətli hadisədir. Olimpiya oyunları sadəcə, idman və yarışma deyil, eyni zamanda, dostluq, tərəfdaşlıq və qarşılıqlı dəstək deməkdir və təbii ki, bu, idmançılar üçün yaddaqalan nümunədir. Əminəm ki, onlar bunu bütün həyatları boyu xatırlayacaqlar. Onların öz qabiliyyətini nümayiş etdirmək, öz ölkələrinin idman şərəfini qorumaq və eyni zamanda, əminəm ki, burada dostlar qazanmaq imkanı olacaqdır.

Biz Azərbaycanda idmançıları dəstəkləməyə çalışırıq, dövlət və hökumət idmanın inkişafında əhəmiyyətli rol oynayır. Ölkəmizdə çoxlu yeni olimpiya kompleksləri yaradılıbdır. Son səkkiz il ərzində ölkənin müxtəlif yerlərində 13 böyük idman kompleksi yaradılıb və 23-də tikinti işləri gedir. Bizim üçün çox əhəmiyyətlidir ki, Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin prezidentləri və olimpiya hərəkatının yüksək rütbəli rəsmiləri bu komplekslərin bəzilərinin açılış mərasimlərində iştirak ediblər.

Əlbəttə, biz idmançılarımızın Olimpiya oyunlarında yaxşı nəticələr göstərəcəklərinə ümid edirik. Bizim idmanın inkişafı ilə bağlı öhdəliklərimiz daha geniş məna daşıyır. Biz gənclərin və uşaqların idman yarışlarında fəal iştirak etmələrini, onların sağlam və yaxşı fiziki formada olmalarını istəyirik. Yaxşı nəticələrlə yanaşı, biz gənc nəslin sağlam

olmasına və ölkəmizin gələcəkdə inkişaf etməsi üçün mühüm vəzifələri yerinə yetirməyə hazır olmasına nail olmalıyıq.

Biz ümid edirik ki, bu oyunlar bütün iştirakçılar üçün uğurlu olacaqdır. Mən bütün komandalara, bütün iştirakçılara müvəffəqiyyətlər arzulayıram. Ümid edirəm ki, idmançılar arasında yaranacaq dostluq və tərəfdaşlıq ruhu dünyada sülhün bərqərar olmasına kömək edəcəkdir.

İdman, dostluq, ünsiyyət, tərəfdaşlıq – bütün bunlar regionlarda və dünyada sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edən mühüm amillərdir. Bu mənada Azərbaycan çox əhəmiyyətli rol oynayır. Qeyd etdiyim kimi, Azərbaycan müstəqil bir dövlət kimi, gənc, lakin böyük mədəniyyətə, tarixə və ənənələrə, eləcə də idman ənənələrinə malik bir ölkədir.

Bütün idmançılara uğurlar arzulayıram və bizim bu gecəmizə təşrif gətirdiyinizə görə, bir daha hamınıza təşəkkür edirəm. Bütün ölkələrə və ölkələrinizin insanlarına müvəffəqiyyət və xoşbəxtlik arzulayıram.

Sağ olun.

* * *

*Pekində keçirilən «Azərbaycan günü» ölkəmizin mədəni irsinin, musiqisinin, mətbəxinin təbliği baxımından mühüm əhəmiyyət daşıyırdı.*

*Mərasimə dəvət olunan xarici ölkələrin yüksək vəzifəli rəsmi şəxsləri, o cümlədən diplomatlar, milli olimpiya komitələrinin rəhbərləri prezident İlham Əliyevlə söhbətlərində bu tədbirin Azərbaycanla yaxından tanış olmaq üçün gözəl fürsət olduğunu bildirdilər.*

*Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinetti, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey, Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Çinq Kou Vu, Türkiyə Olimpiya Komitəsinin prezidenti Toqay Boyatlı, Türkiyənin İdman işləri üzrə Dövlət naziri Murad Başəskioğlu, Ukrayna Olimpiya Komitəsinin prezidenti Ser-*

*gey Bubka, Rusiya Olimpiya Komitəsinin Fəxri prezidenti Vitali Smirnov, Belarus Olimpiya Komitəsinin Baş katibi Georgi Katulin, Polşa Olimpiya Komitəsinin prezidenti Pyotr Nurevski, Moldova Olimpiya Komitəsinin prezidenti Valeri Çapkun, Beynəlxalq Kanoe Federasiyasının prezidenti Ulrix Feldhoff ölkəmizə səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini xatırladaraq, Azərbaycanda olimpiya hərəkatının sürətlə inkişaf etdiyini vurğuladılar və idmana göstərilən qayğını yüksək qiymətləndirdilər.*

*Mərasimdə nümayiş etdirilən Azərbaycanın nəfis xalçaları, Heydər Əliyev Fondunun müxtəlif nəşrləri ilə maraqla tanış olan qonaqlar zəngin ənənələrə malik Azərbaycan mədəniyyətinin böyük təəssürat doğurduğunu söylədilər.*

*Dövlət başçısı ölkəmizin zəngin mədəni irsinin təbliğinə böyük diqqət yetirildiyini, Pekində təşkil olunan «Azərbaycan günü»nün bu istiqamətdə görülən işlərdən biri olduğunu dedi. Eyni zamanda, bildirdi ki, Azərbaycanda mədəniyyətlə yanaşı, bütün digər sahələrin inkişafına da xüsusi diqqət yetirilir. O cümlədən, idman sahəsində böyük uğurlara nail olunmuşdur. Azərbaycanın Pekin Yay Olimpiya oyunlarında 44 idmançı ilə təmsil olunması ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən qayğının təzahürüdür.*

*Prezident İlham Əliyev XXIX Yay Olimpiya oyunlarında iştirak edən Azərbaycan idmançıları ilə də görüşdü. Onlara yarışlarda uğurlar arzulayan dövlətimizin başçısı idmançılarımızın vətənə medallarla qayıdacaqlarına əmin olduğunu bildirdi. Azərbaycan olimpiya yığma komandasının üzvləri Prezidentlə xatirə şəkli çəkdirdilər.*

*Dövlətimizin başçısı Azərbaycanın veteran idmançıları ilə görüşdü. Sidney Olimpiya oyunlarının qalibi Zemfira Meftahəddinovaya Pekin Olimpiadasında uğurlar arzuladı.*

*Prezident İlham Əliyev cüdo üzrə dünya çempionu, hazırda Belarus komandasının məşqçisi olan həmyerlimiz Natiq Bağırovla da görüşdü.*

*Tədbirin sonunda Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər. Muğam da daxil olmaqla, zəngin Azərbaycan musiqisinin müxtəlif janrlarının təqdim edildiyi konsert mərasimə toplaşanlar tərəfindən böyük maraqla qarşılandı.*

## CÜDOÇULARIN MÜKAFATLANDIRILMASI MƏRASİMİNDƏ

*11 avqust 2008-ci il*

*Avqustun 11-də Pekində keçirilən XXIX Yay Olimpiya oyunlarının 73 kiloqram çəki dərəcəsində cüdo yarışlarında medallar qazanmış idmançıların təntənəli mükafatlandırılma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin yarışı izləmiş və mükafatlandırma mərasimində iştirak etmişdir.*

*Beynəlxalq Olimpiya Komitəsinin nümayəndəsi Renaldo Qonzales Lopes Olimpiya oyunlarının 73 kiloqram çəki dərəcəsində cüdo yarışlarının qalibi, Azərbaycan cüdoçusu Elnur Məmmədliyə, habelə 2-ci və 3-cü yeri tutmuş idmançılara medalları təqdim etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev idmançılara gül dəstələri təqdim edərək, təbriklərini bildirmişdir.*

*Elnur Məmmədlinin şərəfinə Azərbaycanın Dövlət bayrağı qaldırılmış və ölkəmizin himni səslənmişdir.*

*Xatırladaq ki, Azərbaycan idmançısı keçirdiyi beş görüşün hamısında təmiz qələbə qazanmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PEKİNƏ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

*14 avqust 2008-ci il*

*XXIX Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak edən və yarışları izləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına səfəri avqustun 14-də başa çatmışdır.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Pekinin beynəlxalq hava limanında Çinin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı Olimpiya oyunlarında qızıl medal qazanmış cüdoçu Elnur Məmmədli, Olimpiadanın gümüş mükafatçıları, güləşçilər Rövşən Bayramov və Vitali Rəhimovla təyyarədə görüşüb söhbət etmişdir.*

**İ l h a m Ə l i y e v:** Böyük qələbə münasibətilə sizi təbrik edirəm. Bir qızıl, iki gümüş medal qazandınız. Şəxsi mübarizədə uğur qazanmaq böyük bir nailiyyətdir. Böyük qələbə qazanmısınız, bütün Azərbaycan xalqını sevindirmisiniz. Görüşlər çox gərgin keçibdir və siz bu gərgin mübarizədə Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmısınız. Hamınız gəncsiniz, sizin hələ böyük gələcəyiniz var. Bu sizin idman karyeranızda ən böyük nailiyyətdir. Olimpiya oyunları ən böyük idman yarışıdır. Bütün dünya bu oyunlara hazırlaşır. Mən görürəm ki, Azərbaycan bütün başqa ölkələr arasında ən qabaqcıl yerlərdədir. 14-cü yerdədir. İdmançılarımız bundan sonra da yarışacaq, biz yeni-yeni qələbələr gözləyirik. Əlbəttə, Rövşənlə Vitali qızıl medal qazanmaq

istəyirdilər, bu təbiidir və deyə bilərəm ki, buna yaxın idilər. Ancaq gümüş medal da böyük nailiyyətdir. Bundan sonra da bütün yarışlarda belə davam etmək lazımdır.

Yenə də deyirəm ki, siz gəncsiniz, böyük idman gələcəyiniz var və Azərbaycanın idman şöhrətini həmişə yüksəklərdə saxlamaq üçün böyük işlər görəcəksiniz. Elnur, ümumiyyətlə, nadir bir nəticə göstərdi. Mən dedim ki, araşdırsınlar, Olimpiya oyunlarının tarixində belə bir hal olubmu ki, bütün beş görüş təmiz qələbə, ipponla nəticələnsin?! Belə hadisə olmayıbdır.

**E l n u r M ə m m ə d l i:** Bəli, cənab Prezident! Finalda cənubi koreyalı idmançını, özünüz bildiyiniz kimi, 13 saniyəyə!

**İ l h a m Ə l i y e v:** Mənə demişdilər, o koreyalı idmançı daha əvvəl dünya çempionatında hakimlərin düzgün olmayan hərəkətləri nəticəsində qızıl medal qazanmışdı.

Bundan sonra da dünya çempionatları, Olimpiya oyunları olacaqdır. Sizin nümunəniz bütün başqa gənc idmançıları da ruhlandırır. Siz onlar üçün nümunəsiniz! Həm idmanda, həm də həyatda bütün idmançılar üçün nümunə olmalısınız. Bu, böyük şərəfdir, böyük xoşbəxtlikdir. Amma eyni zamanda, böyük məsuliyyətdir. Sizin adınız Azərbaycanın nəinki idman tarixinə, ümumən müstəqil Azərbaycanın tarixinə yazılmışdır və gələcəkdə öz fəaliyyətinizdə həmişə bunu nəzərdə saxlamalısınız. Siz gənc idmançılar, cavanlar, uşaqlar üçün nümunəsiniz.

* * *

*Olimpiya çempionu Elnur Məmmədli, gümüş medalçılar Rövşən Bayramov və Vitali Rəhimov idmançılara göstərilən dövlət qayğısına görə prezident İlham Əliyevə təşəkkür etdilər. Bildirdilər ki, dövlət başçısının yarışları şəxsən izləməsi onlara qələbə qazanmaqda əlavə güc vermişdir. Olimpiyaçılarımız*

*Azərbaycanın idman şərəfini bundan sonra da ləyaqətlə qoruyacaqlarını bildirdilər.*

*Prezident İlham Əliyev bir daha idmançıları təbrik etdi, uğurlar arzuladı.*

* * *

*Heydər Əliyev Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, habelə dövlətimizin başçısı ilə vətənə qayıtmış olimpiyaçılarımızı idmançıların ailə üzvləri, paytaxt sakinləri, idmansevərlər hərarətlə, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva olimpiya çempionu Elnur Məmmədlinin, gümüş medalçılar Rövşən Bayramov və Vitali Rəhimovun ailə üzvləri ilə görüşdülər, onları övladlarının qələbəsi münasibətilə təbrik etdilər.*

*Azərbaycan prezidenti və xanımı Pekin Olimpiadasında ölkəmizə ilk medalları qazandırmış idmançılar və onların ailə üzvləri ilə xatirə şəkli çəkdirdilər.*

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harrisi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Amerika Birləşmiş Ştatları münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı və bu əlaqələrin daha da genişləndirilməsi işində ABŞ-da yaşayan yəhudi icmasının rolu qeyd olundu, həmçinin bildirildi ki, Azərbaycanda yaşayan yəhudi icmasının azad fəaliyyəti üçün ölkəmizdə bütün imkanlar var.*

## KOMMUNAL TƏYİNATLI YENİ TEXNİKA VƏ AVADANLIQLA TANIŞLIQ

*18 avqust 2008-ci il*

*Avqustun 18-də Bakının Azadlıq meydanında ölkəmizin mənzil-kommunal təsərrüfatının maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə respublikaya gətirilmiş kommunal təyinatlı yeni texnikalar nümayiş etdirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev yeni texnika və avadanlıqla tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verdi ki, prezidentin «Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında» 2008-ci il 6 avqust tarixli Sərəncamına uyğun olaraq, paytaxtda kommunal xidmətlərin yaxşılaşdırılması, məişət tullantılarının yığılması, daşınması, yerləşdirilməsi və zərərsizləşdirilməsi sahəsində işlərə başlanılmışdır. Ölkəmizdə fəaliyyət göstərən «İmprotex», «Franklin», «Aqrointer» və «Avtoaz» şirkətləri tərəfindən 274 ədəd texnika, məişət tullantıları üçün 511 ədəd konteyner alınıb paytaxta gətirilmişdir.*

*Prezident İlham Əliyev müasir tələblərə cavab verən kommunal təyinatlı avtomobillər və onların texniki xüsusiyyətləri ilə tanış oldu.*

*Məlumat verildi ki, Almaniya istehsalı olan «Faun Rotopress–522» tullantıdaşıyan maşının bunkerinin həcmi 22 kubmetr olsa da, preslənmiş formada 80 kubmetr yük götürə bilir. Sürücü kabinəsindən asanlıqla idarə olunan avadanlıq məişət tullantılarını doğrayıb presləməyə imkan verir. Silindrik formaya malik bunkerin qapağı bağlanır ki, bu da tullantının qoxusunun ətrafa yayılmasının qarşısını alır. Avto-*

*mobilin dönmə radiusu 7,2 metrdir və bu, şəhər şəraitində onun manevrliliyini artırır.*

*Fransa istehsalı olan «Bobcat–T40140» avtomobilinin yükgötürmə qabiliyyəti 4 ton, qaldırma hündürlüyü isə 14 metrdir. Bu texnikaya üstünlük verən onun 50-dən çox üst qurğusunun olmasıdır. Avtomobilin kabinəsi soyutma sistemi ilə təchiz olunmuşdur.*

*Yaponiya istehsalı olan və şəhərin dar küçələrində işləmək üçün nəzərdə tutulan «İsuzu» avtomobili isə 5–15 kubmetr həcmində preslənmiş tullantı daşıya bilir. Rusiyadan gətirilmiş «KO–440» tullantıdaşıyan maşını 48 kubmetr həcmində tullantı götürür. «Kamaz–43255» avtomaşınının isə yükgötürmə qabiliyyəti 7 tondur. Yollara su səpmək üçün nəzərdə tutulan «Kamaz–43253» markalı avtomobil 8 ton su götürür.*

*Bildirildi ki, Bakı şəhərində məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi yüksək səviyyədə həyata keçiriləcəkdir.*

*Prezident İlham Əliyev «Faun Rotopress–522», «Bobcat–T40140», «İsuzu», «Kamaz–43255», «Kamaz–43253», «KO–440» markalı avtomobillərin tez bir vaxtda alınıb gətirilməsini yüksək qiymətləndirdi, məişət tullantılarının daşınmasında vahid sistemin yaradılmasının zəruriliyini bildirdi. Dövlət başçısı müvafiq tövsiyə və tapşırıqlarını verərək vurğuladı ki, yeni texnikalar xarici görünüşü ilə də seçilir və müasir standartlara cavab verir.*

*Xatırladaq ki, son illər Azərbaycan prezidenti İlham Əliyevin bilavasitə tapşırığı və göstərişi əsasında Bakı şəhərində, bölgələrdə irimiqyaslı abadlıq və quruculuq işləri aparılır. Görülən işlər paytaxtın simasını günbəgün dəyişir, Bakı dünyanın ən gözəl şəhərləri sırasına daxil olur. Bunu Azərbaycana gələn çoxsaylı xarici qonaqlar da xüsusi vurğulayırlar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNİSEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ XANIM HANA SİNGERİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*18 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də YUNİSEF-in Azərbaycandakı nümayəndəsi xanım Hana Singeri ölkəmizdə fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Xanım Hana Singer YUNİSEF ilə Azərbaycan arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. O, ölkəmizdəki fəaliyyəti dövründə ona göstərilən yüksək diqqətə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanla YUNİSEF arasında əlaqələrin daim genişlənməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkəmizdə fəaliyyəti müddətində xanım Hana Singerin Azərbaycan–YUNİSEF əlaqələrinin daha da inkişaf etdirilməsinə töhfə verdiyini vurğuladı və bu əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN ÖLKƏMİZDƏKİ SƏFİRİ YUSİF ƏHMƏD İBRAHİM ƏL-ŞARKAVİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*19 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Misirin ölkəmizdəki səfiri Yusif Əhməd İbrahim əl-Şarkavini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Səfir Misir–Azərbaycan münasibətlərinin son illər uğurla inkişaf etdiyini vurğulayaraq, ölkəmizdəki fəaliyyəti müddətində göstərilən diqqətə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Misirə yüksək səviyyəli səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğunu dedi. Prezident İlham Əliyev səfirin diplomatik fəaliyyəti dövründə qarşılıqlı əlaqələrin daha da möhkəmləndiyini və onun münasibətlərin inkişaf etdirilməsinə töhfə verdiyini vurğuladı. Dövlətimizin başçısı iki ölkənin əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.*

## ALMANİYANIN «THYSSEN KRUPP» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ EKKERHARD ŞULTSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Almaniyanın dünya şöhrətli «Thyssen Krupp» şirkətinin idarə heyətinin sədri Ekkerhard Şultsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cənab Ekkerhard Şults rəhbərlik etdiyi şirkətin Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə böyük maraq göstərdiyini bildirdi.*

*Görüşdə şirkətin Azərbaycanda gələcək fəaliyyətinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ RƏHBƏRİ LARS TUNELLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri Lars Tunellin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Lars Tunell 1995-ci ildən rəhbərlik etdiyi qurumun Azərbaycanla uğurlu əməkdaşlığından məmnunluğunu bildirdi. Qonaq son illər Azərbaycanın iqtisadi artım, biznes mühitinin və özəl sektorun inkişafı istiqamətində əldə etdiyi nailiyyətləri yüksək dəyərləndirdi.*

*Görüşdə Azərbaycanla Beynəlxalq Maliyyə Korporasiyası arasında əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə edildi.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da bp şirkətinin icraçı vitse-prezidenti Endi İnqlisi qəbul etmişdir.*

*Cənab İnqlis son günlər bölgədə böhranlı vəziyyətə baxmayaraq, bp ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında zərərlərin minimuma endirilməsi istiqamətində dənizdə hasilatla bağlı əməkdaşlığın uğurla davam etdirildiyini vurğuladı. O, Azərbaycanda qış mövsümü üçün qaz ehtiyatının təmin olunmasının da önəmli hal olduğunu bildirdi.*

*Dövlətimizin başçısı dedi ki, bütün bunlar hətta böhranlı vəziyyətlərdə belə, Azərbaycanla bp arasında uğurlu əməkdaşlığın həyata keçirilməsinin mümkünlüyünü göstərir. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bp ilə əməkdaşlığın bundan sonra da genişləndirilməsi planlaşdırılan layihələrin həyata keçirilməsi üçün yaxşı zəmin yaradacaqdır.*

## QEYDLƏR

**1. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 61,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 5,19,20,32.

**2. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 78,4 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 6,38,76,185.

**3. Norveç,** Norveç Krallığı – Şimali Avropada dövlət. Sahəsi 323,8 min $km^2$, əhalisi 5,0 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı – Stortinq – parlamentdir. Paytaxtı Oslodur. – 7.

**4. «İntel»** –geniş miqyasda elektron qurğuları, kompyuter komponentləri, məntiqi sistem (çipsetlər) komplektləri istehsal edən Amerika korporasiyası. Əsası 1968-ci ildə Santa-Klarada (ABŞ) qoyulmuşdur. İllik gəliri 18,76 milyard ABŞ dollarıdır. İşçilərinin sayı 106,7 min nəfərdir. – 8.

**5. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,1 milyon km$^2$, əhalisi 146, 3 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 9,10,12–17,18,73,93–94,144–161,185,308.

**6. Dmitri Medvedev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, Rusiya Federasiyasının 2008–2012-ci illərdə prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 9,13,15,144–161.

**7. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 10.

**8. Portuqaliya,** P o r t u q a l i y a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 11.

**9. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliya siyasi xadimi. 2006-cı ildən Portuqaliya prezidentidir. 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 11.

**10. Sankt-Peterburq** – əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya

Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzlərindən biridir. – 12–17,146,154.

**11. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 12,17,122,139,144,165, 169,220.

**12. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 12,17,122,139,165,169,220.

**13. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 12,17,122,139,220,307.

**14. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 12–17,181,184,263,271.

**15. Yalta** – Ukraynada kurort-şəhər, Qara dəniz sahilində liman. – 14.

**16. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200,0 min km$^2$, əhalisi 6,0 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 14,25,286.

**17. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 14,25,286.

**18. Sergey Lebedev** (d.1948) – Rusiya dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 15.

**19. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 16,68,95,152,247, 270.

**20. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 16,67,68,69,91, 95,108,112,134,141,152,154,162,174,175,176,177,269.

**21. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr –

Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 16,95, 152,162,269.

**22. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 16, 150.

**23. Mətyu Brayzə** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi, sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 17,95.

**24. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 17, 95.

**25. Sergey Şoyqu** (d.1955) – Rusiya dövlət xadimi, ordu generalı. 1994–2012-ci illərdə Rusiya Federasiyasında Mülki Müdafiə və Fövqəladə Hallar naziri olmuşdur. 2012-ci ildən Rusiya Federasiyasının Müdafiə naziridir. Rusiya Federasiyası Qəhrəmanı ordeni ilə təltif edilmişdir. – 18.

**26. Qordon Braun** (d.1951) – Böyük Britaniya siyasətçisi, leyborist. 2007–2010-cu illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 19.

**27. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 20.

**28. İslandiya,** İ s l a n d i y a R e s p u b l i k a s ı – Atlantik okeanın şimalında, İslandiya adalarında dövlət. Sahəsi 103 min km$^2$, əhalisi 322 min nəfərdir. İnzibati ərazisi 23 rayonu (sisla) olan 8 mahala bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (altinq). Paytaxtı Reykyavikdir. – 21.

**29. Olafur Raqnar Qrimsson** (d.1943) – 1996-cı ildən indiyə qədər İslandiyanın prezidenti. Politologiya elmləri doktoru. –21.

**30. İsa Hüseynov,** İ s a M u s t a f a o ğ l u (1928–2014) – Azərbaycanın Xalq yazıçısı. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuşdur. Onlarla povest və romanlar müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 24.

**31. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur.

Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 24.

**32. İmadəddin Nəsimi,** əsl adı S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 24.

**33. Çingiz Aytmatov,** Ç i n g i z T o r e k u l o v i ç (d.1928–2008) – görkəmli qırğız yazıçısı. Qırğızıstan Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976–1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusu olmuşdur. – 25,26.

**34. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin

milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27,121,158,160,161,200,201,248, 289, 290,291,297,305.

**35. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 27,68, 183,270.

**36. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-

ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 27.

**37. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 27,44,161,248.

**38. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 27,161,248.

**39. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 27,161,236, 248.

**40. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində

çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 28,68,180,181,216,270.

**41. Valter Şvimmer** (d.1942) – tanınmış Avstriya dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999–2004-cü illərdə isə Avropa Şurasının Baş katibi olmuşdur. – 28.

**42. Sudan,** S u d a n R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 40,2 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. – 29.

**43. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudan hərbi və dövlət xadimi, prezident. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 29.

**44. Xartum –** Sudanın paytaxtı (1956-cı ildən) – Ağ Nil və Mavi Nil çaylarının qovşağında yerləşir. Əhalisi 924,5 min nəfərdir. Ölkənin mühüm sənaye, ticarət-nəqliyyat mərkəzidir. Əsası 1820-ci ildə qoyulmuşdur. – 29.

**45. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 77,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 30,36,79, 169,220–238,239,240,259,260,279,282.

**46. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qo-

şulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin prezidenti seçildi. – 30,223,224,240,260.

**47. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuşdur. – 30,169,221,223,224,226,231–233,238,239,259.

**48. İslam İnkişaf Bankı** (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası 1991-ci ildən İslam İnkişaf Bankının üzvüdür. – 31.

**49. Belçika,** Belçika Krallığı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 33,196.

**50. Jan-Lük Dehane** (1940–2014) – Belçika dövlət və siyasi xadimi. (Belçikanın sabiq Baş naziri). 2004–2009-cu illərdə Avropa Parlamentinin üzvü olmuşdur. – 33.

**51. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu,

xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda

mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar ya-

ratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu Fəxri adlara layiq görülmüşdür. – 33,40,61,62,84,86,88,140,159,161,184,185, 188,192,199,203,204,210,214,225,234,257.

**52. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9 519,4 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 34, 75,79,96,123,131, 215, 306.

**53. Con Hopkins Universiteti** – ABŞ-ın Baltimor şəhərində (Merilend ştatı) əsası Con Hopkins tərəfindən qoyulmuş özəl tədqiqat universiteti. Nankində (Çin), Boloniyada (İtaliya) filialları var. Universitetin əsası 1876-cı ildə qoyulmuşdur və yaradılmasından 140 il keçməsinə baxmayaraq, dünyada ən qabaqcıl yerlərdən birini tutur. Universitetin elmi-tədqiqat işlərinə görə 34 Nobel mükafatçısı var. Universitetdə 150 dövlətdən 71 millətin nümayəndəsi olan 4400 tələbə təhsil alır. Burada görkəmli professor-müəllim heyəti tələbələrə incəsənət və musiqinin, humanitar, ictimai və təbiət elmlərinin, beynəlxalq tədqiqatların, təhsilin, biznesin və tibbin öyrənilməsində kömək edirlər. – 34.

**54. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,2 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 35, 54,162.

**55. Jan-Lui Dümon** (1911–1998) – fransız antropoloqu, sosioloqu, hindşünası. Fransa–Azərbaycan Dostluq qrupunun sədri olmuşdur. – 35.

**56. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti,** M ə c l i s i - M ə b u s a n – Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəli ali qanunvericilik orqanı. 1918-ci ilin dekabrından 1920-ci ilin aprelinədək fəaliyyət göstərmişdir. İlk iclası 1918-ci il dekabrın 7-də, sonuncu iclası 1920-ci il aprelin 27-də keçirilmişdir. Şimali Azərbaycanın sovet qoşunları tərəfindən işğalı nəticəsində fəaliyyətini dayandırmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti olduqca çətin tarixi şəraitdə fəaliyyətə başlamışdı. Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən erməni və rus milli Şuraları Azərbaycan parlamentinin açılışına hər vəchlə mane olmağa çalışırdılar. Nəhayət, dekabrın 7-də müsəlman Şərqində ilk parlamentin birinci iclası keçirildi. İclasda ilk təbrik nitqini Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə söylədi. Parlamentin ilk iclasında Əlimərdan bəy Topçubaşov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, Həsən bəy Ağayev isə sədrin birinci müavini seçildilər. – 36,60–70.

**57. Türkiyə Böyük Millət Məclisi** (TBMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. – 36.

**58. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 38.

**59. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. Paytaxtı ər-Riyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 39.

**60. Elmira Süleymanova** (d.1937) – kimya elmləri doktoru, professor. 1967-ci ildən Azərbaycan Respublikası MEA-nın kimya elmləri bölməsinin elmi katibi, 1982-ci ildən Neft-kimya Prosesləri İnstitutunda laboratoriya müdiri, 1990-cı ildən Azərbaycan Qadınlar Cəmiyyətinin sədr müavini, 1995-ci ildə isə Qadın və İnkişaf Mərkəzinin sədri olmuşdur. Hazırda Azərbaycan Respublikasının ombudsmanıdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 46.

**61. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,5 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 46,50,123,129,130,135.

**62. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 48.

**63. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. –48.

**64. Sergey Sidorski** (d.1954) – Belarus dövlət xadimi. 2003–2010-cu illərdə Belarusda Baş nazir olmuşdur. – 48.

**65. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 17,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 49,165–169,192,222,232.

**66. Qasım Comərd Tokayev** (d.1953) – Qazaxıstan dövlət xadimi, diplomat. 1999–2002-ci illərdə Qazaxıstanın Baş naziri, 2002–2003-cü illərdə Qazaxıstan Respublikasının Xarici İşlər naziri və Dövlət katibi olmuşdur.

2007-ci ildə Parlament Senatının sədri, 2011-ci ilin martından BMT Baş katibinin müavini və BMT-nin Cenevrə şöbəsinin direktorudur. – 49.

**67. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. – 49,166–167,232.

**68. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı– Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 51,123.

**69. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 52,111,112,122–139,185,220–238,279.

**70. David Bakradze** (d.1972) – Gürcüstan dövlət və siyasi xadimi. 2008–2012-ci illərdə Gürcüstan parlamentinin sədri olmuşdur. – 52.

**71. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 53, 123,125,287.

**72. Marian Lupu** (d.1966) – Moldova siyasi xadimi. 2005–2009, 2010–2013-cü illərdə Moldova Respublikası Parlamentinin sədri olmuşdur. – 53.

**73. Vladimir Voronin** (d.1941) **–** Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova Respublikasının Prezidenti olmuşdur. – 53,287.

**74. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 54.

**75. Cibuti,** C i b u t i R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 23200 km$^2$, əhalisi 818 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibutidir. – 55.

**76. İsmail Qulleh** (d.1947) – 1999-cu ildən Cibuti prezidenti. – 55.

**77. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 56,192.

**78. Mesiç Stepan** (d.1934) – hüquqşünas. 2000–2008-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 56.

**79. Sloveniya,** S l o v e n i y a R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2,0 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyanadır. – 57.

**80. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniyanın prezidenti olmuşdur. –57.

**81. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 550 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburqdur. – 58.

**82. Anri** (d.1955) – 1998-ci ildən Böyük Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 58.

**83. Mozambik,** M o z a m b i k R e s p u b l i k a s ı – Cənub-Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 25,7 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Döv-

lət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Respublika Assambleyasıdır. Paytaxtı Maputudir. – 59.

**84. Gebuza Armandu** (d.1930) – 2005–2015-ci illərdə Mozambikin prezidenti. 2002-ci ildən FRELİMO Partiyasının Baş katibi. – 59.

**85. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batumi neft kəməri bərpa edildi. – 60–70,87,140.

**86. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar So-

vet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min km$^2$, əhalisi 435,3 min nəfərdir. Hazırda 7 inzibati rayonu ( Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 61,257,272.

**87. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 65,188.

**88. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 68,92,174,270.

**89. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 68,178.

**90. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı

(10 oktyabr 1997-ci il). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 68,111,112,122–139,164,184.

**91. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 199 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 71, 190,191,245.

**92. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,2 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 72,192.

**93. Qurbanqulu Berdiməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 72.

**94. Svetlana Orlova** (d.1954) – iqtisad elmləri namizədi. Rusiya Federasiyası Şurasının sədr müavini (2001–2013). – 73.

**95. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 6,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 74,168.

**96. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. – 74,168.

**97. Estoniya,** Estoniya Respublikası – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 77.

**98. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 35,7 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 78.

**99. Filippin,** F i l i p p i n R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. – 81.

**100. Qloriya Makapaqal Arroyo** (d.1947) – 2001–2010-cu illərdə Filippin prezidenti. Ölkə tarixində ilk qadın vitse-prezident olmuşdur. Keçmiş prezident Diosdado Makapaqalın qızı. İqtisad elmləri doktoru. – 81.

**101. Küveyt,** K ü v e y t d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 82.

**102. Cabir əl-Sabah** (d.1930) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 82.

**103. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7,2 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 83.

**104. «Alov» zavodu** – Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi tabeliyində zavod, 2008-ci ildən fəaliyyət göstərir. – 84.

**105. Yavər Camalov** (d.1949) – mühəndis. «Azneft» İstehsalat Birliyinin Baş direktoru olmuşdur. Hazırda Müdafiə Sənayesi naziridir. – 84.

**106. Tərtər –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1949–91-ci illərdə adı Mirbəşir olmuşdur. Sahəsi 957 $km^2$, əhalisi 101 min nəfərdir. – 88.

**107. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 191,7 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. –88, 272.

**108. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 123, 3 min nəfərdir. – 88,272.

**109. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min $km^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan

Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 88,185,237,272.

**110. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 93–94.

**111. Muxu Əliyev** (d.1940) – Rusiya dövlət xadimi. 1995–2006-cı illərdə Dağıstan Respublikası Milli Məclisinin sədri, 2006–2010-cu illərdə isə prezidenti olmuşdur. – 93–94.

**112. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 97,184.

**113. Robert Simmons** – Amerika siyasətçisi. 2004-cü ildən NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsidir. Pobert Simmons həmçinin Rusiya–NATO və Ukrayna –NATO-nun başqa təşkilatlarla cərəyan edən münasibətlərə, inteqrasiyaya, partnyorluğa cavabdehdir. – 97.

**114. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 42,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Radadır. – 100–121,123,124,125,134,241, 288.

**115. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 100–121,123,124,125,134,241,288.

**116. Yaqub Eyyubov,** Yaqub Abdulla oğlu (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir. – 100.

**117. Kiyev şəhəri** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX–XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elm mərkəzidir. – 102,105,109.

**118. Taras Şevçenko,** Taras Qriqoryeviç (1814–1861) – Ukrayna şairi, rəssam, mütəfəkkir, inqilabçı-demokrat. Ukrayna ədəbiyyatı və təsviri sənətində tənqidi realizmin və inqilabi-demokratik cərəyanın banisi. Ukrayna ədəbiyyatının inkişafında Şevçenkonun müstəsna xidməti olmuşdur.

Şevçenko rəssam kimi də məşhurdur. 1860-cı ildə mis üzərində qravüralarına görə akademik adına layiq görülmüşdür. – 102,103,105,107,108,114–118,121.

**119. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qoru-

maq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. –106,108,112,188.

**120. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 107,109,162,183,185,186,256.

**121. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun 5 fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman-alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir, 3 min tələbə təhsil alır. – 107,115.

**122. Kamal Abdulla,** Kamal Mehdi oğlu Abdullayev (d.1950) – Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Azərbaycan Yaradıcılıq Fondunun sədri, Bakı Slavyan Universitetinin rektoru (2000–2014), Azərbaycan Yazıçılar Birliyinin üzvü. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 121.

**123. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri, Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. Hazırda Odessa şəhərinin qubernatorudur. – 122–139,223,224–225,226,227,232, 233,238.

**124. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının Prezidenti. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. –123,129,130,135.

**125. Litva,** Litva Respublikası – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,9 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 123,135,296.

**126. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının Prezidenti olmuşdur. – 123,135.

**127. Çexiya,** Çexiya Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət baş-

çısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 123,164.

**128. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 123.

**128. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. – 124,126,220–233,236,238,272.

**129. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 133,174,279,313.

**130. Valeri Çeçelaşvili** (d.1961) – 2000-ci ildən Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi. 1998–2000-ci illərdə Gürcüstan Xarici İşlər nazirinin müavini vəzifəsində çalışmışdır. – 139.

**131. Avropa Şurası Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 143,181.

**132. Aydın Əliyev,** A y d ı n Ə l i o ğ l u (d.1957)– hüquqşünas, gömrük xidməti general-leytenantı. 2006-cı ildən

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri. – 149.

**133. Ramil Usubov,** Ramil İdris oğlu (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 150.

**134. Rəşid Nurqaliyev** (d.1956) – Rusiya dövlət xadimi, ordu generalı. 2004–2012-ci illərdə Rusiya Federasiyasında Daxili İşlər naziri olmuşdur. 2012-ci ildən Rusiya Təhlükəsizlik Şurası katibinin müavinidir. – 150.

**135. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 150.

**136. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 4 ixtisas üzrə 263 tələbə təhsil alır. Tədrisdə Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 157,160.

**137. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. 1993–95, 2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 162.

**138. Bastiliyanın alınması** – Parisdə qala. 1370–82-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın

alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur. – 162.

**139. Monqolustan,** M o n q o l u s t a n R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Batordur. – 163.

**140. Nambarın Enxbayar** (d.1958) – Monqolustan dövlət və siyasi xadimi. 2005–2009-cu illərdə Monqolustanın prezidenti olmuşdur. – 163.

**141. Astana** (1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selinoqrad, 1992–98-ci illərdə Akmola) – Qazaxıstan Respublikasının paytaxtı. – 165–169.

**142. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 170.

**143. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 184.

**144. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzala-

mışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 184,220,228,229,230,232.

**145. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 184.

**146. Bakı–Novorossiysk neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası Hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 184.

**147. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). – 184, 228,229,230,232.

**148. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 km$^2$, əhalisi 102,6 min nəfərdir. – 185.

**149. Pərviz Müşərrəf** (d.1943) – 2001–2008-ci illərdə Pakistan Respublikasının Prezidenti, ordu generalı. 1988–90 və

1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 190,191,245.

**150. Aydın Bəşirov,** A y d ı n  A ğ a m a l ı  o ğ l u (d.1947) – Gəmi sürücülüyü üzrə mühəndis. 1994–2013-cü illərdə Azərbaycan Respublikası Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin rəisi olmuşdur. – 192.

**151. Türkmənbaşı** – Türkmənistanda Xəzər dənizi sahilində port-şəhər. Əsası 1869-cu ildə qoyulmuşdur. 1933-cü ildə adı Qızılsu, 1993-cü ilə qədər isə Krasnovodsk olmuşdur. – 192.

**152. Aktau** (1964–91-ci illərdə Şevçenko) – Qazaxıstanın qərbində şəhər. Manqışlaq vilayətinin mərkəzi. Əhalisi 153,1 min nəfərdir. Xəzər dənizində port, neft-qaz hasilatı rayonunun mərkəzi. – 192.

**153. Ziya Məmmədov,** Z i y a  A r z u m a n  o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmiryol rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 194.

**154. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 196.

**155. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 85,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 197.

**156. Hüsnü Mübarək,** S e y i d  M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 197,310.

**157. Kolumbiya,** K o l u m b i y a R e s p u b l i k a s ı – Cənubi Amerikanın şimal-qərbində dövlət. Sahəsi 1142 min km², əhalisi 48,4 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 198.

**158. Alvaro Uribe Veles** (d.1952) – 2002–2009-cu illərdə Kolumbiyanın prezidenti olmuşdur. – 198.

**159. Bibiheybət ziyarətgahı** – Bakının Şıx ərazisində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi-Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə məscid yenidən tikilmişdir. – 199–207.

**160. İmam Museyi-Kazım** – şiə məzhəbinə etiqad edənlərin yeddinci (744–799) imamı.– 199.

**161. Həzrəti Hökumə,** H ə k i m ə – imam Rzanın bacısı. VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir. – 199.

**162. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 199,203.

**163. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 200.

**164. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın kiçik qızı. Ulu öndər Heydər Əliyevin nəvəsi. Film prodüseri. Böyük Britaniyada və İsveçrədə ali təhsil almışdır. – 200.

**165. Qurani-Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 201.

**166. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h- ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 200.

**167. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin Baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin

böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarluq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 208.

**168. Fərhad Abdullayev**, Fərhad Sahib oğlu (d.1958) – hüquqşünas, hüquq elmləri namizədi. 2003-cü ildən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədridir. Əməkdar hüquqşünas və Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvüdür. – 214.

**169. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 217.

**170. Paskal Kuşpen** (d.1942) – İsveçrə dövlət xadimi. 2003–2008-ci illərdə İsveçrə prezidenti olmuşdur. – 217.

**171. Mərakeş,** Mərakeş Krallığı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 32,6 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabatdır. – 218.

**172. VI Məhəmməd,** bin əl-Həsən (d.1963) – 1999-cu ildən Mərakeş kralı. Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sülaləsindən 18-ci kraldır. – 218.

**173. Maldiv,** Maldiv Respublikası – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km$^2$, əhalisi 341 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və höku-

mət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. – 219.

**174. Məmun Əbdül Qəyyum** (d.1937) – 1978–2008-ci illərdə Maldiv Respublikasının Prezidenti. Diktator üsul-idarəsinə görə həmişə tənqid edilmişdir. – 219.

**175. Qars** – Cənub–Şərqi Türkiyədə şəhər. Qars ilinin inzibati mərkəzi. Əhalisi 77 min nəfərdir. – 220–238.

**176. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,373 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 226,248–255,289–305.

**177. Qars müqaviləsi** (1921) – Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə hökuməti arasında sovet Rusiyasının iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sənədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir». Qars müqaviləsi beynəlxalq müqavilə kimi, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-in təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla onun taleyinin qarantı kimi gündəliyə gəlir. – 235.

**178. Qars Qafqaz Universiteti** – Türkiyədə elmi-tədqiqat universiteti. Mərkəzi Qars şəhərindədir. 1992-ci ildə yaradıl-

mışdır. Universitetin 7 fakültəsi, 7 peşə məktəbi, 1 dövlət konservatoriyası, 6 araşdırma mərkəzi olmaqla, 26 elmi müəssisəsi, 468 professor və müəllim heyəti və 12 min tələbəsi vardır. – 236–237.

**179. «Ümid körpüsü»,** H ə s r ə t  k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (*Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri*) iki qardaş ölkəni birləşdirir. XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan MR-in keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 237.

**180. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 5343 $km^2$, əhalisi 14 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 667-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızım 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Osmanlı imperiyası Konstantinopolu tutmuş və İstanbul adlandırmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 239,240.

**181. Əfqanıstan,** Ə f q a n ı s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 242.

**182. Həmid Kərzai** (d.1957) – 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 242.

**183. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1919,4 min km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – .243.

**184. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziyanın prezidenti olmuşdur. – 243.

**185. Sinqapur,** Sinqapur Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 km$^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapurdur. – 244.

**186. Sellapan Rama Natan** (d.1924) – 1999–2011-ci illərdə Sinqapurun prezidenti olmuşdur. – 244.

**187. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 şəhərə və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 246.

**188. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 246.

**189. Heyki Talvitiye** (d.1939)–2003–2006-cı illərdə Avropa Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olmuşdur. – 247.

**190. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin

düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 16,8 min km$^2$, əhalisi 21,7 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə. ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 248–255, 289–305.

**191. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiya şəhərində e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növləri daxil edilə bilər. – 248.

**192. Azad Rəhimov,** A z a d  A r i f  o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 248,294.

**193. Piter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə P.Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 256.

**194. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə par-

tiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 257–258,283.

**195. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 257.

**196. Mahmud Kərimov,** Mahmud Kərim oğlu (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. İlk dəfə olaraq yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektrik və molekulyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 257.

**197. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin

dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 257.

**198. Naxçıvan Dövlət Universiteti,** Yusif Məmmədəliyev adına (NDU) – ali təhsil məktəbi. Naxçıvan MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq şöbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. – 257.

**199. Memarlıq və İnşaat Universiteti** – Azərbaycan Memarlıq və İnşaat Universiteti müxtəlif profilli (memarlıq və inşaat istiqamətləri üzrə) inşaat mühəndisləri hazırlayan ali məktəbdir. Bakıdadır. 1975-ci ildə Ç.İldırım adına Politexnik İnstitutunun əsasında Azərbaycan İnşaat Mühəndisləri Universiteti (1992), Azərbaycan Memarlıq və İnşaat Universiteti (2000) adlanmışdır. Universitetdə 7 fakültə (memarlıq, inşaat, su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, nəqliyyat, inşaat-texnologiya, tikinti-iqtisad, mexanikləşdirmə və avtomatlaşdırma), 2 hazırlıq fakültəsi, 46 kafedra, 5 elmi tədqiqat laboratoriyası, kitabxanası var. – 257.

**200. Sudeyf İmamverdiyev,** Sudeyf Bəşir oğlu (d.1938) – uroloq, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin urologiya kafedrasının müdiridir. Südeyf İmamverdiyev urologiyanın müxtəlif problemlərinə həsr olunmuş 280-dən çox elmi məqalənin, 8 monoqrafiyanın, 5 dərs vəsaitinin, 1 dərsliyin, 13 səmərələşdirici təklifin və ixtiranın müəllifidir. 2000–2005-ci illərdə Milli Məclisin deputatı ol-

muşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 257.

**201. Nepal,** N e p a l K r a l l ı ğ ı – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min km², əhalisi 30 milyondan çoxdur. İnzibati cəhətdən 14 zonaya bölünür. Paytaxtı Katmandudur. – 261.

**202. Ram Baran Yadav** (d.1948) – 2008–2015-ci illərdə Nepal respublika elan edildikdən sonra Nepalın birinci prezidenti olmuşdur. – 261.

**203. Davos iqtisadi forumu,** D ü n y a i q t i s a d i f o r u m u – İsveçrənin kurort şəhəri. Davosda hər il Ümumdünya iqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu forumda ilk dəfə iştirak etmişdir. – 270.

**204. Lerik** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 km², əhalisi 79,7 min nəfərdir. – 271.

**205. Yardımlı** (1938-ci ilədək Vərgədüz rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimaldan, qərbdən və cənub-qərbdən İranla həmsərhəddir. Sahəsi 667 km², əhalisi 62,4 min nəfərdir. – 271.

**206. Ağcabədi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib, ərazisi Ağdam rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1756 km², əhalisi 110,4 min nəfərdir. – 272.

**207. Beyləqan** (1989-cu ilə qədər Jdanov) – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. Ərazisi 1131,1 km², əhalisi 81,7 min nəfərdir. – 272.

**208. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 273.

**209. BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatı** – ərzaq məhsullarının istehsalında və ticarətində beynəlxalq əməkdaşlığı koordinasiya etmək məqsədilə BMT-nin tərkibində yaradılmış orqan. 1975-ci ildən fəaliyyət göstərir. Katibliyi Roma şəhərindədir. – 274.

**210. Azərbaycan İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-in məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 278.

**211. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min $km^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 285.

**212. Hu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007–2013-cü illərdə Ümumçin Xalq Nümayəndələri Məclisinin sədri olmuşdur. – 290,292.

**213. Şanxay** – Çində şəhər – liman. Çinin ən iri sənaye, nəqliyyat və ticarət mərkəzi. Sahəsi 6,2 min $km^2$, əhalisi 24 milyon nəfərdir. Şəhər tarixi memarlıq abidələri ilə zəngindir. – 291.

**214. Fərid Mansurov,** F ə r i d S a l m a n o ğ l u (d.1982) – Yunan-Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiadasında birinci yeri tutmuşdur. 2007, 2008-ci illərdə isə dünya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 292.

**215. Az TV** – Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti. Əsası 1918-ci ildə Gəncədə ilk radiostansiya kimi qoyulmuşdur. 1957-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsi yaradılmışdır.

1991-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi şirkətə çevrilmiş, 2005-ci ildə isə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ləğv edilərək, həmin bazada Az TV QSC yaradılmışdır. – 293.

**216. Lider TV**– Azərbaycanda televiziya kanalı. 2000-ci ildən fəaliyyətə başlamışdır. «Lider TV və Radio Azərbaycan» MMC-nin nəzdində fəaliyyət göstərən telekanalın əsas meyarı özəl, professional və rəngarəng proqramların hazırlanmasıdır. 2001-ci ildən Lider televiziyası dünya teleməkanına daxil olaraq, dünyaya yayımlanmağa başlamışdır. – 293.

**217. Sergey Bubka** (d.1963) – hündürlüyə tullanmaq üzrə SSRİ və Ukrayna, yüngül atletika üzrə olimpiya və altıqat dünya çempionu. Dünyada ilk dəfə 6 metrdən çox tullanan idmançıdır. Hal-hazırda Ukrayna Milli Olimpiya Komitəsinin sədridir. – 300.

**218. Vitali Smirnov** (d.1935) – 2001-ci ildən Rusiya Olimpiya Komitəsinin Fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 300.

**219. Zemfira Meftahəddinova** (d.1963) – stend atıcısı. 1986–88,1990, 1993, 1997-ci illərdə Avropa çempionu, 1995-ci

ildə dünya çempionu, 2000-ci ildə Sidney Olimpiya oyunlarının çempionu, Qahirədə XXI əsrin ilk dünya çempionatında birinci yeri tutmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 300.

**220. Elnur Məmmədli** (d.1986) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin Olimpiya oyunlarında isə 73 kq çəki dərəcəsində olimpiya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 302,303, 304,305.

**221. Rövşən Bayramov,** Rövşən Cənnət oğlu (d.1987) – azərbaycanlı güləşçi. Olimpiya oyunlarının (2008, 2012) gümüş mükafatçısı, Dünya çempionu (2006), 2 qat Avropa çempionu (2007, 2008) olmuşdur. Azərbaycan Respublikasının «Tərəqqi» ordeni ilə təltif edilmişdir. – 303,304,305.

**222. Beynəlxalq Maliyyə Korporasiyası** – özəl investisiya layihələrinə kömək üçün yaradılan beynəlxalq təşkilat. Əsası 1956-cı ildə qoyulmuşdur. – 312.

**223. *bp*,** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 313.

**224. Endryu İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru və *bp*-nin kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 313.

## Şəxsi adlar göstəricisi


**Abbasov Əli** – 271
**II Abdullah** – 74,168
**Abdullayev Kamal** – 121
**Abdullayev Fərhad** – 214
**Abutalıbov Hacıbala** – 12,17,122,139,220,307
**Adamkus Valdas** – 123, 135
**Allahverdiyeva Aygün** – 257
**II Albert** – 196
**Anri** – 58
**Ameri Qoli** – 75
**Armandu Gebuza** – 59
**Arroyo Qloriya** – 81
**Aytmatov Çingiz** – 25,26
**Bağırov Natiq** – 300
**Bakradze David** – 52
**Bakiyev Kurmanbek** – 14,25,286
**Baret Kreyq** – 8
**Bayramov Rövşən** – 303,304,305
**Barbü Monik** – 99
**Belyaninov Andrey** – 149
**Berdiməhəmmədov Qurbanqulu**– 72
**Bəşirov Aydın** – 192
**Boriseviç Boqdan** – 50
**Boyatlı Toqay** – 299
**Braun Qordon** – 19
**Brayzə Mətyu** – 17,95
**Braytman Sara** – 292
**Breyak Arno** – 54
**Bubka Sergey** – 300
**Bukikkio Canni** – 213,216
**Camalov Yavər** – 84

**Cons Diqbi** – 5
**Çapkin Valeri** – 300
**Çeçelaşvili Valeri** – 139
**Çinq Kou Vu** – 299
**De Puç Luis** – 143
**Dehane Jan-Lük** – 33
**Dümon Jan-Lui** – 35
**Dyurcan Ferents** – 170
**II Elizabet** – 20
**Endryu** – 32
**Enxbayar Nambarın** – 163
**Eyyubov Yaqub** – 100
**Əbuturabi Məhəmməd** – 76
**Əhmədinejad Mahmud** – 38
**Əl-Bəşir Əhməd** – 29
**Əl-Masri Tahir** – 74
**Əl-Mədəni İyad** – 39
**Əl-Muktəfi Tuanku** – 285
**Əl-Sabah Cabir** – 82
**Əl-Sabah Nasir** – 82
**Əl-Şarkavi Yusif** – 310
**Ələsgərov Murtuz** – 257
**Əliyev Aydın** – 149
**Əliyev Heydər** – 33,40,61,62,84,86,88,140, 159,161,184,185,188,192, 199,203,204,210,214,225, 234, 257
**Əliyeva Arzu** – 200
**Əliyeva Leyla** – 200
**Əliyeva Mehriban** – 27,121,158,160,161,200, 201, 248,289,290,291,297,305
**Əliyev Muxu** – 93–94
**Ərdoğan Rəcəb Tayyib** – 30,223,224,240,260
**Əttar Əlirza** – 6
**Fasye Bernar** – 95
**Feldhoff Yulrix** – 300

**Fəttah Pərviz** – 38
**Gəncəvi Nizami** – 24
**Gillani Yusif** – 190
**Gül Abdullah** – 30,169,221,223,224,226, 231–233,238,239,259
**Harris Deyvid** – 306
**Həsənov Kərəm** – 149
**Həşimli Hüseyn** – 257
**Hökumə xanım** – 199
**Hu Szintao** – 290,292
**Hüseynov İsa** – 24
**Xəlilov Anar** – 257
**İhsanoğlu Ekmələddin** – 27
**İmamverdiyev Sudeyf** – 257
**İnqlis Endryu** – 313
**Kaçinski Lex** – 123,129,130,135
**Katulin Georgi** – 300
**Kərimov Mahmud** – 257
**Kərzai Həmid** – 242
**Koxonovski Yanuş** – 46
**Kramer Devid** – 96
**Kurtinaytis Rimas** – 296
**Kuşpen Paskal** – 217
**Qəyyum Məmun** – 219
**Qrimsson Olafur** – 21
**Qreçanik İqor** – 118
**Qrey Boyden** – 215
**Qulleh İsmail** – 55
**Lavrov Sergey** – 150
**Lazarev Sergey** – 44
**Lebedev Sergey** – 15
**Li Men Bak** – 246
**Li Nin** – 293
**Linq Helge** – 7
**Lukaşenko Aleksandr** – 48
**Lupu Marian** – 53

**Lyu Huan** – 292
**Lyu Si** – 292
**Martinetti Rafael** – 98, 299
**Medvedev Dmitri** – 99,13,15,144–161
**Meftahəddinova Zemfira** – 300
**Mehdiyev Ramiz** – 12,17,122,139,165,169,220
**Mejinski Valentin** – 123
**Nurevski Pyotr** – 300
**Merzlyakov Yuri** – 17,95
**Merkel Devid** – 123, 131
**Mesiç Stepan** – 56
**Mədətov İlham** – 292,294
**VI Məhəmməd** – 218
**Məhəmməd Əli Əhməd** – 31
**Məmmədli Elnur** – 302,303,304,305
**Məmmədov Ziya** – 194
**Məmmədova Gülçöhrə** – 257
**Məmmədyarov Elmar** – 16,150
**Məhərrəmov Fazil** – 258
**Mansurov Fərid** – 292
**Mikael Jan** – 78
**Mubarək Hüsnü** – 197
**Museyi Kazım (*imam*)** – 199
**Müşərrəf Pərviz** – 190,191,245
**Nalbandyan Edvard** – 16
**Nazarbayev Nursultan** – 49,166–167,232
**Natan Sellapan** – 244
**Nəsimi İmadəddin** – 24
**Nikey Patrik** – 299
**Nurqaliyev Rəşid** – 150
**Özak Faruk** – 30
**Orlova Svetlana** – 73
**Oyuland Kristina** – 77
**Pakjolay Piter** – 213
**Palçev İvan** – 83
**Paşazadə Allahşükür** – 200

**Petrov Yuri** – 149
**Putin Vladimir** – 10
**Rasizadə Artur** – 12,17,122,139,144,165,169, 220
**Rəhimov Azad** – 248,294
**Rəhimov Vitali** – 303,304,305
**Roqq Jak** – 292
**Roqov İqor** – 213
**Saakaşvili Mixeil** – 122–139,223,224–225,226, 227, 232,233,238
**Sarkisyan Serj** – 16
**Sarkozi Nikola** – 162
**Semnebi Piter** – 256
**Silva Anibal** – 11
**Simmons Robert** – 97
**Singer Hana** – 309
**Sin Şixuan** – 292
**Sidorski Sergey** – 48
**Smirnov Vitali** – 300
**Sumro Muhammad** – 71
**Süleymanova Elmira** – 46
**Şevçenko Taras** – 102,103,105,107,108,114–118,121
**Şoyqu Serqey** – 18
**Şults Ekkerhard** – 311
**Şvimmer Valter** – 28
**Şvartsenberq Karel** – 164
**Talvitiye Heyki** – 247
**Tokarev Qasım Comərd** – 49
**Toptan Koksal** – 36
**Tunell Lars** – 312
**Tyurk Danilo** – 57
**Usubov Ramil** – 150
**Varşalomidze Levan** – 139
**Veles Alvaro** – 198
**Vekeroy Nikolae** – 51

**Voronin Vladimir** – 53, 287
**Yıldırım Binəli** – 223
**Yaday Ram** – 261
**Yudhoyono Susilo** – 243
**Yuşşenko Viktor** – 100–121,123,124,125,134, 141,288

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron (*yarımada*)** | – 278 |
| **Avrasiya** | – 111, 215 |
| **Ağcabədi** | – 272 |
| **Ağdam** | – 88,272 |
| **Afina** | – 295 |
| **Axalkalaki** | – 222 |
| **Aktau** | – 192 |
| **Almaniya** | – 306,311 |
| **Amerika Birləşmiş Ştatları** | – 34,75,79,96,123,131,215,306 |
| **Ankara** | – 225 |
| **Asiya** | – 124, 126, 226, 229, 231 |
| **Astana** | – 165–169 |
| **Astara** | – 185 |
| **Avropa** | – 54,77,124,126,181,224,226, 228, 229, 231 |
| **Bakı** | – 5,7,9,10,11,19,20,21,23,24, 25,26,28,29,31,42,55,56,57, 58,59,78,81,94,97,102,108, 109,111,123,133,136,142,146, 154,162,163,192,196,197,198, 208,211,213,217,218,219,224, 239,240,241,242,243,244,245, 246,261,278,285,286,287,288, 307,308 |
| **Baltik dənizi** | – 111,124,135 |
| **Batumi** | – 122–139–164,224 |
| **Belarus** | – 48 |
| **Belçika** | – 33,196 |
| **Beyləqan** | – 272 |
| **Bolqarıstan** | – 83 |
| **Böyük Britaniya** | – 5,19,20,32 |

**Cenevrə** – 225
**Ceyhan** – 230
**Cənubi Qafqaz** – 97, 106, 157, 256
**Cibuti** – 55
**Çexiya** –123, 164
**Çin** – 226, 248 - 255, 289 - 305
**Dağıstan** – 93 - 94
**Dağlıq Qarabağ** – 16,67,68,69,91,95,108,112, 134,141,152,154,162,174, 175,176,177,269
**Estoniya** – 77
**Əfqanıstan** – 242
**Filippin** – 81
**Fransa** – 35,54,162
**Füzuli** – 88, 272
**Gəncə** – 273
**Gürcüstan** – 52,111,112,122–139,185,220 – 238,279
**Honkonq** – 291
**Xartum** – 29
**Xəzər dənizi** – 111,112,113,124,135,152, 154,156
**Xocalı** – 68,178
**Xorvatiya** – 56,192
**İndoneziya** – 243
**İordaniya** – 74,168
**İran** – 6,38,76,185
**İslandiya** – 21
**İstanbul** – 239,240
**İsveçrə** – 217
**Kanada** – 78
**Kiyev** – 102,105,109
**Kolumbiya** – 198
**Koreya Respublikası** – 246
**Krakov** – 127
**Küveyt** – 82

**Qafqaz** – 113,152,156,157,232
**Qara dəniz** – 111,112,113,124,135
**Qars** – 220– 238
**Qazaxıstan** – 49,165–169,192,222,232
**Qırğızıstan** – 14,25,286
**Lerik** – 271
**Litva** – 123,135,296
**London** – 224,231
**Lüksemburq** – 58
**Macarıstan** – 170
**Malayziya** – 285
**Maldiv** – 219
**Mərakeş** – 218
**Mərkəzi Asiya** – 54, 97
**Misir** – 197,310
**Moldova** – 53,123,125,287
**Monqolustan** – 163
**Mozambik** – 59
**Naxçıvan** – 88,185,237,272
**Naxçıvan MR** – 61,257,272
**Nepal** – 261
**Norveç** – 7
**Orta Asiya** – 222, 226
**Pakistan** – 71,190,191,245
**Pekin** – 248–255,289–305
**Polşa** – 46,50,112,123,129,130,135
**Portuqaliya** – 11
**Poti** – 226
**Rumıniya** – 51, 123
**Rusiya** – 9,10,12–17,18,73,93–94,144–161,185,308
**Sankt-Peterburq** – 12–17,146,154
**Səudiyyə Ərəbistanı** – 39
**Sidney** – 295
**Sindan** – 281
**Sinxuandao** – 291

**Sinqapur** – 244
**Sloveniya** – 57
**Sudan** – 29
**Şanxay** – 291
**Şenyan** – 291
**Şuşa** – 257
**Tbilisi** – 222
**Tehran** – 154
**Tərtər** – 88
**Tovuz** – 258
**Türkiyə** – 30,36,79,169,220–238,239, 240,259,260,272,279
**Türkmənbaşı** – 192
**Türkmənistan** – 72,192
**Tyantszin** – 291
**Ukrayna** – 100–121,123,124,125,134, 241, 288
**Vilnüs** – 127
**Yalta** – 14
**Yaponiya** – 123
**Yardımlı** – 271
**Yunanıstan** – 230

# MÜNDƏRİCAT

BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İNVESTİSİYA-
LAR NAZİRİ DİQBİ CONS İLƏ GÖRÜŞ

*4 iyun 2008-ci il* ........................................ *5*

İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ
ƏLİRZA ŞEYX ƏTTARIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2008-ci il* ........................................ *6*

«STATOYL HYDRO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI
DİREKTORU HELGE LİNQİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2008-ci il* ........................................ *7*

İNTEL ŞİRKƏTİNİN PREZİDENTİ KREYQ BARETİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2008-ci il* ........................................ *8*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*5 iyun 2008-ci il*........................................*9*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*5 iyun 2008-ci il*........................................*10*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*5 iyun 2008-ci il* ........................................*11*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*5 iyun 2008-ci il*........................................................................................*12*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ
GÖRÜŞÜ

*6 iyun 2008-ci il*........................................................................................*13*

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ
QEYRİ-RƏSMİ GÖRÜŞÜ

*6 iyun 2008-ci il*........................................................................................*14*

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN
PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*6 iyun 2008-ci il*........................................................................................*16*

RUSİYA FEDERASİYASININ MÜLKİ MÜDAFİƏ,
FÖVQƏLADƏ HALLAR VƏ FƏLAKƏTLƏRİN
NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI ÜZRƏ
NAZİRİ SERGEY ŞOYQU İLƏ GÖRÜŞ

*9 iyun 2008-ci il*........................................................................................*18*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA
BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB QORDON BRAUNA

*9 iyun 2008-ci il*........................................................................................*19*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN
KRALİÇASI ÜLYAHƏZRƏT
II ELİZABETƏ

*9 iyun 2008-ci il*........................................................................................*20*

İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB OLAFUR RAQNAR RİMSSONA

*9 iyun 2008-ci il*........................................................................................*21*

«MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ» MÖVZUSUNDA BEYNƏLXALQ BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

*10 iyun 2008-ci il ........................................................................... 22*

XALQ YAZIÇISI İSA HÜSEYNOVA

*10 iyun 2008-ci il* ........................................................................... 24

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*11 iyun 2008-ci il........................................................................... 25*

ÇİNGİZ AYTMATOVUN AİLƏSİNƏ

*11 iyun 2008-ci il........................................................................... 26*

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*11 iyun 2008-ci il ........................................................................... 27*

«SİVİLİZASİYALARIN DİALOQU» DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ, AVROPA ŞURASININ KEÇMİŞ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞ

*11 iyun 2008-ci il ........................................................................... 28*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

*12 iyun 2008-ci il........................................................................... 29*

TÜRKİYƏNİN İNŞAAT VƏ ŞƏHƏRSALMA NAZİRİ FARUK NAFİZ ÖZAK İLƏ GÖRÜŞ

*12 iyun 2008-ci il ........................................................................... 30*

İSLAM İNKİŞAF BANKININ PREZİDENTİ, ÖZƏL SEKTORUN İNKİŞAFI ÜZRƏ İSLAM KORPORASİYASI DİREKTORLAR ŞURASININ SƏDRİ ƏHMƏD MƏHƏMMƏD ƏLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 iyun 2008-ci il ........................................................................................31*

BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*12 iyun 2008-ci il ........................................................................................32*

BELÇİKANIN DÖVLƏT NAZİRİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ, SABİQ BAŞ NAZİR JAN-LUK DEHANE İLƏ GÖRÜŞ

*13 iyun 2008-ci il ........................................................................................33*

ABŞ-ın CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN RƏHBƏRİ FREDERİK STARR İLƏ GÖRÜŞ

*16 iyun 2008-ci il ........................................................................................34*

FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ JAN-LUİ DÜMONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2008-ci il ........................................................................................35*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ KÖKSAL TOPTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2008-ci il ........................................................................................36*

İRAN İSLAM RESPUBLİKASININ ENERGETİKA NAZİRİ SEYİD PƏRVİZ FƏTTAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2008-ci il ........................................................................................38*

SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİ İLƏ GÖRÜŞ

*17 iyun 2008-ci il ........................................................................39*

OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*17 iyun 2008-ci il ........................................................................40*

OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................42*

BELARUS NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ VADİM POPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................48*

QAZAXISTAN SENATININ SƏDRİ QASIM COMƏRD TOKAYEV İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................49*

POLŞA SENATININ SƏDRİ BOQDAN BORUSEVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................50*

RUMINİYA SENATININ SƏDRİ NİKOLAE VEKEROYUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................51*

GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD BAKRADZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................52*

MOLDOVA PARLAMENTİNİN SƏDRİ
MARİAN LUPUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................................53*

FRANSANIN «TOTAL» ŞİRKƏTİNİN KONTİNENTAL
AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-
PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyun 2008-ci il ........................................................................................54*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ

*18 iyun 2008-ci il.........................................................................................55*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB STEPAN MESİÇƏ

*18 iyun 2008-ci il.........................................................................................56*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TYURKA

*18 iyun 2008-ci il ........................................................................................57*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT
ANRİYƏ

*18 iyun 2008-ci il.........................................................................................58*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ARMANDU EMİLİU
GEBUZAYA

*18 iyun 2008-ci il ........................................................................................59*

AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK
YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ
YIĞINCAQDA NİTQ

*18 iyun 2008-ci il  .......................................................................................60*

PAKİSTAN PARLAMENTİNİN SƏDRİ MUHAMMAD MİAN SUMRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2008-ci il* ........................................................................ *71*

TÜRKMƏNİSTAN PARLAMENTİNİN SƏDRİ XANIM AKCA NURBERDIYEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2008-ci il* ........................................................................ *72*

RUSİYA FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2008-ci il* ........................................................................ *73*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ TAHİR ƏL-MASRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2008-ci il* ........................................................................ *74*

ABŞ DÖVLƏT KATİBİNİN TƏHSİL VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ QOLİ AMERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 iyun 2008-ci il* ........................................................................ *75*

İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ MƏHƏMMƏD ƏBUTURABİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 iyun 2008-ci il* ........................................................................ *76*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİNA OYULANDI QƏBUL ETMİŞDİR

*20 iyun 2008-ci il* ........................................................................ *77*

KANADANIN GENERAL-QUBERNATORU
ZATİ-ALİLƏRİ XANIM MİKAEL JANA

*23 iyun 2008-ci il* ........................................................................................78

HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN
ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ
TANIŞLIQ

*23 iyun 2008-ci il* ........................................................................................*79*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM QLORİYA MAKAPAQAL ARROYOYA

*24 iyun 2008-ci il* ........................................................................................*81*

KÜVEYT ƏMİRİ APARATININ RƏHBƏRİ ŞEYX NASİR
SABAH ƏL-ƏHMƏD ƏL-SABAHIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 iyun 2008-ci il* ........................................................................................*82*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV BOLQARISTANIN ÖLKƏMİZDƏKİ
SƏFİRİ İVAN PALÇEVİ DİPLOMATİK FƏALİYYƏTİNİN
BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*24 iyun 2008-ci il* ........................................................................................*83*

«ALOV» ZAVODUNUN AÇILIŞI

*25 iyun 2008-ci il* ........................................................................................*84*

SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM
ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI
QÜVVƏLƏRİNİN YARADILMASININ 90-cı İLDÖNÜMÜ
MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN HƏRBİ
PARADDA

*26 iyun 2008-ci il* ........................................................................................*86*

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASI-NIN PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 iyun 2008-ci il ..........................................................................93*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*27 iyun 2008-ci il ..........................................................................95*

ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DEVİD KRAMER İLƏ GÖRÜŞ

*27 iyun 2008-ci il ..........................................................................96*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*27 iyun 2008-ci il ..........................................................................97*

BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİ İLƏ GÖRÜŞ

*27 iyun 2008-ci il ..........................................................................98*

QLOBAL EKOLOGİYA FONDUNUN İCRAÇI DİREKTORU XANIM MONİK BARBÜ İLƏ GÖRÜŞ

*30 iyun 2008-ci il ..........................................................................99*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*30 iyun 2008-ci il ..........................................................................100*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*30 iyun 2008-ci il ..........................................................................101*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*30 iyun 2008-ci il..........................................................................................102*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*30 iyun 2008-ci il .........................................................................................104*

BAKIDA GÖRKƏMLİ UKRAYNA ŞAİRİ TARAS ŞEVÇENKONUN ABİDƏSİNİN AÇILIŞI

*30 iyun 2008-ci il .........................................................................................114*

BAKIDA UKRAYNA SƏFİRLİYİ ÜÇÜN TİKİLƏCƏK BİNALARIN LAYİHƏLƏRİ İLƏ TANIŞLIQ

*30 iyun 2008-ci il .........................................................................................119*

AZƏRBAYCANDA «UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİ»NİN AÇILIŞI

*30 iyun 2008-ci il .........................................................................................121*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

*1 iyul 2008-ci il...............................................................................................122*

GUAM DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ

*1 iyul 2008-ci il...............................................................................................123*

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*1 iyul 2008-ci il...............................................................................................128*

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GÖRÜŞ

*1 iyul 2008-ci il .........................................................................................129*

GUAM–POLŞA GÖRÜŞÜ

*1 iyul 2008-ci il*........................................................................................*130*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKEL İLƏ GÖRÜŞ

*1 iyul 2008-ci il*........................................................................................*131*

BATUMİDƏ GÜRCÜ AİLƏSİNİN MƏNZİLİNDƏ AZƏRBAYCAN QAZI YANDIRILMIŞDIR

*1 iyul 2008-ci il*........................................................................................*132*

BİRGƏ MƏTBUAT KONFRANSI

*1 iyul 2008-ci il*........................................................................................*134*

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*1 iyul 2008-ci il*........................................................................................*139*

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

*1 iyul 2008-ci il*........................................................................................*140*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ LUİS MARİA DE PUÇUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyul 2008-ci il* ........................................................................................*143*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 iyul 2008-ci il*........................................................................................*144*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*3 iyul 2008-ci il*........................................................................................*146*

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*3 iyul 2008-ci il*......................................................................................*147*

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

*3 iyul 2008-ci il*......................................................................................*149*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*3 iyul 2008-ci il*......................................................................................*151*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*3 iyul 2008-ci il*......................................................................................*155*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*3 iyul 2008-ci il*......................................................................................*161*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*4 iyul 2008-ci il*......................................................................................*162*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NAMBARIN ENXBAYARA

*4 iyul 2008-ci il*......................................................................................*163*

ÇEXİYANIN XARİCİ İŞLƏR NAZİRİ KAREL ŞVARTSENBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyul 2008-ci il*......................................................................................*164*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA İŞGÜZAR SƏFƏRİ

*5 iyul 2008-ci il*......................................................................................*165*

DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜ

*5 iyul 2008-ci il*..........................................................................*166*

ASTANADA YUBİLEY KONSERTİ

*5 iyul 2008-ci il*..........................................................................*167*

İORDANİYA KRALI II ABDULLAH İLƏ GÖRÜŞ

*5 iyul 2008-ci il*..........................................................................*168*

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*6 iyul 2008-ci il*..........................................................................*169*

MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN
İLƏ GÖRÜŞ

*7 iyul 2008-ci il*..........................................................................*170*

AZƏRBAYCAN RESPUBLİKASI DİPLOMATİK
XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN
III MÜŞAVİRƏSİ

*7 iyul 2008-ci il*..........................................................................*171*

PAKİSTAN SENATININ XARİCİ ƏLAQƏLƏR DAİMİ
KOMİTƏSİNİN SƏDRİ MÜŞAHİD HÜSEYN SƏİDİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*8 iyul 2008-ci il*..........................................................................*190*

«QARABAĞ» YÜK GƏMİSİNİN İSTİSMARA
VERİLMƏSİ MƏRASİMİ

*8 iyul 2008-ci il*..........................................................................*192*

MÜASİR TİPLİ YOLÖTÜRÜCÜ VƏ TUNELİN
AÇILIŞI

*10 iyul 2008-ci il*........................................................................*194*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*10 iyul 2008-ci il* ........................................................................................196

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*10 iyul 2008-ci il*........................................................................................197

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBE VELESƏ

*10 iyul 2008-ci il*........................................................................................198

BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİNİN ƏSASLI YENİDƏNQURMA VƏ TİKİNTİ İŞLƏRİNDƏN SONRA AÇILIŞI

*12 iyul 2008-ci il* ........................................................................................199

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİBİHEYBƏT ZİYARƏT KOMPLEKSİNİN AÇILIŞINDA NİTQİ

*12 iyul 2008-ci il* ........................................................................................202

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİNƏ

*12 iyul 2008-ci il*........................................................................................210

KONSTİTUSİYA MƏHKƏMƏSİNİN YARADILMASININ X İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*14 iyul 2008-ci il* ........................................................................................212

ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 iyul 2008-ci il* ........................................................................................215

AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİO İLƏ GÖRÜŞ

*14 iyul 2008-ci il* ........................................................................ *216*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PASKAL KUŞPENƏ

*14 iyul 2008-ci il*........................................................................ *217*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*14 iyul 2008-ci il*........................................................................ *218*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA

*14 iyul 2008-ci il* ........................................................................ *219*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*24 iyul 2008-ci il* ........................................................................ *220*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

*24 iyul 2008-ci il* ........................................................................ *221*

BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN TÜRKİYƏ HİSSƏSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*24 iyul 2008-ci il* ........................................................................ *222*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜ ZİYARƏT

*24 iyul 2008-ci il* ........................................................................ *234*

AZƏRBAYCANIN QARSDAKI BAŞ KONSULLUĞUNUN YENİ BİNASI İLƏ TANIŞLIQ

*24 iyul 2008-ci il* ........................................................................ *235*

QARS QAFQAZ UNİVERSİTETİNDƏKİ HEYDƏR ƏLİYEV TƏDRİS MƏRKƏZİNDƏ

*24 iyul 2008-ci il*............................................................................*236*

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHAR

*24 iyul 2008-ci il*............................................................................*238*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*28 iyul 2008-ci il*............................................................................*239*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*28 iyul 2008-ci il*............................................................................*240*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA

*29 iyul 2008-ci il*............................................................................*241*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*29 iyul 2008-ci il*............................................................................*242*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*29 iyul 2008-ci il*............................................................................*243*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA

*29 iyul 2008-ci il*............................................................................*244*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*29 iyul 2008-ci il*............................................................................*245*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*29 iyul 2008-ci il ........................................................................246*

ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ ELÇİSİ HEYKİ
TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyul 2008-ci il ........................................................................247*

XXIX YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK
EDƏCƏK GƏNCLƏRİN ÇİNƏ YOLASALMA MƏRASİMİ

*30 iyul 2008-ci il ........................................................................248*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ
XÜSUSİ ELÇİSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 iyul 2008-ci il ........................................................................256*

YENİ AZƏRBAYCAN PARTİYASININ IV QURULTAYI
2008-ci İL 15 OKTYABRDA KEÇİRİLƏCƏK
PREZİDENT SEÇKİLƏRİNDƏ PARTİYANIN SƏDRİ,
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
NAMİZƏDLİYİNİ İRƏLİ SÜRMÜŞDÜR

*2 avqust 2008-ci il ......................................................................257*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*2 avqust 2008-ci il ......................................................................259*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-
ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*2 avqust 2008-ci il ......................................................................260*

NEPAL FEDERATİV DEMOKRATİK
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RAM BARAN YADAVA

*4 avqust 2008-ci il ......................................................................261*

RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN
2008-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ
YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA
GİRİŞ NİTQİ

*6 avqust 2008-ci il.........................................................................262*

YEKUN NİTQİ.........................................................................*270*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT
TUANKU MİZAN ZAYNAL ABİDİN İBNİ
ƏL-MƏRHUM SULTAN MAHMUD
ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

*6 avqust 2008-ci il.........................................................................285*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*6 avqust 2008-ci il.........................................................................186*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

*6 avqust 2008-ci il.........................................................................287*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA

*6 avqust 2008-ci il.........................................................................288*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN PEKİNƏ
SƏFƏRİ

*7 avqust 2008-ci il .........................................................................289*

PEKİN OLİMPİADASININ AÇILIŞ MƏRASİMİNƏ
GƏLMİŞ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ
ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA

*8 avqust 2008-ci il .........................................................................290*

PEKİNDƏ XXIX YAY OLİMPİYA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*8 avqust 2008-ci il*......................................................................291

PEKİNİN OLİMPİYA KƏNDİNDƏ ÖLKƏMİZİN İDMANÇILARI İLƏ GÖRÜŞ

*9 avqust 2008-ci il*......................................................................294

XXIX YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ «AZƏRBAYCAN GÜNÜ»

*10 avqust 2008-ci il*....................................................................297

CÜDOÇULARIN MÜKAFATLANDIRILMASI MƏRASİMİNDƏ

*11 avqust 2008-ci il*....................................................................302

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PEKİNƏ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

*14 avqust 2008-ci il*....................................................................303

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİS İLƏ GÖRÜŞ

*15 avqust 2008-ci il*....................................................................306

KOMMUNAL TƏYİNATLI YENİ TEXNİKA VƏ AVADANLIQLA TANIŞLIQ

*18 avqust 2008-ci il*....................................................................307

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNİSEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ XANIM HANA SİNGERİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*18 avqust 2008-ci il*....................................................................309

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN ÖLKƏMİZDƏKİ SƏFİRİ YUSİF ƏHMƏD İBRAHİM ƏL-ŞARKAVİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

*19 avqust 2008-ci il*..........*310*

ALMANİYANIN «THYSSEN KRUPP» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ EKKERHARD ŞULTSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 avqust 2008-ci il*..........*311*

BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ RƏHBƏRİ LARS TUNELLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 avqust 2008-ci il*..........*312*

*bp* ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*19 avqust 2008-ci il*..........*313*

QEYDLƏR ..........*314*

Şəxsi adlar göstəricisi..........*361*

Coğrafi adlar göstəricisi..........*367*

\


| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompyuter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.